# VİLAYƏT BAĞÇASI

## DÖRDÜNCÜ CİLD

İslam İnqilabının Böyük Rəhbəri Ayətullah Xameneinin
tələbə və müəllimlərə tövsiyələri

Çevirən: İbrahim Mirzə

## Gənclərin hidayəti[1]

Bismillahir-Rəhmanir-Rəhim.

**Ən yaxşı peşə**

Əgər indi mənim bir iş və peşə seçiminə imkanım olsaydı, seçəcəyim 2-3 işdən biri, heç şübhəsiz, sizin işiniz olardı: beyin və ruhlarında elm bəzəyi olan, gələcəkdə ölkənin, xalqın və hətta İslam və müsəlmanların işlərini idarə edəcək gənc nəsillə işləmək. Bu, çox əhəmiyyətli işdir. Mən də gənclikdə az-çox bu işlə məşğul olmuşam.

**İnqilabdan öncə universitetdə təbliğat aparmağın şərtləri**

Siz indi universitetə gedirsiniz, tələbələrlə görüşürsünüz, lakin o zaman bizim belə bir imkanımız yox idi. Biz ya məsciddə, ya da dərs keçdiyimiz başqa bir yerdə görüşə bilirdik. Onlar tələbə mühitini universitetdən həmin yerlərə gətirirdilər. Biz onlarla ünsiyyət qururduq, söhbət edirdik, danışırdıq, dinləyirdik. Maraqlıdır ki, bəzən onlardan öyrəndiklərimiz öyrətdiklərimizdən əhəmiyyətli olurdu.

**Ruhanilərin universitetdə olmasının fəlsəfəsi**

Siz bu istedadlı təbəqəni hidayət etməyə çalışın. Bizim varlığımızın fəlsəfəsi hidayət etməkdir. Qalanı söz, giriş, buna lazım olan işlər və çarəsiz qaldıqlarımızdır. Əsas məsələ doğru yola hidayət etməkdir.

**Hidayətdə ilk addım**

Düzdür, biz birinci özümüzü hidayət etməliyik. Biz bu aləmin daxilinə yol tapmalıyıq. Bizim kölgə kimi uzaqdan gördüyümüz Allah adamları, bəzi böyüklərin sözlərinə görə, aləmin daxilinə yol tapa bilmişlər. Bu dünya, bu möhtəşəm yaradılış - daş, torpaq, ağac, ət və dəri deyil, onun daxili, mənəvi adamlara məxsus ruhu, canı və məğzi var. Necə ki, mənim və sizin bu zahiri bədənimizdən əlavə bir batinimiz, qəlbimiz və daxilimiz var. Kim bu aləmin daxilinə yol tapmaq və baca açmaq istəsə, birinci addım öz daxilinə yol tapmasıdır.

---

[1] Fəqih rəhbərin ölkə universitetlərindəki nümayəndəlik orqanının məsul şəxsləri ilə görüşdə çıxışı: 6 may 1999.

Əvvəl öz qəlbimizlə əlaqə yaratmalıyıq. Bu, mühüm məsələdir. Tənbəllik etməsək, bəlkə çox da çətin olmaz. Dediklərimiz, iddia etdiklərimiz, öyündüklərimiz, öz beynimizin məhsulu saydıqlarımız, (bunlar yaxşılarıdır, bunlardan bir dərəcə aşağıda isə) mal, mülk, vəzifə - hamısı zahiri amillərdir. Bir batin də mövcuddur. O bizim qəlbimizdir. Əgər bu qəlbə yol tapa bilsək, problemlərin çoxu həll olunacaq. Namaz və zikr bundan ötrüdür.

**Zikrin əhəmiyyəti**

Bizdən əvvəl Məşhədin zahid və arif insanlarından olmuş mərhum Şeyx Həsənəli Noxudəki İsfahaninin tərcümeyi-halı çap olunmuşdur. Mən orada oxudum ki, belə deyir: "Mən İsfahandan Məşhədə gələndə uzun müddət - neçə il olduğu yadımda deyil, bəlkə də hər gün - filan zikri öz azmış və qafil ürəyimə bir neçə min dəfə oxuyurdum".

Zikri öz ürəyimizə oxuyuruq. Ürəyimiz yolunu azmışdır, qəlbimiz qəflətdədir. Əvvəlcə həqiqət və nur qarşısında tərslik edən bu varlığı ram etməli, ona yol tapmalıyıq. Əgər bu olmasa, işlər çətinləşər.

“Allah insanla onun qəlbi arasına girər”. Burada dərinə varanda “Xeyr, o gün Rəbbinin mərhəmətindən məhrum olacaqlar!”[2] qarşıya çıxır. Həmin hicab orada zahir olur. O hicab daha çətin hicabdır. Burada ümid var ki, haradansa bir nur, bir mərifət, bir qığılcım parlasın və bir iş görsün. Orada daha heç bir şey etmək olmur. Bu məhdud fürsətin və bizim burada düçar olduqlarımızın həqiqi surəti və “Axirət yurdu isə, şübhəsiz ki, əbədi həyatdır”[3] həqiqəti oradadır.

“Biz onların önlərinə və arxalarına sədd çəkmişik”[4], orada isə “onların (möminlərlə münafiqlərin) arasına qapısının içəri tərəfində mərhəmət və bayır tərəfində əzab olan bir sədd çəkiləcəkdir”[5]. Bu həmin səddir. Buradakı hidayət və nur yolunun səddi, oradakı isə əbədi yolun səddidir. Əvvəl bu yolu açmaq lazımdır.

**Təbliğatçının nuraniliyi**

Mənim əzizlərim! Siz harada olsanız, parlamalısınız, işığınız hamını cəlb etməlidir. Əgər Allah kömək etsə və iradə göstərib bu parlaq və müdhiş nuraniliyin yaranmasına çalışsaq, fitrətlər onu görəcək, onu

---

[2] Mütəffifin/15.

[3] Ənkəbut/64.

[4] Yasin/9.

[5] Hədid/13.

nümayiş etdirməyə ehtiyac qalmayacaq. Bunu bilmələri üçün xüsusi tərzdə davranmaq, yaxud əməl etmək əsla lazım deyil. Xeyr, əgər bu olsa, həmin "mən" olacaq. Eyni pərdə, eyni hicab olacaq və nuraniliyi də məhv edəcək. Bu təqva nuraniliyi, insanın öz qəlbi ilə əlaqə nuraniliyi harada olsa, sağlam qəlb və fitrətləri özünə cəlb edəcək.

Təbii ki, Peyğəmbər və övliyalar da pis insanların əli ilə öldürülmüşlər. Demək istəmirik ki, hər bir insan cəlb olunacaq. Lakin gənclərin qəlbləri sizə sarı cəlb olunacaq.

**Universitetin dəyərləndirilməsi**

Sizin gördüyünüz bu universitet, onu pis anlayan və pis izah edən çoxlu yaxıngörən insanların baxışına rəğmən, mən inanıram ki, işıqlı və pak qəlblərin toplaşdığı mərkəzdir. Həmin nəslin, İslam və mənəviyyat nəslinin gəncləri, bu ölkədə imamın sözlərini vasitə ilə olsa belə dinləyən gənclər universitetə toplaşıblar. Onları cəlb etmək üçün bizdə maqnit olmalıdır. Maqnit yoxdursa, bu, heç kəsin təqsiri deyil. Qəlbi islah etmək lazımdır. İlk addım budur.

**Özünüislahın mənası**

Bu sözlər sufi və dərviş sözləri, dünyadan çəkinməyə, ictimai-siyasi fəaliyyətlərdən uzaqlaşmağa dəvət deyil. Bu, insanın bütün fəaliyyətlərinin ruhudur. Demək istədiyim budur ki, düşündüyünüzün haqq yolunda olmasını və Allah-Taalanın hidayət məşəlini birinci sizin beyninizdə işıqlandırmasını istəyirsinizsə, bu əlaqəni gücləndirin. Maddi həyatın saxta gözəlliklərindən bir qədər çıxmaq və batinə, aləmin fövqünə diqqət yetirmək, onu izləmək lazımdır. O zaman sizin paklığınız və nuraniliyiniz öz işini görəcək.

**Mənəviyyata diqqət yetirməyin zəruriliyi**

Mənim fikrimcə, bu gün gəncləri ən çox cəlb edən amil mənəviyyatdır; təbii ki, məntiqli mənəviyyat. Bir gəncin bu qapını-o qapını döydüyünü, hansısa siyasi xəttin, siyasi qrupun və yanlış siyasi şüarın ardınca düşdüyünü, bəzən universitetlərdə mövcud olan dəyərsiz qruplaşmalara qoşulduğunu görürsünüzsə, bu məsələlərə bir qədər əl gəzdirmək və onları bir az islah etmək cənab nazirlərin vəzifəsidir.

Onun qapılara düşməsi bu mənəvi boşluğun təsirindəndir. Onun itirdiyi var. Siz itirdiyini ona verin. Mənim yadımdadır, o zaman bəzən universitetə gedəndə çox qəribə gənclər görürdüm. Beyinləri o zamanın

müxtəlif yanlış təfəkkürləri, marksist düşüncələri ilə dolu idi. Hər kəs bir söz deyib beyinlərini doldurmuşdu. Mən bəzən yanıma gələn gənclərə deyirdim ki, siz mənim qarşıma Məşhədin ipək dəsmalı, yaxud içinə bir şey qoyulub ətrafı bükülən Yəzd dəsmalı kimi, hamısı irad və qatma-qarışıq bir şeylər olan bağlı bir dəsmal qoyan şəxs kimisiniz. Bunları bir-bir deyin. Onlara bir Quran ayəsi, bir hədis, yaxud nəsihət deyildikdə görürdük ki, yavaş-yavaş hər şey həll olunur. Sanki insan bir şam yandırır. Bizim işimiz bir şamın işığı qədər də deyildi. Yəni doğrudan da mənim elmi səviyyəm indi nə qədərdir ki, o zaman nə qədər olaydı. Doğrudan da bir şam həddində yandıqda bu qaranlıqların, kölgələrin dərhal yoxa çıxdığını görürdük.

**Hidayət üçün çalışmaq**

Əzizlər! Niyyətləri xalis etməliyik, xalis! Düzdür, biz bu sözdən müxtəlif mənalar anlayırıq. Bəziləri çox ağırdır, bizə görə deyil. Amma hər halda, qarşımızda ilahi höccət qədərincə bir vəzifə var: biz xalqı hidayət etməliyik. Bu gün hidayət günüdür və biz bacaracağıq. Həmişə hidayət vaxtıdır, lakin bir zaman bacarmırdıq, dairə məhdud idi, bir küncdə bir məscid vardı, iztirabda və təzyiqlər altında idik, lakin indi imkanlar genişdir. İndi heç bir üzr qəbul olunmur. Bütün səylər buna yönəlməlidir.

**Təbliğatçıda inkişafın zəruriliyi**

Bunu da bilin ki, beyinlərlə, fikirlərlə, suallarla, gözlərlə, müxtəlif dinləyicilərlə üz-üzə gələn bir insan durğun ola bilməz. Durğun, statik olsa, məhv olar. O, daim inkişafda olmalıdır.

Mövləvinin bir məsəli var, mən ondan çox həzz alıram. Deyir ki, su bütün çirkinlikləri aradan qaldırır, bütün murdarlıqları pak edir. Lakin hamını təmiz etdiyinə görə özü çirklənir. Yaxşı bəs nə etməliyik? Su çirklənsə, nə etmək lazımdır. Bu zaman Mövləvi alovlu, dəqiq və iti biliyi ilə deyir: "Suyun özü yüksəlir, buxarlanır, yuxarıya qalxır, sonra təmiz yağış olur".

Biz yüksəlməliyik. Hər kəs bacardığı qədər daim yüksəlməlidir. Biz yuxarıya qalxmalı, kurs keçməli və qayıtmalıyıq. Paklandırma sistemində bu, baş verməlidir. Paklayıcının özü də paklanmalı və murdarları təmizləməyi bacarmalıdır. Bu yüksəlmə mütaliə ilə, təfəkkürlə, xüsusən də diqqətlə əldə edilir.

**Dua və təvəssül**

Bizim gördüyümüz qədərincə, kim nə əldə etmişsə, xalqın hidayətində, sərgərdan beyin və qəlblərə əl tutmaqda kim uğur qazanmışsa, duaya, gecə ibadətinə, Allaha təvəssülə, özünü Allaha tapşırdığına və Allah qarşısında kiçilib "İlahi, mənim əl-ayağıma dolaşan, bütün işlərdən saxlayan və hər bir işdələngidən "mən"imi məndən al, onu zəiflət!" dediyinə görə qazanmışdır.

Bunun nümunəsi imam, mərhum cənab Təbatəbai, Qumda olan ustadlar və böyüklərdir. Bunların sözləri doğrudan da şəfalıdır. Görürsünüz ki, gənclər də onlara necə üz tutur, onları istəyirlər. Onlar ürəkdən bu işi görürlər, təbliğatın təsirindən yox. Siz buna nail olmalısınız. Bu, qəribə yol və keçiddir, insanı islah edir, sədləri götürür.

**Proqramlarda gənclərin hidayətinin əsas olması**

Məncə, bu işlə məşğul olanlar bunu əsas iş bilməlidirlər. Digər işlər ya ikinci dərəcəli olmalıdır, ya da olmamalıdır. Çünki bu, mühüm işdir, kənarda qalmamalıdır. Həyatda əsas məsələ hidayətdir. Biz bir məqsəddən ötrü yaradılmışıq. Ümumiyyətlə, ilahi fəlsəfə və dünyagörüşü budur. Deyir ki, insan və dünyanın digər yaranmışları bir məqsəd üçün yaradılmışlar. Bu, ilahi fəlsəfənin əsasıdır.

Deməli, o məqsədə sarı hərəkət etmələri lazımdır. Bu, vacibdir. Bunun bir doğru yolu var. İnsanın evini yıxan fərqli yollar da var: "Sizi (Allahın) yolundan sapdıracaq yollara uymayın!"[6] Doğru yolu Allahdan istəmək lazımdır. Bunun həm əziyyəti azdır, həm də hidayət üçün yetərlidir.

Bəli, biz tələbələri hidayət etməyə çalışırıq. Bu, çox əhəmiyyətli işdir, mənim fikrimcə, təhsil və digər işlər bunun ətrafında olan xidmətlərdir. Məsələnin məğzi budur. Qatarı sürən adamla, onda olan kafeni, bufeti, çayxananı işlədən adam arasında fərq var. Onun da rolu var; yemək verməsə, oraya çatana qədər bu yazıqda can qalmaz. Bütün işlər öz həddində vacib, lazım və əvəzsizdir. Buna şübhə yoxdur. Heç bir iş digərinə ehtiyacı ödəmir. Lakin dəyərləndirmə nöqteyi-nəzərindən yanaşsaq, bu, çox əhəmiyyətli işdir, bunu kiçik saymaq olmaz. Bunu əsas, digərlərini isə ikinci dərəcəli bilin. Bu bacarığı özünüzdə günbəgün artırın. Ona anbaan əlavələr etmək lazımdır. Bunun bir qədəri mütaliə ilədir, bir qədəri öz daxilinizdə mütaliə ilə, bir qədəri müəllimlərin dərsində iştirak

---

[6] Ənam/153.

etməklə, bir qədəri öz ürəyinizlə söhbət etməklə, daxilinizlə əlaqə yaratmaqla. Bizim sözümüz bu qədər.

İlahi, bizim hamımızı hidayət et! Tələbələrə də deyin ki, gəncliklərinin qədrini bilsinlər. Özlərini islah etsinlər - hərtərəfli islah; yəni düşüncə, elm, ruh və cisim baxımından özlərini islah etsinlər. İdman da etsinlər. Siz özünüz də idman edin.

Allahın salamı və rəhməti olsun sizə!

## Quran və problemlərin həlli[7]

Bismillahir-Rəhmanir-Rəhim.

**İslam baxımından müsabiqə**

Hər bir xeyir işdə müsabiqə Quranın və İslamın tövsiyəsidir. Səbəbi də budur ki, müsabiqə və yarışlarda insanların bütün gizli istedad və bacarıqları üzə çıxır. Bu müsabiqələrdə yaranan qüvvə bəzən adi halda yaranmır. Amma heç bir şey insanın ilahi maariflə, özü də ən orijinal qaynaq olan Quranla tanış olmasına çatmaz.

**Quran müsabiqələrinin əhəmiyyəti**

Mən Quran müsabiqələrini böyük iş sayıram. Tələbələrin, əziz gənclərin ürəkdən bu işə qoşulduqlarına görə çox sevinir, Böyük Allaha şükür və sizi təbrik edirəm.

**Quranın əzəməti və dərinliyi**

Mənim əzizlərim! Quran çox böyük və uca kitabdır. Məhduddur, 300-400 səhifədir, amma aktiv və dinamik beynin aləmin həqiqətini tanıması üçün lazım olan bütün təlimlər çox dərin formada bu kitaba yerləşdirilmişdir; özü də müəyyən bir səviyyə üçün yox. İnsan elmi hansı inkişaf mərhələsinə çatsa, hələ də bu dərin okeana baş vurmağa və öyrənməyə ehtiyacı var. Bunun özü böyük bir möcüzədir. Siz dərin elmi bir kitabı təsəvvür edin. Adi insan onu anlamır. Bir qədər elmi artandan sonra ondan nələrsə anlayır. Elmi yüksəldikcə ondan maksimum istifadə edir, daha yüksələndə bəzən nəyisə yada salmaq üçün ona müraciət edir və bəhrələnir. Lakin insanın elmi bundan da artıq inkişaf edəndə daha bu kitab onun üçün faydasız olur. Məsələn, bir elmi dərindən mənimsəmiş bir insan uyğun sahədə hansısa dərin kitabı 100 dəfə dərs demiş, mütaliə etmiş, çox məsələlərini öyrənmiş, yaxud rədd etmişdir. Daha həmin kitabda onun üçün yeni bir şey yoxdur. Quran isə belə deyil. Quranın hətta Peyğəmbərimizin ömrünün son anlarına qədər onun üçün də təzə sözü olmuşdur. İnsan Quranda nə qədər dərinə varsa, daha çox söz tapır. Mən burada özümü misal çəkməyə xəcalət çəkirəm, çünki mən bir okean üzərindəki saman çöpünə bənzəyirəm. Quranın dərininə getsəm, doğrudan da bundan artıq olmaz. Özümü misal çəkməyim bundan

[7] Quran müsabiqəsində iştirak edən tələbələrlə görüşdə çıxışı: 12 may 1999.

ötrüdür ki, mənim övladlarım kimi olan siz əzizlər bir qədər məsələnin mahiyyəti ilə tanış olasınız.

**Quranla ünsiyyətin mərhələləri**

Fərz edin mən 50 ildir Quranla ünsiyyətdəyəm; yəni yeniyetməlik illərindən. Bəlkə də 40 ildir Quran üzərində təfəkkür edirəm, oxuyanda mənalarına diqqət yetirirəm. İnqilabın qələbəsindən qabaq Məşhəddə illərlə təfsir dərsi demişəm. Amma indi də Quran oxuyanda, hətta az rastlaşdığım surələrdə yox, bəzən hər gün təkrar olunan surə və ayələrdə elə məqamlara rast gəlirəm ki, çox təəccüb edirəm. Öz-özümə deyirəm ki, 40-50 illdir Quranla ünsiyyətdəyəm, amma bu ayədə bu məqamı anlamamışdım. Yəni yeni bir baca açılır. Quran belədir.

Əlbəttə, bizim gənclik dövrümüzdə Quran oxumaq və Quranla ünsiyyət yalnız fərdi bir iş idi, mühit heç bir yardım etmirdi. Hər kəs öz həvəsinə görə bu işlə məşğul olurdu. Siz universitetdə, elmi mühitdə, məktəbdə, ictimai, yaxud siyasi fəaliyyətlərdə Quranla məşğul olursunuz, hər yerdə Qurandan, Quran müsabiqəsindən və Quran dəyərlərindən söhbət gedir. Mühit çox yaxşıdır, insan çox asanlıqla özünü bu çeşməyə yaxınlaşdırıb doyura bilər. O zaman isə belə deyildi, bizim şəxsi iradəmizə bağlı idi və bəllidir ki, şəxsi iradə o qədər də güclü deyil.

Siz indi Quranı asanlıqla əzbərləyə bilərsiniz. İndi bizdə nə qədər Quran hafizi var. Sizin aranızda 1 cüz, 2 cüz, yaxud bütün Quranı əzbərləyənlər ola bilər. İndi cəmiyyətimizdə çoxdur. Bu, böyük üstünlükdür. Sizin Quranı əzbərləməniz və onunla ünsiyyətdə olmanız Quran məfhumları ilə tanış olmaq üçün daha böyük imkan yaradır. Bu imkanı dəyərləndirin, Quran anlayışları ilə ünsiyyətdə olun.

Mənim əzizlərim! İlk addım Quranın mətni ilə tanışlıqdır. Bunu etməlisiniz. Növbəti addım Quranla ünsiyyətdə olmaq, yəni tez-tez Quran oxumaqdır. Quran oxumağı buraxmayın. Bu arada kimsə Quranı əzbərləyə də bilsə, bir neçə addım irəliyə düşmüş olur və digər işlər asanlaşır. Hər halda, sonrakı addım Quran ayələri üzərində təfəkkür etməkdir. İnsan Quranın hər bir ayəsinə, ona deyilən düşünülmüş söz kimi yanaşmalıdır. Danışan düşünərək danışırsa, biz onun sözünü anlamaq üçün diqqətli olmağa məcburuq. Qurana belə yanaşın. O, sizinlə düşünərək danışır.

Siz Quran oxuduqda görürsünüz ki, bu sözlərin hamısı dərindir. Hər bir ayədə bu dərinliyi axtarmaq lazım deyil. Xeyr, siz ayələrin tərcüməsini bilsəniz, təfəkkür imkanı yaranacaq. Ayələrin tərcüməsini bilmək mütləq

lazımdır. İnsan ayələr üzərində düşünmək istəyirsə, Quranın mənasını bilməlidir. Bu, vacib şərtdir.

**Quran üzərində təfəkkürün asanlığı**

Bu işlərin hamısı asandır, çətin olduğunu sanmayın. Bu iş bəzən üç-dörd kimya, yaxud riyaziyyat formulu əzbərləməkdən də asan olur. Bunlardan çox asandır. İnsanın zehni Quranla tanış olduqda avtomatik olaraq onu özünə sarı çəkir. Quran belədir.

**Quranın gözəlliyi**

Mənim əzizlərim! Bu mətn dünyanın ən gözəl mətnlərindən biridir. Bildiyiniz kimi, dil daim inkişafdadır. İndiki ərəb dilinin Quran dili ilə fərqi var. Amma eyni zamanda bu gün ərəblər gözəl danışmağa çalışanda mütləq Quran ayələrindən sitat gətirirlər. Yəni bu sözlər o qədər gözəldir ki, bu gün bu qədər vaxt ötdükdən sonra gözəl bir qaş kimi nitqi bəzəyir. Bu qədər gözəldir.

Siz baxın, o zaman Məkkədə təəssübkeş, beyni qapalı, həddən artıq kobud, cahil ənənələrə bərk bağlı və bəziləri Quranın sözündən çox qorxan və narahat olan insanlar bu kəlamın ahəngdarlığı, gözəlliyi, fəsahəti və dərinliyi qarşısında diz çökdülər. Onların bəzisinin ürəkləri yumşaldı, iman gətirdilər, bəziləri də məhz bununla məğlub edildilər.

**Quran - bütün problemlərin əlacı**

Bizim əlimizdə bu möhtəşəm mətn belə bir şeydir. Bunun qədrini bilin. Quran düşüncə problemlərini, düyünlərini, psixoloji və duyğusal problemləri həll edir. İnsan yavaş-yavaş Quranla ünsiyyət qurduqca, duyğusal, əxlaqi, yaxud düşüncə baxımından çıxılmaz vəziyyətə düşdükdə qəfildən bir ulduzun parladığını görür, ona sarı gedir və yol açılır. Quran belədir.

Quranı uca tutun, onunla ünsiyyətdə olun. Mən bu işlə məşğul olan qardaş və bacılara, sizin hamınıza, xüsusən də sizə bu imkanı yaradanlara təşəkkür edirəm. İnşallah, cəmiyyətimizdə Quran dalğası günbəgün genişlənsin, dərinləşsin və biz özümüzü bu zülal çeşməyə vurub Allahın izni ilə yetərincə bəhrələnək. İnşallah, müvəffəq olasınız.

Allahın salamı və rəhməti olsun sizə!

## Universitet məhəlləsi hadisəsi[8]

Bismillahir-Rəhmanir-Rəhim.

**Acı hadisə**

Əziz qardaş və bacılar! Çox xoş gəlmisiniz. Deməyə söz çoxdur. Lakin fikrimcə, hamısından əhəmiyyətli olan və məni narahat edən məsələ tələbələrin yataqxanasına olan hücumdur. Bu acı hadisə mənim qəlbimi yaralayıb. Bu, İslam Respublikasında yolverilməz bir hadisə idi. Xüsusən axşam vaxtı insanların yaşadığı yerə hücum etmək İslam quruluşunda əsla yolverilən deyil. Bu ölkənin gəncləri - istər tələbələr, istər qeyri-tələbələr mənim övladlarımdır. Onlar üçün iztiraba, narahatlığa və səhvə səbəb olacaq hər bir şey mənim üçün ağırdır. Kim olmuşsa, fərqi yoxdur; istər polis formasında olsun, istərsə də başqa bir geyimdə. İslam Respublikası quruluşunda qanunu pozanlara qarşı tədbir görülməlidir. Burada isə qanunu pozmayan, öz evində istirahətdə olan bir adama, özü də gənc tələbə mühitində olan bir şəxsə qarşı çox səhv və yaramaz iş görülmüşdür.

Universitet məhəlləsindən 100, yaxud 200 nəfərin çıxıb bəzi sözlər deməsi, bəzi şüarlar verməsi kimlərinsə hansısa geyimdə, hansısa adda oraya daxil olub yaramaz işlər görməsinə haqq qazandıra bilməz. Xüsusən də müqəddəs polis adı hallanırsa, polisin bədnam olmasına səbəb olan bir iş görülürsə, məsələ daha ağırdır. Siz bilirsiniz ki, bu gün polis ölkənin ətrafında, yollarda, sərhədlərdə, quldurlarla mübarizədə necə canfəşanlıq göstərir, nə qədər zəhmətlər çəkir. Bizim təhlükəsizliyimizi qoruyarkən nə qədər polis öz canını əldən vermişdir. Bununla yanaşı bir neçə nəfər tərəfindən elə bir iş görülür ki, bu xidmətçilər bəzilərinin nəzərində nüfuzdan düşürlər. Bu, insafdandırmı?! Yaxud deyilənlərə əsasən, bəziləri "Ya Hüseyn!", "Ya Zəhra!" kimi müqəddəs adları çəkərək Bəsic üzvü olan, yaxud əlil tələbələrin otağına daxil olub onları yuxudan qaldırır və bəlli hadisələri törədir. Bu, düzgündürmü?! Bunlar qəlbi sıxır. Bütün bu mömin gənclər - İmam Hüseyn (ə), Fatimeyi-Zəhra (ə) aşiqləri, ölkənin hər bir tərəfində İslamın, ölkənin xidmətində duranlar, müqəddəs müdafiə dövrü ölkəni təhdid edən hər bir təhlükəyə sinə gərənlər və meydana atılanlardır. Lakin indi bəziləri bu adlardan istifadə edərək bəzi hadisələr törədirlər. Bu mənim üçün çox acı bir hadisə idi. Mən təkidlə tapşırdım ki, hadisənin təfərrüatı diqqətlə araşdırılsın. Qərara alındı ki, möhtərəm prezident və

---

[8] Tələbələrin və xalqın müxtəlif təbəqələrinin iştirakı ilə keçirilən toplantıdakı çıxışın tam mətni: 12 iyul 1999.

digər vəzifəli şəxslər Təhqiqat komissiyası təyin etsinlər. Bu komissiyada mənim də nümayəndəmin olması mümkündür.

Mənim bir neçə sözüm var; biri tələbələrə, biri ümumi İran xalqına, biri xüsusən siz gənclərə, biri də düşmənə.

**Tələbələrin düşməni tanımasının zəruriliyi**

Mənim tələbələrə sözüm budur ki, düşməndən ehtiyatlı olsunlar, onu yaxşı tanısınlar, bu işdə əsla diqqətsizliyə yol verməsinlər. Doğma adamlar görkəmində hər yerə soxulan özgələri tanıyın, gizli əlləri görün. Heç kəsi diqqətsizliyinə görə tərifləmir, gözlərini yumduğuna görə heç kəsə "afərin" demirlər. Diqqətsiz bir insana ziyan toxunanda məsuliyyət daşıyan və qınanan birinci şəxs özüdür. Ehtiyatlı olun. Tələbə qiymətli və dəyərli bir təbəqədir. Düşmən tələbəni hədəf seçmişdir. Bir neçə ildir tələbələri quruluşun qarşısında qoymağa çalışırlar, lakin bacarmırlar. Bundan sonra da bacarmayacaqlar. Onların bir qrup adamı fürsətdən istifadə edərək bulanıq sudan balıq tutmaq istəsə, tələbələrin içinə daxil olub bəzi şüarlar səsləndirsə, bəzi sözlər desə də, elə bilməsinlər ki, biz səhv edəcəyik. Xeyr! Biz səhvə yol verməyəcəyik. Biz öz tərəf-müqabillərimizi tanıyırıq. Tələbə bizim övladımızdır, bizə, bu ölkəyə məxsusdur. Tələbə adı altında, yaxud tələbələrin arasına girməklə fəsad törətmək istəyən düşməndir. Tələbələrin özləri sayıq və diqqətli olmalıdırlar.

İndi ilin həssas çağıdır. Tələbələrin imtahan vaxtı və ali məktəblərə qəbul zamanıdır. Bu mövsümdə, evində gənci olan bütün ailələr övladlarının diqqətli olması, imtahandan uğurla keçmələri üçün bütün iradələrini toplayırlar. Belə bir vaxtda gəncləri bu şəkildə azğınlığa sürükləyən hansı qüvvədir, bu məmləkətin gələcəyinin və onun universitetinin hansı düşmənidir? Kim onlar üçün məşğuliyyət düzəldir, dərs, imtahan dalınca getməməyə və toplantı keçirməyə həvəsləndirir? Burada sayıq şəkildə gözlərini açmalı və qərar verməli olan birinci şəxs tələbənin özüdür.

**Milli təhlükəsizlik**

İran xalqına isə deyirəm: Ey böyük və qəhrəman xalq! Siz 20 ildir inqilabın bu ölkədən qovduğu düşməni qüdrətlə qapı arxasında saxlayıb, heç bir bacadan daxil olmasına imkan verməmisiniz. Sayıq olun. Mən buna görə son bir neçə ildə İran xalqına və vəzifəli şəxslərə dəfələrlə demişəm ki, düşmən yol axtarır. Düşmən harada bir pəncərə tapsa, oradan daxil olacaq. Diqqətinizi toplayın. Düşmən bizim milli təhlükəsizliyimizi hədəf

seçmişdir. Bir xalq üçün milli təhlükəsizlik hər şeydən vacibdir. Milli təhlükəsizlik olmasa, heç bir hökumət işləyə, quruculuqla məşğul ola bilməz. Əgər hərc-mərclik olsa və təhlükəsizlik pozulsa, məmləkətin heç bir problemi həll olunmaz; nə iqtisadiyyatı, nə mədəniyyəti, nə ictimai, nə də siyasi məsələlər. Təhlükəsizlik olmasa, bunların hamısı məhv olar. Düşmən bunu hədəf seçmişdir. Ölkənin hər hansı yerində olan İran xalqı bunu anlamalıdır. Sözsüz ki, anlayır və bilir. Allaha şükür olsun ki, xalq sayıqdır.

**Gənclərin ictimai intizamlılığının zəruriliyi**

Bir kəlmə də siz gənclərə deyim. Əziz gənclər! Siz inqilabın və İslamın ümidlərisiniz. Siz bu məmləkəti sürətlə çiçəkləndirə bilərsiniz. Məmləkətin gənci ağıllı, sayıq, səbirli və mövqelərə diqqətlə danışsa, qərar versə və əməl etsə, ölkə gülüstana çevrilər, kor həyəcanlar ortaya çıxdıqda isə düşmən tez istifadə edər. Dəfələrlə demişəm, yenə də təkrar edirəm ki, mən gənclərin bütün sahələrdə iştirak etməli olduqlarını düşünürəm, lakin qanun və intizamla. Bu hərəkətlər, kimlərinsə universitetə hücum etməsi intizamsızlıqdan qaynaqlanır. Bu hansı adla baş versə, səhvdir və qınanmalıdır. Dini müdafiə adı altında baş versə də, səhvdir, vilayəti müdafiə adı altında baş versə də. Məgər mən dəfələrlə deməmişəm ki, müxaliflərin toplantılarında heç kəs kobud rəftar etməməlidir, çünki bu, düşməni sevindirir?! Biz bu sözü dəfələrlə demişik. Nə üçün qulaq asmırlar? Hətta əgər sizin qanınızı coşduran bir hal baş versə, məsələn, rəhbəri təhqir etsələr də, yenə də səbirli və sakit olmalısınız. Mənim şəklimi yandırsalar, yaxud cırsalar da sükut etməlisiniz. Qüvvənizi ölkənin ehtiyaclı olduğu günə - gənc, mömin və hizbullahçı qüvvənin düşmən qarşısında dayanmalı olduğu zamana saxlayın. İndi tutaq ki, bir gənc, yaxud aldanmış bir tələbə bir söz dedi və bir iş gördü. Bunun nə eybi var?! Mən buna əhəmiyyət vermirəm.

**Düşmənlərin səhvi**

Düşmənə də bir söz demək istəyirəm; harada olursa, kim olursa-olsun. Bizim əsas düşmənlərimiz casus şəbəkələrində bu məsələləri planlaşdıranlardır. ABŞ Konqresinin İslam quruluşu ilə mübarizə üçün ayırdığı və ondan dəfələrlə artıq pullar harada xərclənir? Bəllidir ki, belə planlara sərf olunur. Şübhəsiz, belədir. Düşmənlər bilsinlər ki, Amerikanın bu ölkəyə qayıdışı pərişan və çinçıxmaz bir yuxudur.

Bu dəyərsiz daxili ünsürlər, tərk edilmiş və mənfur siyasi qruplar, xalqın çürük diş kimi çıxarıb bir tərəfə tulladığı adamlar 18-19 ildir ki, xalqdan, imamdan, imamın adından və yolunda inqtiqam almaq üçün pusquda durmuşlar. Bunlar da bilsinlər ki, səhvə yol verdilər. Bu məsələdə də səhv etdilər, özlərini ifşa edib iç üzlərini göstərdilər.

Düzdür, bizim təhlükəsizlik orqanlarımıza namərdcəsinə zərbə vurdular. Bizim polisimizə də zərbə vurdular. Lakin İslam Respublikasının xidmətçiləri, ixlaslı və namsız-nişansız əsgərləri məlumatları toplayır, kimin harada nə etdiyini bilirlər. Onlar bu işlərlə xalqı müstəqillik və əziz İslam yolunda mübarizədən, düşmənlərlə mübarizədən daşındıra bilməzlər.

**Siyasi cinahlar**

Siyasi xətt və cinah başçılarına deyirdik ki, doğmalar əbəs məsələlər üzərində bu şəkildə bir-biri ilə çəkişsələr, düşmən də süi-istifadə edər. Buyurun, bu da real nümunəsi. Gördünüz düşmən necə istifadə etdi?! Gördünüz düşmən necə sancdı?! Bu məsələləri kənara qoyun. Biz demirik ki, hamı bir cür fikirləşsin, amma siyasi iş və dartışmalar üçün bir hədd və qırmızı xətt tanıyın, necə gəldi bir-birinizlə çəkişməyin. O qədər dartışarsınız ki, düşmən də bu şəkildə gəlib işlərə qarışar. Mətbuat qanunu və digər müxtəlif məsələlərdə necə qalmaqal yarandı. Hamısı da xətt və cinah məsələləri idi. Nə üçün? Çünki parlamentdə bir qanun qəbul olunur.

Mən xüsusi bir siyasi cinaha işarə vurmuram, müraciətim hamıyadır. Mənim üçün siyasi xətt və cinahların fərqi yoxdur. Mənim üçün meyar olan Allahın, imamın və İslamın yolu, xalqın maraqlarını uca tutmaq, ölkəni və onun gələcəyini qorumaqdır. Mənim üçün fərqi yoxdur ki, filankəs A cinahındadır, yoxsa B cinahında. Mən hamıya deyirəm. Siz də sayıq olun.

**Dövrün imamı ilə dərdləşmə**

Son cümləni də öz imamımıza, dövrün imamına deyirəm: Ey bizim ağamız və mövlamız! Allah-Taala yanında şəhadət ver ki, biz Allah yolunda son nəfəsə qədər dayanmışıq. Bu şərəfli, lütflü və sevimli yolda canımı qurban vermək mənim ən böyük arzum və fəxrimdir. Allah-Taala sizləri müvəffəq etsin.

Allahın salamı və rəhməti olsun sizə!

## Acı hadisələrdə imanın rolu[9]

Bismillahir-Rəhmanir-Rəhim.

**Universitet məhəlləsi hadisəsinin araşdırılması**

Mənim fikrimcə, bu hadisələr barədə iki növ fikir yürütmək olar: Biri ibtidai yanaşmadır. İnsan bir hadisə, bir faciə, yaxud cinayətlə rastlaşdıqda üzərinə bəzi vəzifələr düşür. Hər kəsin bir vəzifəsi var. Olan bilsin, bir hadisədə bir nəfərin vəzifəsi şikayət etməkdir, birinin vəzifəsi araşdırmaq, başqa birinin vəzifəsi isə kömək etmək. Hadisələrdə hər kəsin üzərinə bir vəzifə düşür. Hər halda, əməli vəzifəni bilmək bir növ yanaşmadır. Ümidvarıq ki, bu hadisə ilə hər hansı yolla əlaqədar olan şəxslərin hər biri bu növ yanaşıb. Əgər yanaşmayıbsa, indi bunu etsin.

Hadisənin, şübhəsiz ki, cinayətkarları və səbəbləri var. O cinayətkarları cəzalandırmaq, səbəbləri tapmaq və onlara qarşı tədbir görmək lazımdır. Bu, hadisəyə bir növ yanaşma tərzidir.

Düzdür, hadisə çox acı idi; müxtəlif cəhətlərdən acı idi. Əvvəla, bir şəxsə deyil, bir təbəqəyə aid idi. Bunun fərqi çoxdur. Biri var insan bir fərdə problem yaradır, məsələn, birini döyür. Bu hadisə isə tələbə təbəqəsinə - cəmiyyətimizin səmərəli bir təbəqəsinə və bu ailənin seçilmiş övladlarına qarşı olmuşdur. Əslində, belədir; tələbə xalqımızdan ibarət böyük bir ailənin dəyərli övladıdır. Təbii ki, onlara qarşı hansısa bir hadisə baş versə, insan daha çox üzülər və narahat olar.

Üçüncüsü budur ki, bu, universitetdə baş verib. Yataqxana da universitetin, universitet məhəlləsinin bir hissəsidir, tələbələrindir. Dördüncüsü budur ki, bu, gecə vaxtı, istirahət zamanı, dinc bir vaxtda baş vermişdir.

Hər halda, bu tip səbəblərin hər biri ayrı-ayrılıqda bu hadisənin insan üçün doğrudan da pis, acı və çirkin görünməsinə səbəb olur. Həqiqətən də acı idi.

Təbii ki, hamının üzərinə vəzifələr düşür. İndi bəziləri bir sıra işlər görürlər. Bu gün buraya gəlmiş yüksək rütbəli məmurların birinə yenə də təkrarladım ki, araşdırsınlar, bəlkə bu məsələdə bizim üzərimizə düşən vəzifələri yerinə yetirə bilək.

Bəli, bu, hadisəyə bir baxışdır. Bundan keçirik, çünki hadisənin baş verdiyi gündən bu barədə söhbət olunur. Mən də söhbət edəndə bu barədə

---

[9] Universitet məhəlləsi hadisəsində yaralanan tələbələrin bir qrupu ilə görüşdə çıxışı: 26 iyul 1999.

danışdım, digərləri də bu barədə danışdılar. Bildiyiniz kimi, bu barədə müxtəlif baxışlar var. Biri deyir ki, kimin işi idi, biri deyir hiylə idi. Müxtəlif fikirləri olan şəxslərin hamısı hadisəyə bu baxışla baxdılar.

**Hadisələrə müsbət və mənfi baxış**

Hadisələr barədə başqa bir baxış növü də var. Hər bir insan zahirən acı olan bir hadisədən dəyərli və səmərəli istifadə edə bilər. Hər bir insanın acı hadisə qarşısında zehni və ruhi yanaşma növü fərqlidir. Fərz edin, bir zəlzələ baş verir. Zəlzələ çox acı hadisədir. Siz bəlkə də haradasa zəlzələ görmüsünüz. Mən zəlzələnin dağıtdığı yerlərdə çox olmuşam. Bu, çox acı və üzücü hadisələrdəndir. Lakin zəlzələyə iki cür yanaşmaq mümkündür: Biri budur ki, məruz qalanlar üçün müsbət və faydalı bir hadisəyə çevrilsin. Başqa birisi də budur ki, tamamilə ziyanlı bir hadisə olsun. O şəxslərin özləri iki cür yanaşa bilərlər. Düzdür, onlar savadsız, məlumatsız olsalar, ikinci yanaşmadan istifadənin necəliyini digərləri onlara öyrətməlidirlər. Lakin tələbə təbəqəsi kimi alim, ağıllı, savadlı və məlumatlı olsalar, özləri mənəvi bəhrəni götürüb, onu özlərinə acınacaqlı yox, səmərəli edə bilərlər. Fərz edək, zəlzələdə öz atasını, anasını və digər əzizlərini əldən vermiş, evi uçmuş bir oğlan deyir ki, nəyim vardısa, əlimdən çıxdı. Deməli, əldə olanlara əbədi bir şey kimi baxmaq olmaz. Mən öz gücümə və Allah-Taalanın verdiyi ruhiyyəyə güvənib bu ziyanları aradan qaldırmalıyam. Var olanın bir anda yox olduğu kimi, olmayanın da bir anda, yaxud bir prosesdə var olması mümkündür. Əgər zəlzələdən zərər çəkmişlərin biri, yaxud hamısı bu nəticəyə gəlsə, bu, çox yaxşıdır. Mən 10 il içində Firdovsda, Təbəsdə, Rudbarda, Qəzvində və digər yerlərdə baş vermiş zəlzələləri görmüşəm. Onlar müxtəlif insanlar idilər. Bəzilərində doğrudan da bu ruhiyyə vardı: hadisə baş verən kimi işləməli və itirdiklərini yenidən yaratmalı olduqlarını düşünürdülər. Bu hiss onlar üçün əvvəl malik olmadıqları yeni bir inkişafın qaynağına çevrildi. Əvvəllər hərəsi bir şəhərdə rahat oturmuş, öz işləri ilə məşğul idilər. Sonra isə sıfırdan başlayan və qurub-yaradan həvəskar, aktiv əhaliyə çevrildilər.

O qədər acı olan bir zəlzələyə bu növ yanaşma tərzi ilə 10 ildən sonra baxdıqda görürük ki, bu hadisə həmin xalq üçün faydalı və inkişafa səbəb olub. Ümumilikdə, bu hadisəni mübarək saymaq olar. Əvvəl acı idi, amma əgər bu hadisə baş verməsəydi, onlar eyni tənbəllik və işsizlik halında adi həyat sürəcək və indi də adi bir camaat olacaqdılar. Lakin indi öz qolları, iradə və qərarları ilə bir yol keçmiş və çətin işlər görmüş əhali oldular.

Əgər zəlzələdən zərər çəkmiş insanlar bu fürsətdən ayrı cür istifadə etsələr, yəni desələr ki, yaxşı oldu, biz indiyə qədər hər gün mağazaya gedirdik, lakin indi yük maşını ilə bizə ərzaq gətirirlər. Biz səhərlər yataq, vaxtı çatanda çadırımıza bir şey gətirib verəcəklər və yeyəcəyik. Əgər az versələr, gedib dalaşar və yenə də istəyərik.

Əgər belə bir hal yaransa, - təəssüf ki, mən bəzi yerlərdə bunu da müşahidə etmiş, belə yaşayan bəzi şəxsləri görmüşəm - bu növ yanaşmaya görə zəlzələ doğrudan da bədbəxt bir hadisə olar.

**Rifahın müsbət və mənfi tərəfləri**

İndi siz zəlzələnin yerinə rifahı qoyun. Varlı bir ailədə yaşayan və heç bir problemi olmayan bir gənci təsəvvür edin. Yaxşı yataq taxtı, mütaliə stolu, avtomobili, isti havada sərinləşdiricisi və soyuq havada filan cihazı var, onun üçün hazır xörək gətirirlər və sair. Əgər bu şərait gənci tənbəl, işsiz və iradəsiz etsə, istedadlarını tanımaz hala salsa, onun üçün bir bəladır. Çünki gələcək həyatında bu şəraiti düzəltməsə, bədbəxt olar və pis yaşayar. Deməli, hadisədən sonrakı qərar və nəticə həlledici ola bilər.

**Zərərçəkmişlərin müsbət baxışı**

İndi sizin üçün acı bir hadisə baş verib. Bəziləri daha çox zərər çəkib, bəziləri bir qədər az. Hər halda, hamı zərər çəkib. Ən azı budur ki, vahiməyə düşüb, qorxub, otaqlarına çəkiliblər, onlar isə qapını təpiklə açıb, bəzilərini yuxudan oyadıb, bəzilərini təhqir ediblər. Hər halda, kobudluq baş vermişdir.

Bu hadisə acıdır, yəni bir cinayətdir. Lakin birinci dərəcəli acı hadisələrdən deyil. Bu, məlumdur. Bu, quruluşdakı məsuliyyətimə görə mənim üçün zəlzələdən də acı hadisə ola bilər. Çünki burada insani amillər və digər məsələlər var. Mən indi o baxımdan demirəm. Bu, hadisənin zərərçəkmişləri olan sizin baxışınızda birinci dərəcəli acı hadisələrdən olmaya bilər. Fərz edin ki, bundan da pisi raket zərbələrinə məruz qalanlardır. Amma hər halda, bu, acı hadisə idi.

İndi siz bu hadisədən necə istifadə edirsiniz? Yəni sizdə hansı fikrə və nəticəyə səbəb olub? Bunun gələcəyə təsiri var. Bu hadisədən hər növ nəticə çıxarmaq olar və bu nəticələrin hər biri insanın həyatında xüsusi təsir buraxa bilər. Misal üçün, insan axtardığı kamalın bir dərəcəsinə çatmaq yolunda hər bir gözlənilməz hadisənin qarşıya çıxmasının mümkün olduğunu düşünər. Çünki bu hadisə gözlənilmirdi. Yəni sizin ümumiyyətlə, gümanınız yetmirdi ki, belə bir hücum baş tutsun.

Təhsil, öyrənmək, kamilləşmək yolunda, yaxud bir qədər geniş götürsək, ümumiyyətlə, həyatda insanın hesablamadığı və gözləmədiyi hadisələr qarşısına çıxır. Heç kəs səni qınamır ki, siz gecə universitetin yataqxanasında yatdınız, nə üçün düşünmədiniz ki, kimsə təpik vurub qapınızı aça bilər. Bu, ümumiyyətlə, gözləniləsi deyil və ağıllı ehtimal hesab olunmur. Necə ki, evində yatan, misal üçün, sərhəddən uzaq bir şəhərdə yatan şəxs güman etmir ki, birdən gecənin yarısında bir təyyarə gəlib raket atar, bu raket təsadüfən, onun evinin damına düşər, yoldaşı, övladları və digər yaxınları ölərlər. Bu tamamilə gözlənilməzdir. Həyatda belə gözlənilməz hadisələr və buna bənzər minlərlə hadisə baş verə bilər.

**Hadisə zamanı imanın rolu**

Deməli, bundan bir ibtidai nəticə almaq olar. O da budur ki, insan özünü psixoloji baxımdan bərkidib həyatın müxtəlif hadisələrinə hazırlasın. Bu necə olur? İnsan özünü necə bərkidə bilər? Təbii ki, insan maddi işlər üçün öz bədənini möhkəmləndirir. Bəs bir tərəfi insanın ruhu ilə bağlı hadisələrə qarşı nə etməlidir? Məncə, insan öz imanını gücləndirməlidir. İnsan öz imanını əsaslı, etimadlı və toxunulmaz bir nöqtə ilə möhkəmləndirməlidir. Bu iman olsa, insan həyatın heç bir mərhələsində ümidsizliyə qapılmaz. Diqqət yetirirsinizmi?! Ümumiyyətlə, insanı məhv edən ümidsizlikdir. Bu zaman insan addım ata bilmir. O, insanı məhv edir, bütün qüvvəsini sıradan çıxarır. İnsan daha yola davam edə bilmədiyini duysa, bitmişdir. Bəs bu hissə mane olan nədir? Bir başlanğıca iman. Bu, Allaha və qeybə iman ola bilər, – bu, ən yaxşısıdır - bəziləri üçün bir ideal insana iman da ola bilər, insani ideyaya iman da. Dünyada bəziləri bir ideya və düşüncəyə iman bəsləyirlər. O ideya tam ilahi olmaya da bilər. Yenə də zehnə və ruha aid mənəvi bir ideya olsa da, Allahla əlaqəsi yoxdur.

Allaha bağlı ideyanın gözəlliyi budur ki, insan güvəndiyi tərəflə alış-veriş edə bilər. O sizin qarşınızda olan bir varlıq və həqiqətdir; sözünüzü eşidir, qarşılığında sizə deyəcək sözü də var. Mənim əzizlərim! Əhəmiyyətli olan budur ki, Allahla mənəvi əlaqə əsla birtərəfli deyil, ikitərəflidir. Bu, ilahi maarifdən və mənəvi əlaqələrdən uzaq olan bəzi şəxslərə çox qəribə görünə bilər: "Allah insanla necə danışa bilər?" Bəli, danışır. Siz bunu hiss edəcəksiniz. Bu, mümkündür. Allah çox yaxındır.

**Namazda qəlbin hüzuru**

Namaz zikrlərinin mənasını zehninizdən keçirin. Əgər insan əvvəldən mənaya fikir versə, diqqəti başqa bir yerə yönəlmədən doğrudan da Allahla danışsa, yetər. Necə ki, indi sizinlə söhbət etdiyim müddətdə siz bir an da mənim zehnimdən çıxmırsınız, həmişə sizə müraciətlə danışıram. Bu, çox böyük bir şey deyil. Bizdən bundan artığını istəməyiblər.

**Qəlbin hüzurunun təsirləri**

Siz bir adamla danışanda həmişə diqqətiniz ondadır, sözlərinin mənasını anlayırsınız, ona nə dediyinizi bilirsiniz. Namazda Allahla da belə danışın. Əgər bir namaza belə başlasanız və bu hal davam etsə, ortalarda birdən hiss edəcəksiniz ki, qəlbiniz haradansa bir şey alır; hansısa bir yerdən bir hissi dərk edir, sizinlə danışılır və almalı olduğunuz cavabı alırsınız. Düzdür, bu, əvvəllərdə bir qədər analşılmaz ola bilər.

Əlbəttə, siz gənclər nurlusunuz, sizin işiniz bizdən çox asandır. Siz Allahın sözünü daha tez və çox aydın dərk edirsiniz. Allah sizinlə danışır, sizə cavab verir və siz bu cavabları ürəyinizdə hiss edirsiniz.

Bu etimad nöqtəsinin digər xəyali, yaxud həqiqi etimad nöqtələri ilə fərqi budur. Bəzilərində belə etimad nöqtələri var. Bəzən ondan istifadə də edirlər, işlərinə də yarayır. Lakin onda daha belə xüsusiyyətlər yoxdur.

**Arzuların həyata keçməsində imanın rolu**

Mən deyirəm ki, siz özünüz üçün hansı gələcəyi seçsəniz, ya arzu etsəniz, - mümkündür biri həkim olmaq istəsin, biri müəllim, biri iqtisadçı, biri siyasətçi, biri rəhbər; hər bir şəxs özü üçün bir gələcək təsvir, tərif, ən azı, arzu edir - bu gələcəyə nail olmaq üçün gərək qəlbinizdə imanı, özü də ayıq imanı gücləndirəsiniz. İmanın hətta ayıq olmayanı da faydalıdır. Məsələn, avam bir insanın imanı var, lakin çox bilgisi yoxdur. Hətta o da möcüzə edir. Lakin bilgi ilə yanaşı olsa, təsiri min qat artıq olar. Siz gənclər bunu bacararsınız.

**Elm, əməl və iman birliyi**

İnsanın həyatında belə hadisələrdən çox olur. Bu hadisələr bəzən insanın yolunu dəyişdirir, qarşısındakı yolları çıxılmaz göstərir. Əgər belə olmasını istəmirsinizsə, həyatın düzgün yollarını davam etdirmək üçün heç zaman həvəsinizi, iradənizi, qüdrətinizi və möhkəm iradənizi itirməyin, öz daxilinizdəki ayıq imanı gücləndirin; həm iman, həm ayıqlıq. Ayıqlığı kitabla, bilgi sahiblərini dinləməklə əldə edin. İmanı da mənim fikrimcə, indi malik olduğunuz iman mayasını işlətməklə artırın. Bu iman

çox qəribə bir sərmayədir. Allaha şükür olsun ki, sizin hamınız mömin uşaqlarsınız, mömin ailələrdə tərbiyə almısınız. Siz indiki imanınızı işlətsəniz, yəni ona saleh əməl əlavə etsəniz, günah etməsəniz, bacardığınız qədər savab iş görsəniz, insanın xudpəsəndliyi ilə bağlı olan günahlardan, digərinə zülm hesab olunan günahlardan daha çox çəkinsəniz, bəzi qeyri-uyğun sözlərdən çəkinsəniz, zehninizi bəzi məsələlərdən uzaqlaşdırmağı bacarsanız, bu saleh əməllər sözügedən iman mənbəyini artırar. İman belədir; əməllə birgə olsa, günbəgün artar. Ayıqlıq da saleh əməllə birgə olsa, o da artar: "Kim Allahdan çəkinsə, (təqvalı olsa) Allah ona (hər çətinlikdən) bir çıxış yolu əta edər və ona gözləmədiyi yerdən ruzi verər. Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər"[10]. Allah onun qəlbini hidayət edər. Nəzərdə tutduğum ayə bu idi. Təqvanın özü insanı hidayət və imanını möhkəm edir.

Siz əzizləri görməyə çox sevindim. Bu hadisədən mənim qəlbimdə yaranan və indi də mövcud olan bu nigaranlıq, qəm-qüssə sizləri görməklə bir qədər azalacaq. İnsan sizin enerjili və gülər üzlərinizdən təsəlli alır. Mən təkidlə demək istəyirəm ki, bu ruhiyyənizi əldən verməyin; xüsusən də bu əzizimiz.[11] Sizin gözlərinizdən ötrü çox narahat oldum. Mən belə eşitməmişdim. Hadisə barədə çox eşitmişdim, deyirdilər ki, qəbul imtahanlarında birinci yeri tutan gənclərin biri xəsarət alıb. Amma gözünün belə olduğunu deməmişdilər. Mən çox kədərləndim. Allah Məhəmməd və Ali-Məhəmməd (s) haqqına, Özü ən gözəl şəkildə əvəzini versin!

**Bir tələbənin çıxışı**

"Sizi salamlayıram. Görüşün əvvəlində buyurdunuz ki, mənim ürəyim yaralanmışdır. Biz özümüz üçün Allahdan min dəfə ölüm istədik. Bunu əminliklə deyirəm. Ağa can, mən sizə bütün uşaqların, gəlmək istəyən və gələ bilməyənlərin hamısının salamını çatıdırıram. Hamısı dua etmənizi istədilər. Hamısı deyirdilər ki, bizim salamımızı ağaya çatdırın. Bütün vücudumuzla sizdən üzr istəyirik, çünki bizim aramızdan və bizim adımızla bəzi şəxslər sizə hörmətsizlik etdilər. Ağa can, elə bilməyin ki, biz sakit idik. Bütün vücudumuzla sizdən üzr istəyirik. İnşallah, sizin xeyir-dualarınız bizimlə olsun. Sizə söz veririk ki, son nəfəsimizə qədər sizinlə və imamla bağladığımız əhdə sadiq qalacağıq. Sizin yanınızda həzrət

---

[10] Talaq/2-3.
[11] Bir gözü yaralanmış tələbəyə işarə vurur.

Mehdiyə (ə) deyirik ki, biz möhkəm dayanmışıq, sən bizim bütün məsul şəxslərimizə yardım et".

**Rəhbər**: "Allah sizi qorusun! Siz mənim əziz övladlarımsınız. Mən də sizə qarşı eyni hissdəyəm. Allah həmişə sizinlə olsun!"

**Daha bir tələbənin çıxışı**

"Deyilənlər hamının ürək sözü idi. Bir söz də mən deyirəm. Bizi vuranda "Ya Zəhra!", "Ya Hüseyn!" deyirdilər. Bəziləri də deyirdilər ki, Fəqihin rəhbərliyinə qarşı çıxanlara ölüm olsun. Nə üçün bunlar din adından istifadə edirlər? Biz özümüz xəbərlərdən sizin sözlərinizi eşitdik. Sizin, "mənim qəlbimi yaraladı" deməyiniz bizim qəlbimizə xəncər vuran bu hücumdan da ağır zərbə idi. Biz sizin bu sözünüzdən daha çox narahat olduq. Gözyaşardıcı qazlardan təsirlənənlərin bəzisi bəlkə hörmətsizlik də etdilər, amma o mühitdə nə dediklərini anlamırdılar. Çoxları indi peşman olublar, bunu demək istəmirdilər. Siz onları bağışlayın və dua edin mühitmiz elə olsun ki, əsl din dərdi birinci olsun, dindən başa düşülən və din adı ilə özümüzü göstərməyimiz yox. Biz həmişə çalışmışıq ki, bu toplantıları sakitləşdirək. Lakin bəlkə bizim hərəkətlərimiz də sizin inciməyinizə səbəb olub. İnşallah, bizi də bağışlarsınız".

**Din adı altında dindən qovmaq**

İnşallah, müvəffəq olasınız. Dediniz ki, onlar din adı altında, "Ya Zəhra!", yaxud digər müqəddəs adlarla daxil oldular. Mənim fikrimcə, bu məqam üzərində zehni baxımdan bir qədər iştənməlidir. Yəni baxmaq lazımdır ki, hansı məqsədlər var. Adam belə hiss edir. Mən inana bilmirəm ki, bir nəfər gəlib tələbənin otağını döysün və desin ki, sən Zəhra (ə) ilə, rəhbərlə düşmən olduğun üçün döyülməlisən. Mən ümumiyyətlə, inana bilmirəm. Əgər bu sözü deyənləri tapa bilsək, - yəqin ki onların hamısı demirdilər, bəziləri deyirdilər - güman edirəm ki, onda başqa məqsədi kəşf etmək olar. Bu, çox mühüm məsələdir. Bunu kim kəşf etməlidir? Bu, başqa məsələdir. Nə zaman kəşf etsinlər, düzgün kəşf etsinlər, etməsinlər? Bunlar da başqa məsələlərdir. Lakin indi qayıdaq sözügedən ikinci baxışı burada icra edək. Biz nə iş görək ki, bu tələbə gənc o qərəzli, yaxud cahil əmələ görə dindən çıxmasın. Mənim və sizin burada doğrudan da məsuliyyət hiss etməli olduğumuz budur. Bəli, qoymayın dindən çıxsınlar, çünki dindən belə çıxmaq ən acı hallardandır.

Mən bir zaman söhbətlərimdə buna dair misallar vurmuşam. İndi bir qədər yorulmuşam, davam etdirməyə taqətim yoxdur. Əgər başqa vaxt gəlsəniz, yadıma salın ki, Mövləvinin, bir şəxsi dindən qovmaq üçün "Ya Hüseyn!" və "Ya Zəhra!" üslubunu işlətdiyi dastanını danışım. Bu, dindən qovma üsuludur. Bəlli olur ki, Mövləvinin dövründə də belə şeylər olub. İndi bəziləri qəsdən edirlər, o zaman isə səhvən olmuşdur. Sizin kimi mömin, saleh və nurlu gənclər buna imkan verməsinlər. Kimsə bu yolla insanları dindən qovur. Siz onun əksini düşünürsünüz, gərək qoymayasınız. Allahdan uğur diləyin. O sizə uğur bəxş edəcək.

Allahın salamı və rəhməti olsun sizə!

## Müasir dünyada ideoloji boşluq[12]

Bismillahir-Rəhmanir-Rəhim.

**Gəncin cəmiyyətdə rolu**

Siz əziz övladların, gənclərin, mömin, inqilabçı və ayıq oğlan və qızların bu saatda buraya toplaşması mənim üçün böyük nemətdir. Hər bir cəmiyyətin cavanlarının necə düşünmələri və işləmələri o cəmiyyət üçün çox önəmlidir. Hər bir ölkənin cavan nəsli əslində, həlledici qüvvədir. Əgər hər hansı bir ölkə maddi, elmi, sənaye, iqtisadi və müxtəlif sərvətlər cəhətindən tərəqqinin ən uca zirvəsində olsa belə, öz cavanlarını düzgün idarə edə bilməsə, gənc nəsil əldən çıxsa, heç şübhəsiz, çətin bir gələcəyi gözləməli olacaq.

Bu məsələ bu gün Qərb dünyasında, xüsusən də bəzi Qərb ölkələrində baş verməkdədir. Unutmaq lazım deyil ki, belə ictimai və tarixi tufanlar özünü tədricən göstərir. Diqqətsiz adamlar sona yaxınlaşmayınca nə baş verdiyini anlamırlar. Eqoist, şəxsi mənfəətini və öz cibini güdən adamlar da ya ümumiyyətlə, nə baş verdiyini anlamırlar, ya da anlayır, amma əhəmiyyətsiz yanaşırlar. Lakin hər bir cəmiyyətin uzaqgörən və qayğıkeş insanları gənc nəslin tələfolma təhlükəsini hiss edirlər. İndi bu hadisə baş vermişdir. Qərb cəmiyyətlərindəki uzaqgörən və qayğıkeş insanlar hansı faciənin baş verdiyinin fərqindədirlər. Cavanları çox ciddi şəkildə narkomaniya və bu kimi ictimai bəlalara düçar olmuşlar. Çoxları azdırıcı həyəcanların təsirindən adam öldürməyə, oğurluğa, soyğunçuluğa, cinayətə və çox çirkin şəhvətpərəstliyə üz tutmuşlar. Çoxları laqeyd olub seçkilərdə və ümumi tədbirlərdə iştirak etmirlər. Səbəbini soruşduqda deyirlər ki, bunun bizə əhəmiyyəti yoxdur. Onların laqeyd halı məhv olmaq əlamətlərindəndir.

İndi hansısa sionist ideoloqu özlərinin yüksək tirajlı beynəlxalq jurnallarında yazır ki, biz bugün-sabah bütün dünyaya sahib olacağıq. Bunları yazırlar. ABŞ-ın siyasi mütəfəkkirləri də açıq şəkildə deyirlər ki, dünya istəsə də, istəməsə də, bugün-sabah dünyanın taleyi bizim əlimizdə olacaq və bu bizim haqqımızdır. Bunu yazırlar, mən özüm görmüşəm. Qoy desinlər, reallıq isə bunun əksini göstərir. Çünki inkişaf vasitəsi hər şeydən çox insani iradənin sağlamlığı və ümumi bir məqsədə malik olmasıdır. Bu

---

[12] Bəsic üzvü olan tələbə və şagirdlərlə görüşdə çıxışı: 4 sentyabr 1999.

zaman hamı o məqsədə diqqət yetirir, onu ürəkdən qəbul edir və qüdrətlə ona doğru irəliləyir.

Bu iş cəmiyyətin bütün fərdlərindən gözlənilir. Lakin hər bir cəmiyyətdə bu mühüm hərəkətin ən əsas qüvvəsi gənclərdir. Baxın, gənc nəsil bu qədər əhəmiyyətlidir. Öz ölkəmizdə inqilab və İslam sayəsində, Allahla və Ona yaxın hər bir şeylə mənəvi əlaqəyə görə dəyərli bir gənc nəsil formalaşmışdır. Əlaqə çox mühümdür. Bu əlaqə inqilabdan öncədən inqilaba və ondan sonra bu günə qədər mövcud olmuşdur.

İnqilabdan əvvəl bütün amillər bunun əks istiqamətində idi, gənclər fəsada və laqeydliyə sövq edilirdilər. Siyasət belə idi. Bu siyasəti İranın qeyri-müstəqil hökuməti təyin etməmişdi. Onlar ümumiyyətlə, belə dəqiq, uzunmüddətli və humanitar proqramlara malik deyildilər. Bunu digərləri təyin etmişdilər. Bir məmləkəti tamamilə ələ keçirmək istəyən bir xarici güc üçün o məmləkətin gənc nəslinin necəliyi çox əhəmiyyət kəsb edir. Əgər gənc nəsil laqeyd, ölkənin maraqlarına və taleyinə etinasız olsa, onun işi asanlaşar. Bütün amillər gənclərin dindarlığının, iradəsinin, ixlasının, paklığının və hərəkətinin əks istiqamətində idi.

**Gənclərin canlandırılmasında imamın rolu**

Lakin fövqəladə bir amil peyda oldu. O amil imamın fəryadı idi; amma bir şəxs olaraq yox. İmamın böyük məharəti bu idi ki, özünü bir fərd kimi göstərmədi. İslam və müsəlmanlara aid məsələlərdə də fərd kimi ortaya çıxmadı. İmam İslamda qarışmış, ilahi təlimlərə könül vermiş, səmimi-qəlbdən və bütün vücudu ilə qəbul etmiş və canına hopdurmuş bir insan kimi meydana çıxdı. O, Allahın insan həyatına hakimiyyətini qəbul etmişdi; necə ki, öz şəxsi həyatında Allahın hakimiyyətini doğrudan da bərqərar etmişdi. O, Allahın bəndəsi və Allaha müti idi.

İlahi hakimiyyət buradan başlayır; əvvəl ürəklərimizi Allahın bəndəsi etməli, Allahı ürəyimizə və vücudumuza hakim etməliyik, sonra cəmiyyətə, ölkənin bütün sahələrinə və daha sonra bütün dünyaya. Belə insanlar işləyib irəliləyə bilərlər. İmam doğrudan da bu meydanda ilahi imam və rəhbər idi. Buna görə də, onun ucaltdığı fəryad İslam və Allah fəryadı idi. Allahın adına və yoluna görə ürəklərdə özünə yer açdı. Həmişə belədir. İlahi bir məsələ ortaya çıxdıqda tağutun ölçüb-biçdikləri öz-özünə məhv olur. Əsas budur ki, o ilahi məsələ, ilahi iradə və hərəkət ortaya çıxsın: "Əgər (qapıdan) girsəniz, onlara mütləq qələbə çalarsanız"[13].

---

[13] Maidə/23.

Kənarda otursa, heç bir təsiri olmayacaq. Ən böyük insanlar, ən uca müqəddəsliklər və elmlər meydana atılmadıqda və kənarda oturduqda bütün dalğalar onların başı üzərindən keçəcək, geri qalacaqlar. Lakin elə bir iman və iradə, elə bir elm, nurlu və pak qəlb meydana qoşulduqda işini görəcək.

Hər bir sehr möcüzə ilə batil olur. Musanın (ə) əsası ortaya çıxdıqda, "sizin gətirdiyiniz sehrdir".[14] Sizin gətirdiyiniz cadu və hiylədir, həqiqət deyil. Həqiqət Musanın (ə) əsasıdır. O, ortaya çıxdıqda bir işıqla itən kölgə sayağı, bütün sehrlər məhv olur.

İmam bu işi gördü, buna görə də ürəklərə yol tapdı. Bəziləri təəccüb edirlər. Təhlil edəndə deyirlər ki, necə oldu belə bir azğın və batil quruluşda, bütün mədəni mərkəzlərin gəncləri fəsada sövq etdiyi bir yerdə qəfildən gənclər irəli çıxdılar və bu böyük inqilab baş verdi. Səbəbi budur. Bunun çox aydın sosioloji və psixoloji təhlili var. İmam bu meydana elə bir miniklə gəldi ki, o miniyə kim minsə, bütün yatanları oyada bilər.

**Müharibə imtahanı**

Mömin gənc nəsil formalaşdı. Sonra müharibə imtahanı qarşıya çıxdı. Müharibə soba kimi gəncləri yumşaltdı. Bu nəsli, xüsusən də cəbhəyə gedənləri, hətta getməyə müvəffəq olmayanları da gözəl formaya saldı. Əlbəttə, bilərəkdən arxa çevirənləri yox, onlarda əksinə oldu. Qorxudan, zəiflikdən, inadkarlıqdan, tənbəllikdən və digər bu kimi səbəblərdən arxa çevirənlər formaya düşmədilər.

Adətən, imtahanda iki qrup olur: bir qrup qəbul olur, bir qrup isə kəsilir. Onlar imtahandan kəsildilər. Lakin arxa çevirmək qəsdində olmayıb buna müvəffəq olmayanlar, imkanı çatmayanlar, - yaş, yaxud peşə baxımdan problemlə qarşılaşanlar - lakin ürəkləri cəbhədə olanlar da formaya düşdülər. Yəni həqiqətdə İran xalqının əksəriyyəti belə oldu. Müharibə doğrudan da gəncləri və xalqı formaya salan bir soba idi. O zamandan düşmənin proqramları da başlandı.

Baxın, mənim danışdığım illərdə - 85, 86 və 87-ci illərdə siz əziz gənclər səhnədə deyildiniz. Bəziləriniz çox kiçik idiniz, bəziləriniz də hər halda, səhnədə deyildiniz. Məsələ belə idi ki, imam bir işarə edəndə hərbi bazalara və qarnizonlara könüllü seli axışırdı. Bəziləri də icazəsiz özləri cəbhəyə yollanırdılar. Düzdür, hərbi qüvvələr onları saxlayıb yerbəyer edir, onlara təlim keçirdilər. Cəbhədə onlardan istifadə edilirdi və onlar bir

[14] Yunus/81.

çox problemləri həll edirdilər. Yəni müharibə dövründə bizdə canlı qüvvə çatışmazlığı olmayıb. Silah-sursat problemi çox idi, amma canlı qüvvə həmişə hazır idi.

**Müharibədə düşmənin karıxması**

Düşmən nə deyirdi? Düşmən həqiqətləri görürdü, ona görə də mat qalmışdı. Onlar müharibəni planlaşdırıb inqilaba hərbi hücum hazırlayanda yalnız təşkilatlanmış ordu qüvvələrini hesablamışdılar, Mühafizəçilər korpusunu, Bəsici və bu qədər böyük canlı qüvvəni düşünməmişdilər. İndi onunla üz-üzə gəlirdilər. Buna görə də plan səhv çıxdı və onlar təbliğat hücumuna başladılar. Müharibə dövründə quruluş, inqilab və imam əleyhinə dəfələrlə deyilən sözlərdən biri bu idi ki, İran insan selindən istifadə edir. Biz cavabda deyirdik ki, bəli, biz insan selindən istifadə edirik, lakin ayıq və mömin insan selindən. Biz eşq və iman qüvvəsindən istifadə edirdik. Onlar nigaran idilər və elə buna görə də gənc nəsli bu hərəkətdən saxlamaq üçün planlar cızdılar.

**İnqilabın məhdud olmaması**

Mənim əzizlərim! Bu inqilab çox böyük bir hadisədir. Bu inqilab hətta İslam Respublikası quruluşu ilə məhdudlaşmır. Bu inqilab tarixi dəyişmiş və təkcə müsəlman xalqlar qarşısında yox, bütün bəşəriyyət qarşısında yeni bir yol açmışdır. Bu inqilab misilsiz bir hadisə idi.

Mən bir dəfə inqilabların tarixini bir-biri ilə qısa müqayisə etdim. Bu inqilabla Rusiyanın 1917-ci ildə baş vermiş Oktyabr inqilabı və 1789-cu ildə baş vermiş Böyük Fransa inqilabı arasında paralellər apardım. Bunlar bir-biri ilə çox fərqlənirlər. Ümumiyyətlə, bu inqilab o inqilablar növündən deyil, qəribə bir hadisədir. Dünyagörmüş, kələkbaz, çoxbilmiş sionist siyasətçilər anladılar ki, bu inqilab böyük bir inqilabdır, onunla mübarizə aparmalıdırlar. Onlar bu niyyətlə proqramlar hazırladılar. Onlar əslində, tarix miqyasında böyük olan bu hərəkətdən vahiməyə düşdülər. Buna görə də, xalqı və ilk növbədə gəncləri inqilabdan ayırmaq üçün uzunmüddətli proqramlar hazırladılar.

**Vilayət layihəsinin əhəmiyyəti**

Sizin işinizin, bu Vilayət layihəsinin və bu kimi işlər üçün çəkilən doğrudan da dəyərli zəhmətlərin əhəmiyyəti burada bilinir. Siz indi gənclik dövrünüzdə ayıq şəkildə ictimai həyata başlayırsınız. Bu bilgilər, məlumatlar, dini əsaslarla, dinin möhkəm elmi təməlləri ilə tanışlıq çox

böyük bir şeydir. Mənim fikrimcə, bu layihənin əhatəsi genişləndirilməlidir. Belə layihələr o qədər faydalı, yaxşı və qurucudur ki, onlar üçün nə qədər sərmayə qoyulsa, fikrimcə, çox deyil.

**İdeoloji çatışmazlıq**

Avropanın, adətən, Qərb dünyasından və onun əlaltılarından ibarət bugünkü hakim dünyanın ən böyük çatışmazlığı düzgün təfəkkürə və kainatın düzgün dərkinə əsaslanan bir düşüncə və ideologiyanın olmamasıdır. Onların ən böyük çatışmazlığı budur, buna görə də, ardıcıl olaraq yalançı ideologiyalar düzəltməyə çalışırlar. Bizim inqilabımızdan qorxmalarının ümdə səbəblərindən biri budur ki, bu inqilabın düzgün dünyagörüşünə və yaradılış aləminə dair məntiqli və möhkəm dərkə əsaslanan, düzgün tərif olunmuş bir təfəkkürü vardır.

**İslam təfəkküründə məqsəd**

Buna əsasən, bizdə hər kəs bilir ki, dünyanın və yolun harasında yerləşir, hansı istiqamətə hərəkət edir. Bu zaman həyat da, mübarizə də məqsədli olur. İslam təfəkkürünə görə, insan həyatının məqsədi kamillik zirvələrinə çatmaqdır: maddi gözəlliklə yanaşı olan mənəvi təkamülə, necə deyərlər, dünyadan keçən axirətə, yüksək maddi gücə, mənəvi istiqamətlərə, etikaya və həqiqi bəşəri hisslərə malik mütərəqqi və mənəvi bir ölkə və ədalətli cəmiyyət qurmağa nail olmaq.

Görün nə qədər uca və gözəl bir məqsəddir! Qərblilərin belə bir şeyi yoxdur. Bir-birinin belinə mindirdikləri bütün bu sivilizasiya və yarış xudpəsəndliyə, şəxsi maraqlara dayanır. Buna görə də, bu yarışda bir yerdə qələbə əldə edirlər, amma başqa bir yerdə problemlər çıxır. Bu əxlaqi anormallıqlar, düşüncə boşluqları, cavanların sinir pozğunluğu, iztirabı və məqsədsizliyi sözügedən xudpəsəndlikdən, eqoistlikdən və şəxsi maraqların birinciliyindən qaynaqlanır.

İslam quruluşunda isə belə deyil. İslamın fəlsəfi təfəkkürü və İslam əsaslarının düzgün anlayışı insanın hər an harada, yolun harasında olduğunu və hansı səmtə doğru hərəkət etdiyini bilməsinə kömək edir, hadisələri analiz etmə qabiliyyəti yaradır və hər bir şəraitdə vəzifəsini müəyyənləşdirir.

**Görkəmli şəxsiyyətlərə hörmət**

Bu gün bizim cavanlarımız belə olmalıdırlar! Düzdür, düşmənin bundan xoşu gəlmir. Düşmən harada belə bir şey müşahidə edirsə, bacardığı qədər ona qarşı mübarizə aparır.

Bu gün İslam quruluşumuz parlaq elmi və mənəvi şəxsiyyətləri ilə fəxr edir. Əgər Allah-Taala bizim indiki nəslə Əllamə Təbatəbai, yaxud mərhum Şəhid Mütəhhəri kimi şəxsiyyətlərdən bəhrələnmək imkanı verməmişsə də, şükür olsun ki, bu əziz və böyük şəxsiyyət (cənab Misbah Yəzdi) o əzizlərin yerini tutub.

Mən həqiqətən, Allaha şükür edirəm ki, bizim cəmiyyətimizdə, xüsusən cavanlarımız arasında ona böyük hörmət var. Mən öyrənib gördüm ki, ölkəmizin hər yerində cavanlarımız ona böyük sayğı bəsləyir, inanır və onu uca tuturlar. Bu, Allahın böyük neməti və işin sağlamlığının əlamətidir. İnsan ilahi ruhiyyə ilə və ilahi məqsədlə işləsə, belə də olar.

Ümidvaram bu iş yüksək səviyyədə öz nəticə və səmərələrini versin və siz əziz gənclər - həm oğlanlar, həm qızlar, həm tələbələr və həm şagirdlər əldə etdiyiniz bu məlumatları, öyrəndiyiniz kitabları davam etdirəsiniz, bu mərkəzlə əlaqənizi kəsməyəsiniz. Bu işdə belə güclü və yaxşı formada günbəgün genişləndirilsin. Elmi və mədəni işlərlə məşğul olan şəxslər bunu dəyərli saysınlar, bunun qədrini bilsinlər və yaxşı qarşılasınlar. Siz də Allahın izni ilə hər biriniz öz çevrənizdə işıqlı bir çıraq kimi digərlərinin hidayətinə səbəb olun və onları ali İslam düşüncələri ilə tanış edin.

Mən korpusdan və Bəsicdən olan əziz qardaşlara və hər hansı bir yolla bu işdə zəhməti olanlara səmimi təşəkkürümü bildirirəm. Ümidvaram Allah-Taala hamının zəhmətlərini qəbul etsin və Öz yardımlarını bəxş etsin. İnşallah, həzrət Bəqiyyətullahın (ə) duası sizin hamınıza şamil olsun.

Allahın salamı və rəhməti olsun sizə!

## Tələbə və müqəddəs müdafiə[15]

Bismillahir-Rəhmanir-Rəhim.

**Təbriz universitetinin müəllim və tələbələrinə təşəkkür**

Əziz qardaş və bacıların hamısına xoşgəldin deyirəm. Çox xoş gəlmisiniz. Təbrizdən buraya qədər uzun yolu gəldiyiniz üçün sizə təşəkkürümü bildirirəm və sizi yaxından görməyimə çox sevinirəm. Mən həm Təbriz universitetinin tələbələrinə, möhtərəm müəllimlərinə, həm də Təbrizin müxtəlif universitetlərinin Elmi şura üzvlərinə ağıl, hikmət və qayğıkeşliklə düşmənlərin tamahının qarşısını aldıqlarına görə səmimi minnətdarlığımı bildirirəm.

**Tələbə və müqəddəs müdafiə**

Cənab Qumi[16] çox əhəmiyyətli bir məqama toxundu. Mən də bir məqamı əlavə etmək istəyirəm. Onun haqlı olaraq dediyi kimi, bizim tələbə mühitimiz müharibədən sonra məqbul elm və tədqiqat işlərinə başladı. Bizim böyük ölkəmiz daha çox tələbə və alimlərə layiq bir ölkədir. Bu gün keçmişdəkindən çox irəlidə olmağımıza baxmayaraq, ölkəmiz bundan da artığına layiqdir. Universitetlər müharibə zamanı cəbhədə əhəmiyyətli rol ifa etdilər. Tələbələr yalnız hissləri ilə idarə olunmayan, qərarlarında düşüncə, ağıl və elmlərinin rol oynadığı bir təbəqə, ayıq və aydın gənclər olaraq, müharibədə ölkənin başını ucalda bildilər. Düşmən bizə deyə bilmədi ki, siz təkcə ümumi kütlə tərəfindən dəstəklənirsiniz.

Bizim tələbə şəhidlərimiz ayıq şəkildə şəhadət və cihad yolunu seçmiş, mövqeyi dərk etmiş, fiziki fədakarlıq vaxtının çatdığını anlamış, mübarizəyə qoşulmuş və çoxları şəhid olmuş gənc nəslin danışan dilidirlər. Xüsusən müharibədə və digər dövrlərdə fəaliyyətlərinə görə tələbələrin inqilab və ölkənin boynunda haqları vardır. Mənim bildiyim qədər, müharibə dövründə Tehranın, Təbrizin və digər şəhərlərin universitetləri istedadların inkişaf yerinə çevrilmişdi. Müharibədən sonra universitetlərdə tədqiqat mərkəzləri yaradıldı. Universitet cihadı işlədi və müharibə dövründə doğrudan da cəbhənin işinə yaradı. Bundan əlavə, bizim tələbələrimizin böyük bir hissəsi Bəsicin yaradılmasında iştirak etdilər və bəziləri digər hərbi təşkilatlara - orduya, Mühafizəçilər korpusuna qoşuldular. Bütün bunlardan qabaq da Mühafizəçilər korpusu

---

[15] Təbriz Universitetinin tələbələri və məsul işçiləri ilə görüşdə çıxışı: 18 sentyabr 1999.

[16] Fəqih rəhbərin universitetlərdəki nümayəndəlik orqanının ozamankı rəisi.

əsasən, tələbələrdən təşkil olunmuşdu. Korpusun başında duranlar və müharibə komandanları hamılıqla ya tələbə idilər, ya da tələbəliyi yeni bitirmişdilər. Şəhid Bakiri və digərləri belə idilər. Sizlər Bakirinin adını daha çox eşitmisiniz, Təbriz və Azərbaycan uşaqları onu daha yaxşı tanıyırlar. Müharibə bitdikdən sonra da universitet yerində qalmadı, həmin ruhiyyə, həmin məsuliyyət hissi universitetə ötürüldü və o günün tələbəsi Elmi şura üzvü oldu. Hələ bəzi məsuliyyətləri öhdəsinə götürənlər, universitet rektoru olanlar, iş və fəaliyyət sahələrinə qoşulanlar bir yana. Nəticəsi də indi göz önündədir.

**Müharibədən sonra universitet**

Bu il tələbələrin və universitetlərimizə qəbul olanların sayı ötən illərlə müqayisəolunmazdır. İndi ölkə tələbələrinin sayı inqilabın əvvəllərinə və ondan öncəyə nisbətən on dəfədən artıqdır. İndi bizim təxminən on qat artıq tələbəmiz var, elmi səviyyə yüksək, elmi iş, tədqiqat yaxşı, fənlərin müxtəlifliyi çox yaxşıdır, hərəkət başlanmışdır. Həm tələbələr, həm də şagirdlər arasında olan parlaq istedadlar özlərini göstərirlər. Ölkənin, inqilabın və İslam quruluşunun gələcəyi bunu özünə müjdə hesab edə bilər.

Bu, hər bir ölkə üçün şad xəbərdir ki, gənclər elmə və dərsə həvəs göstərirlər, müəllimləri qayğıkeş, universitetlərin rəhbərləri həvəskar, ixlaslı və doğma kadrlardır. Mən "doğma" sözünü təkrar etməkdə israrlıyam. Bu, bir həqiqətdir. Bu gün Allaha şükür olsun ki, belədir və düşmən bunu görə bilmir.

**Universitetlərdə təxribat**

Düşmənin bu xəbis hərəkətləri təəssüf ki, ölkə universitetləri daxilində faciələrə səbəb oldu və universitetdən sonra bayıra da sirayət etdi. Mən bunların arxasında ölkənin elm və tədqiqat inkişafına qarşı xəbis məqsədlər müşahidə edirəm. Onlar bizim universitetlərimizin elm ocağı olmasını, sizlərin alim olmanızı və ölkənin gələcəyini alimcəsinə idarə etmənizi istəmirlər. Onlar İslam quruluşunun universitetlərin elmi inkişafını, ali təhsilin kəmiyyət və keyfiyyət artımını qorumasına mane olmaq istəyirlər.

**Təbriz universitetləri inqilabda**

Həm Təbrizin və Azərbaycanın özünün, həm də Təbriz universitetinin çox şərəfli bir keçmişi vardır. Ölkə universitetlərində az-çox

dini və islami aydınlıq və inqilab təfəkküründən qaynaqlanan hərəkətlər kök salanda, ən yaxşı universitetlərdən biri də Təbriz universiteti idi. O zaman orada bütün müxalif və düşmən qüvvələrin olmasına rəğmən, dərs oxuyan, inqilabi işi sınaqdan keçirən, İslam və inqilab barədə düşünən və o bölgədən əlini üzadıb bizim əziz imamımızla beyət edən nəslin hər biri parlaq bir qüvvə oldular. Mənim tanıdığım bu şəxslərin hamısı doğrudan da imanlı, aktiv və aparıcı şəxslərdən, bəziləri də parlaq ulduzlardan oldular. Onlardan biri haqqında danışdığımız Şəhid Bakiri, başqa birisi Şəhid Ali-İshaq idi.

Düşmən Azərbaycana çox ümid bəsləyirdi. Lakin Azərbaycan və Təbriz onu elə məyus etdi ki, mən bunun mislini ölkənin heç bir yerində görməmişəm. İnqilabın əvvəllərində - 1979-1980-ci illərdə baş verən hadisələr yəqin ki çoxunuzun, bəlkə də heç birinizin yadında deyil. İnqilab düşmənləri Təbrizdə nə etdilər? Təbrizin cümə imamı olan Şəhid Mədəni hansı vəziyyətə düşdü? Ondan əvvəl Ayətullah Qazini şəhadətə yetirmişdilər və imam Şəhid Mədənini göndərmişdi. Tehrandakı bəzi əlaltılarından, həmçinin digər yerlərdəki adamlarından istifadə edərək Təbrizdə hansı hadisələri törətdilər?

Bunlar mühüm tarixi və analitik mövzulardır. Onlar Təbrizə necə bel bağlamışdılar və Təbriz necə onların ağzından vurdu! Təbrizin mömin və qeyrətli xalqı necə onları qovdu və məyus etdi!

Mən inqilabın əvvəllərində 2-3 dəfə Təbrizə getmişəm. Səfərlərin birindən qayıtdıqdan sonra imamın yanına gedib dedim: "Mən ölkənin harasına səfər edirəmsə, xalq inqilaba və imama olan səmimi duyğularını və həyəcanlarını bildirirlər. Bu, xalqın imama və inqilaba olan eşqini göstərir. Lakin mən bu səfərdə Təbrizdə gördüyümü heç bir yerdə görməmişəm". Doğrudan da belə idi: ayıq şəkildə bir qəhrəman ruhiyyəsi. Verdikləri şüarların hamısı ölçülüb-biçilmişdi.

Bu gün xalqın verdiyi bu şüarların - "ABŞ-a ölüm olsun! SSRİ-yə ölüm olsun! Münafiqlərə və Səddama ölüm olsun! Fəqihin rəhbərliyinə düşmən olanlara ölüm olsun!" şüarlarının hamısı Təbrizdən başlanmışdır. Bu şüarların hamısını təbrizlilər yaratmışlar, sonra Tehrana gəlib və bütün ölkəyə yayılıb.

Bu fərari[17] "fəqihin rəhbərliyinə düşmən olanlara ölüm olsun!" şüarından çox hirslənirdi; deyirdi ki, bunu əvvəl təbrizlilər dedikləri üçün Tehran əhalisi də türk ləhcəsi ilə deyir. O bunu yamsılayırdı və çox narahat

---

[17] Məqsəd Bəni Sədrdir.

olurdu. Onların şüarları ayıq, zamanı və mövqeyi düzgün dərkdən qaynaqlanan şüarlar idi. Mən Təbrizdə bunu gördüm.

Başqa bir səfərdə də universitetə getdim. O zaman Təbriz universitetini qarışdırmışdılar. Bəlkə də bəzi cənabların yadında olar. O zaman məsul şəxslərin biri oraya gəlmişdi, bir qrup tələbəni onu aşağılamağa məcbur etmişdilər. Mən bir gün günorta çağı oraya getdim. Yadımdan çıxmır, tələbələr universitetin auditoriyasına toplaşmışdılar. Bir qədər söhbət etdim. Mən universitetdə elə mömin və ixlaslı ruhiyyə gördüm ki, bu universitetin, bu xalqın və bu şəhərin ayıqlıq və iman xüsusiyyətlərilə sığortalandığını hiss etdim. Azərbaycanı, xüsusən də Təbrizi inqilabdan ayırmaq üçün çox çalışdılar. Xalq özü cavablarını verdi. Dedi ki, biz inqilabdan ayrılmarıq. Hələ də deyirlər.

**Təbrizdə təxribat izi**

Mən Təbriz hadisələrinə baxanda inqilab əleyhdarlarının həmişəlik təxribatını, xüsusən Təbriz və Azərbaycana dair məkrli əllərini görürəm. Qəribədir! Eyni xətdir. İndi yeni bir bəhanə tapmışlar. Əlbəttə, hər zaman bir bəhanə tapa bilərlər. Həmişə iki nəfərin, iki kiçik tələbə, yaxud qeyri-tələbə qrupunun bir-biri ilə, yaxud bayırda bir sıra şəxslərlə fikir ayrılıqları, hətta çəkişmə və yaxalaşmaları ola bilər. Bu bizim universitet mühitini qarışdırmağımıza, dərs və elm ocağını iğtişaş mərkəzinə çevirməmizə səbəb olmalıdırmı?! Nə üçün inqilabın ümidi olan bir təbəqəni inqilab əleyhinə şüar verməyə, imamın müqəddəs və mübarək adına hörmətsizlik etməyə vadar edək?!

Bəziləri deyirlər ki, siz nə üçün təhlillərinizdə əcnəbilərə işarə vurursunuz? Baxın, bu belədirsə, biz nə edək?! Gözlərimizi yumaq, düşmən gəlib gözümüzün önünə çatanda və min sahədə özünü göstərəndə açaq?! Quran buyurur ki, onların sizə qarşı ədavəti ağızlarından çıxan sözlərdən bilinir.[18] Danışıqlarında, siyasi jestlərində, radio təbliğatlarında, tədbirlərində, qərarlarında həmişə İslam quruluşu ilə mübarizənin aydın əlamətləri görünür. Oturub bu düşmənin hücumuna məruz qalan biz isə dayanmadan özümüzə deyək ki, xeyr, inşallah, yalandır?!

Məgər belə düşünmək olar?! Nə üçün özümüzü aldatmalı, düşməni görməzdən gəlməliyik?! Düşməni görmək öz zəif cəhətlərimizi inkar etmək demək deyil. Zəif cəhətlərimiz olmasa, düşmən bizim qarşımıza çıxa bilməz. O, bizim zəif cəhətlərimizdən istifadə edir.

---

[18] Ali-İmran/118.

**Düşmənin zəif cəhətlərdən sui-istifadə etməsi**

Bəzi şəxslər xarici düşməni unutdurmaq üçün öz zəif cəhətlərimizi qabardırlar. Mən buna qarşıyam. Mən hamıya, ilk növbədə də özümə deyirəm ki, zəif cəhətlərimizi tapıb aradan qaldırmalıyıq. Buna heç bir şübhə yoxdur. Mən hökumətə də bunu tövsiyə edirəm. Bir neçə gün öncə Hökumət həftəsi münasibətilə hökumətdəki qardaşlara bunu dedim; baxmayaraq ki, Dövlət şurasının üzvləri nümunəvi şəxslərdir, hamısı bizim razılığımızla vəzifəyə gəlmişlər, prezident tərəfindən təyin edilmiş nazirlərdir. Dedim ki, özünüzü araşdırmalı, öz eyibilərinizi tapmalısınız. Bizim nöqsanlarımız var.

İnsan bunu hökumətə də deyir, hərbçilərə də, ruhanilərə də. Hamıya deyir ki, biz öz eyiblərimizi tapmalı, onları inkar etməməliyik. Lakin öz eyiblərimizlə məşğul olduqda unutmamalıyıq ki, bir düşmən də var. O, zərbə vurmaq üçün bizim zəif cəhətlərimizdən namərdcəsinə və xəbis şəkildə maksimum istifadə edir.

**İslam düşmənlərinin mərkəzi**

Düşməni unutmaq lazım deyil. O, bizim düşmənimizdir. Bu gün bu düşmən sionizmin, yaxud sionizmə bənzər qüvvələrin nəhəng informasiya imperatorluğunda təcəssüm olunur, o da öz növbəsində böyük neft kartellərinə və böyük oliqarxlara arxalanır. Bir şaxəsi də ABŞ-ın hakim rejimidir. ABŞ rejimi bu amilin qəlbi deyil, şaxələrindəndir. Onun qəlbi bütün dünyanı ovcunda tutmuş və rəzil duruma salmış nəhəng maddi və iqtisadi mərkəzdir. Bu mərkəzin bir biznesmeni Malayziyanı birdəfəyə alt-üst etdi. Mahathir Məhəmməd bunu burada özü mənə dedi. Sonra xahiş etdi ki, aşkara çıxarmayın, biz də faş etmədik. Bir neçə ABŞ oliqarxı və biznesmeni Malayziya kimi bir ölkənin iqitisadi vəziyyətini viran qoydu, 2-3 il geriyə saldı. Onların birinin adı qəzetlərdə, o cümlədən bizim qəzetlərimizdə çıxdı. Dünya mediasında bu barədə geniş reportajlar verdilər. Onlar belədirlər. Dünyanın harasında onların istəklərindən kənara çıxsalar, düşmənçiliyə başlayırlar. İndi siz baxın, bu qədər sərvətli İran bir gün onların xidmətçisi idi. Onlar istismar edir, aparır, yeyir, oğurlayır və hər növ istifadə edirdilər. Onlar İranı dünyanın istismarçılıq və hegemonizm gəmisindan çıxarmış İslam dövləti ilə barışmırlar.

Əlbəttə, biz Allahın lütfü və İslam quruluşunun qüdrəti ilə elə edəcəyik ki, dünənki düşmənlərimizin bəzisi İslam Respublikasının bugünkü qüdrətini müşahidə edib, nəhayət, razılaşmağa məcbur olduqları

kimi, onlar da buna məcbur olsunlar. Çarələri qalmayacaq və razılaşacaqlar.

Əgər özümüzə inamı itirməsək, onların sarayının kandarını öpməsək, onlar gəlib İslam Respublikasının sarayının kandarını öpəcəklər. Hər halda, iqtidar və mətanət öz işini görəcək. Onlar düşməndirlər, düşmənçilik edirlər.

**Universitetin mövqeyini müdafiə**

Onlar Azərbaycanın, xüsusən də Təbrizin universitetlərinə ümid bəsləyirlər. Siz Bəsicdən, İslam birliyindən, İslam cəmiyyətindən, Elmi şuradan, universitet rəhbərlərindən - kim olursunuzsa-olun, bilin ki, bu gün ölkənin universitetlərini təhsil və tədqiqat üçün təhlükəsiz yer kimi saxlamaq, universitetdəki bu gənclərin, bu istedadların inkişafına imkan yaratmaq hamının borcudur. Məmləkət bunlarındır. İran özünün bütün imkanları, bilinən və bilinməyən təbii və insani sərvətləri ilə - bilinməyənlər bilinənlərdən dəfələrlə artıqdır - bu nəsli gözləyir. Gözləyir ki, gəlib ağıl, elm, aydınlıq, güclü iradə və imanla ölkəni təhvil alsın, layiq olduğu yerə götürsün. Düşmən buna mane olmaq istəyir. Ona görə də bəlli əngəlləri törədir.

Mən təbii ki, baş verən hadisəyə təəssüflənirəm. Bir şəhid verdik, özü də elə bir əziz şəhid ki, eşitdiklərimizə görə çox yaxşı gənc və çox yaxşı bir ailədən olmuşdur. Digər tərəfdən də başqa hadisələr... Təəssüf ki, universitetin möhtərəm rektoru da döyüldü. Allah sizə[19] əcr versin! Allah bu hadisələrdə zərər çəkmiş hər kəsə əcr versin! Siz də bilin ki, Allah-Taala əcr verəcəkdir.

Cənab Quminin çox haqlı olaraq işarə vurduğu kimi, öz birliyinizin, həmçinin müxtəlif qruplar arasındakı ümumi anlaşma və razılaşmanın qədrini bilin. Bunları əldən verməyin, bacardığınız qədər qoruyun.

**Tələbə və siyasət**

Mən dəfələrlə demişəm, bir neçə il bundan əvvəl də daha çox təkid göstərdim ki, tələbələr siyasi dərk əldə etməlidirlər. Siyasi dərk siyasətbazlıq, siyasi cərəyanların alətinə çevrilmək deyil. Əksinə, siyasi dərk insanın siyasi cərəyanlara aldanmamasına səbəb olur. Mən bunu istəyirəm. Mən istəyirəm ki, tələbə onun üçün danışan, şüar verən, başına dolanan insanın kim və nəçi olduğunu bilsin, sözlərinin əsl mahiyyətini

---

[19] Təbriz Universitetinin rektoruna işarə vurur.

dərk etsin, məqsədini öyrənsin. Mən bunu istəyirəm. Əgər siyasi təhlil qabiliyyətiniz olmasa, bacarmazsınız. Mən bu sözü həmişə təkidlə vurğulayıram ki, tələbənin aldanmaması, düşmənlərin alətinə çevrilməməsi üçün universitet siyasi olmalıdır. Onların məqsədi yalnız hakimiyyətdir, vasitə nə olursa-olsun. Necə deyərlər, bir dəsmaldan ötrü məmləkəti odlamağa hazırdırlar.

Ümidvaram Allah-Taala sizə lütf göstərsin! Mən xahiş edirəm ki, dini ruhiyyəni qoruyun. Bu sizin hər bir işinizin təminatçısıdır. Allaha şükür olsun ki, yaxşı müəllimləriniz və məsul şəxsləriniz var. Mən indi ziyarət etdiyim bu cənabların bəlkə də əksəriyyətini qabaqca görməmişəm, lakin onların çöhrə və rəftarlarında ləyaqət əlamətləri müşahidə edirəm. Allah sizin hamınıza uğur versin! Öz mərifət nurunu sizin pak qəlblərinizə yönəltsin və sizi günbəgün daha da yaxşılaşdırsın. İnşallah, əziz ölkəmizi gələcəkdə sizin güclü əllərinizlə abad etsin! Dövrün imamının müqəddəs qəlbini və böyük imamımızın ruhunu sizdən razı etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Quran mədəniyyəti[20]

Bismillahir-Rəhmanir-Rəhim.

Əvvəla, Allaha şükür edirəm ki, Qurana şövq və Quran oxunuşunu öyrənməyə həvəs siz əziz gənclər arasında geniş yayılıb və günəbəgün daha da genişlənməkdədir. İkincisi isə, Quran işi ilə məşğul olan sizin hər birinizə, eləcə də məsul şəxslərə, ustadlara, müəllimlərə və bu yolda sizə kömək göstərən bütün şəxslərə səmimi təşəkkürümü bildirirəm.

**Quran oxunuşuna diqqətin fəlsəfəsi**

Quran oxunuşuna diqqətin mühüm bir fəlsəfəsi var. Məsələ təkcə məharət cəhətindən, yaxud baş qarışdırmaqdan ibarət deyil. Əgər Quranın cəmiyyətin zehni arenasında yayılmasını, onun məfhumlarının düşüncələrdə yaşamasını və Quran adətinin cəmiyyətin beyninə hakim olmasını istəyiriksə, - qeyd etməliyəm ki, bu, çox əhəmiyyətli bir məsələdir - cəmiyyətin bütün üzvləri Quranı mütləq düzgün oxuya bilməlidirlər. Onlar bununla Quran ayələri üzərində düşünmək imkanı tapacaq və düşünməklə öz səviyyələri çərçivəsində onun dərinliklərinə yiyələnəcəklər.

Quranı gözəl oxuyan qarilər digərlərini də Quran oxumağa sövq edən bayraqdarlardır. Quranı gözəl və düzgün oxumağın bu xususiyyəti var.

Dünyanın bəzi yerlərində Quranın gözəl oxunuşu bir incəsənət növüdür. Bir nəfər Quranı və onun müxtəlif qiraətlərini öyrənir ki, hansısa yerə gedib oxusun və pul alsın. Xoşbəxtlikdən, bizim ölkəmizdə belə deyil. Bu, çox kiçik və dəyərsiz bir məsələdir. Məşhur Quran qarilərinin çoxlarının peşəsi budur. Əlbəttə, pis peşə deyil, yaxşı peşədir. Nə yaxşı ki, insanın peşəsi Quranla əlaqəli bir sənət olsun. Lakin hər halda, sənətdir. Bizim qarilərimizdə isə belə deyil, eşqləri, meylləri budur. Bu, çox yaxşıdır. Siz qiraətin rəmzləri və zərif məharətləri ilə düzgün və yaxşı şəkildə oxusanız, Quranla tanış olan hər bir adamı daha da həvəsləndirər, onun mənasını bilənləri isə təfəkkürə sövq edərsiniz. Mənim özüm qiraət məclislərində çox olmuşam, kasetlərini çox dinləmişəm. Qurandan anladığım bir çox həqiqətləri bir qarinin xoş qiraəti zamanı əldə etmişəm. Gözəl qiraət insanın düşünməsinə və məqamı tutmasına kömək edir. Belə

[20] Tələbə və şagirdlərdən olan Quran fəalları ilə görüşdə çıxışı: 27 oktyabr 1999.

bir iş görə bilsəniz, bu çox böyük hünər olar, Quranla tanış olmayan şəxsi də Qurana həvəsləndirər. Yəni yaxşı qiraət dinləyən hər bir kəsi bir addım irəliyə aparır. Bu, mühüm bir işdir.

**Quran mədəniyyəti**

Mənim əzizlərim, bilin ki, İslam ümmətinin hər hansı bir hissəsi, məsələn, İran əhalisinin əksəriyyəti, yaxud bu ümmətin böyük bir hissəsi Quran məfhumları ilə birbaşa əlaqə qura bilməsələr, Quran mədəniyyətinin təməlləri möhkəmlənməyəcək.

Xalq Quranı anlamalıdır. Gərək bizim cavanlarımız, qızlarımız, oğlanlarımız, ata-analarımız, rəsmi idarə işçiləri, ticarət adamları, əkinçilər, fəhlələr - cəmiyyətin bütün təbəqələri ictimai, siyasi, yaxud iqtisadi məsələlər barədə düşünərkən zehinlərində Quran ayələrinə söykənən bilgilər toplusu əks olunsun. Görün nə qədər mühümdür!

Hansı cəmiyyətin əksəriyyəti, yaxud böyük bir hissəsi bu vəziyyətdə olsa, İslam təməllərinin oturuşmasına ümid bəsləyə bilər. Biz bu məqsədə doğru gedirik. Düşmənlərin gördüyü bütün mədəni-ideoloji işlərə rəğmən, indi biz və cəmiyyətimiz bu istiqamətdə uğurla hərəkət edirik. Bu gün ölkədə sizin kimi milyonlarla gənc Quranla məşğuldur; bəziləri sürətlə, bəziləri asta-asta, bəziləri də sürünə-sürünə Quranla ünsiyyətə sarı gedirlər.

Misal üçün, tənbəl bir insan Quranın bu məşhur "İnsana ancaq öz zəhməti qalar! Şübhəsiz ki, onun zəhməti görünəcəkdir!"[21] ayəsini xatırladıqda və bildikdə ki, heç bir insan zəhmətinin nəticəsindən savayı bir şey görməyəcək və öz zəhmətinin bəhrəsini mütləq görəcək, görün onda necə həvəs yaranar! Görün bu ayə laqeyd insana necə həvəs verər və həvəskar adamı möhkəm saxlayar. Həyatın bütün sahələrinə dair Qurani-kərimin aydın, şəffaf, yolgöstərən və həlledici sözü var. Əgər insanlar Qurana bağlansalar, mənasını başa düşsələr, bu məfhumlar tədricən beyinlərə hopar və cəmiyyətin sabit düşüncələrinə çevrilər. Yaxşı qiraət bu işi görə bilər. Siz mühüm rol oynaya bilərsiniz. Xüsusən məşğul olduğunuz universitetlərdə, təhsil ocaqlarında, öz çevrələrinizdə təsirli ola bilərsiniz.

Quran oxumaq vacib, Quranı yaxşı oxumaq isə lazımlı bir addımdır. Düzdür, ilk addımdır, bunun ardınca digər addımlar da atmalı, Quranın mənasını anlamalısınız. Özünüz qiraət edəndə, yaxud digəri oxuyanda Quran ayələri üzərində dərindən fikirləşin, çoxlu həqiqətlər

[21] Nəcm/39-40.

öyrənəcəksiniz. İndi dünyanın qərar mərkəzlərində bizim gənc nəsil əleyhinə planlaşdırılan və icra olunan bütün pis və bəd niyyətlərin, fikirlərin olmasına baxmayaraq, Allahın lütfü ilə öz müqavimətiniz, paklığınız, nuraniliyinizlə və mövcud İslam mühitində tənəffüs almaqla inkişaf edəcək, bütün bunlara qalib gələcəksiniz. Sizlər inşallah, bu yolun öncülləri olacaqsınız. Ümidvaram müvəffəq olasınız.

Allahın salamı və rəhməti olsun sizə!

## ABŞ-la əlaqə qurmamağın səbəbi[22]

Bismillahir-Rəhmanir-Rəhim.

Əvvəldə siz əziz gənclərin hamısına - tələbələrə, şagirdlərə, bu xalqın əzizlərinə xoşgəldin deyirəm. Ümidvaram bu səmərəli rəcəb ayında, həmçinin qarşıdan gələn şəban və ramazan aylarında pak qəlbləriniz, isti nəfəsləriniz, Böyük Allahla səmimi əlaqəniz sayəsində Allahın rəhmətini bu xalqa yönəldə biləcəksiniz.

**Hegemonizmlə mübarizə günü**

Bizim bugünkü görüşümüz 13 abanla (4 noyabrla) bağlıdır. Bu gün Hegemonizmlə Mübarizə Günü adlandırılmışdır. Bu, çox əhəmiyyətli, dərin, mürəkkəb və diqqətəlayiq bir addır. Yaxşı olar ki, əziz gənclər öz tələbə və şagird müzakirələrində həm "hegemonizm" (istikbar), həm də "mübarizə" sözünü araşdırsınlar, inqilabın dünyanın siyasi leksikonuna daxil etdiyi yeni termini dərindən öyrənsinlər. Dünyanın siyasi leksikonuna yeni sözlər əlavə etmək və bununla da özlərinin istədikləri anlayışları düzgün çatdıra bilmək bütün prinsipial, dərin və köklü hərəkətlərin xüsusiyyətidir. "Hegemonizm" (istikbar) və "hegemonizmlə mübarizə" sözləri də bu qəbildəndir.

**13 Abanın üç hadisəsi**

13 Aban (4 noyabr) tarixində baş vermiş üç hadisənin hər biri ayrı-ayrılıqda və məcmu halında çox diqqətəlayiqdir. Əgər diqqət yetirsəniz, görərsiniz ki, bu üç hadisənin hər biri həm hegemonluğun, həm də onun qarşısında dayanan xalqın bir simasını göstərir. Bunların məcmusu mühüm bir siyasi həqiqəti aydınlaşdırır.

**İlk hadisə - imamın sürgün edilməsi**

Birinci hadisə 1964-cü ildə imamın sürgün edilməsidir. O zaman amerikalılar İranda kapitulyasiya qanununu qəbul etdirdilər. Kapitulyasiya odur ki, amerikalılar, yaxud hər hansı bir ölkədə hakim olan əcnəbi qüvvələr cinayət törətsələr, həmin ölkənin hüquq-mühafizə orqanlarının bu cinayətləri araşdırmağa, əcnəbiləri məsuliyyətə cəlb edib barələrində hökm çıxarmağa hüququ çatmır. O zaman İranın müxtəlif

---

[22] Amerikanın casus yuvasının tutulmasının ildönümü (Beynəlxalq Hegemonizmlə Milli Mübarizə Günü) münasibəti ilə tələbə və şagirdlərlə görüşdə çıxışı: 3 noyabr 1999.

qurumlarında iki yüz min nəfərdən çox amerikalı çalışırdı. Bu qanun çürük və qeyri-müstəqil sarayın əmri ilə ozamankı asılı və azğın parlamentdə qəbul olunmuşdu. Onun mənası bu idi ki, İranda sakin olub külli miqdarda maaş alan, ölkənin bütün işlərinə müdaxilə edən amerikalıların biri cinayət törətsəydi, bir nəfəri öldürsəydi, oğurluq etsəydi, hər hansı bir iş görsəydi, İran prokurorluğunun və məhkəməsinin onlara "gözün üstə qaşın var" deməyə haqqı çatmırdı. Onların mühakiməsi amerikalıların nəzarəti altında aparılmalı idi. Bu, bütün xalqlar üçün rüsvayçı qanunlardan biridir. İmam bununla razılaşmadı və Qumda dini tələbələr qarşısında öz etiraz səsini ucaltdı. O, sözügedən qanunu pislədi, asılı rejim də onu Türkiyəyə sürgün etdi. Bu elə bir şəraitə aiddir ki, ABŞ-ın İranla yüksək dost münasibətləri vardı, ortaq maraqlara malik idilər, Amerika İranda oturmuşdu. Amerikanın bizim ölkəmizdəki hökmranlığının əlamət və nəticələrindən biri bu hadisədir.

**İkinci hadisə - 4 noyabr 1978**

1978-ci ildə baş verən ikinci hadisə İranda şah rejimi və ABŞ əleyhinə mübarizənin qızğın çağına aiddir. Bu dəfə başqa bir sima görsənir. Belə bir gündə rejimə bağlı orqanlar - onların çoxunu, yaxud hamısını amerikalılar yetişdirmişdilər və onlardan əmr alırdılar - hətta şagirdlərə də rəhm etmədilər. Bu hadisədə onlarla şagird öldürüldü. Düzdür, həmişə öldürürdülər, həmişə xalqa qarşı zor işlədirdilər, lakin Tehran şəhərində bir yerdə bu qədər şagirdin qana boyanması hegemonizmin başqa bir simasını göstərir. Bu haçana aiddir? Bu, xalqın zalım hegemonizmə qarşı mübarizəsinin gücləndiyi zamana aiddir. Belə bir şəraitdə hegemonizm daha heç nəyə rəhm eləmir, bütün humanizm, xalqsevərlik və gəncləri müdafiə şüarlarına baxmayaraq, hətta şagirdlərlə üz-üzə gələndə onlarla şagirdi qətlə yetirir.

**Üçüncü hadisə - casus yuvasının fəthi**

Üçüncü hadisə başqa bir simadır, uzun illər zülm, təhqir, müdaxilə və soyğunçuluqlara dözən xalqın qələbə çaldığı vaxta aiddir. Bu xalqın qələbə dövründə ABŞ artıq qovulmuşdu, lakin buradakı casus orqanı işindən qalmırdı, xalqı və imamı çox şübhələndirən bəzi hərəkətlər edirdi. Belə bir gündə tələbələr arasından bəzi gənclər 13 aban yürüşündən istifadə edib ABŞ səfirliyini tuturlar. Gənc tələbələr səfirliyə girib sənədləri topladılar, təxminən 70 cildlik, bəlkə daha artıq kitab nəşr etdirdilər. Bu kitablar ABŞ səfirliyinin ölkəmiz daxilindəki adamları ilə əlaqələrini

göstərir; bəziləri inqilabdan qabaqkı dövrə aiddir, bəziləri də sonrakı dövrə. Onların bəziləri hətta müvəqqəti hökumətdə vəzifə də tutmuşdular; yəni amerikalılar əl çəkmək bilmirdilər.

**Hegemonizmin üç üzü**

Buna əsasən, 13 abanda hegemonluğun üç siması görünür. Biri Amerikanın İrandakı iqtidarının zirvə dövründə baş verdi: kapitulyasiya, İran xalqının direniş tərənnümü olan imamın müqaviməti və onun ardınca gənclərin cavabı; o zaman əvvəlcə gənc hövzə tələbələri, sonra isə bütün ölkə gəncləri cavab verdilər. İkinci hadisə bu xalqın hegemonizmlə mübarizəsinin zirvə çağında baş verib onun yırtıcı xislətini göstərir. Onlar şagird və yeniyetmələri qana bələşdirirlər. Üçüncü hadisə isə xalqın uzun illər əsarətdən sonra öz ayağı üstə dayanıb qələbə çadığı və dövlət qurduğu, onların isə casusluqla məşğul olduğu zamana aiddir. Burada xalq qüdrətlə səhnəyə çıxır və ABŞ səfirliyini tutur. Bunlar üç rəmz və üç simvoldur. Əgər bu üç hadisəni bir yerə toplasaq, ümumi şəkildə həm hegemonizmin, həm məzlum xalqın simasını, hegemonizmin taleyini və ölkəmizdəki hərəkət xəttini göstərər.

**Hegemonizmlə mübarizənin səbəbi**

Nə üçün xalq hegemonizmlə mübarizə apardı və hegemonizm nə üçün pisdir? Diqqət yetirin. Hegemon xislətlə qarşılaşdıqda bir xalqın keçirdiyi ilk hiss dini deyil, milli qeyrət hissi, şəxsiyyət və varlıq hissidir. Çünki hegemonizm bir ölkəyə daxil və ona hakim olduqda, xalqın milli kimliyini inkar edir. Bəli, ölkənin sərvətlərini qarət edir, siyasi işlərinə müdaxilə edir, lakin bunların hamısı xalqın kimliyini inkar edəndən sonra baş verir. Hegemonizm ilk dəfə daxil olanda demir ki, mən sizin milli kimliyinizi inkar etmək üçün gəlirəm. Belə demir, müxtəlif bəhanələrlə daxil olur və sonra milli kimliyi hədəfə alır; yəni xalqdan mədəniyyəti, etiqadları, dini, iradəni, müstəqilliyi, hakimiyyəti, iqtisadiyyatı - hər şeyi alır və əlində saxlayır. Bunlar inqilabdan öncə İranda baş vermişdi. Xalqları hegemonizm qarşısında coşduran və ayağa qaldıran bu hissdir. Buna görə görürsünüz ki, hətta müsəlman olmayan xalqlar da bu gün bacardıqları qədər Amerikaya qarşı çıxırlar. Təbii ki, söhbət bu gündən gedir, o zaman isə heç kim ona qarşı çıxmağa cürət etmirdi. Bu yolu İran xalqı açdı.

**Dünyada hegemonizmlə mübarizənin bayraqdarı**

Bu gün dünyanın müxtəlif bölgələrinə baxın. Mən indi adlarını çəkmək istəmirəm, amma bu xəbərlər dünyada yayılan xəbərlərdir. Amerikalıların hərbi bazası olan və xalqa zülm etdiyi bir ölkədə onların əleyhinə milli mitinqlər keçirirlər. Hansısa ABŞ rəsmisinin getmək istədiyi bir ölkədə onun gəlişindən qabaq xalq divarlara yazır ki, gəlmə. Bir ölkədə hökumətlə filan istismarçı və hegemon müqaviləni imzalayır və xalq ciddi etiraz edir. Hökumətlər öz maraqlarına görə xalqların səsinin yayılmasına qoymurlar. Hegemonizmin informasiya şəbəkəsi də bütün dünyanı əhatə edir. Bu gün İranda fars dilində yayımlanan bu radiolar xalqları çaşdırmaq istəyən böyük media imperatorluğunun bir hissəsidir. Əksəriyyəti də sionistlərin, yaxud maraqları ABŞ maraqları ilə kəsişən böyük oliqarxların əlindədir. Sözügedən xəbərlərin dünyada yayılmasına imkan vermirlər. Xalqlar isə hegemonizmin müdaxiləsinə qarşı çıxır, etiraz səslərini ucaldırlar. Lakin hər xalqda elə uğur və şans olmur ki, İran xalqının etdiyini edə bilsin. Bizim müsəlman xalqımızın üstün cəhəti onun varlığını inkar edən güclə mübarizə, hegemonizm qarşısında müqavimət, milli iqtidar və milli qürur hissidir. İran xalqı müdhiş və şahanə bir iş gördü. Məhz buna görə də İran xalqı ilə qatı düşməndirlər. İran xalqının gördüyü işi o zamana qədər ABŞ-a qarşı heç bir xalq görməmişdi. Bu onlar üçün təcrübə oldu, bu günə qədər bu təcrübənin digər ölkələrdə təkrar olunmasına qoymayıblar. Amma şübhəsiz ki, bacarmayacaqlar, xalqların qüdrəti nəhayət, qalib gələcək. Bu, gələcəyin işidir. Biz də görməsək, siz inşallah, o günləri görəcəksiniz.

**Hegemonizmlə mübarizənin dini kökü**

Bizim xalqımızın hegemonluqla mübarizəsinin dini kökü də var. “İstikbar” (hegemonluq) və “müstəkbir” (hegemon) və qarşılığında “istizaf” (məzlum acizlik) və “müstəzəf” (məzlum aciz) sözləri Quranda mövcuddur. Bizim xalqımız bu ruhiyyə ilə ABŞ və ona bağlı olan mənfur rejimə qarşı mübarizə aparanda arxasında dini iman və etiqadlardan ibarət əzəmətli bir dayaq dayanmışdı. Bu, onları uğura çatdıra bildi.

**ABŞ-la əlaqənin acı təcrübəsi**

Hegemonizm hansı ölkəyə daxil olsa, onu boşaltmağa çalışır, bacardığı qədər hər bir şeyini müsadirə edir. Bu gün ön sırada amerikalıların özləri, yəni qeyd etdiyim təbliğat maşınları, arxa sırada da ölkəmiz daxilindəki həqiqətən, dəyərsiz, yaramaz, bəlkə də bəziləri aldanmış və avam olan muzdur qələm sahibləri elə bilirlər ki, Amerikanın

hər hansı bir ölkə, məsələn İslam Respublikası ilə əlaqələri normallaşsa və münasibət yaransa, İran xalqının bütün iqtisadi problemləri birdən-birə həll olunacaq. Kim belə düşünürsə, böyük səhvə yol verir. İran xalqı Amerika ilə əlaqəni bir dəfə sınaqdan keçirmişdir. Amerikalılar İranda hegemonluq etdikləri 1953-cü ildən 1978-79-cu illərə qədər nəyimiz vardısa, bizdən aldılar, nə vardısa, apardılar. İran xalqının bugünkü problemlərinin çoxu o dövrə, eləcə də ingilislərin hökmranlıq dövrünə aiddir. İngiltərə də ABŞ kimidir, fərqi yoxdur. Amerikalılardan qabaq İranda ingilislər hakim idilər. Qacarlar dövrünün sonlarından Rza xanın hakimiyyətə gəlməsinə və sonra 1953-cü ilə qədər İranda hər şey ingilislərin əlində idi; bir hökuməti gətirir, o birini aparırdılar; nefti aparır, sərvətləri talayır, mədəniyyət formalaşdırır, istədikləri hər bir işi görürdülər. Sonra amerikalılar gəldilər və İranı beynəlxalq rəqabətlərdə fəth etdikləri bir bölgə kimi ingilislərdən təhvil aldılar.

**Hegemonizmlə əlaqə - böyük şər**

Bir xalq hegemon məqsədləri olan bir dövlətlə əlaqədən heç bir xeyir və fayda görməz. Baxın, indi Asiyada, Afrikada və digər yerlərdə ABŞ-la əlaqəsi olan müxtəlif ölkələrin nə qədər elmi gücləri olsa, nə qədər elmi və texnoloji inkişaf və müstəqillikləri olsa, bir o qədər müqavimət göstərə bilərlər. Əgər öz daxillərində möhkəm bir bünövrə qura bilməmişlərsə, hegemon ABŞ nəinki onlara fayda yetirməyəcək, hətta onlardan istifadə edəcək, onlara zərbə vuracaq, onları özünün istər hərbi, istərsə də digər dəyərsiz məhsullarını satmaq üçün bazara çevirəcək, sərvətlərini talayacaq, bütün işlərinə qarışacaq. Hegemonizmin məqsədi budur.

**İranla əlaqədə ABŞ-ın əsas məqsədi**

Son 3-4 ildə amerikalılar hərdən oyan-buyanda dedilər ki, biz İranla əlaqələri bərpa etməyə hazırıq. 3-4 ildir bu sözləri deyirlər. Əslində, bunu deməyə ehtiyac da yox idi. Bəllidir ki, əlaqə qurmaq istəyirlər. Lakin bu əlaqədə onların məqsədi nədir? Bunu gizli saxlayırlar. Bu yaxınlarda dövlət rəsmilərindən biri sadəlövhlük etdi və onların demədiyi sözü dilinə gətirdi. Dedi ki, biz İranla əlaqələr quraraq, lakin şərti budur ki, İran əvvəlcə İsraillə problemini həll etsin. Bəli, ümumiyyətlə, problem budur. Biz bunu həmişə deyirdik, amma bəziləri fikir vermirdilər. Hər hansı bir ölkə ilə əlaqədə, xüsusən də bu gün İsraillə mübarizənin ən güclü bazası olan müsəlman İranla əlaqədə ABŞ-ın əsas məqsədi budur.

**ABŞ siyasətini idarə edən sionistlər**

ABŞ siyasətini idarə edən sionistlərdir. Gördünüz ki, bir neçə gün bundan qabaq başqa bir şəxsləri sionistlərin məclisinə getdi və onların xoşuna gəlmək üçün, bizim Xarici işlər nazirinin yaxşı ifadəsilə desək, gözəl rəqs etmək üçün onların qarşısında İranı pislədi. Məsələ sionist məsələsi, müsəlman xalqların ürəyində bir xərçəng vəzisi kimi işğalçı İsrail qüvvələrinin yerləşdirilməsidir. Müsəlman xalqlar üçün ən böyük bədbəxtliklər buradan yaranır. Buna əsasən, əlaqə söhbəti səmimi məsələ deyil. Əlaqə öz istəklərini təkrar, diktə və hətta təhdid etmələri üçündür.

**İran qarşısında aciz qalan hegemonizm**

İran xalqı elə bir iş görmüşdür ki, bugünkü ABŞ və hegemonizm kimi bir güc aciz qalmışdır. O iş budur ki, İran xalqı, dövləti və İslam Respublikası quruluşu özünün müstəqil olmaq, öz uca amalları yolunda heç bir gücdən icazə almadan hərəkət etmək istədiyini elan etmişdir. Onlar bunu istəmirlər. Dünyada elə bir ölkə, dövlət və xalq var ki, ABŞ-ın fikrinə, müdaxiləsinə və beynəlxalq diktaturanın hegemon iradəsinə heç bir əhəmiyyət vermir. Bu, hegemonizm üçün çox mühüm və ağır, digər tərəfdən də əlacsızdır. Bunun qarşısında heç bir iş görə bilmirlər. Nə iş görə bilərlər? Əgər biz kiməsə müharibə elan etsəydik, deyərdilər ki, siz müharibə istəyirsiniz. Əgər biz hansısa xalqa zülm etsəydik, deyərdilər ki, siz zalımsınız. Bunları deyə bilməzlər.

İran xalqı özü üçün tərif etdiyi və asan əldə etmədiyi məqsədlərlə heç bir gücün müdaxiləsi olmadan, heç kəsdən icazə almadan, öz şərəfi, maraqları və amalları yolunda hərəkət etmək istəyir. Hegemonizm isə bunu görə və buna dözə bilmir.

**Hegemonizmlə mübarizənin əhəmiyyəti**

Bu gün ABŞ rejiminin təmsil etdiyi hegemonizmlə mübarizə bu inqilabın mahiyyətindən, bu xalqın əsas iş və istəklərindəndir. Bu xalq hegemonizmlə mübarizəni buraxsa, mənası budur ki, əcnəbilərin müdaxiləsinə, rüsvayçılığa və inqilabdan öncəki çox təhlükəli vəziyyətlə razılaşmışdır. Bütün xalq hegemonizmlə mübarizəni belə anlayır.

**ABŞ-ın müdafiəçiləri**

Düzdür, inqilabın əvvəlində və inqilabdan öncə əcnəbiyə könül verənlər, imamın kapitulyasiyanı ümumi minbərdə və hamının gözü önündə rədd etdiyində "nə olsun ki?!" deyənlər də vardı. Bunlar nə milli

kimlik anlayırlar, nə milli qeyrət, nə milli izzət; nə istiqlaliyyətin bir xalqın inkişafı üçün nə qədər mühüm olduğunu bilirlər, nə də bu barədə düşünmək istəyirlər. Onlar yaramaz, alçaq və zəbun insanlar idilər. O gün də bütün təbəqələrin arasında var idilər. Əlbəttə, az idilər, çox deyildilər, amma var idilər; ziyalıların arasında da var idilər, qələm adamlarının arasında da, ruhani geyimində də. Ümumi millət, xalqın ayıq insanları, imanlı adamlar, xüsusən aydın qəlbi və təhlil qabiliyyətinə malik beyni olanlar isə imamın mövqeyini dəstəklədilər. O zaman hələ şagirdlərin qətli baş verməmişdi. Bilirdilər ki, bu mövqe düzdür. Çoxları mübarizəyə qoşuldular. Mübarizə geniş vüsət aldıqda, ABŞ əlaltılarının İrandakı caynağı və qanlı dişi görünəndə daha çoxları anladılar. İnqilab qələbə çalanda inanılası olmayanlar da yola gəldilər və iman qazandılar. Amma eyni zamanda, mənim yadımdadır, həmin ilk gündə Dövlət Şurasının bəzi üzvləri tələbələrin işini pisləyib deyirdilər ki, nə üçün ABŞ səfirliyinə getdilər.

Ürəkləri o tərəfdə olanlar indi də var. Onların milli istiqlaliyyət, milli kimlik, milli şəxsiyyət adlı bir şeyə inamları yoxdur. Tərbiyələri bir ölkədə hegemon gücün olmasının bir xalq üçün nə qədər ziyan və ağır olduğunu düzgün anlamağa imkan vermir. İslam əmrlərinin də onların bəziləri üçün o qədər də əhəmiyyəti və dəyəri yoxdur. Onlar həmişə kiçik azlıq olublar, bu gün də elədirlər. Düzdür, fəaliyyət göstərirlər, təbliğat aparırlar, İslam düşmənlərinin təbliğatını davam etdirirlər. Amma xalq, xüsusən gənclər, tələbələr, şagirdlər və müxtəlif gənc təbəqələri dərk edirlər ki, bir xalq üçün ən böyük təhqir hegemon gücə təslim olmaqdır.

**ABŞ-ın İran üçün planı**

Təhlil qabiliyyəti olan hər kəsə aydındır ki, bu gün ABŞ-ın İran üçün hegemonluqdan başqa bir planı yoxdur. O, inqilabdan öncəki vəziyyəti qaytarmaq istəyir. Bəllidir ki, İran xalqı bu plana qarşı mübarizə aparır. Bu, İran xalqının istibdad əleyhinə məqsədidir. Düzdür, düşmənlər tərəfindən bəzi işlər görülür: təbliğat aparır, danışır, səfsətə edir, bəziləri hətta hegemonizmlə mübarizə günü olan 13 Abanı ABŞ qarşısında yumşaqlıq gününə çevirməyə çalışırlar. Bunu xəyanət adlandırmasaq da, sadəlövhlük adlandırmağa məcburuq.

Siz gənclər çox ayıq olmalı, düşmənin məqsədlərini tanımalısınız. Bu gün hegemon ABŞ-ın məqsədi dünyaya hakim olmaqdır. Bu, gizli bir şey deyil. Hətta Avropa ölkələri də ABŞ-ın mədəni hücumundan, ABŞ

valyutasının müdaxiləsindən narahatdırlar. Məqsəd ələ keçirməkdir. Bu arada duruş gətirməyən ölkələr var. İran xalqı isə möhkəm dayanmışdır.

Düşmən hədələyir, tamahlandırır, şirnikləndirir, təbliğat aparır və bütün bunlarda bir məqsəd güdür. O da bir yol tapıb yenidən İrana daxil olmaq, yenidən süfrəsini açmaq və inqilabdan öncəki rəzil durumu təkrarlamaqdır. Lakin şübhə yoxdur ki, İran xalqı belə hegemon tamahlar qarşısında var-gücü ilə dayanacaq.

Allaha şükür olsun ki, bu gün İslam Respublikası dünya səviyyəsində başıuca və öncül bir simaya malikdir. İran xalqını və dövlətini dünyadan təcrid etmək üçün amerikalıların səyləri nəticə verməmişdir və heç zaman da verməyəcək. Bizim xalqımız quruluşun məsul şəxslərinin arxasında dayanmışdır.

**Ən mühüm vəzifə**

Düşməni tanımaq hər bir işdən mühümdür. Düşmən özünü dost kimi göstərmək, xalqların şüarlarını dəyişdirmək istəyir. Necə ki, bəzi ərəb rəsmiləri arasında sionizmlə mübarizə şüarını başqa bir şüara çevirdilər. Onların işlərindən biri şüarları dəyişdirməkdir. Elə xalq və dövlət təslim olar ki, düşməni tanımasın, yaxud fəsada və bədbəxtliyə düçar olsun. Əgər düşməni tanısa, - mən gənclərə bunu tövsiyə edirəm - o zaman şüarlar aydın və ayıq olar, Allahın lütfü ilə düşmən öz istədiyini xalqımızdan ala bilməz. Ümidvarıq Allah-Taala siz gəncləri qorusun, Öz hidayət nuru ilə bütün ürəkləri hidayət etsin, xalqımızın addımlarını möhkəmləndirsin, düşmənlərini məğlub etsin və siz gənclər dövrün imamının lütfü ilə bu ölkədə aydın və parlaq gələcəyi görə və öz əlinizlə qurasınız.

Allahın salamı və rəhməti olsun sizə!

## Tələbə oyanışının xüsusiyyətləri[23]

Bismillahir-Rəhmanir-Rəhim.

Sizin adlı-sanlı universitetinizə gəldiyim üçün çox şadam. Təəssüf ki, bundan qabaq heç zaman buna nail olmamışam. Həm prezidentlik dövründə, həm də ondan sonra bir neçə dəfə bu universitetə gəlib tələbələrlə görüşməyi planlaşdırmışıq, lakin hər dəfə işlərin çoxluğuna və bəzi problemlərə görə alınmayıb. Bu gün Allaha şükür edirəm ki, buna nail oldum və sizin universitetinizə gəldim.

**Şərif Sənaye Universitetinin iki üstün xüsusiyyəti**

Şərif Sənaye Universiteti haqqında bir cümlə deyim. İnsan bu universitetin tarixçəsində iki üstün xüsusiyyəti müşahidə edir: biri elmi, biri isə inqilabi və dini xüsusiyyət. Sizin universitetiniz həm elmi, həm də inqilabi və dini fəaliyyətlər baxımından uğurlu və öncül universitetlərdən biridir.

Universitetin möhtərəm rektoru toxundu ki, bu universitetin keçmişdə məşhur şəhidləri olmuşdur; məsələn, Şəhid Abbaspur, Şəhid Vəzvai, Şəhid Şuridə, inqilabdan öncə şəhid olmuş Şəhid Şərif Vaqifinin özü. Bunların hər biri bir şəhiddir, lakin tamamilə fərqli və parlaq bir şəxsiyyətlərə malikdirlər.

Quruculuq cihadının yaradılmasında, məcburi müharibədə, Mühafizəçilər kopusunun ilk heyətində, inqilabın ilk illərinin inqilabi və siyasi fəaliyyətlərində bu universitetin görkəmli şəxsləri iştirak etmişlər. Yəni bu universitet din və inqilab sözünü çox aydın şəkildə başa düşüb tələbələr, müəllimlər, kafedra müdirləri, universitet rektorları arasında və universitetin özündə göstərən bir universitetdir.

Bu universitet elmi baxımdan da yüksək səviyyədədir. Biz bir neçə dəqiqə bundan əvvəl möhtərəm müəllimlərin yanında idik. Bizi bəzi statistikalarla tanış etdilər. Düzdür, mən onların çoxu haqda məlumatlı idim. Beynəlxalq yarışlarda, elmi sahələrdə, parlaq istedadların cəlb olunmasında bu universitet uğurla çıxış etmişdir.

**Elm və dinin sintezi**

---

[23] Şərif Sənaye Universitetindəki görüşdə çıxışı: 22 noyabr 1999.

Buraya qədər deyilənlərdən belə nəticə çıxarırıq ki, sizin universitetiniz, bu universitetdə təhsil alan siz əziz tələbələr və müəllimləriniz din və elmin birləşməsinin canlı, görkəmli və praktik nümunələrisiniz. Bəziləri oturub danışsınlar, fəryad qoparsınlar ki, elm və din bir-biri ilə uyğun gəlmir. Yüz saat çıxışın sizin bir saat iştirakınız qədər elmi faydası yoxdur. Çünki siz varsınız, iştirak edirsiniz, o, robotlarınızın keçmişi, dünyada birinci yeri tutduğunuz riyaziyyat olimpiadası, kapital cəlb etməyiniz, çox görkəmli elmi nümayəndələriniz, bu da sizin dini simanızdır. İndi bu universitetdə olan Quran və din mərkəzləri, dini incəsənət işləri ölkənin bir çox universitetlərindən daha yaxşı, daha canlı və daha fəaldır. Mən də onların bəzisindən xəbərdaram. Bəzilərinin sözü ilə desək, bir şeyin mümkün olmasının ən yaxşı və ən konkret dəlili onun həyata keçməsidir. Biz bir şeyin mümkün olub-olmaması haqda danışırıq, sonra görürük ki, həmin şey indi mövcuddur; daha mübahisə və müzakirələr bitir. Düzdür, yenə də bəziləri mübahisəni davam etdirəcəklər. Dünyada bikar və yalnız zehni mübahisələr ardınca düşən insanlar az deyillər. Orada-burada oturub danışırlar: "Danışaq görək inqilabi təmayül, din və dini əməl elmi inkişafla uyğun gəlir, yoxsa yox?" Çox gözəl, oturub gecəyə qədər danışsınlar. Bu universitetin, burada bu elmi toplumun, mənim üçün çox yaxşı və əziz olan siz tələbələrin və çox yaxşı müəllimlərinizin varlığı bu söhbətləri faydasız, əbəs və yersiz edir.

**Rəhbərin müraciət obyekti**

Əslində, mən siz əziz tələbələrlə görüşəndə beynimdən çoxlu sözlər keçir. Mənim çox sözlərimin əsas müraciət obyekti sizlərsiniz, gənc tələbə nəslidir. "Biz" deyəndə özümü İslam Respublikası quruluşunda məsul şəxs kimi yox, Əli Xamenei kimi, bir hövzə tələbəsi və bir ruhani kimi, İslam, tarix və siyasət sahələrinə, elm və düşüncə məsələlərinə marağı olan bir adam kimi nəzərdə tuturam. Düzdür, vəzifənin özü də başqa bir məsələdir. Mənim əsas müraciət tərəfim gənc təbəqə və bu təbəqə arasında alimlər, nümunəvi tələbələr, elm, mədəniyyət, maarif, tədqiqat, demək, anlamaq və inkişaf adamlarıdır. Dövlət vəzifələrinin pərdəsi bunların çoxunun qarşısını tutur. Yəni biz özümüz də bu pərdəni çəkib ürək sözümüzün mərkəz nöqtəsinə çata bilmirik. Buna əsasən, çoxlu sözlər mövcuddur və məşhədli şairimizin dediyi kimi, bir sinə söz dalğalanır.

**Tələbə oyanışı**

Tələbə hərəkatı, tələbə oyanışı və ya tələbəlik məsuliyyəti çox əhəmiyyətli bir mövzudur. Bu mövzu məhz tələbə təbəqəsinə məxsusdur, bütün gənclərə aid deyil. Tələbəlikdən qabaqkı gəncə də aid deyil, tələbəlik dövründən sonrakı gəncə də. Bu, universitet mühitinə, sizin universitetdə olduğunuz 4-5 ilə aiddir.

**Tələbə oyanışını öyrənməyin zəruriliyi**

Tələbə hərəkatı, yaxud daha düzgün ifadə ilə desək, tələbə oyanışı yeni bir şey deyil; yalnız İrana aid bir şey də deyil. Qeyd etdiyimiz kimi, bu, universitetə aiddir. Hər halda, bu oyanışın bəzi xüsusiyyətləri, bəzi məqsədləri var və bəzi nəticələrə səbəb olur. Bu xüsusiyyətlərlə yaxşı tanış olsaq, ondan ölkə və cəmiyyət üçün tükənməz bir sərvət kimi istifadə oluna bilər. Lakin yaxşı tanış olmasaq, sizin xəbərdar olmadığınız və işlənmə yerini bilmədiyiniz bir sərvət kimi əldən çıxar. Ən pis hal budur ki, bu xüsusiyyətlərin sahibi olan sizlər onlardan xəbərdar olmayasınız, hiyləgər bir oğru isə burada gizli bir xəzinə olduğunu və o xəzinənin hansı işlərə yaradığını bilsin. Bu zaman həmin oğru gəlib ondan istifadə edər. Bu, daha zərərli haldır. Ən vacib işlərdən biri budur ki, əvvəla, tələbənin özü, ikincisi, universitetlərin rəhbərləri, üçüncüsü isə ölkənin məsul şəxsləri mahiyyətcə tələbəyə məxsus olan bu fenomeni aşkarlamalı, tələbə oyanışını, tələbə hərəkatını öyrənməlidirlər.

**Tələbə oyanışının mənşəyi**

Bu amilin mənşəyi universitetdə və tələbədə olan bəzi xüsusiyyətlərdir. Gənclik yaşı, enerjisi, gücü və bacarığı, tələbənin bu dövrdə tanış olduğu istər elmi, istər siyasi və ictimai bilgilər, tələbəlik asudəliyi, – tələbə məişət və çörək problemləri, həyatın yükləri ilə üzləşmir, nisbətən azaddır, həm də heç bir yerdə işləmir - tələbələrin xüsusi bir yerdə toplaşması, cəmiyyətin ümumi ab-havasından təsirlənməsi, onları həm müsbət, həm mənfi cəhətdən özündə əks etdirməsi olduqca əhəmiyyətli və eyni zamanda çox faydalı olan bu amilin səciyyələrindəndir. Bunlardan istifadə olunmasa, yaxud pis istifadə olunsa, çox təhlükəli olar.

**Tələbə oyanışnın xüsusiyyətləri**

Tələbə hərəkatında, yaxud tələbə oyanışında bəzi xüsusiyyətlər mövcuddur. Onların əksər hallarda eyni olmasını söyləmək olar. Hər bir

ölkənin, hər bir xalqın və hər bir toplumun xüsusi mədəniyyəti, tarixi və mentaliteti olsa da, hər halda, müştərək məqamlar hər yerdə var.

Mənim ölkəmizin inqilabdan öncədən inqilaba qədərki və ondan sonrakı tələbə hərəkatının xüsusiyyətləri haqda deyə biləcəklərim bunlardır:

**Birinci xüsusiyyət: məsləhətçiliyin qarşısında amalçılıq**

Birinci xüsusiyyət məsləhətçiliyin qarşısında amalçılıq - amallara eşq bəsləmək, onlara vurğunluqdur. Bəzən hansısa maneələr insanın gözünü tutur, amalları çox uzaqda və əlçatmaz göstərir. Bu, çox təhlükəli haldır. Bəzən amallar unudulur. Gənclərin arasında isə amallar hiss olunur, yaşanır, canlı və əlçatandır. Buna görə də ondan ötrü çalışırlar. Bu çalışmanın özü səmərəli bir haldır.

**İkinci xüsusiyyət: sədaqət, paklıq və ixlas**

İkinci xüsusiyyət sədaqət, paklıq və səmimiyyətdir. Tələbə hərəkatında kələkbazlıq, saxtakarlıq, hiyləgərlik və adətən adi həyatda işlədilən qeyri-insani üsullar ya azdır, ya da təbii olaraq yoxdur. Adi həyatda, siyasətdə, ticarətdə və ictimai münasibətlərdə hər bir şəxs sözünə diqqət yetirir ki, görsün bu sözdən nə qazanır və nə itirir. Bu onun nə qədər zirək, bacarıqlı və ağıllı olmasından asılıdır. Lakin tələbələr adətən sözü yaxşı və düzgün olduğu, özünə və həqiqətə gözəl göründüyü üçün deyir və izləyirlər. Bunu ümumiləşdirmək, tələbələrin hər birinin hər bir sözdə belə olduğunu demək istəmirəm. Bu, əksərən belədir.

**Üçüncü xüsusiyyət: azadlıq və qurtuluş**

Üçüncü xüsusiyyət müxtəlif partiya, siyasət, millət və digər bağlantılardan azadlıqdır. Tələbə təbəqəsində bu xüsusiyyəti müşahidə etmək olar. Onlarda adətən müxtəlif siyasi və qeyri-siyasi qrupların öz adamları üçün qoyduğu məhdudiyyətlərdən əsər-əlamət yoxdur. Gəncin belə məhdudiyyətlərə hövsələsi çatmır. İnqilabdan öncə bəzi partiyalar bir sıra işlər görür, universitetə çatanda isə dayanırdılar. Üç-dörd nəfəri üzvlüyə götürmələri mümkün idi, lakin nəzərdə tutduqları qayda-qanunları, dünyada partiyalar üçün normal olan çox kəskin partiya qanunlarını tələbələr arasında düzgün icra edə bilmirdilər. Çünki tələbə haradasa özü nəzəriyyə yürüdür. O zaman Kommunist partiyası fəal idi, çox böyük təşkilatı vardı, Sovetlərlə əlaqədə idi və ümumiyyətlə, onlara

işləyirdi. Lakin universitetə çatanda çoxlu partiya həqiqətlərini tələbələrdən gizlətməyə məcbur olurdular.

**Dördüncü xüsusiyyət: fərdlərə söykənməmək**

Tələbə hərəkatının dördüncü xüsusiyyəti fərdlərə söykənməməkdir. Yəni bu hərəkat Şərif Sənaye Universitetində var; bu gün də mövcuddur, 10 il bundan qabaq da olub, 10 il sonra da olacaq. Lakin nə 10 il bundan qabaq siz vardınız, nə də 10 il sonra siz burada olacaqsınız. Amma bu hərəkat var, çünki fərdlərə arxalanmır, mühitə və mövcud topluma aiddir.

**Beşinci xüsusiyyət: fitrətə zidd olanları uzaqlaşdırmaq**

Çox əhəmiyyətli olan beşinci xüsusiyyət budur ki, onda insan fitrəti baxımından pis sayılan hallara – misal üçün, zülmə, hegemonluğa, ayrıseçkiliyə, ədalətsizliyə, saxtakarlığa və ikiüzlülüyə qarşı mənfi reaksiya var, onları özündən uzaqlaşdırır. İnqilabın əvvəlində münafiqlər inqilabın imkanlarından istifadə edib gənclərin, tələbələrin arasına girməyi bacardılar. Onların münafiq olduğu bəlli olanda isə əksər yerlərdə onlardan üz çevirdilər. Nə üçün onlara münafiq deyirdilər? Çünki iddia edirdilər ki, dini ideologiya əsasında təşkilat yaratmışlar, çalışır və gələcək qururlar; lakin əməldə məlum olurdu ki, xeyr, dini ideologiyadan əsər-əlamət yoxdur. Təfəkkürlər marksizmlə qarışmış təfəkkürlərdir; o da xalis marksizm yox, qarışmış, eklektik formada. Mübarizədə əsas məqsədləri də hakimiyyətə gəlmək idi. Əldə edilməsində çox rolları olmayan, qrup kimi isə əsla rolları olmayan hakimiyyətə gəlmək üçün çalışırdılar. Onların arasında bəlkə də kimlərsə xalqa qoşulub bəzi işlər görmüşdülər. Onların münafiqliyi aşkara çıxanda, iç üzləri, sözlərinin ürəkləri və iddialarının əsl amalları ilə eyni olmadığı bəlli olanda gənc tələbələr onlardan üz çevirdilər.

**Altıncı xüsusiyyət: həm məntiq, həm emosiya**

Tələbə hərəkatında və universitetlərin mahiyyətində olan altıncı xüsusiyyət budur ki, ona təkcə emosiyalar hakim deyil, onda həm də məntiq, təfəkkür, təhsil, öyrənməyə və araşdırmağa meyl də mövcuddur. Bunun zəif və güclüsü var; bəzən az, bəzən isə çox olur. Bizim fikrimizcə, bunlar tələbə hərəkatı, yaxud tələbə oyanışı adlanan amilin xüsusiyyətləridir. Belə təhlil və tədqiqatla məşğul olanlar axtarıb başqa xüsusiyyətləri də tapsınlar. Mütləq başqaları da var və mən indi belə mövzu açmaq istəmirəm.

**Tələbə hərəkətinin inqilaba xidməti**

Mənim əzizlərim! Bilin ki, tələbə oyanışı bu inqilaba çox xidmət göstərmişdir. İnqilabdan qabaq xalqın böyük mübarizələrində tələbələr gözəçarpan şəkildə iştirak edir və fəaliyyət göstərirdilər. Mənim bu barədə müşahidələrim ən çox Məşhədə aiddir. Mən Məşhəd tələbələri arasında iş aparırdım. Tehranda da elə idi, müxtəlif universitetlərə gedib-gəlirdim, tələbələrlə əlaqəm vardı, nə baş verdiyini yaxından görürdüm. Ölkənin indiki məsul şəxslərinin bəzisi bizimlə əlaqədə olan ozamankı tələbələrimizdəndir.

İnqilabdan sonra da bu iş bitmədi. Əgər tələbələrlə bağlı müxtəlif vəzifələrdə çalışanlar bu mövzuya həvəs göstərsəydilər, daha faydalı olardı. Lakin tələbə hissindən, oyanışından bunsuz da bəzi faydalar hasil oldu. Onların bir neçə nümunəsini sizlərə deyirəm:

**İnqilabın əvvəllərində universitetlər**

Bir nümunəsi Tehran universitetində baş verən hadisələr idi. Ateist qruplaşmalar Tehran universitetini tutdular, otaqlarından, zallarından döyüş otağı, silah anbarı, inqilab və quruluş əleyhinə təxribat mərkəzi kimi istifadə etdilər. O zaman müvəqqəti hökumət qurulmuşdu. Bu işlərə girişmək üçün onlarda nə can vardı, nə güc, nə də ürək. Onlar heç, hətta inqilabçıların çoxunda qorxu yaratmışdılar. Ən çox Tehran universitetinin özündə vahimə yaranmışdı. Mənim yadımdan çıxmır, belə çətin günlərin birində təsadüfən, universitetdə idim və həftəlik tədbirimiz vardı. O gün adət üzrə Tehran universitetinin məscidində çıxışım olacaqdı. Gəlib gördüm ki, universitet bomboşdur. Məsciddə bəlkə də 20-30 nəfərdən artıq adam yox idi. Məscidə daxil olduqda bir neçə nəfər gəlib dedi ki, ağa, tez buradan gedin. Bunların qarşısında kimlər dayandılar? Tələbələrin özləri. Təsirli və çox işlək olan fəaliyyətin ilk əlaməti, yaxud əlamətlərindən biri bu məsələdə tələbələrin aktivliyi idi. Universitet yarımtətil vəziyyətində idi. Lakin tələbələr - yəni təmiz bir inqilabçı təbəqənin hamısı aktiv surətdə gəlib universitetə doluşdular və oranı təmizlədilər. Dediyim bu hadisə 1979-cu ilə aiddir. Bu, nümunələrdən biridir.

Əgər bizdə inqilabın sayəsində möhkəmlənmiş tələbə əlaqələri olmasaydı, bu iş belə yaxşı və aydın şəkildə baş tutmazdı. Əlbəttə, o zaman tələbələr inqilabın əsaslı sahələrinə də qoşuldular, fəaliyyət göstərdilər, Mühafizəçilər korpusunda, Quruculuq cihadında, ölkənin müxtəlif sahələrində xidmət etdilər. Sonra müharibə başlandı. Adlarını çəkdiyim bu

şəhidlərin hamısı tələbə və elm adamı idilər. Bəziləri çox yaxşı və yüksək istedadlara malik idilər. Lakin özlərini inqilabın istək və ehtiyaclarına vəqf etmişdilər.

**Tarixi anı dərk etmək**

Mən həmişə dostlarıma bu cümləni təkrarlayıram, indi də sizə deyirəm ki, hər bir insan çalışıb anın ehtiyacını dərk və təmin etməlidir. Əgər tarixin bu anının ehtiyacını dərk və təmin etməsəniz, sabah iş-işdən keçəcək və gec olacaq. Bu, gəncin, xüsusən də tələbənin bacardığı, dərk və əməl edə biləcəyi bir məsələdir. Onun enerjisi var, fəaldır, gözü və zehni açıqdır, gələcək də ona məxsusdur.

**Gənclərə məxsus gələcək**

Gələcək sizə məxsusdur. Bu gün həmin gənclərin bəzisi iş başındadırlar, hökumətdə və müxtəlif sahələrdə xidmət göstərirlər. Sözügedən tələbə fəaliyyətinin və tələbə oyanışının səmərəli illərindən əldə etdikləri dəyərli bir çanta onların ixtiyarındadır. Demək istəyirəm ki, bu gün tələbə olan sizlər bu mühitdə xüsusiyyətlərini qeyd etdiyim bu məsələyə - çünki bu xüsusiyyətlər olmasa, başqa bir şey alınacaq və bu faydalar əldə edilməyəcək - əməl etsəniz, ölkəniz, inqilabınız, gələcəyiniz, tarixiniz və əslində, özünüz üçün faydalı olacaq, böyük və çoxlu işlər görə biləcəksiniz. Mən bunu müsbət və mübarək bir məsələ kimi sevirəm.

Bu hərəkat amallar ardınca olmalıdır; yəni ədalət, müsavat, mənəvi azadlıq, ictimai azadlıq, ictimai ucalıq, dünyada milli öncüllük ardınca. Əgər bu paklıq və ixlas alış-veriş və adi siyasi oyunlar halına çevrilsə, daha o alınmayacaq.

**Tələbəyə eşq**

Mən yanıma gələn tələbə qruplarının çoxuna demişəm ki, tələbəyə sevgimin əsas səbəbi onun paklığına görədir. Bu sədaqət və paklıq tələbələrin hər birində qorunmalıdır. Bunu praktik olaraq mümkün bilməsək də, ən azı, tələbə hərəkatında qorunmalıdır. Tələbə hərəkatı və tələbə oyanışı heç zaman bütün tələbələri əhatə etməmişdir. Hər halda, universitetdə hamı eyni deyil. Bəzilərində hərəkətə hövsələ yoxdur, deyirlər ki, qoyun işimizi görək, dərsimizi oxuyaq, bu kağız parçasını tez alaq və iş dalınca gedək. Mənim sözüm belələrinə aid deyil. Bunların da çox yaxşı gənclər olması mümkündür. Amma demək istəyirəm ki, mənim danışdığım sözlər, yəni tələbə hərəkatı, tələbə oyanışı onlara aid deyil.

**Qafil tələbə**

Tələbə mühitində olanların bəziləri tələbəlikdən çox cavanlıq edirlər, adi bir iş kimi cavanlıq işlərinin dalınca düşürlər; o da "illəl-lüməm" adı ilə yox. Quranda işlənən "lüməm" sözü insanın bəzən etdiyi təsadüfi və diqqətsiz işlərə deyilir. Çox uca insanlardan başqa günahı və səhvi olmayan varmı?! Yəni bir iş bir dəfə təsadüfən baş verir, bir dəfə də mümkündür diqqətsizlikdən və cahillikdən olsun. İnsanın cahillik üzündən münasib olmayan bir hərəkət etməsinin başqa bir hökmü var. Lakin elələri var ki, bu səhv və münasib olmayan hərəkət onların peşələridir. Bunlar da bizim söhbətimizin mövzusundan xaricdirlər. Düzdür, keçmişdə və inqilabdan qabaq belə insanlar çox idilər. Lakin inqilabdan sonra azaldılar. Mən tələbə hərəkatının sahibi olan məqsədli, amallı və emosiyalı toplumdan danışıram. Çünki bayaq danışdığım tələbələr nə vaxtsa bir mitinqə toplaşsalar da, onların iştirakı süni, yalançı və saxta olur. Bəzən belə işlərdən başqa bir peşəsi olmayan bu tip adamların bir toplantıda iştirak etdikləri görünür. Demək istəyirlər ki, biz də varıq. Bəllidir ki, belə adamların rol oynaya biləcəkləri heç bir ciddi və ideal iş yoxdur.

**Tələbə hərəkatının təhdidləri**

Qeyd etdiyim kimi, tələbə hərəkatını təhdid edən amillərin biri yad ünsürlərin ona tamah salması, ondan sui-istifadə etməsidir. Bizim özümüzün yaxından şahid olduğumuz və işlərini gördüyümüz bir dövrdə bəzi qüvvələr tələbə hərəkatının başının bədənindən ayrılmasını istəyirdilər. Gənclər, xüsusən də tələbələr harada bir iş görürdülərsə, bunlar üzlərini turşudur və ona dözmürdülər. Bunlar əlverişli bir sahənin olduğunu, ölkədəki tələbə və gənc nəslin danışdığını, təyin etdiyini gördükdə əvvəlcə sürünə-sürünə, sonra yavaş-yavaş yarımqalxmış vəziyyətdə, sonra da boyunlarını uzadaraq gəlirlər ki, biz də varıq. Hakimiyyətə can atan qərəzli, pis niyyətli və pis keçmişli siyasi qüvvələrin tələbə hərəkatına sarı gəlib özlərini ona yapışdırmaq istəmələri bir təhdiddir. Bəzən mənim yanıma gələn tələbə birliklərinə və təşkilatlarına bu təhlükəli qüvvələrin kim olduğunu açıq şəkildə demişəm. Bu söhbət yayıla bilər deyə, burada ad çəkmirəm, onlar üçün isə adlarını çəkmişəm. Bəzən pis bir insan, natəmiz bir niyyət yaxşı bir niyyətdən, yaxşı bir insandan, yaxşı bir hərəkətdən sui-istifadə etmək istəyir. Bu zaman insanın ürəyi yanır, bacardığı təqdirdə bunun qarşısını almağa çalışır. Burada da

elədir. Tələbələr ehtiyatlı olmalıdırlar. Demək olmaz ki, kimsə tələbələrdən ehtiyatlı olsun. Bu, məqsəddən yayınmaq olar. Tələbələr özləri ehtiyatlı olmalıdırlar ki, pis fikirli insan, qrup, təşkilatlar, pis fikirli, pis adlı və pis keçmişli qüvvələr onlara yaxınlaşmasınlar. Bir xeyir iş görmək istəyirlərsə, gedib özləri görsünlər, tələbələrlə işləri olmasın.

**Amallardan uzaqlaşmaq**

Tələbə hərəkatını təhdid edən amillərdən başqa birisi, qeyd etdiyim kimi, amallardan uzaqlaşmaqdır. Mənim əzizlərim! İnqilabdan illər öncə 16 azər (7 dekabr) günündə bir cinayət hadisəsi baş verdi. İnqilabın əvvəlində 16 azəri unutdurmaq üçün bir iş gör görmək olardı; çünki bizdə çoxlu hadisələr baş vermişdi. Lakin ölkənin başçıları və xeyirxah insanları bu günün xatirəsinin yaşamasını istəyirlər. Nə üçün? Çünki həmin gün bir haqq sözə görə universitetdə bir hadisə baş verdi. Sonralar cəllad cəbhə gənclərin istədiyi bu uca məqsədə görə onlara qarşı çıxdı və bu da üç nəfərin öldürülməsi ilə nəticələndi. Məsələ nədən ibarət idi? ABŞ-la qarşıdurmadan. Nə zaman? Amerikanın siyasətinin, dövlətinin, rejiminin, təhlükəsizlik və hərbi qüvvələrinin bu ölkənin bütün sahələrinə hakim olduğu zaman. Bu ölkədə aşkar və gizli olan hər şey amerikalıların əlində idi. Bu gün amerikalıların müsəlman İranın onlara arxa çevirdiyinə görə necə qəzəbləndiklərini görürsünüz. Bu həmin günü xatırladıqlarına görədir. Onlar burada dayanıb bütün regiona, ərəb ölkələrinə, Türkiyəyə və digər yerlərə ağalıq edir, əmr verirdilər, buranı özlərinki bilirdilər.

**Rusiya və Orta Asiyanın mövqeyi**

Buna da diqqət yetirin: sizin ölkəniz coğrafi baxımdan çox həssas bir nöqtədə yerləşir. Düzdür, o zaman SSRİ-yə görə amerikalılar üçün bir cəhətdən daha həssas idi. Bu gün SSRİ yoxdur. Lakin əvvəla, çox mühüm olan Orta Asiya ölkələri, ikincisi isə Qərb və xüsusən də ABŞ üçün çox əhəmiyyətli olan Rusiya var. Rusiya indi ölümlə həyat arasında qalmış bir vəziyyətdədir. Onlar bilirlər ki, dünyanın ən böyük ölkələrindən biri olan və ən həssas regionlarından birində yerləşən Rusiya öz ayağı üstə möhkəm dayanıb ABŞ-ın təsiri altına düşməməyi bacarsa, Amerika və dünyanın təkqütblü perspektivi üçün təhlükəli olacaq, keçmiş Sovetlərin başqa bir formasına çevriləcək. Bu baxımdan, Rusiya çox mühüm yerdir. Deməli, bu gün SSRİ olmasa da, Orta Asiya və Rusiya var. Digər tərəfdən, bir gün SSRİ-nin təsiri altında olan və bu gün amerikalıların tamah saldığı İraq və

Suriya kimi ölkələr var. Yəni İran İslam Respublikasının coğrafi və geosiyasi mövqeyi çox mühüm və regionda spesifikdir.

**ABŞ və maraqları qoruyan ofis**

Amerikalılar baxıb görürlər ki, burada heç bir istinad yerləri yoxdur; hətta zəif bir səfirlikləri, maraqları qoruyan bir ofisləri də yoxdur. İndi bu ölkədə bir amerikalı məmur belə çalışmır. Maraqlarını qoruyan tərəf isveçrəlilərdir. Burada ABŞ-ın heç bir mövqeyi yoxdur. Çalışıblar, bir müddətdir təzyiq də göstərirlər, lakin bizim hökumətimiz müqavimət göstərir və icazə vermir. Deyirlər ki, Tehranda ABŞ-ın maraqlarını qoruyan ofis fəaliyyət göstərsin. Bunlar əslində, satqın ünsürlərlə əlaqə qurmaq üçün Tehranın ortasında bir kəşfiyyat mərkəzi açmaq istəyirlər, məqsədləri budur.

Bugünkü qəzəblərinin bir səbəbi də inqilabdan öncə buradakı vəziyyətləridir. Elə bir şəraitdə tələbələr ABŞ-ın vitse-prezidentinin İrana gəlməsinə qəzəbləndilər və öz qəzəblərini bəlli şəkildə nümayiş etdirdilər. Nəticədə isə 16 Azər hadisəsi baş verdi. İndi o hadisədən təxminən 40 il ötür, lakin xatirəsi hələ də yaşayır.

**Ölkənin siyasi coğrafiyasında dəyişiklik**

İslam inqilabı ölkənin siyasi coğrafiyasını bütünlüklə dəyişdirdi. Bu gün siyasi istiqamət keçmişdən tam fərqlidir. İndi müstəqil, dini, islami və həqiqətən, demokratik bir quruluş yaranmışdır. İran ABŞ hegemonluğuna nifrət bəsləyən bütün insanların diqqət mərkəzinə çevrilmişdir. Çoxlu xalqlar İranın Amerika əleyhinə şüarlar səsləndirməsinə sevinirlər. İmkan olsaydı, mən burada elə adlar çəkərdim ki, hamınız təəccüb edərdiniz. Böyük və məşhur ölkələr amerikalıların istismarçılığına qarşı var gücü ilə və açıq-aşkar danışan bir xalqın olmasına çox sevinirlər. Belə bir şəraitdə bir qrup adamın tələbə adı altında 16 Azər hərəkatına zidd fikirlər səsləndirməsi, çox puç, zəif, məntiqsiz və əsassız olaraq ABŞ-a rəğbət bəsləməsi tələbə hərəkatına arxa çevirməkdir. Bu ümumiyyətlə, tələbə hərəkatı deyil. Bu, tam başqa bir şeydir, onun əksidir. Onlar əsas məsələni unutdurmaq məqsədilə Amerikaya müxaliflik məsələsini çox kiçik, dəyərsiz və köksüz olan siyasi cinahlarla izah etmək istəyirlər. Bu, yolverilməzdir və tələbə hərəkatını təhdid edən amillərdəndir. Deməli, tələbə hərəkatını təhdid edən amillərin biri amallara və amalçılığa arxa çevirməkdir.

**Tələbə və ictimai ədalət**

Ölkədə ictimai ədalət məsələsi gündəmdə olanda tələbə bunu müdafiə etməlidir. İctimai ədalət elə bir şeydir ki, hətta siyasi dəlillərə və müxtəlif məqsədlərə görə təkidlə bu siyasəti zəiflətmək istəyənlər də sonda bacarmadılar və onu dəstəkləməyə məcbur oldular. Dünyada hegemon və soyğunçulardan başqa heç kimin ictimai ədalətdən acığı gəlməz. Ölkədə bu siyasət gündəmdə olanda onu kim müdafiə etməlidir? Bu haqda hamıdan çox kim düşünməlidir? Kim onun üçün çalışmalı, onu təmin etməyin yolları haqda tədqiqat aparmalı, araşdırmalı və dəyirmi masa keçirməlidir? Tələbələrdən başqa kim?! Fikir vermək lazımdır ki, tələbə hərəkatı və tələbə oyanışı əsla məqsədlərin əksinə sarı getməsin. Deməli, bu hərəkatı təhdid edən amillərin biri məqsədlərə arxa çevirmək, amalları unutmaq və onları yaddan çıxarmaqdır.

**Bəsitlik**

Tələbə hərəkatını təhdid edən mühüm amillərdən biri də bəsitlikdir. Mənim əzizlərim! Bəsit düşünməkdən ciddi şəkildə çəkinin. Tələbə xaraktercə dəqiq və dərin düşünəndir. Eşitdiyiniz hər bir söz üzərində diqqətlə düşünün. Nə üçün İslam dinində bir saat fikirləşmək illərlə ibadət etməkdən dəyərli sayılır? Ona görə ki, siz fikirləşsəniz, ibadətləriniz də, quruculuq fəaliyyətiniz də, mübarizələriniz də mənalı olacaq, dostunuzu və düşməninizi də tanıyacaqsınız. Müharibədə öz cəbhələri ilə düşmən cəbhəsini seçməyən insanları təsəvvür edin. Onlar sərgərdan halda öz dövrələrinə fırlanır, bəzən buraya atəş açırlar, bəzən oraya; bəzən yuxarıya atəş açırlar, bəzən özlərinə. Baxın, düşüncə olmasa, insan belə olar. Bəzi qüvvələr fəryadlar, şüarlar, yalançı rəng və oyunbazlıqlar arasında tələbə təbəqəsini buna sövq etmək istəyirlər. Bu, tələbə hərəkatı üçün təhlükəli amildir. Fikirləşmək lazımdır. Fikirləşməklə edilən seçim düzgün olar. Bir düşüncəli adam hansısa seçimdə səhv etsə, onunla asanlıqla danışmaq olar. Düşüncəsiz adam isə hər hansı bir seçimi etsə, onunla danışmaq, məntiqli söhbət etmək mümkün olmaz. O, təəssübünə, bilməzliyinə və cəhalətinə təslim olub. Düşüncəli və diqqətli adamdan bir səhv baş versə də, xeyirxah bir insan onunla danışıb deyə bilər ki, filan dəlilə görə bu iş səhvdir. Bəsit olmaq lazım deyil. Hər bir şüara, hər bir xoş sözə, hər bir ağıza etimad etmək olmaz. Düşünmək lazımdır. Əsas məsələ düşüncədir. Alim və istedadlı insanlardan əsas gözlənti budur.

**Partiyalara aldanmaq təhlükəsi**

Təhdidlərdən başqa birisi partiya və qrupların alətinə çevrilməkdir. Bunu qabaqca da dedim. Ehtiyatlı olun ki, müxtəlif partiya və qrupların təhlükəli caynaqları sizi tələyə salmasın. Onlar azad düşüncəli bu təbəqənin müsbət xüsusiyyətlərinin çoxunu alacaqlar. Bu, baş tutsa, insan inqilab düşmənlərinin əlinə keçər və təhlükəli bir şey alınar; həyatı, sərvəti və gələcəyi həqiqətən, hədər gedər və həsrət içində yanar.

**Nəhcül-bəlağə ilə ünsiyyət**

Söhbət bir qədər uzandı. Mən söhbətimin bu hissəsinin sonunda yalnız bir tövsiyə edim. Əzizlər, Nəhcül-bəlağə ilə ünsiyyətdə olun. Nəhcül-bəlağə çox oyadıcı, düşündürücü və düşünüləsidir. Toplantılarınızda Nəhcül-bəlağə ilə, Əmirəlmömininin sözləri ilə ünsiyyətdə olun. Əgər Allah–Taala uğur versə və bir addım irəliyə getsəniz, o zaman zahiri baxımdan yalnız bir dua kitabı, lakin əslində, Nəhcül-bəlağə kimi dərs, hikmət, ibrət və insan səadətinin göstəricisi olan Səhifeyi-Səccadiyyə ilə əlaqə yaradın.

Deyilməli söz çoxdur. Lakin günortaya çox vaxt qalmayıb və mən suallara cavab vermək istəyirəm. Buna görə də bu hissəni tamamlayıram.

Allahın salamı və rəhməti olsun sizə!

## Sual və cavablar[24]

**İctimai ədalət və məmurların sərvəti**

**Sual**: İctimai ədalət mövzusuna aid bir sualım var. Ötən bir neçə ildə sizin çıxışlarınıza rəğmən, bu mövzu siyasi oyuna çevrildi və buyurduğunuz məqsədə o qədər də yaxınlaşmadı. İndi zamanı çatmayıbmı bu mövzuya prinsipial baxaq və dövlət rəsmilərindən başlayaraq insanların sərvətlərini araşdıraq?!

**Cavab**: Bu, çox yaxşı sözdür. Demək asan, əməl etmək isə çox-çox çətindir. Bəzi məmurlara sarı gedən kimi, təbii ki, onların gileyi, şikayəti və səsi ucalır. Görəcəksiniz ki, işin özünə də əngəl törədilir və baş tutmur. İctimai ədalət mövzusunun həyata keçməsi mənim ciddi fikrimdir. Bunda heç bir şübhə yoxdur, bunu dəfələrlə demişəm. Lakin bununla mən məşğul olmalı deyiləm, məhkəmə və dövlət orqanları məşğul olmalıdır. Bunun bir hissəsi gərək yaxşı qanunlar sayəsində həll olunsun, bir hissəsi icra sayəsində, bir hissəsi də daha yüksək qurumların təftişi ilə; yəni dövlət qurumları öz tabeliklərində olanlara bu yönümdə nəzarət etməlidirlər. Hər halda, mən bu məktubu yazanla həmfikirəm və ümidvaram ki, nəticə əldə olunsun.

Sözsüz ki, bu barədə bəzi işlər görülür. Mən bir qədər əvvəl bu haqda Ali Məhkəməyə sorğu yolladım. Məlumat verdilər, bildim ki, bəzi işlər görülməkdədir. Lakin işin gedişi məni razı salacaq həddə deyil, nəinki amalçı olan siz gəncləri.

**İslam iqtisadiyyatı və ölkənin iqtisadi problemlərinin həlli**

**Sual**: Ölkənin iqtisadi problemlərinin, işsizlik, ev və digər bu kimi problemlərin həlli üçün praktik yol nədir? İslam iqtisadiyyatı adlı bir şey varmı? Mümkünsə, bunu izah edin.

**Cavab**: Bəli, İslam iqtisadiyyatı adlı bir şey var. Bu barədə kitab da yazılmışdır. Dövlətin, inqilabın əvvəlindən indiyə qədər icra edilən bəzi iqtisadi fəaliyyətlər, misal üçün, bank əməliyyatları və digər işlər sözügedən İslam iqtisadiyyatı əsasında aparılıb. Mənim fikrimcə, ölkənin iqtisadi problemləri həllolunandır. Bu sahədə münasib proqramlar da hazırlanmışdır. Ötən il cənab prezident bir qrupun köməyi ilə çoxlu zəhmətdən sonra "İqtisadi koordinasiya proqramı" adı ilə tanınan bir

---

[24] İslam inqilabının böyük rəhbərin Şərif Sənaye Universitetində tələbələrin suallarına cavabları: 22 noyabr 1999.

proqram hazırladı. Yaxşı proqram idi, mənə gətirdilər, mən də təsdiqlədim. Əgər o proqram icra olunsa, yaxşı nəticələr əldə olunar. Lakin onu beşillik proqrama yerləşdiriblər. Beşillik proqram bizim çoxlu məsləhətləşmələrdən sonra gördüyümüz çoxlu işlərə və elan etdiyimiz siyasətlərə uyğun olsa, şübhəm yoxdur ki, beş ildə nəzərəçarpacaq dəyişiklik baş tutar. Demirəm ki, bütün problemlər həll olunar, lakin şübhəsiz, təsiri hiss olunar. Bu şərtlə ki, o siyasətlərə dəqiq əməl olunsun. Əlbəttə, biz həm hökumətin özünə, həm də parlamentə tövsiyə etdik ki, mümkün olan həddə diqqət yetirsinlər və bu siyasətlər proqramların maddələrində görünsün. Düşünürük ki, bunların hamısı, yaxud böyük əksəriyyəti mümkündür.

**Yaxşı qəzetin xüsusiyyəti**

**Sual**: Yaxşı bir qəzet hansı xüsusiyyətlərə malik olmalıdır? İndiki nəşriyyələrdən hansını bu xüsusiyyətlərə yaxın bilirsiniz?

**Cavab**: Əvvəla, bu, yaxşı gözlənti deyil ki, mən sizin üçün hansısa qəzetin adını çəkib bu xüsusiyyətlərə yaxın olduğunu deyim. Bunu özünüz bilməlisiniz. Güman etmirəm ki, bundan sonra yaxşı qəzeti ayırd etmək tələbə üçün çətin olsun. Bizim yaxşı qəzerlərimiz də var. Yazıblar ki, xüsusiyyətləri nədir. Bəllidir, məqsədi düzgün informasiya çatdırmaq olan, sağlam və yaxşı təhlillər edən, güclü yazılar yazan, xalqın hamısının, yaxud əksərinin problemlərini işıqlandıran və incəsənət üslublarından istifadə edən bir qəzet, mənim fikrimcə, yaxşı qəzetdir. Bizim bəzi qəzetlərimiz belədir, bəziləri belə deyil, bəziləri isə çox pisdir.

**Ruhani məhkəməsi**

**Sual**: Mümkünsə, ruhani məhkəməsi və onun əhəmiyyəti barədə məlumat verin.

**Cavab**: Ruhani məhkəməsi düzgün, əsaslı, qanuni və lazımlı bir orqandır. Düzdür, ajiotaj yaradır, düzgün olmayan iradlar bildirirlər. Bu məhkəmə zamanında təşkil edilmiş, mühüm və əsaslı işlər də görmüşdür. Bütün təbəqələr kimi, ruhani təbəqəsi də səhv və cinayət edə bilən bir təbəqədir. Başqa bir tərəfdən, bunların xüsusiyyəti və mövqeyi elədir ki, bir ruhanini mühakimə və sorğu-sual etməyə cürəti və bacarığı olan bir məhkəmənin olması zəruridir. Qarşı tərəf özü ruhani olduqda, bu nə bilirsə, o da bildikdə, onu daha yaxşı mühakimə edə bilər. Bütün bunlar nəzərə alınmışdır. Bəziləri deyirlər ki, imamın dövründə bu məhkəmə olmayıb. Boş sözlərdir. Bu məhkəmə imamın dövrünə aiddir. Bu

məhkəməni o yaradıb və lazım bilib. Bu məhkəmə böyük işlər görmüşdür. Yaxşı və qanunla müəyyən olunmuş məhkəmədir. Bəli, imam bir dəfə bu məhkəmə yox, ümumiyyətlə Ali Məhkəmə barədə deyib ki, ən azı, xalqın yarısı onlardan narazıdır. Çünki müraciət edənlərin yarısı ya məhkumdurlar, ya da məhkumların tərəfdarları. Hər halda, narazı qalırlar. Ruhani məhkəməsi də belədir.

**Sual**: Siz Ruhani məhkəməsinin işini ədalətli bilirsinizmi?

**Cavab**: İşi qanunidir. Mən heç bir məhkəmə haqda mühakimə yurudub onların tamamilə ədalətli olduğunu deyə bilmərəm. Amma hələ ki, biz bunlardan ədalətsiz bir şey görməmişik. İşləri pis olmayıb. Qanunsuz və ədalətsiz hökmlər çıxardığını göstərən bir fakt varsa, araşdırılmalıdır, lakin mən bunlardan ədalətsiz iş müşahidə etməmişəm.

**Sual**: Belə bir məhkəmənin olması konstitusiyaya uyğundurmu?

**Cavab**: Bəli, konstitusiyaya tam uyğundur. Əlbəttə, indi bu sualın geniş cavabının yeri deyil. Artıq 16-17 ildir bu məhkəmə fəaliyyət göstərir. Əgər konstitusiyaya zidd olsaydı, heç şübhəsiz, bu qədər davam edə bilməzdi.

**Cinahların birliyi**

**Sual**: Siz nə zamana qədər siyasi cinahların vəhdəti pozmaları qarşısında sükut etmək istəyirsiniz? Düzdür, bilirəm ki, onlara xəbərdarlıq edirsiniz. Lakin indi Allahın lütfü ilə möhtərəm prezident İranın sülhsevər üzünü bütün dünyaya göstərə bilmişdir. Yaxşı olmazmı ölkədə də elə bir şərait yaradaq ki, xidmətkar hökumət öz proqramlarını icra edə bilsin?! Əgər biz müsəlmanıqsa, bizim cinahlarımız ölkəyə ürək yandırırlarsa, yaxşı deyilmi bir-birini zəiflətmək əvəzinə İslamın gücünü artırmaqla məşğul olaq?!

**Cavab**: Bu, çox düzgün sözdür. Bu sualı yazan qardaşımıza, yaxud bacımıza deməliyik ki, sanki bizim dilimizdən danışdınız. Əlbəttə, xoşbəxtlikdən, mən sizin işarə vurduğunuz məsələdə sükut etməmişəm və etmirəm. Mən dəfələrlə təkcə siyasi cinah və qrupların özünə yox, onlara aid toplantılarda və bəzən onların bir neçəsinin müştərək toplantılarında bunu demişəm. Daha artıq işə məcbur olmaları üçün hətta ümumi toplantılarda, məsələn, cümə namazlarında və ümumi xütbələrdə demişəm ki, ictimai rəy onlara təzyiq göstərsin və vəhdətə, birliyə və əməkdaşlığa sarı getsinlər. Vəhdət deyəndə də hamısının bir qrup olmasını nəzərdə tutmuruq. Məqsəd budur ki, əməkdaşlıq etsinlər, bir-birinə əngəl yaratmasınlar, irəliyə getsinlər. Mən görürürəm ki, bu tələbə dostumuzda

da bu hiss var. Elə mən də bunu istəyirəm. Mən istəyirəm ki, bunu hamı siyasi qruplardan tələb etsin. Fikrimcə, bəzi addımlar atılıb. Bəzi yaxşı işlər də görülüb. İnşallah, daha müvəffəq olsunlar.

**İnqilab dostlarının qanuni mühakiməsi**

**Sual**: İnqilabın həqiqi dostlarının mühakiməsi haqda fikriniz nədir? (Burada iki nəfərin adı çəkilib. Mən adları oxumayacağam; istər yaxşılığa çəkilsin, istər pisliyə) Bu, İslam quruluşuna yaraşırmı?

**Cavab**: Baxın, kiminsə inqilab dostlarından olduğu üçün mühakimə olunmaması fikri məntiqsiz fikirdir. İnqilab dostlarından olan şəxs gərək inqilabın qanunlarına görə cinayət sayılan bir iş görməsin və məhkəməyə də düşməsin; hər hansı yolla məhkəməlik olsa da, bəraət qazansın. Əgər bir nəfər cinayət törətmişsə, inqilabın həqiqi dostu olduğuna görə onun mühakimə olunmamasını deyə bilmərik. Bu, düzgün məntiq deyil. Burada adları çəkilən bu iki nəfərin vəziyyəti, əvvəllər və indi inqilabın həqiqi dostları olub-olmamaları, yaxud birinin belə olması, birinin isə olmaması ilə işim yoxdur. Lakin məhkəmənin hökmünə görə, inqilabın dostlarından olan kimdənsə bir xəta baş vermişsə, bu, onun məsuliyyətə cəlb olunmasına mane olmamalıdır.

**Məmurların eyş-işrətinə qarşı qətiyyətli tədbir**

**Sual**: Ölkənin bir çox rəsmiləri arasında yayılmış eyş-işrətə qarşı qətiyyətli tədbir görülməməsinin səbəbi nədir? Nə üçün konstitusiyanın hökumət adamlarının sərvətlərinin araşdırılmasına dair maddəsi tam icra olunmur?

**Cavab**: Dövlət məmurlarının sərvətlərinin dəqiq araşdırılmasına dair konstitusiyada maddə yoxdur. Bu yalnız bəzi rəsmi şəxslərə, o cümlədən rəhbərə, prezidentə və digərlərinə aiddir. Bunlar vəzifəyə gələndə öz sərvətləri barədə məlumat verməlidirlər. Vəzifədən uzaqlaşdıqda da bütün mülklərinin hesabını verməlidirlər ki, bu müddətdə nə qazandığı, nə əlavə etdiyi məlum olsun. Bu maddə icra olunur. Mən özüm prezidentliyə başlayanda və onu bitirəndə, həmçinin sonrakı vəzifəmdə dəfələrlə bu blankı doldurub Ali Məhkəməyə göndərmişəm. Digərləri də bunu edirlər. Lakin dəbdəbəyə dair sualınız çox düzgündür. Mən bu tələb və istəyin tələbə gənclərdə olmasını hiss etsəm, həqiqətən, Allaha şükür edərəm. Bunu bilin: dəbdəbəyə meyl elə bir şey deyil ki, qanunla, məhkəməylə, istintaqla və bu kimi işlərlə əlacı mümkün olsun. Bu, çox çətin məsələdir. Elə məsələlərdəndir ki, bütün ölkə - xalqın iradəsi, ümumi mədəniyyəti

bunu dəf etməli və buna əlac qılmalıdır. Eyş-işrətə meyl salanlar, zadəgan həyat tərzi üçün sino gedənlər, yəni aristokratlara məxsus və xalqın orta səviyyəsinə yad tərzdə yemək, geyinmək, yaşamaq və hərəkət etmək istəyən şəxslər bu kimi işlərin xalq arasında yaxşı olmasına və dəyər sayılmasına dair ənənə və zehniyyət yaradırlar. Necə ki, inqilabın qələbəsindən öncə belə idi. İnqilabdan qabaq dövlət məmurları bacardıqları qədər artıq cah-calalla, təkəbbürlülüklə, fironluqla, zadəganlıqla və bahalı paltarlarla görünürdülər. Bir qrup avam insanın da çox xoşu gəlirdi. Belə mədəniyyət formalaşdırmışdılar. İnqilabdan sonra əksinə oldu və buna görə də eyş-işrət adamları xalqın qorxusundan bundan çəkindilər. Bu gün isə tədricən həmin vəziyyətə qayıtmaq istəyirlər. Mənim fikrimcə, dəbdəbəçilik ölkə üçün zərərlidir, məmurların dəbdəbəçiliyi isə ikiqat zərərlidir. Çünki varlı adamlar özlərinin halal, yaxud haram mallarından xərcləyirlərsə. Məmurlar bunu edəndə isə öz mallarını deyil, xalqın malını xərcləyirlər. Bu zadəganlıq xalqın ümumi hissi ilə, yazmaqla, deməklə və bu düşüncəni yaymaqla düzələ bilər. Bu, bir mədəniyyətə çevrilməlidir, xüsusi məhkəmə, mühakimə və bu kimi məsələlərlə düzələn deyi.

**Prezidenti müdafiə**

**Sual**: Sizin hökuməti və cənab prezidenti müdaifə etməyiniz onların siyasətlərini qəbul etməyiniz anlamına gəlirmi?

**Cavab**: Mən prezidenti müdafiə etmişəm və edəcəyəm. Bu mənim borcumdur. Mən bunu etməliyəm. Hökuməti də müdafiə edəcəyəm. Düzdür, hökumət üzvləri arasında üsul və siyasətlərini bəyənmədiyim insanlar var. Onların özləri və dövlət məmurları da bilirlər. Ola bilsin, xalq bilmir, buna lüzum olmayıb. Lakin bilməli olanlar bilirlər. Bəzi tənqidlərim olub, nə zaman lazım olmuşsa, tənqidləri onlara bildirmişəm. Lazım olan yerdə sərt davranmışam və ciddi surətdə islah olunmasını istəmişəm. Lakin soruşursunuz ki, hökuməti və prezidenti müdafiə etməyiniz onların siyasətlərini qəbul etməkdir, yoxsa yox. Mən bilmirəm "onların siyasətləri" deyəndə nəyi nəzərdə tutursunuz. Bizim gördüklərimiz onların işləri, əməlləridir və bunlara dair yadıma heç bir irad düşmür. İşlərini görürlər. Təbii ki, insanlar eyni deyillər. Fərdlərdə olan qüvvə və bacarıqlar müxtəlifdir; şəxsi ülublar və danışıq tərzləri də müxtəlifdir. Bəziləri bir şeyi elə müdafiə edir və haqqında danışırlar ki, onu müdafiə edən başqa birisi ilə fərqlənirlər. Dəqiq insan məsələnin məğzini dərindən öyrənməlidir. Əgər bunlara diqqət yetirsəniz, mənim fikrimcə, problem yaranmaz.

**Tənqid və onun şəraiti**

**Sual**: Əgər siyasət və əməllərdə eyib olsa, onu bildirmək lazımdırmı? Sizin hökuməti müdafiə əmrinizə qarşı çıxmamaq üçün bunu necə bildirməliyik?

**Cavab**: Mən heç zaman tənqidin qarşısını almamış və heç kəsə qadağa qoymamışam. Düzgün və xeyirxah tənqidin zərəri yoxdur, lakin tənqid təxribatla sonuclanmamalıdır. Bəzi qüvvələr təxribat şəklində tənqid edirlər. Bu, yaxşı deyil. Çiynində ölkənin ağır yükü olan və böyük işləri, məsələn, iqtisadiyyatı sahmana salmasını gözlədiyimiz şəxsi gücləndirməsək, nə zamansa bir zəiflik görünəndə üstünü örtməsək, belə bir şey gözləyə bilərikmi?! Belə olan halda öz vəzifəsini yerinə yetirməsinə ümidvar ola bilərikmi?! Mənim fikrimcə, dövlət məmurlarına kömək etmək hamının borcudur. Düzdür, o zamana qədər ki, onlar düzgün İslam və imam xəttində hərəkət etsinlər. Bu xətdən yayınan kim olursa-olsun, müdafiəediləsi deyil. Bunda heç bir fərq yoxdur; yuxarıdan aşağıya hamıya aiddir. Mənim özüm də beləyəm. Əgər Allah eləməmiş, mən də düzgün İslam xəttindən uzaqlaşsam, məni dəstəkləmək, yaxud fərmanlarıma əməl etmək vacib olmaz. Düzdür, bəzən səhv və üslub fərqi ola bilər. Üslub fərqinə görə dövlət məmurlarını və müxtəlif orqanların başçılarını öz dəstəyimizdən məhrum etməməliyik.

Siz də bilin, mənim əzizlərim! Bu gün bu ölkə hökumətin və xalqın bir yerdə olduğuna görə qüdrətlidir. Dünyanın heç bir yerində belə bir şey yoxdur. Bunu sizə dəqiq deyirəm. Hətta demokratik ölkələrdə də sizin burada müşahidə etdiyiniz vəziyyət yoxdur. Bizdə bir məmur oturub xalqla səmimi surətdə danışır; nə onlar bundan qorxurlar, nə də bu onlardan qorxub özgəlik hissi keçirir. Xoşbəxtlikdən, bu ölkədə belə nümunələr çoxdur, oralarda isə belə deyil. Bu da dinin və İslamın sayəsində əldə olunub. Öz iddialarına görə demokratik olan dinsiz və ateist hökumətlərlə xalq arasındakı pərdə digər yerlərdən çox-çox qalın idi. Hökumət və xalqın bu birliyi dinə və İslama görədir. Bunu əldən vermək olmaz. Bu, çox səmərəli bir haldır. Dövlət məmurları ilə xalq arasında olan bu əlaqə - xalqın dəstəyi və məmurların xalqa sevgi və qayğıkeşliyi çox dəyərli bir şeydir.

**Səlahiyyət nəzarəti**

**Sual**: Vətəndaşların Nəzarət Şurası tərəfindən öz təbii haqları olan seçilmə hüququndan məhrum edilməsi xalqın quruluşa etimadsızlığına bais olmurmu?

**Cavab**: Mənim cavabım budur ki, xeyr, olmur. Səlahiyyətə nəzarət qanunda nəzərdə tutulmuş məsələdir və heç kim qanuna əməl olunmasından şikayət etməməlidir. Nəzarət Şurasının bu işi qanun çərçivəsindədir, konstitusiyaya əsaslanır. Bunun kökü konstitusiyadadır və digər qanunlarda da təsdiq olunmuşdur. Bu nəzarət adi vətəndaşlar üçün deyil. Bu, zərərli, pis və ləyaqətsiz bir insanın həssas mərkəzlərə daxil ola bilməməsi üçündür. Bu nəzarət təkcə parlamentə aid deyil, prezidentə də şamil olur. Siz təsəvvür edin, xarici ölkələr tərəfindən dəstəklənən, ixtiyarında çoxlu pul olan, özünü müxtəlif şəkillərdə bəzəyən peşəkar bir fırıldaqçı namizədliyini irəli sürsə, xalqın çoxunu aldatmağı bacarsa və prezident seçilsə, bu məmləkətin başına nələr gələr?! Səlahiyyətə nəzarət onun üçündür ki, ölkə qanunlarına əsasən, həssas vəzifələrə - istər parlamentə, istər prezidentliyə, yaxud bu şuranın nəzarətində olan başqa yerlərə, məsələn Dini Ekspertlər Məclisinə daxil olmaq səlahiyyətinə malik olmayan şəxslərin qarşısı alınsın, onlar bu həssas mərkəzlərə yol tapa bilməsinlər.

Səlahiyyətə nəzarət yaxşı bir şeydir, pis deyil. Tənqid edənlərin və irad bildirənlərin iddiası budur ki, Nəzarət Şurası kimisə rədd, yaxud təsdiq edəndə siyasi görüşləri nəzərə alır. Sözsüz ki, bu, doğru deyil. Nəzarət Şurasında çalışanların özləri bunu həmişə inkar etmişlər. Mən də onların işinə yaxından şahid olduğum qədərincə, belə bir şey hiss etməmişəm. Ola bilsin, kimsə nə vaxtsa bir məsələni düzgün anlamayıb və səhvə yol verib. Bu, başqa məsələdir.

**Prinsip və üslubların sərhədlənməsi**

**Sual**: Bir müddətdir prinsip və üsullar haqda müzakirələr gedir. Bu sahədə bəzi çaşdırıcı yollardan da istifadə olunur. Lütfən deyin ki, prinsip və üsullar arasında sərhəd üçün meyar nədir? Prinsipləri necə təyin etmək olar?

**Cavab**: Prinsiplər müxtəlif sahələrdə olan müxtəlif üsullarla səhv salınmır. Prinsiplər bir quruluşun düşüncə təməlləri və hakimiyyətin əsasıdır. İslam dini prinsiplərdəndir; istiqlaliyyət prinsiplərdəndir; dini quruluş prinsiplərdəndir; İslam qanunlarına əməl etmək prinsiplərdəndir; xalqın və ölkənin ümumi istiqamətinin dindarlığa sarı getməsi və cəmiyyəti ideal İslam cəmiyyətinə sarı aparmaq prinsiplərdəndir.

Prinsiplər bu qəbildəndir. Üsullar isə odur ki, bir nəfərin filankəslə arası yaxşıdır, filankəslə pisdir; birinin ondan xoşu gəlir, digərinin xoşu gəlmir. İqtisadi məsələlər üsulun fövqündə durur, amma prinsip deyil. Fərz edin bir nəfər iqtisadi tarazlıq siyasətini düzgün sayır, biri isə bu siyasətin əleyhinə çıxıb başqa bir siyasəti düzgün sayır. Bunlar üsuldan a yüksəkdir, lakin prinsiplərlə səhv salınmamalıdır. Bu və ya digər siyasi üsula malik bir şəxs bir vəzifəyə seçildikdə ona uyğun hərəkət edir. Sonra başqa birisi gəlir və işləri başqa formada aparır. Lakin prinsiplər həmişə qorunur. İndi siz baxın, bir zaman hökumətin başçısı bir şəxs idi, sonra başqa bir nəfər oldu, məndən sonra daha başqa bir nəfər hökumət başcısı oldu. Bütün bu dönəmlərdə siyasi və iqtisadi üsullar müxtəlif cəhətlərdən fərqlənsə də, düşüncə təməlləri - yəni İslama etiqad, imama, İslam quruluşuna və xalq hakimiyyətinə inam həmişə qorunub. Bu inamlar hətta hökumətlərin dəyişməsi ilə də dəyişmir. Bu baxımdan, səhv salına bilməz.

**Vilayət**

**Sual**: Sizin fikrinizcə, bəzən vilayət sözünü pis tərif və müdafiə etmirlərmi? Həmçinin vilayəti müdafiə və vilayətə itaət iddiasında olanlar pis işləmirlərmi?

**Cavab**: Bəli, təsadüfən, çox yerlərdə pis müdafiə olunur. Bəziləri pis müdafiə edir, bəziləri pis işləyirlər. Belə şeylər var, bunları inkar etmək olmaz. Necə ki, Allahın tərəfdarı olan və dindarlardan sayılanların çoxu pis əməllər edirlər. İslam dininin tərəfdarı olan şəxslər arasında çoxları pis işlər də görürlər. Bu hər yerdə ola bilər və var. Lakin əsas məqam budur ki, kimsə vilayəti, dini, İslamı, İslam quruluşunu, yaxud bir şəxsi müdafiə məqsədilə pis çalışırsa, biz bu pisliyi onun müdafiə etdiyinə aid etməməliyik; deməliyik ki, onunla işim yoxdur, amma bu şəxs düz eləmir. Bəzən yaxşı məqsəd güdməyən bəzi şəxslərin burada məsələni qarışdırmaları müşahidə olunur. Bir şəxs dinin, yaxud başqa bir həqiqətin tərəfdarıdır və pis rəftar edir. Bu zaman onun müdafiə etdiyi həqiqətə hörmətsizlik olunur. Bu, düzgün deyil.

Adətən, sual-cavab toplantılarında cavab verdiklərimiz cavab vermədiklərimizin onda biri qədər olur. İndi də elə oldu. Suallar davam edir və mən sonradan onlara cavab vermək istəyirəm. Bəzən belə olub, yəni biz sualları aparmışıq və sonradan cavab verib yaymışıq. Düzdür, təəssüf ki, mənim vaxtım azdır. Əgər bacarsaydım, tələbələrlə belə toplantını ayda, yaxud iki ayda bir dəfə təşkil edərdim. Lakin imkanlarım

çox məhduddur. İşlərim və məsuliyyətlərim çox ağırdır. Buna görə təəssüf ki, az müvəffəq oluram. Ancaq ürəyim istəyir bu sualların hamısına cavab verim. İnşallah, çalışacağıq dəftərxanada dostlarımızdan bir neçə nəfərdən xahiş edək ki, oturub bu suallara baxsınlar. Təkrar olanları çıxarsınlar, təkrar olmayanlara cavab versinlər. Sonra mən də baxım və sizə qaytarılsın, bütün tələbə dostlar cavabları görsünlər. Hər halda, bugünkü toplantıya sevindim. Bir neçə dua edirəm. Xahiş edirəm ki, pak və səmimi qəlblərinizlə bu duaları Allahdan istəyin və "amin" deyin. İnşallah, Allah qəbul edər.

İlahi, Səni cəlal və camal sifətlərinə and veririk, Öz hidayət və rəhmətini bizə, bizim xalqımıza və ölkəmizə şamil et!

İlahi, bizim əlimizi İslamdan və Qurandan ayırma!

İlahi, cəmiyyətimizi İslama və İslam quruluşuna hər gün qabaqkından daha artıq yaxınlaşdır!

İlahi, Səni Məhəmməd və Ali-Məhəmmədə (s) and veririk, Öz tərəfindən və Özünün xüsusi nəzərinlə yaxşı, həvəskar, məqsədli və mömin gənclərin – Allah yolunda və ilahi vəzifələrini yerinə yetirmək üçün toplanan, Allah yolunda ağır məsuliyyətləri yerinə yetirməyə hazır olan gənclərin əllərindən tut! Onların addımlarını möhkəm et! Onları insan və cinlərdən olan şeytanların şərindən qoru!

İlahi, universitetlərimizi günbəgün abadlaşdır, bəhrəli və səmərəli et!

İlahi, bu xalqın problemlərini aradan qaldır!

İlahi, dövrün imamının müqəddəs qəlbini bizdən razı et və bizi o həzrətin əsgərlərindən elə!

Allahın salamı və rəhməti olsun sizə!

## Rəhbərin tələbləri[25]

Bismillahir-Rəhmanir-Rəhim.

**Tələbənin üstünlüyü**

Əvvəla, siz əziz övladlarımın hamısına, əziz gənclərə və tələbələrə xoşgəldin deyirəm. Sizdə inqilabçı və dini duyğulardan, təfəkkür və dərkdən əlavə, mənim fikrimcə, hər biri ayrı-ayrılıqda əhəmiyyətli olan üç amil mövcuddur: biri budur ki, gəncsiniz; ikincisi budur ki, tələbəsiniz; üçüncüsü budur ki, İslam birliyinin üzvüsünüz. Bu üç amil sizi eyni aydın və inqilabçı fikrə, dinə, imana və ilahi dəyərlərə bağlı olan digər şəxslərdən ayırır.

**İslam birliyindən bir xatirə**

Gənc və gənclik barədə çox sözlər demişik, hamı danışıb; tələbə və tələbəliyin əhəmiyyəti barədə də həmçinin. Lakin İslam birlikləri barədə hər şeydən öncə sizin üçün bir xatirə danışım. İnqilabın əvvəllərində, bəlkə də ondan 2-3 il sonra xarici analitiklərin biri inqilab haqqında bir söz dedi. Bu söz çoxlu informasiya vasitələrində yayıldı və hətta İslam dünyasının məşhur dövlət başçılarından biri də onu təkrarladı. Bildiyiniz kimi, o zaman daim inqilab barədə təhlil edir, danışır, müzakirə aparırdılar. Lakin o söz digər söz və təhlillərdən daha artıq əks-səda doğurdu. Həmin xarici analitik demişdi ki, İran inqilabı özünün möhkəmlənməsi və inkişafı üçün analoqsuz üsullardan istifadə edir. Bu üsullardan biri müxtəlif təbəqələr arasında İslam birliklərinin yaradılmasıdır. İslam birlikləri inqilabın arxalandığı mömin və inqilabçı qüvvələrdir.

Gec olsa da, düzgün anlamışdılar. İslam birlikləri harada olursa-olsun – universitetlərdə, zavodlarda, bazarda, dövlət orqanlarında və müxtəlif idarələrdə bir mühərrik kimi bütün toplumu hərəkət etdirən və özü ilə irəliyə aparan məqsədli, aydın, imanlı və coşqun qüvvələrdən ibarətdir. Tələbələrin İslam birlikləri də həmişə universitetlərdə dəyərli işlər görmüşlər. İslam birliklərinin gərgin və dayanmadan iş dövründə bizim böyük imamımız çoxlarının təəccübünə səbəb olan bir cümlə dedi. O dedi ki, İslam birlikləri ehtiyatlı olsunlar, əcnəbi şəxslər onların arasına yol tapmasınlar. İmam bu sözü 1981, yaxud 82-ci ildə dedi.

---

[25] Tələbə Birlikləri İttifaqının üzvləri ilə görüşdə çıxışı: 18 may 2000.

**Hikmətli imam**

İmamın xüsusiyyətlərindən biri bu idi: o, sözün həqiqi mənasında həkim idi. Həkim filosof deyil, filosofdan ucadır. Həkim Quranda peyğəmbərlərə və cənab Loğmana aid edilən sözdür: "Biz ona hikmət bəxş etdik"[26]. Hikmət odur ki, insan bütün insanların gözü qarşısında olan zahiri məsələləri aşıb, öz iti gözlərilə batinləri müşahidə edib desin. Bu bəzən çox da mühüm nəzərə çarpmır, lakin əməldə və diqqət məqamında böyük əhəmiyyət kəsb edir. İmamın bu cümləsi doğrudan da hikmətamiz cümlələrdən idi.

**Düşmənlərin tamah saldığı İslam birlikləri**

Çox aktiv düşmənləri olan bir təşkilatının müsbət cəhətlərinin olması, lakin düşmənin öz diqqətini həmin cəhətlərdə mərkəzləşdirməməsi və o cəhətləri aradan qaldırmaq üçün pul xərcləməməsi, demək olar ki, imkansızdır. Mən indi ölkə və universitetlər səviyyəsində İslam birliklərinə dair mühakimə yürütmək istəmirəm. Lakin İslam birliklərinin bir hissəsini idarə edən siz əziz gənclərə bu birliklərin, onların inkişaf və sağlamlığının əhəmiyyətinə diqqət yetirmənizi istəyirəm. Siz öncül və yaradıcı olmalısınız; fikir, duyğu və iman yaradıcısı. Əvvəl öz daxilinizdə və eyni zamanda ətraf mühitinizdə islah işləri görün. Bunlar bir-birindən ayrılmazdır. İnsan özü islah olunmasa, ayrısını islah edə bilməz.

**İnqilabın yolu və gənclərin gücü**

Mənim əzizlərim! Bu inqilabın, bu böyük hərəkətin və onun əsasında yaranmış bu quruluşun bəşərin həyatı və tarixi üçün olduqca çox böyük və taleyüklü işləri var. Bu yolu gənclərin möhkəm addımları olmadan getmək olmaz. Gənclər hərəkət etməli və irəliyə getməlidirlər. Gənclər inqilabı irəliyə apara bildilər. Bizim rəhbərimiz imam, proqram da İslamdır. Lakin irəliyə aparan, maneələri aradan qaldırıb irəliləyən, hərəkət edən və hərəkət etdirən güclü amil gənclər idilər. Gənclər öz imanları, məqsədləri, gənclik gücləri və həvəsləri ilə bunu etdilər.

İndi bizim işlərimiz inqilabın əvvəlindən az deyil. Bu gün bizim amallarımız eyni amallardır. Düzdür, böyük addımlar atılıb və irəliləmişik. Lakin bizim düşmənlərimiz, bu məqsəd və amalların düşmənləri də eyni həddə çoxlu işlər görüb, təbliğat aparıb, casus şəbəkəsi qurub, adam toxuyub və fikir düzəldib. Bu gün Qərb dünyasında ideologiya və fikir

---

[26] Sad/20.

toxuyan insanlar var. Nə üçün deyirik “fikir toxumaq”? Çünki onlar qlobal hegemonizmin, transmilli kompaniyaların, trestlərin, kartellərin, sinonistlərin məsədlərini nəzərə alır, onların ölçüsünə uyğun ideologiya yonur və nəzəriyyə yürüdürlər. Bütün bu şeytani işlərlə dünya hökumətlərini və xalqlarını qorxuda bildilər, təzyiq altında saxladılar. Çoxlarını tamahlandırdılar, çox ağızları şirinləşdirdilər. Bəzilərini müxtəlif yollarla aldatdılar və nəticədə dünyadakı böyük güc imperatorluğunu, bizim hegemonizm adlandırdığımız amili əllərində saxladılar.

**Quruluşun sionizm qarşısında müqaviməti**

Bu arada bəzilərinin səsi çıxmır, bəziləri çürət etmir, bəzilərinin səsi bir yerə çatmır, bəziləri də dünyanın müxtəlif yerlərində İslamdan danışan və tez susdurulan gənclərdir. Lakin bir yerdə bir siyasi quruluş var. O, qüdrətlə tribunasına sahib çıxır, Birləşmiş Millətlər Təşkilatında və digər beynəlxalq toplantılarda iştirak edərək onların sözlərinə etiraz edir. Onlar sionist şəbəkələrin uğur qazanmasında israrlıdırlar. Bu quruluş isə sionistlərin qarşısında dayanmışdır. Onlar nə olursa-olsun, qondarma, saxta, xain və işğalçı sionizm dövlətinin dünyanın bu nöqtəsində möhkəmlənməsində israrlıdırlar. Çox işlər görmüşlər. Lakin bu quruluş açıq şəkildə onların qarşısında dayanmışdır. Onlar dünyanın bütün işlərinə, bütün dənizlərə, keçidlərə, bütün həssas boğazlara, o cümlədən Hürmüz boğazına müdaxilə etməkdə israrlıdırlar. Siz baxın, bütün bu həssas boğazlarda ABŞ-ın, sionizmin və digərlərinin maraqları var: onları öz əllərində saxlamaq istəyirlər.

Bu quruluş hegemonizmin istəkləri qarşısında dayanmışdır. Burada güclü quruluş, həvəskar xalq, gənc millət mövcuddur. Bu ölkədə gənclərin böyük əksəriyyəti din hakimiyyəti ilə, quruluşun başında olub, kiminsə nə topundan, nə gücündən, nə atom bombasından, nə də qeyzindən qorxan və sözlərini açıq şəkildə deyən şəxslərlədirlər. Bu, uzunmüddətli hegemonizm hərəkəti, bəlkə də 150 ildir dünyada istismarçılıqla məşğul olan, əli cinayət və qətllərə bulaşmış hegemonizm üçün ayıbdır. Məlumdur ki, bununla düşmən olacaqlar. Bu quruluşla düşmənçilik aydın bir məsələdir. İstəkləri də bu quruluşun müsbət cəhətlərini ondan almaqdır. İndi bu haqda söhbətin yeri deyil, bu, geniş mövzulardandır. Özünüz gedib təhlil etməli, nə etdiklərini görməli, məqsədlərini bilməli və hansı nöqtələr üzərinə barmaq qoyduqlarını bilməlisiniz.

**İslam birlikləri - təsirli mərkəzlər**

Bu məsələlərlə məşğul olmaq siz gənclərin, tələbələrin və tələbə təşkilatlarının işidir. Bu, çox əhəmiyyətlidir. Lakin mənim demək istədiyim budur ki, heç şübhəsiz, onların diqqət mərkəzində olan yerlərdən biri İran xalqında çox mömin, təsirli, bacarıqlı və parlaq mərkəzlər - yəni İslam birlikləri idi. Onlar süni ajiotaj yaradaraq bunları səhnədən çıxarmaq, yaxud fəaliyyətlərini azaltmaq istəyirdilər. Əlbəttə, o illər sizin yadınıza gəlmir. Bir dövrdə sizin, ətrafda bəzi sözlərini eşitdiyiniz bu adamların bir qrupu mərəkə salırdılar ki, birliklər nə deyirlər, hansısa idarədə İslam birliyi nə karədir, nə üçündür və sair. Onlar İslam birliklərinə qarşı çıxırdılar. Bəzi yerlərdə zəiflədə bildilər, bəzi yerlərdə də birliklərin içinə yol tapdılar.

**Düşüncə və imanı gücləndirmək**

Mənim əzizlərim! Demək istəyirəm ki, birliklərin bir hissəsi olan sizlər öz düşüncə və imanınızı gücləndirin. Bilin ki, özünüzün Allahla şəxsi əlaqənizi möhkəmlədə bilsəniz, şəffaflaşdırıb ona diqqət yetirsəniz, o zaman toxunulmaz qalarsınız, düşmən nə sizə, nə də ətraf mühitinizə hücüm edə bilməz. Bizim işlərimizdə mövcud nöqsanların çoxu əvvəldən bir nəfərin, iki nəfərin, üç nəfərin şəxsi səhvlərindən qaynaqlanır. Fərz edin, çox xırda və təhlükəli bir həşərat nar dənələrindən birinin içinə girir, onu içəridən çürüdür, sonra beləcə ətrafını xarab etməyə başlayır. Biz harada gördüksə, belə olmuşdu.

Mən bir neçə il bundan əvvəl İslam birliklərinin ümumi toplantısına göndərdiyim yazılı müraciətdə bu məqama toxundum, dedim ki, ehtiyatlı olun, dünyanın şirin və yağlısı sizi aldatmasın. Əgər ehtiyatlı olsaydılar və bundan sonra ehtiyatlı olsalar, fəsad yaranmaz.

Allahla əlaqənizi gücləndirin. Siz gəncsiniz, ürəkləriniz işıqlıdır. Siz paksınız, bacararsınız. Bu böyük məqsədləri həyata keçirməkdən ötrü öznüzdə maraq, güc, iman, həvəs, elm və peşəkarlıq yaratmalısınız. Fiziki sağlamlıq, düşüncə sağlamlığı, ruh və iman sağlamlığı siz gənclərin çiyni üzərində elə bir bina quracaq ki, dünyanın ən böyük gücləri də onun əzəmətini azalda, onunla mübarizə apara bilməyəcəklər.

**Rəhbərin tələbləri**

Allahdan kömək istəyin. Siyasi məsələlərdə ilahi formada və sədaqətlə rəftar edin, inqilabın həqiqi tələblərini öyrənin, görün inqilab bizdən nə istəyir. Müxtəlif tələb, istək və şüarlarda səhvlər böyük nöqsanlar əmələ gətirir. Mən sizə bunu deyirəm. Yalnız bir xidmətçi və zəif

bir tələbə olan rəhbərin istəkləri - mənim öz məsuliyyətmdən irəli gələn tələb və istəklər öyrənilməlidir. Bunu siyasi dəstə, qrup və cinahların tələbləri ilə qarışdırmayın. Baxmaq lazımdır ki, biz nə istəyirik, məqsəd nədir. Bunlar çox əhəmiyyətlidir. Bunlar siz əziz gəncləri Allahın yolunda irəliyə aparacaq məsələlərdir.

Ümidvaram ki, müvəffəq və həzrət İmam Mehdinin (ə) diqqətində olasınız! Ümidvaram ki, inqilab üçün dəyərli və etimadlı ehtiyatlar olasınız! Allah sizin iş və fəaliyyətlərinizin sonunu ən yaxşı şəklə salsın, sizi İslamın və dövrün imamının həqiqi əsgərlərindən etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Müsəlman cəmiyyətlərinin geri qalmasının səbəbləri[27]

Bismillahir-Rəhmanir-Rəhim.

Əvvəla, siz əziz qardaş və bacılara - tələbələrə, müəllimlərə, möhtərəm alimlərə və şəxsən əziz alim cənab Misbaha[28] xoşgəldin deyirəm. Ümidvaram Allahın hidayəti, lütfü, razılığı və tükənməz mərhəməti sizin fəaliyyətinizə, iradənizə, niyyətinizə, icra etdiyiniz proqramlara və öz elmi gələcəyiniz üçün nəzərdə tutduğunuz mənzərəyə şamil olsun. Siz və gələcəyiniz həzrət İmam Mehdinin (ə) xeyir-dualarından pay götürəsiniz.

**Elm və imanın sintezi**

Məni bu toplantıya, bu proqrama, bu düşərgəyə, bu elmi və mədəni topluma bağlayan və inandıran odur ki, burada elm və imanın, təfəkkür və duyğunun sintezi müşahidə olunur. İmandan irəli gələn duyğuları bu ölkənin mömin gənc nəslindən ayıracağını xəyal edənlər, eləcə də bu duyğulara əhəmiyyətsiz yanaşanlar səhv edirlər.

**İlahi möcüzə**

Mənim əzizlərim! İslam tarixi acı və şirinlərin, eniş və yoxuşların, çətinlik və asanlıqların məcmusudur. Əgər insan bu tarixə baxsa, görər ki, Şiə düşüncəsinin, Şiə fiqhinin, fəlsəfəsinin və Şiə maarifinin yaşamasının özü bir möcüzədir. Möhkəm qayalar, bir-birinə sarılmış tikanlar, müxtəlif əyri-üyrü yollar arasında, nahaq, zalım və qəsbkar siyasi güclərin maraqlarının daşürəkli keşikçiləri yanında sağlam və dadlı bir su İslam bulağının mənbəyindən axmış, bütün bu maneələrdən keçmiş, bu böyük məsafəni qət etmiş və günbəgün daha xalis, daha geniş, daha görkəmli və daha uca olmuşdur. Bunlar xəyal deyil, həqiqətdir.

Şiə fiqhi, fəlsəfəsi, kəlamı və Şiə maarifi zaman boyu zalım hakimiyyətin dəstəyilə qərəzli məqsədlərə xidmət göstərən saxta elmlər, şübhələr arasında özünü həm sağlam saxlaya, həm kamilləşə, həm inkişaf edə və təkcə İranda yox, dünyanın hər tərəfində milyonlarla insanı heyran qoya bilmişdir. Bu, nədən irəli gəlir? Şübhəsiz ki, bu fikrin sağlamlığı və prinsipiallığı ona maksimum kömək etmişdir. Lakin bəzi yerlərdə elmi

---

[27] Vilayət layihəsi çərçivəsində Bəsic üzvü olan tələbələrlə görüşdə çıxışı: 1 sentyabr 2000.

[28] Ayətullah Məhəmmədtəqi Misbah Yəzdi.

qüvvə təklikdə kifayət etmir, başqa bir şey də lazımdır. Xalis imanın da dayağı olan bu amil düzgün bilgilərdən qaynaqlanan düzgün duyğulardır. Quran imamların, Əhli-beytin məhəbbəti üzərində təkid göstərmişdir: "Yaxınlara (Əhli-beytə) məhəbbətdən başqa bir şey istəmirəm"[29]. Əhli-beytin söz və göstərişlərinə sarılmaq və bütün məsələlərdə onların xilaskar işarələrinə güvənmək bu sağlam və möhkəm düşüncəni ziyanlardan qoruyan amildir. Pula, gücə, qüvvəyə, şəhvətə və digər uçurumlara məğlub olan alim mütəfəkkirlər az deyillər. Alimi və qeyri-alimi bu uçurumlardan uzaq saxlamağı bacaran amil duyğularla qarışmış iman coşqusudur. Şiə bunu qorumuşdur.

**Qanın xəncərə qələbəsi**

İmam buyurdu: "Məhərrəm ayı qanın xəncərə qələbə çaldığı bir aydır". Necə? Siz əziz gənclər o gün bu xiyabanlarda deyildiniz. İyirminci əsrdə çoxlu hadisə və dəyşikliklər baş vermişdir. 1917-ci ildə Rusiyada bir inqilab baş verdi. On-iyirmi ildən sonra dünyanın müxtəlif yerlərində bir-birinin ardınca siyasi dəyişikliklər başlandı; ya çoxlu qan tökməklə, ya qanlı çevrilişlərlə, ya qorxutmalarla, ya da ordu yeritməklə. Bizim inqilabın qələbəsinə qədər heç bir yerdə görünməmişdi ki, bir xalq öz canı, qəlbi və duyğuları - şüarlarında tərənnüm olunan duyğuları ilə, silahsız şəkildə və izdihamla elə etsin ki, düşmən onun qarşısında davam gətirə bilməsin. Bu, İranda baş verdi.

**İmamın Nelson Mandelaya təsiri**

Cənubi Afrikada aparteid rejimi zamanı Nelson Mandela[30] buraya gəldi. O, həbsxanadan yeni çıxmışdı. Mənim orada baş verən inqilab hərəkətlərindən xəbərim vardı. Prezident olarkən Cənubi Afrika ölkələrinə səfər zamanı öyrənmişdim ki, yaxınları İran inqilabı haqda ona məlumat veriblər, o da sevinib və həbsxanadan imama sevgisini bildirib. Əlbəttə, bu hiss təkcə ona məxsus deyildi. Mən onu bir məsələyə görə misal çəkirəm. Əslində, dünyada ondan da görkəmli olan çoxlu şəxsiyyətlər belə təsirlənmişdilər. O, inqilab haqqında eşitmişdi. Onlar 30-40 il idi mübarizə aparırdılar, lakin Cənubi Afrikada olan bir kor düyün bütün bu mübarizələri nəticəsiz qoyurdu. Burada mənimlə görüşdü. Ona dedim ki,

---

[29] Şura/23.

[30] Afrikanın milli rəhbəri, Cənubi Afrikanın ilk qaradərili prezidenti, 1993-cü ildə Nobel Sülh Mükafatının laureatı. O 20 il Cənubi Afrikanın millətçi hökumətinə qarşı mübarizə aparmış və 26 ildən artıq həbsxana həyatı yaşamışdır.

imamın və İran inqilabının təcrübəsi budur: silah işlətmədən, etiqada və duyğulara arxalanmaqla ürəkdən fəaliyyət göstərmək. Mənim fikrimcə, küçələr mömin xalqın izdihamı ilə dolanda - bu hər kəsin işi deyil, bir növ iman lazımdır - bu əzəmətin qarşısında heç bir siyasi quruluş duruş gətirə bilməz. O, məqamı anladı. Bir qədər sonra orada böyük küçə hərəkatlarını eşitdik. Bu, zalım və qaniçən rejimin dəyişilməsi ilə nəticələndi. Belə ki, orada ağların bəzi şəxsiyyətləri də bunlarla əməkdaşlıq etməyə məcbur oldular. Deməli, bir neçə onillik millətçi zalım bir rejim İslam inqilabından ilham almış bu hərəkətlə məhv oldu. Bu gün də dünyada bu üsul təsirli və məqbul bir üsuldur. Əvvəllər isə normal qəbul olunmurdu.

**Müsəlman cəmiyyətlərinin geri qalmasının səbəbləri**

Mənim əzizlərim! Düşüncə birinci məsələdir, ona uyğun əməl isə ikinci. İnsan düşüncə və əməli birləşdirəndə Allahın lütfü, mərhəmət və hidayət nuru ürəklərə axır, insanda dinclik, ümid, vüqar və yəqin yaranır. Bu xüsusiyyətlərə malik olan bir toplum bütün maneələrdən keçə bilər. Bizdə bu var. Bizim müsəlman cəmiyyətlərimiz və İran xalqı ötən əsrlərdə çətin vəziyyətdə yaşamış, günbəgün süquta uğramışdırsa, yaxud bu gün bir çox müsəlman ölkələri bu problemlər içindədirsə, səbəbi budur: imanın arxalanması üçün düzgün, məntiqli, güclü və hesablanmış bir düşüncə yoxdur, yaxud tamah, qüsur, tənbəllik, səhv, dünyagirlik, ehtiras və bu kimi işlər əməlin qarşısını almışdır. Düşüncə və əməl yanaşı olmasa, ilahi hidayət, lütf və yardım da olmaz. Bunun çox nadir istisnaları ola bilər.

**Planlı düşmənin tədbiri**

Bu gün planlı düşmənin bu böyük hadisə, yəni İslam Respublikası quruluşunun yaranması qaşısında planı budur ki, bu sütunları dağıtsın, iman təməllərini uçursun. Bəzən şübhə yaymaqla zehinləri çaşdırmaq istəyir. Necə ki, bunu görürsünüz; sanki bəzi şəxslər oturub fikirləşməyə və şübhə yaymağa məmur ediliblər. Sonra bir alim, bir xoşməramlı insan gəlib bu şübhəni aradan qaldırır. Lakin bunlar öz işlərini görürlər; bəzən də topla, qorxutmaqla, böhtanla, təhqirlə və iftira ilə. Siyasət dünyasında və digər sahələrdə geniş yayılmış işlərdən biri bir amal sahibini səhnədən çıxarmaq və inandığı həqiqətə qarşı həvəsdən salmaqdır. Əgər sizdə qiymətli bir almaz olsa və onu ucuz qiymətə almaq istəsələr, yollarından biri budur: birinci adam gəlib deyir ki, şüşədir; ikinci adam deyir ki, dəyərsizdir; üçüncü adam da eləcə və nəhayət, siz yavaş-yavaş bu almazın

doğruluğuna şübhə edirsiniz. Bundan sonra onu asanlıqla sizdən almaq olar. Bu, dünyada tanınmış üsullardan biridir. Bunun üçün pul xərcləyirlər.

**Qərbdə demokratiya**

İnqilabın əvvəlindən bu modern konstitusiya, modern və yeni xətt, yəni imana arxalanan demokratiya xətti hakim olmuşdur. Bu gün dünyada belə bir şey yoxdur. Bu gün dünyadakı demokratiyalar pula arxalanır. Siz amerikalıların özlərinin KİV-nin rolu və seçkilərin keçirilməsi barədə müxtəlif formalarda yazdıqları kitabları oxuyun. Görün bələdiyyə, meriya, prezident və konqres seçkiləri necə keçirilir. Pulun rolu birincidir, əsl demokratiya mövcud deyil. Bəzəməyə çox çalışdıqları bu demokratiyanı birinci elə özləri tənqid etmişlər.

İmana arxalanan demokratiya, bu aydın baxış bir quruluşu ayaq üstə saxladı, dünyada bir inqilab yaratdı, bir bayraq ucaltdı. Birinci növbədə insana şəxsiyyət bəxş edən bayrağı və uca İslam düşüncəsini ucaltdı. Onlar bu imanı sıradan çıxarmaq üçün belə parlaq bir məsələni inqilabın əvvəlindən daim müxtəlif radiolarda alçaldıcı ifadələrlə təhqir etmişlər. Nə üçün? Ona görə ki, bu düşüncənin sahibləri onu qorumaqda və onunla qürur duymaqda şübhəyə düşsünlər. Yaxud saleh əməli müxtəlif formalarda təhqirə məruz qoymuşlar. Cənab Misbahın indi sizin hamınızın dilindən buyurduğu məsələlərlə, bəzilərinin əhəmiyyətini azaltmaqla, bəzi səhvləri şişirtməklə buna çalışmışlar.

**Düşmənin acizliyi**

Mənim sizə demək istədiyim budur ki, bu fikrin, bu xəttin, bu yolun və bu gün burada baş vermiş bu böyük hadisənin belə tədbirlərlə sıradan çıxacaq bir şey olmadığını bilin. Özləri də bunu etiraf edirlər. Bəzən hansısa bir hadisəyə görə bir qədər ümidlənir və baş qaldırırlar, amma sonra yenidən görürlər ki, faydası olmadı. Özləri də deyirlər. Bu təşkilatlardan bizə çoxlu xəbərlər gəlir. Müxtəlif toplantılarda bəzi natiqlər, bəzi nəzər sahibləri məyus olduqlarını bildirir və deyirlər ki, alınmadı, alınmayacaq. Doğrudan da alınmayacaq. Onlar bu böyük hərəkəti saxlaya bilməzlər. Bilirsinizmi, nə üçün alınmır? Çünki düşüncə düzgündür. İxlaslı, sağlam və mömin tərəf-müqabilləri var. Ölkənin hər yerində bunun uğrunda sevgi, ixlas və həvəslə hər şeyə hazır olanlar var. Siz də onlardansınız. Bu, mömin gənclər üçün ağır bir vəzifədir.

**Düşmənin universitetlərə diqqəti**

Mənim əzizlərim! Bu gün düşmənin diqqəti hər yerdən çox universitetlərə yönəlib. Bunun səbəbləri var. Düzdür, mən də sizinlə razıyam ki, düşmən bizim gənclərimizi anlamaqda, tanımaqda və dəyərləndirməkdə səhvə yol verir. Cənab Misbahın sözlərində olan 90 faiz məsələsini mən də təsdiq edirəm. Mən təxminən bütün tələbəlik və təbliğat ömrümü gənclərin arasında, gənclər və tələbələrlə keçirmişəm. Gənclərin xarakterinə müəyyən qədər bələdəm. Mən də bunu təsdiqləyirəm. Əlbəttə, bəzi şəxslər ya mürəkkəb elmi şübhələrə düçar olmuşlar və bundan qurtula bilmirlər, ya bəzi ailə maraqları var, ya da ictimai ümidsizliyə tutulmuşlar. Tamahkar və dünyagirlərin yanında bir qədər belələri də var. Lakin bizim gənc nəslimiz mömin nəsildir. Bu mömin nəsil arasında böyük sayda fəal möminlər, yəni təkcə özlərinin mömin olmaları ilə kifayətlənməyib ətraf mühiti də mömin etmək istəyən, saleh əməli mütləq imanın yanına qoymaq istəyən şəxslər var. Möhtəşəm gənc təbəqəsi belədir və siz də onlardansınız.

**Universitetdə təsir buraxmaq**

Mənim sözüm budur ki, universitetdə təsir buraxmağa çalışın, öyrəndiklərinizlə kifayətlənməyin, onu əks etdirin, ötürün. Universitetdə müxtəlif insanlar var. Onları bu maarifin şüası ilə işıqlandırmaq olar. Düşmənin səyi budur ki, gənclər bu maarifdən uzaq qalsınlar. Siz Quranda da görürsünüz ki, "Onlar dinləməyi qadağan edər, özləri də ondan uzaq durarlar"[31]. Peyğəmbərlərin sözü barədə də belə olmuşdur. İslam peyğəmbərində də belə oldu. Düşmənlər həm digərlərini bu nurani fikirlərdən çəkindirirlər, həm də özləri uzaqlaşırlar ki, bu işıq onlara toxunmasın. Bunun əksi sizin çalışdığınızdır. Odur ki, çalışıb bu fikirləri gənc təbəqələr arasına, tələbə təşkilatlarına və təmiz qəlblərə köçürün.

**Dinləyicilərlə söhbət**

Mən sizə bir ata kimi deyirəm: Mənim əzizlərim! Kim olursunuzsa-olun, öz dinləyicilərinizlə qardaş kimi davranın. Düşmənçilik olanda və xüsusi bir tədbir görməyə borclu olduğunuz yer başqa. O yeri, mövqeyi və zamanı da həmişə məsul şəxslər müəyyən etməlidirlər. Onlar şəxsi seçimlərə bağlı olmayan müstəsna yerlərdir. Universitetdə, ailədə, elmi işdə, tədqiqatda "İnsanları hikmətlə, gözəl öyüd-nəsihət ilə Rəbbinin

---

[31] Ənam/26.

yoluna dəvət et, onlarla ən gözəl surətdə mübahisə et!"[32]; düzgün formada mübahisə ilə, hikmətli sözlə, yumşaq dillə, xoş rəftarla və əxlaqla. Əlbəttə, düşmən çox zaman buna da dözmür.

**Düşmənin dəyərli şəxsiyyətlərə hücumu**

Siz görürsünüz ki, görkəmli şəxsiyyətlərə, uca, dəyərli və əxlaqlı insanlara təbliğat hücumu edirlər. Bütün bunlar düşmənin məqsəd və niyyətlərini göstərir. Cənab Misbah doğrudan da elə şəxsiyyətlərdəndir ki, İslamın və İslam maarifinin bütün sevənləri bu əziz insana ürəkdən minnətdar olmalıdırlar. Görürsünüz ki, belə bir şəxsiyyət düşmənin media hücumuna məruz qalır. Təmiz və təsirli söz, güclü və möhkəm məntiq harada olsa, düşmən oranı tez təyin edir və mübarizəyə başlayır. Çünki dəqiqdir. Mərhum Şəhid Mütəhhəri ilə də belə rəftar etdilər. Bu gün Şəhid Mütəhhəri həyatda deyil, amma bəzi şəxslər hələ də ondan əl çəkmirlər, ona hücumlar edirlər. Görənlər bilirlər ki, sağ olanda da o əziz şəhidlə necə rəftar etdilər, o pak və nurlu şəxsiyyətə nə qədər hörmətsizlik olundu. Bütün səviyyələrdə belə bir halın qarşıya çıxması mümkündür. Şəxslərə qarşı da baş verə bilər. Lakin düzgün yolu, üslübu və vasitəni buna görə əldən vermək olmaz. Təsir buraxmaq lazımdır. İki iş həmişə yanaşı olmalıdır: biri düşmənin hiyləsi ilə mübarizə aparmaq üçün qətiyyətli, ciddi və sayıq qərar; ikincisi isə düzgün və təsirli vasitələr işlətmək. Belə ki, düşmənin əlinə bəhanə verilməsin və o, bir qrup xəbərsiz və qafil insanı azdırmağı bacarmasın.

Ümidvarıq ki, Allah-Taala sizin hamınıza uğur bəxş etsin! Siz əziz gəncləri Öz köməyi ilə həmişə İslamın aydın xəttində, bu gün İslam ümmətinin müsəlman İranda ucalmış şanlı bayrağı altında saxlasın! Bu zəhmətləri çiyninə alan əziz alimlərin, dəyərli və möhtərəm müəllimlərin işlərini Allah Öz lütfü və kərəmi ilə qəbul etsin! Bu gün Allahın lütfü ilə bizim cəmiyyətimizdə və bizim gənclər üçün nur saçan dəyərli varlıqları bizim üçün qorusun! Mən də hamısına təşəkkür edirəm. Bu ekskursiyanı təşkil edən əziz qardaşlara, korpus və Bəsic uşaqlarına səmimi minnətdarlığımı bildirirəm. Ümidvaram Allah Öz lütfünü və dövrün imamının xeyir-dualarını sizin hamınıza şamil etsin!

[32] Nəhl/125.

## Tələbə təşkilatları: xüsusiyyətlər və təhdidlər[33]

Bismillahir-Rəhmanir-Rəhim.

Əziz gənclər, çox xoş gəlmisiniz. Ümidvaram Allah-Taala sizin hamınızı öz cəmiyyətlərində mühüm və şərəfli vəzifələri öhdəsinə götürən uca və görkəmli insanlardan hesab etsin!

**Universitetlərdə İslam təşkilatlarının mövqeyi**

Universitetlərin İslam təşkilatları digər yerlərdə olan İslam təşkilatlarından daha üstün mövqeyə malikdir. Bu, universitetin və tələbənin əhəmiyyətinə görədir. Bir qrup gəncin, oğlan və qızın din məqsədi ilə bir təşkilatda birləşməsi, tələbələr arasında din və İslam maarifini təbliğ etməsi, universitetlərin İslama uyğunlaşmasına kömək göstərməsi böyük bir şərəfdir və daha artıq dəyəri var. Həm sizin elmi işinizin dəyəri var, həm də dini və təbliğat işiniz çox əhəmiyyətlidir.

**Dini kimliyin yüksəlməsində dini təşkilatların rolu**

Ölkənin bütün universitetlərində fəaliyyət göstərən dini təşkilatlara dair əsas məsələ budur ki, dini təşkilatlar tələbə gəncə dini və prinsipial şəxsiyyət verir. Hər bir insan gənclik dövründə öz şəxsi dəyərinin yüksəldilməsində nəzərəçarpacaq təsiri olan bir iş görmək istəyir.

Universitetlərin dini təşkilatlarındakı fəaliyyət bir gəncin şəxsiyyət dəyərini bir din təbliğatçısı, peyğəmbərlərin canişini və Allah övliyalarının davamçısı həddinə yüksəldə bilər. Bu, çox əhəmiyyətlidir. İnqilabın əvvəlindən bizim universitetlərdəki gənclərimizin ən yaxşıları, ən möminləri və ən yaradıcıları dini təşkilatlarda toplaşdılar və mühüm işlər gördülər. Dini təşkilatlar universitetlərdə yalnız dini fəaliyyətlər göstərmirdilər, onlar elmi inkişafa da kömək göstərə bildilər. Onlar həm siyasi, həm dini sahədə, həm də elmin inkişafında rol oynadılar. Mömin və dini kimliyə malik bir gənc bu qədər təsirli ola bilər.

**İmamın ən yaxşı tədbiri**

İnqilabın əvvəllərində dünyanın bəzi mətbu orqanları, beynəlxalq siyasi təşkilatlara bağlı olan bəzi orqanlar dedilər ki, imam universitetlərdə və digər yerlərdə dini təşkilatlar yaratmaqla öz fikrini yaymaq üçün çox

---

[33] Tələbə təşkilatları ilə görüşdə çıxışı: 1 oktyabr 2000.

mühüm tədbir görmüşdür. Doğrudan da elə idi. Lakin hiss olunur ki, universitetlərdə gənclərin bu təmiz və gəncliyə yaraşan fəaliyyətləri əleyhinə zəhərli təxribat aparılır. Bu iş bu günə aid deyil, keçmişdə də var idi. Onlar İslam təşkilatlarını özlərinin dini və inqilabi şəxsiyyətindən və qarşılarında olan aydın yoldan uzaqlaşdırmaq, daşındırmaq istəyirlər. Əsas məsələ budur ki, siz mömin, pak və aydın gənclər ehtiyatlı olmalısıız. Gərək peyğəmbərlərin yolu olan aydın din yolunu, din inamını və din təbliğatını həmişə gözləriniz önündə tuta və bu yolu düzgün təyin edəsiniz.

**Gənclər və hidayət məşəli**

Tələbə mühiti gənc, pak və təmiz mühitdir. Gəncin ruhu və qəlbi təmizdir, çoxlu insanların tutulduğu müxtəlif tamah və problemlərə düçar olmamışdır. Gənclər onlara imkan yaradılan yerdə hidayət məşəli ucalda bilərlər. Bu hidayət məşəli din, imamın fikirləri, xalqı beynəlxalq aləmdə böyük və yeni sözə malik bir xalq kimi tanıtdıran aydın yoldur.

**İslamın sözü - aydın həqiqət**

Mənim əzizlərim! Bu gün İran xalqının və İslam Respublikası quruluşunun dünyaya yeni sözü var. Bu gün böyük güclərin siyasi və iqtisadi təzyiqləri altında dünyanın beli əyilib, deyilən təkrar sözlər hegemonizmin zülmündən əziyyət çəkən xalqları tamamilə məyus edir. Yeni söz İslamın həyatın idarəsi üçün dediyi sözdür. İslamın sözündə həm iman, həm etimad, həm psixoloji dinclik, həm də həyatın idarəsi üçün aydın yol mövcuddur. Buna görə görürsünüz ki, müsəlman və hətta bəzi qeyri-müsəlman xalqlar bu gün imamın, inqilabın və İslam quruluşunun adı ilə qürur duyur, onlara eşq bəsləyirlər. Bu, aydın məsələdir.

Siz əziz gənclərin məqsədi bütün tələbələri, ilk növbədə ətrafınızda olan istedadlı gəncləri İslam maarifi ilə tanış etmək, onları adi həyatda qarşılarına çıxan iztirablardan iman, dinclik və ilahi aramlıqla xilas etmək, beyin və qəlblərini düzgün inqilab xəttinə - İran xalqının günbəgün artan qüdrəti, inkişafı və rifahı üçün yeganə yola hidayət etmək olmalıdır.

**Düşmənin hiyləsi**

Ehtiyatlı olun ki, düşmən İslam təşkilatları arasında yuva qura bilməsin. Buna çox diqqət yetirin. Universitetdə İslam fəaliyyətini, gənclərimizin İslamla tanış olmalarını, inqilabın həqiqətlərini dərk etmələrini, İslam quruluşunun həqiqətlərini olduğu kimi anlamalarını və

inqilabın parlaq simaları ilə tanış olmalarını istəməyənlərin hiylələrindən biri budur ki, din və inqilab mərkəzlərinə, o cümlədən tələbə təşkilatlarına, tələbələrin İslam və təbliğat cəmiyyətlərinin içinə girə bilsinlər. Mən bütün əziz gənclərdən istəyirəm ki, sayıq olsunlar, düşmənin məqsədlərinə qarşı ağıllı tədbir görsünlər. Ağıl və cəsarətlə onlarla rəftar edin, öz aydın və parlaq yolunuzu mömincəsinə davam etdirin.

Ümidvaram ki, Allah-Taala Öz hidayətini, köməyini və rəhmətini sizin hamınıza şamil etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Mənəvi nüfuz və siyasi iqtidar[34]

Bismillahir-Rəhmanir-Rəhim.

Dünyanın azad insanlarının sərvəri olan həzrət Əbu Abdullahın (ə) səadətli doğum günü, Mühafizəçi Günü, Kərbəla səhrasında canından keçərək fədakarlıq ələmdarı olan həzrət Əbəlfəzl Abbasın (ə), həmçinin abidlərin sərvəri olan İmam Səccadın (ə) doğum günü, eləcə də müsəlman xalqımızda azadlığın, cəsarətin və inqilabi qeyrətin yenidən tərənnümü olan 13 Aban günü – bütün bu səmərəli günlər siz əziz iştirakçıların hamısına və bütün İran xalqına mübarək olsun!

Bu il bu üç mövlud və Mühafizəçi Günü 13 abana (4 noyabra) - casus yuvasının fəthi və Hegemonizmlə Mübarizə Gününə təsadüf edir. Müxtəlif hadisələrin ildönümüdür. Hamısı təxminən bu bir neçə gündə bir yerə toplaşıb. Bizim bugünkü məclisimiz də hər biri bu böyük hadisələrin bir növ əlaməti və simvolu olan şəxslərdən ibarət bir məclisdir: bizim əziz mühafizəçilərimizin bir hissəsi burada iştirak edirlər. Həm İslam İnqilabının Mühafizəçiləri Korpusundakı mühafizəçilərin, həm bu gün polisdə çalışan komitə mühafizəçilərinin, həmçinin əziz tələbələrimizin, əziz şagirdlərimizin və əziz əlillərimizin bir hissəsi buradadırlar. Bura ətirli və mübarək bir məclisdir. İnşallah, Allahın lütfünü və həzrət İmam Mehdinin (ə) şəfqətli baxışını gətirsin.

Bir cümlə mühafizəçilər barədə deyəcəyəm, bir cümlə tələbə və şagirdlər, bir cümlə də əlillər barədə. Qoy bizim bu üç ictimai təbəqəmizin və cəmiyyətimizdə mövcud olan üç təşkilatının birliyi aydın olsun. Sonra da bəzi məsələlərə toxunacağam.

### Tələbə və şagirdlər - xalqın ümidləri

Elm, bilik və məlumat sahəsində fəal gənclər olan tələbə və şagirdlər - gələcəkdə ölkəni idarə etməyə hazırlaşan bu şəxslər hər bir xalqın və hər bir cəmiyyətin ümidləridir. Yəni bu ölkə, xalq və dövlət öz gələcəyi üçün bu gənclərə ehtiyaclıdır. Hər bir ölkənin başucalığını və gələcəyini təmin edəcək əsas amillərdən biri bu gün təhsil alan gənclərdir. Onların təhsili, fəaliyyəti, fikir, əxlaq və din baxımından tərbiyəsi nə qədər yaxşı və güclü olsa, ölkənin gələcəyi daha yaxşı təmin olunar. Bundan əlavə, tələbə və şagirdlər hər bir zamanın mövcud ehtiyacına uyğun rol ifa edə bilərlər.

---

[34] Mühafizəçi, Əlil və Şagird günləri münasibəti ilə mühafizəçi, əlil, tələbə və şagirdlərlə görüşdə çıxışı: 2 noyabr 2000.

**Mühafizəçilər - gözəl örnək**

Mühafizəçilər bizim milli tariximizin ən həssas anlarında bu universitetlərdən, məktəblərdən və xalqın müxtəlif təbəqələri arasından çıxıb möhkəm sıralarda yer alan, mərdliklə, şüaətlə rol oynayan şəxslərdir; yəni bir dövrdə, misal üçün, inqilab dövründə, inqilabdan sonrakı çox həssas və təhlükəli dövrdə, məcburi müharibə dövründə tələbə və şagirdlərin arasından qurucu və güclü rol ifa edən insanlardır. Bunlar həmin adamlardır. Bu gün sizin gördüyünüz bu zabitlər inqilabın əvvəllərində bu gün bizim tələbələrimizin və bəzi şagirdlərimizin yaşında olan gənclər idilər; dəliqanlı, ayıq, cəsarətli, dini və inqilabi hisslərə sahib fədakar gənclər. O dövrdə başqa gənclər də vardı. Ölkənin gəncləri təkcə bunlar deyildilər. Onlarda ya bu qorxmazlıq yox idi, ya bunlarda olduğu kimi imanları güclü deyildi, yaxud ölkənin digər işləri ilə məşğul idilər. Onlar İslamın, inqilabın bu həqiqi əsgərlərinin və canını verməyə hazır olan şəxslərin qatıldığı təhlükəli işlərə girişmədilər. Deməli, bunlar da xalqın və ölkənin başucalığının, gələcəyinin təminində ən əsas amillərdən hesab olunurlar. Onlar ən həssas zamanlarda doğrudan da mərdlik göstərdilər. Gördükləri iş təkcə bir dəliqanlı və aşiqanə imanı göstərmək deyildi. Bəli, bu vardı, amma təkcə bu deyildi. Onlar eyni zamanda öz fikirlərini, beyinlərini, istedadlarını işlətməklə möhtəşəm işlər bacardılar. Bizim hərbi taktikalarımızın, çox geniş döyüş əməliyyatlarımızın çoxu, istər müharibədə, istər düşmənin məhvinə səbəb olan əks-kəşfiyyat sahəsində çoxlu işlərimiz bu gənclər tərəfindən görülürdü. Onların bu sahədə nə müəllimləri, nə təhsil kursları vardı, lakin ehtiyac duyaraq öz daxili istedadlarını işə saldılar, birdən-birə bulaq kimi çağladılar və böyük işlər gördülər. Bunları çoxlu təhlükələr təhdid etdi, amma səhnədən çıxara bilmədi. Bizim gənc mühafizəçilərimizin hər biri gənc nəsil üçün gözəl örnəkdir.

**Əlillər**

Bizim əlillərimiz də əsasən, həmin fədakar təbəqədən təşkil olunublar. Yəni həmin hisslərlə, həmin ruhiyyə ilə öz işindən, dərsindən, peşəsindən, ailəsindən ayrılıb təhlükəli cəbhəyə getmiş, şəhadət sərhədinə qədər irəliləmiş, lakin buna nail olmayıb həyata dönmüş, özünün fiziki sağlamlığını bu yolda fəda etmiş, sonra da səbir nümayiş etdirmiş şəxslərdir. Əlil səbir edib bunu Allahın hesabına yazır, gözəl, güclü, yaraşıqlı bir gənc kor halda, yaxud ayağını, əlini, ciyərini və sağlamlığını

əldən vermiş, insanın fiziki sağlamlıq şəraitində faydalandığı bir çox xeyirlərdən məhrum halda digər insanlar arasında yol yeriyir, lakin şükür edir, Allah yolunda bir iş gördüyü üçün qürur hissi keçirir. Bunun qiyməti və dəyəri şəhidlikdən az deyil, bəzən hətta çoxdur da. Bu sözlər bu gün burada iştirak edən və buranı nurlandıran bu üç təbəqənin ümumi tərifidir.

**Məqsədə inam**

Əgər bir xalq siyasi və ictimai başucalığı, maddi rifah, elm, beynəlxalq güc, dünya və axirətə aid böyük mənəvi arzu və amallara nail olmaq istəyirsə, özündə bəzi amilləri təmin etməlidir. Birinci məsələ iman, məqsədlərə və yola inamdır. İmansızlıq, səhlənkarlıq və hərdəmxəyallıq aydın və parlaq gələcəklə uyğun gəlmir. Siz tarixə baxsanız, görərsiniz ki, bir xalq nəyəsə nail olmuşsa, malik olduğu birinci şey iman və etiqad olmuşdur. Əgər tarixi, 1000 il, 5000 il bundan qabaqkı yox, müasir tarixi, bu gün dünyada mövcud olan ölkələrin tarixini mütaliə etsəniz, görərsiniz ki, nələri varsa, hansı müsbət cəhətləri varsa, bu cəhətlər onlara bu xüsusiyyətlərə, ilk növbədə imana malik olduğu dövrdə verilmişdir. Öz düzgün fikri, düzgün seçimi ilə başucalığını, iftixarı və həyat səadətini Allahın yolunda tapan, Allahın dininə əməl edəcəyi təqdirdə həm dünyaya və həm axirətə, həm maddiyyata və həm mənəviyyata sahib olacağını bilən bir cəmiyyət üçün bu yolun ilk şərti odur ki, bu fikrə, bu əsasa və bu yola imanı olsun. Baxın, Allah-Taala Quranda buyurur ki, ey Peyğəmbər, Biz səni şahid, müjdəçi və qorxudan kimi göndərdik; ondan ötrü ki, sən və səninlə olan bütün şəxslər Allaha və Peyğəmbərə iman gətirəsiniz. Peyğəmbərin özü də bu müraciətə daxildir. Yəni iman olmasa, heç bir şey alınmaz. Bu məqamı beyninizə yerləşdirin və sonra görün ümumi imanda dəlik açmağa çalışan, həmişə bu işə çalışan şəxslər hansı məqsədi güdürlər. Bilirsiniz ki, bu iman xalqın səadət və ucalığının əsas şərtidir. Hər hansı bir amil, hər hansı bir təbliğatçı hər hansı yolla bu imanı zəiflətsə, ya onu şübhəyə və tərəddüdə salsa, yaxud laqeydliyə və səhlənkarlığa sövq etsə, deməli, çirkin məqsəd güdür, milli şərəf, başucalığı və səadətə qarşı çıxır.

**Məsuliyyət hissi**

Başqa bir məsələ məsuliyyət hissidir. Bu iman məsuliyyət hissi ilə birgə olmalı, insan öz üzərinə hansısa vəzifənin düşdüyünü duymalıdır. Məsuliyyət hissi olmasa, bu iman öz funksiyasını itirər. Bu iki amil də gərək qorxmazlıqla, rəşadətlə, öz daxili qüvvəsinə diqqətlə yanaşı olsun.

Çünki hər bir toplumu, hər bir xalqı, hər bir ordunu məğlubiyyətə sürükləyən amillərdən biri öz gücündən xəbərsiz olmasıdır.

**Mənəvi nüfuz və siyasi iqtidar**

Bu gün İran xalqının mənəvi nüfuzu və siyasi iqtidarı bütün məntəqəyə - Orta Şərqə, Şərq ölkələrinə, Afrikaya və digər yerlərə yayılmışdır. Bu, İran xalqının gördüyü böyük işlərə görədir. Bu gün İslam Respublikası quruluşu ən qüdrətli dövlətlərdən biridir. Bu söz yüksək səviyyəli siyasi təhlillərdə deyilir. Hətta bizimlə düşmən olan ölkələr də bunu etiraf edir, yazır və deyirlər. Sizin nümunə və əlamətlərini bu gün Fələstində və qeyri-müsəlman ölkələrin çoxunda gördüyünüz bu iqtidarı, mənəvi və siyasi nüfuzu İran xalqının, xüsusən də gənc nəslin gözündə unutdurmağa, inkar etməyə, onlara İran xalqının təcrid olunmuş bir xalq olduğunu, kənarda qaldığını, heç kəsin ona diqqət yetirmədiyini təlqin etməyə çalışırlar. Bu, düşmənin işidir. Nə üçün? Ona görə ki, xalq öz həqiqi şəxsiyyətindən, malik olduğu böyük qüvvədən, imkanlarından xəbərsiz olsun. Bu, düşmənin planlarındandır. Buna əsasən, cəsarət, rəşadət, öz bacarığı haqda məlumat və imandan irəli gələn iqtidar da gələcəyi təmin etməyin şərtlərindəndir.

**Söz birliyi**

Söz birliyi də belədir. Hamı bir olmalıdır. Fikir ayrılığı hər bir təşkilatda var. Siz heç bir cəmiyyət tapa bilməzsiniz ki, onlar bütün məsələlərdə yekdil olsunlar. Lakin bu fikir ayrılıqları bir xalqda və bir təşkilatda olan birlik tellərini qırmamalıdır. Görün düşmənin təxribatları necədir. Elə qruplar var ki, ən əsaslı məsələlərdə fikirləri birdir; İslama, şəriətə, İslam Respublikası quruluşuna inamda və dindarlıqda, bəzən hətta müstəhəblərə əməl etməkdə, fikirlərində, əqidələrində, yollarında, hətta əməllərində birdirlər, lakin düşmənin təlqini ilə bir-birinə qarşı özgəlik və nifrət hissi keçirirlər, quruluşa aid mərkəzlərdə, xalq arasında, müxtəlif sahələrdə bir-birinə qarşı dayanırlar. Onların arasında hansı daha sərtdirsə, daha açıq düşmənlik edirsə, ixtilaf alovunu daha da alışdırırsa, bu xalqın və dövlətin düşmənlərinə daha çox xidmət göstərir; istər bilərəkdən etsin, istər yox. Birlik də vacib şərtlərdən biridir. Bu, quruluşun gələcəyini qurmaq və təmin etmək üçündür. Bu barədə deyiləsi söz çoxdur.

**Əcnəbinin təsiri**

Sizə bunu da deyim, hər bir xalqın əldə etdiyi uğur onun düşmənlərinin ölkədəki təsiri ilə tərs-mütənasibdir. Yəni nə zaman xalq və müxtəlif təbəqələr arasında və siyasi arenada əcnəbi bir qüvvənin, hətta açıq düşmənçilik etməyən bir xarici gücün təsiri çoxalsa, xalq şərəfli, fəxrli və uğurlu gələcəkdən daha çox uzaqlaşar. Demək istəmirəm ki, hər bir əcnəbi ilə vuruşmaq lazımdır. Xeyr, bəzən insan hansısa məsləhətlərə görə biri ilə dostluq edir, lakin ona evin, ailənin, ölkənin daxili işlərinə qarışmaq icazəsi verilməməlidir. İnqilabın əvvəlindən ABŞ-ın və digər güclərin - təkcə ABŞ deyildi, lakin ən pisi ABŞ idi - bu ölkədəki təsir imkanları məhv oldu.

**Siyasi manevr**

Bu gün ən çox istifadə etdikləri yol siyasi manevrdir. Bu işlər müxtəlif formalarda görülür. Bir siyasətçi öz məqsədini həyata keçirmək istədikdə bəzən üzünü turşudur, bəzən təbəssüm edir, bəzən qəzəbləndiyini göstərir, bəzən təhdid edir, bəzən irəliyə gəlir, bəzən arxa çevirir. Bunlar siyasi manevrlərdir. Bir gün deyirlər ki, biz İran xalqına çox pislik etmişik və buna görə təəssüflənirik, bir gün İran xalqı əleyhinə Senatda qanun qəbul edirlər, bir gün inqilab əleyhdarı olan xainləri və rəzil qruplaşmaları tərifləyirlər, bir gün Fələstini işğal etdiyinə görə sionizmlə açıq-aşkar müxalif olduğundan, dolayı yolla İrana qarşı təbliğat aparırlar, bir gün də İslam Respublikası quruluşunu devirmək üçün pul ayırırlar. Bütün bunlar siyasi manevrlərdir. Radiolarında, təbliğatlarında, daxili şəxsiyyətlərlə əlaqələrində hər bir yoldan istifadə edir, İran xalqının düşmən qarşısında çəkdiyi bu böyük səddin bir küncünü bir qədər yumşaltmağa çalışırlar. Hansısa hissənin yumşaq olduğunu gördükdə də orada mərkəzləşirlər ki, içəriyə girsinlər. Yumşaq və zəif nöqtə siyasi şəxsiyyət də ola bilər, siyasi partiya da, dövlət məmuru da.

**Kafirlərə qarşı sərt, öz aralarında mehriban**

Məhz buna görə Allah-Taala bütünlüklə qəhrəmanlıq və dərsdən ibarət olan Fəth surəsində Peyğəmbərin səhabələri haqda buyurur ki, bunlar kafirlər, yəni düşmənlər qarşısında sərtdirlər. “Kafirlər” sözündə məqsəd Peyğəmbərin sayəsində Mədinədə yaşayan yəhudi, yaxud məsihilər deyil. O zaman məsihi və yəhudilər Mədinənin daxilində yaşayırdılar. Peyğəmbər və səhabələri onlarla yaxşı münasibətdə idilər. Bu ayə onlardan ötrü deyil. Ayə İslam və müsəlman Mədinəsi əleyhinə həmişə hərbi fəaliyyətlərdə olan Qüreyş kafirlərinə, ya da Bəni-Qüreyzə, Xeybər və

bu kimi yerlərin yəhudilərinə aiddir. Onlar da həmişə problem yaratmaqla məşğul idilər; o tərəf-bu tərəfə səfər edir, müxtəlif qrupları İslam əleyhinə toplayır, ordu yığır, təhrik edir, şayiə yayırdılar. Ayə müsəlman simasında, amma kafir ürəklə Mədinə daxilində yaşayanlara da aid ola bilər. Onlar da həmişə ya birinci, ya da ikinci qrup kafirlərlə əlaqədə idilər. "Kafirlərə qarşı sərt" dedikdə bu üç qrupa qarşı sərtlik nəzərdə tutulur.

"Onlar öz aralarında mehribandırlar". Baxın, İslamın üsulu budur. Bu onun üçündür ki, düşmən heç bir yolla bu sərtliyə təsir buraxa bilməsin. "Sərtdirlər" nə deməkdir? Yəni çox möhkəmdirlər. Dəmir haqqında deyirlər ki, sərtdir, şiddətlidir, yəni möhkəmdir. Burada işlənmiş "şiddət" sözü zülm mənasında deyil. Zəruri olaraq qan tökmək mənasında deyil, möhkəmlik mənasındadır. Yəni bu sədd yumşalmamalı, bu divarda çat yaranmamalıdır.

**Siyasi cinahlar**

Mənim siyasi cinahlara və ölkədəki siyasi şəxsiyyətlərə həmişəki sözüm budur: Özünüzü düşmənə elə göstərməyin ki, sizin vasitənizlə inqilabın qəlbində dəlik açıb öz təsirini genişləndirə biləcəyini hiss etsin. Əgər mən hərdən bəzi şəxslərdən, yaxud mətbu orqanlarından gileylənmişəmsə, bunun üçün olmuşdur. Elə bir iş görməsinlər ki, düşmən quruluşun içinə yol tapıb öz təsirini genişləndirə biləcəyini hiss etsin. Dedik ki, onun təsiri nə qədər çox olsa, milli şərəf, milli iqtidar və ölkənin gələcəyini təmin etmək işi zəifləyəcək. Kimsə düşmənə hər hansı imkan yaradırsa, Amerikaya qarşı düşmənliyin elan olunması günü olan 13 abanı Amerika qarşısında zəlillik gününə çevirmək istəyirsə, milli birliyi möhkəmlətmək əvəzinə həmişə təfriqə haqda düşünürsə, düşmənin nüfuzuna şərait yaradır. Belə bir şəxs milli birliyin, milli maraqların tərəfdarı olduğunu iddia edə bilməz.

**Düşmənə xidmət, ölkəyə xəyanət**

İslam quruluşunda bir qrup insanın düşmənə sevgi bəsləməsi çox pis haldır. Bununla kifayətlənməyib onun sözlərini təkrarlayırlar. Bununla da kifayətlənməyib quruluşun müqəddəslərini sual altına salırlar. Bununla da kifayətlənməyib düşmənin istədiyi işi eynilə yerinə yetirirlər. Yəni birinci şərt olan xalqın imanını sarsıdır, gənclərin qəlbindəki qorxmazlığı və özünəinamı məhv edir, dəhnə götürüb bu quruluşa vurur, onda dəlik açmaq istəyirlər. Bu işləri görürlər, sonra da quruluş onlara qarşı tədbir görür və qanuna uyğun olaraq onları cinayətkar elan edir. İslam

quruluşunda cinayətkar olmaq əbədi ləkədir; təbii ki, tövbə edib vurduğu ziyanı aradan qaldıran, yaratdığı qaranlığı aydınlaşdıran, keçmiş səhvini düzəldən şəxsdən başqa. O zaman Allah-Taala ondan keçər və onun cinayəti yaxşılığa çevrilər. Amma nə qədər ki, bu işləri görməyib, bir cinayətkardır. Cinayətkar sayılandan sonra kimlərsə qanunun ziddinə olaraq bu cinayətkarı müdafiə etməyə başlayırlar. Bu, ən pis işlərdəndir. Bir ölkədə ən pis hallardan biri ölkənin müxtəlif orqanlarının bir-birini ittiham etməsidir. Bu, mənasızdır, ölkəni idarə edən qurumların birliyini sarsıdır. Bir təşkilat o zaman ideal işləyə bilər ki, qurumlar bir-birini tamamlasın, bir-birinə kömək göstərsin; nəinki birinin fikri-zikri o birini gözdən salmaq, o birinin fikri-zikri də başqa birisini məhv və bədnam etmək olsun. Belə olmaz! Cinayətkar cinayətkardır. Düzdür, öz cinayəti qədərincə cinayətkardır, artıq yox. Bütün cinayətlər eyni deyil. Bir cinayət, pis bir iş bütün yaxşı işləri məhv edə bilməz. Xeyr! Belə deyil. Lakin cinayət cinayət sayılmalıdır. Qanuna, qaydaya və düzgün üsullara əsasən, cinayət sayılan bir işdə üç-dörd nəfər diqqətsiz adamın cinayətkarı həvəsləndirməsi, tərifi, "əhsən" və "afərin" deməsi düzgün deyil. Ölkənin gələcəyinə zərbə vuran amil bu diqqətsizliklərdir. Bu işi görür və sonra da deyir ki, mən milli iqtidarın tərəfdarıyam, xalqın səadətini, gələcəyini düşünürəm. Bunlar bir-biri ilə uyğun gəlmir.

**Gənclərin vəzifəsi**

Mənim siz gənclərə - korpus mühafizəçilərinə, tələbələrə, şagirdlərə və əlillərə demək istədiyim budur: Mənim əzizlərim! Quruluşun bu günü və sabahı sizin çiyninizdədir. Bir zaman bu ölkədə bir qrup gənc vardı. Onlar bəzi işlər gördülər, buraya çatdırdılar. Bundan sonrakılar sizin üzərinizə düşür, sizin vəzifənizdir. Mən siz gənclərə deyirəm: Mənim əzizlərim! İman ilk əsas şərtdir. Qorxmazlıq, özünəinam, məsuliyyət hissi, mömin qruplar arasında birlik əsas şərtlərdəndir. Başqa şərtlər də var. Mən indi bu bir neçə məsələ üzərində dayandım. Bilin ki, bu inqilab və bu quruluş sayəsində dövlətimiz dünyanın ən qüdrətli dövlətlərindən biridir. O, gələcəkdə də ən qüdrətli, ən başıuca və ən öncüllərdən olacaq. Məmurlar öz vəzifələrini yerinə yetirməli, xalqın ehtiyaclarını düşünməli, dərk və təmin etməlidirlər. Xalqın bu problemləri – məhrumiyyətlər, intizamsızlıqlar, ayrıseçkiliklər və işsizliklər yolun maneələridir. Bunları aradan qaldırmaq məqsəd deyil. Məqsədə çatmaq üçün bunları aradan qaldırmaq lazımdır. Məqsəd dünyada nümunəvi bir dövlət qurmaqdan ibarətdir. Elə zirvədə olasınız ki, bütün dünyaya, bütün üsullara, bütün

mədəniyyət və sivilizasiyalara nəzarət edəsiniz. Bunun mərhələləri var. Mən başqa bir söhbətdə bizim indi hansı mərhələdə olduğumuzu deyəcəyəm. Biz bir yola başladıq, çox da irəliləmişik. Düşmən inkar etsə də, bu xalq çox inkişaf etmiş və yaxşı uğurlar qazanmışdır. Lakin yolun davam etdirilməsi bu maneələrin aradan qaldırmasına ehtiyaclıdır. Yoxsulluq, işsizlik, bəzən ətrafda müşahidə olunan fəsadlar, bəzi təfriqə və müxalifətlər böyük milli hərəkətə maneədir. Bu xalqın inkişafı üçün bunlar yoldan götürülməlidir. Necə ki, bu xalq böyük maneələri, böyük dağları öz yolundan götürdü. İnşallah, əl-ayağa dolaşan bu tikanları da öz yolundan götürəcək. Bilin ki, xalqımız, əziz İslam İranı və müqəddəs İslam Respublikası quruluşu siz gənclərin görəcəyiniz gələcəkdə dünya ölkələrinin zirvəsində və insanların yolu üçün təyinedici bir məqamda yer tutacaqdır.

İlahi! Məhəmməd və Ali-Məhəmməd (s) hörmətinə, bu gələcəyə nail olmaq üçün Öz köməyini, nəzərini bu xalqa və bu əziz gənclərə lütf elə!

İlahi! Bizim mövlamızın, qeybdə olan imamımızın pak nəzərlərini və dualarını bizə şamil et!

İlahi! Əziz şəhidlərimizin pak ruhlarını və mərhum imamımızın müqəddəs ruhunu bizdən razı et!

İlahi! Öz canını, bədənini, sağlamlığını və imkanlarını inqilab yolunda sərf edən insanları uca tutmaq səadətini bizə nəsib et!

Allahın salamı və rəhməti olsun sizə!

## İslam təşkilatlarına tövsiyələr[35]

Bismillahir-Rəhmanir-Rəhim.

Siz əziz gənclərə, əziz övladlarıma təşəkkür edirəm ki, bu gün bizim iş yerimizi öz gəlişinizlə ətirli və işıqlı etdiniz. Həmişə belədir. Gənc özünün pak, işıqlı qəlbi ilə harada iştirak edirsə, harada olursa, o yer nurlu, mənəvi və ətirli olur. Bu mənim həyatım boyu, gənclik çağından bu günə qədər mömin, pak, mübariz və fəal gənclərlə əlaqədə topladığım təcrübədir. Bunu hiss etmiş və görmüşəm.

**İslam düşüncəsi ətrinin yayılmasının şərti**

Mən sizə bir neçə məqamı xatırlatmaq istəyirəm. Birinci məqam sizin özünüzün tələbə təşkilatınız, yəni tələbələrin İslam cəmiyyəti barədədir. İndi siz vahid təşkilatda birləşib ölkənin ən yaxşı mühitində, yəni universitetdə işləyirsiniz, özünüzə İslamın mübarək adını qoymusunuz. Ömrünüzün bu dövründən maksimum istifadə edin. Əvvəla, bu fikri, bu nurlu İslam düşüncəsini yayın. Harada olsanız - sinifdə, universitetdə, laboratoriyada, dostlar arasında, məhəllədə birinci növbədə öz varlığınızla İslam əxlaqını, İslam fikrini, İslam rəftarını, İslama uyğun həyat qaydalarını yaymağa çalışın. Yaxşı və mömin bir gəncin daxilində olan mənəviyyat, düşüncə və əxlaq, harada olsa təsiri duyulan ətirli bir gül kimi ətraf mühiti daha tez bürüyür. Çalışın öz rəftarınız, davranışınız, əxlaqınızla, söz və əməldə düşüncənizi işlətməklə, çox yüksək və uca məqsədlərlə, özünüzü xalqın çoxunu sarmış problem və çirkinliklərdən xilas etməklə ətrafınız üçün nümunə olun. Fərz edin, bir mühitdə ehtiraslı məqsədlər, qərəzlər, özünü göstərmələr var. Özünüzü bu çirkinliklərdən uzaq saxlamaqla öz ətrafınıza dərs və nümunə olun. Bu, ciddi yanaşmalı olduğunuz birinci işdir.

**İki saleh əməl**

Çalışın bu İslam cəmiyyəti daxilində yoldaşınızın malik olduğu mənəviyyatı, din elmini, yaxşı əxlaqı, düzgün siyasi dərk və təhlil qabiliyyətini ondan öyrənin və sizdə olanları ona öyrədin. Əsr surəsində iman və saleh əməlin yanında iki məsələyə toxunulur: haqqa tövsiyə və səbrə, dözümlülüyə tövsiyə: "Yalnız iman gətirib yaxşı əməllər edən, bir-

---

[35] Tələbələrin İslam cəmiyyəti ilə görüşdə çıxışı: 7 noyabr 2000.

birinə haqqı və dözümlülüyü tövsiyə edən kimsələrdən başqa!"[36] Bu tövsiyələrin özü də saleh əməldir. Lakin bunları digər saleh əməllərin içindən çıxarır və lövhə kimi hamının gözü qarşısında saxlayır.

**Haqqa tövsiyə**

Haqqa tövsiyə budur ki, dostunuzun haqqa təmayüldə şübhə tələsinə düşməkdə olduğunu hiss etsəniz, çətin mərhələlərdə bir-birlərini iplə möhkəm saxlayan alpinistlər kimi, nəsihət və həmfikirlik ipi ilə onu möhkəm saxlayın, sürüşməyə qoymayın. O da öz növbəsində başqa bir yerdə sizi möhkəm saxlasın. İnsanlar üçün belə nöqsan və şübhələr qarşıya çıxır. Yaxşı insan qarşısına heç bir şübhə çıxmayan insan deyil. Yaxşı insan odur ki, şübhə və vəsvəsələrə yerində və zamanında qalib gəlsin. Bu bir idmandır, mənəvi pəhləvanlıqdır. Haqq olduğunu bildiyinizə tabe olmaqda siz yoldaşınızı saxlayırsınız, o da sizi. Əgər şübhəyə düşdüyünü görsəniz, düzgün üsullarla, bəzən dəlillə, bəzən soruşub-araşdırmaqla, bəzən yerində bir kəlmə söz deməklə, bəzən yaxşı bir əxlaqla onu bu şübhədən qurtarın. O da öz növbəsində sizi qurtaracaq. Bu, haqqa tövsiyədir.

**Dözümlülüyə tövsiyə**

Bəzən qarşı tərəf şübhəyə düşməyib, amma yorulub, ürək sıxıntısına düçar olub. Bu vəziyyət çox vaxt qarşıya çıxır. Mübarizə dövründə mübariz insanların əsas problemlərindən biri bu idi. İnsan yorulurdu, yoldaşının yorulduğunu görürdü. O vaxt belə ifadə işlədirdik: "Qırıldıq, yorulduq". Burada yorğun insanı xilas edən amil səbir və dözümlülüyə tövsiyədir. İnsan bu uzun və problemli yolda bir məqsədin olduğunu və o məqsədə çatmağın mümkünlüyünü bilirsə, onu xatırlatmaqla həm özünə və həm digərlərinə dözüm qüvvəsi verir. Bu sizin iş yerinizdə, xüsusən də cəmiyyətinizdə olmalıdır. Siz öz İslam cəmiyyətinizdə bunu yaratmalısınız.

Mənim söhbətimdən anlamaq olar ki, əsas məsələ məqsədə çatmağa ümidvar olmaqdır. Əgər insan ümidvar olmasa, tez yorular. Burada İslam Respublikası düşmənlərinin təbliğatlarının ən gözəl beytlərindən biri ifşa olunur. Onlar xalqı quruluşa, gələcəyə məyus etməyə çalışırlar. Halbuki belə bir şey yoxdur. Üfüq aydındır. Ümumiyyətlə, aydın da olmalıdır.

**Hökumət və xalqın birliyi**

---

[36] Əsr/3.

Bizim ölkəmiz böyük əksəriyyəti təşkil edən gənclərə və xalq hakimiyyətinə malik bir ölkədir. Bu gün İranda olandan daha demokratik bir hakimiyyət dünyanın harasında tapa bilərsiniz?! Dünyanın ən "demokratik" ölkəsində də belə bir şey yoxdur ki, dövlət məmurları xalqla belə duyğusal, yaxın, qarşılıqlı, sevgi dolu əlaqəyə malik olsunlar. Ümumiyyətlə, belə bir şey yoxdur. Dünyada xalqın səsi ilə hakimiyyətə gələnlərin bəziləri xalqın başının bədənindən ayrılmasını istəyirlər. Onlar üçün əhəmiyyəti yoxdur. Təbliğat aparıblar, pul xərcləyiblər. Siz bilirsiniz bu gün dünyada təbliğatın əsasını nə təşkil edir? Təkrarlamaq, nümayiş etdirmək, bir sözü o qədər təkrarlamaq ki, beyinələrə hopsun. Bu gün bu işlər üçün seçilən modern üsullarla hakimiyyətə gəlirlər, sonra da nə olsa olub; ümumiyyətlə, arxalarına baxmırlar da. Bu gün dünyada belədir.

**İranın təbii ehtiyatları**

Bizim demokratik hakimiyyətimiz, gənc xalqımız və çoxlu imkanlarımız var. Cənab Xatəminin Yaponiyaya səfərində söhbəti dillər əzbəri olan bu "Azadeqan" neft yatağı möhtəşəm bir əzəmətə malikdir. Bu, İranın neft ehtiyatlarını sanki üçüncü, dördüncü yerdən ikinci yerə qaldırdı. Təbii imkanlar baxımından bu ölkənin belə bir gələcəyi var. Bu qədər böyük neft ehtiyatları, yeraltı və təbii sərvətləri, əkinçiliyi, bu qədər böyük sahəsi, belə rəngarəng təbiəti, bu qədər gənc əhalisi olan hər hansı bir ölkənin aydın üfüqləri və gözəl gələcəyi olmaya bilməz. İndi baxın, bu aydın üfüqə və parlaq gələcəyə diqqət yetirməklə siz müqəddəs İslam adı, İslamın nurlu, həvəsləndirici, hərəkət və istiqamətverici adı ilə adlanan bir tələbə təşkilatında çalışırsınız. Çalışın orada şübhələri aradan qaldırın, yorğunluqları dəf edin.

**Gənclik kimliyi**

Mənim əzizlərim! İkinci məqam budur: Gənclik kimliyi bir neçə mühüm amil üzərindədir. Onlardan biri paklıq və düzgünlükdən ibarətdir. Düzgünlük sadəlövhlük demək deyil. Belə deyil ki, insan pak və sadəlövh olsun, aldansın. Xeyr, düzgünlük bu deyil. Bizdə elə adamlar var ki, çox fırıldaqçıdırlar, eyni zamanda aldanırlar. Elə adamlar da var ki, sədaqətli, pak və sadədirlər, amma həyatın müxtəlif məsələlərində aldanmırlar. Bunun bir nümunəsi imam idi. İmam əsla ikiüzlü adamlardan deyildi ki, bunun yanında bir söz desin, onun yanından başqa bir söz. Amma eyni zamanda ağıllı insan idi, bütün paklığına rəğmən, aldanan adam deyildi. Çox aydın baxışlı və dəqiq insan idi. Gəncin xarakterində belə paklıq var,

aldanmaq yox, kiminsə əlinin aləti olmaq yox. Bu paklıq qorunmalıdır. Paklıq gəncliyin xislətindədir. Baxın, gəncin əzələləri də yenidir, sinirləri də. Bu yenilik gəncin əhval-ruhiyyəsində və əxlaqında da eynilə əks olunub. Bu baxımdan, gənclərdə bir növ şəffaflıq var. Mən görürəm ki, ətrafda bəzi gənclərlə peşəkar siyasətçilər kimi rəftar edirlər. İndi hansı peşəkar siyasətçinin sirləri pərdə arxasında qalır?! ABŞ CİA-sından daha peşəkarı varmı? Bunların sirləri pərdə arxasında qalırmı?! Bunların görmək istədiyi işlər, dünyanın müxtəlif ölkələrinə qarşı planları insanlara, analitiklərə bəlli deyilmi?! Əlbəttə ki, bəllidir. Öz xəyalına əsasən, siyasətbazlıq edib bir yerdə bir söz danışmaq, başqa bir yerdə başqa bir söz danışmaq, oturub bir təşkilat əleyhinə qərar vermək və digər bu kimi işlər nəticə verməyəcək. Gəncliyin paklığını qoruyun. Bu paklıq əxlaq və rəftarda əks olunmalıdır. Bu, tövhid baxışnın, avropalıların dediyi kimi, ideologiyasının nəticəsidir.

**Tövhid məktəbi**

Tövhid məktəbi təkcə bundan ibarət deyil ki, insan nə vaxtsa üzüqibləyə dayanıb namaz qılsın, yaxud uzaqbaşı, ürəkdən və diqqətlə namaz qılsın. Xeyr, tövhidə etiqad insanın fərdi əxlaqında, ailə əxlaqında, hərəkətlərində - bütün həyatında əks olunur. Sonra cəmiyyətdə öz əksini tapır və beynəlxalq cinahlarda özünü göstərir: dünyada kim dostdur, kim düşmən. İndiyə qədər nə dost, nə düşmən olanların hansı ilə əməkdaşlıq etmək lazımdır və hansı ilə əməkdaşlıq etmək olmaz. Tövhid təfəkkürü və tövhid düşüncəsi bunların hamısında təyinedicidir. Necə ki, şirk düşüncələri, yaxud daha düzgün desək, tağut və şeytan düşüncələri - tağut şeytan məfhumunun başqa bir ifadəsidir. Şeytan şər, fəsad və azğınlıq yaradan qüvvədir, tağut da tüğyançıdır; yəni həmin şəri, fəsadı və azğınlığı yaradır. Tağut qüvvələri də tağut və şeytan təfəkkürüdür - şəxsi rəftarda, təşkilatda, ümumi rəftarda, ictimai quruluşun növündə təsir buraxır. Bu sahələrin biri bizim şəxsi rəftarımızdır. Tövhid təfəkkürü bizə deyir ki, hər bir əməli sədaqətlə yerinə yetirək. Yəni etiqadımıza əməl edək, onu dilimizə gətirək. Bu, sədaqətlə əməl etməkdir: "Möminlərin içərisində elələri də vardır ki, Allaha etdikləri əhdə sadiq olarlar"[37]. Yəni Allahla bağladıqları əhd-peymanı sədaqətlə bağlayarlar. Əhd-peyman dilə aid bir məsələ deyil, ürəyə və əmələ aiddir. Lakin iki cür peyman bağlamaq olar: sədaqətlə və hansısa niyyətlə. Bir qrup bunu sədaqətlə edir,

---

[37] Əhzab/23.

başqa bir qrup isə xeyr. Yəni bu sözün mənası odur ki, Allahla sədaqətli şəkildə peyman bağlamayanlar da var. Sədaqətli olmayan necə olur? Yəni görək indi külək hansı tərəfə əsir; görək bizim maddi marağımız nəyi tələb edir. Bu, sədaqətli deyil. Gəncin xüsusiyyəti belədir ki, onun rəftarı, hərəkəti və danışığı sədaqətli olmalıdır. Bu, tövhid düşüncəsindən bir şüadır. Yəni tövhidə etiqad sahəsindəndir. Bəziləri elə bilirlər ki,tövhidə etiqadlı olmaq başı aşağı salıb bir küncdə oturmaq və əlinə təsbeh götürüb zikr deməkdir. Belə deyil. Düzdür, tövhidə etiqadda Allaha ibadət və Allahın əmrlərini yerinə yetirmək də var. Deyə bilmərəm ki, mən tövhidçiyəm, allahpərəstəm, lakin Allahın vacib etdiyi ibadətləri yerinə yetirməyim, oruc tutmayım, yaxud namaz qılmayım. Xeyr, bu uyğun gəlmir, lakin təkcə bunlar da deyil, çoxlu işlər var.

**İslam peyğəmbərinin sivilizasiya yaratması**

Peyğəmbər öz dövründə qısa bir müddətdə - 10 il ərzində böyük bir sivilizasiyanın bünövrəsini qoydu. Peyğəmbərin böyüklüyü bundan bəlli olur. Baxın, inqilabdan 22 il ötür, lakin o yolun onda birini getməmişik. Bu, Peyğəmbərin əzəmətini göstərir. Nübüvvətin qüdrəti budur. İnsanları elə yetişdirdi ki, o kiçik cəmiyyətlə - bütün ölkə əvvəldə Mədinə kimi bir neçə min nəfərlik şəhərdən ibarət idi - böyük bir sivilizasiyanın bünövrəsini qoydu. Hicrətin 4-cü, miladi tarixinin 10-11-ci əsrləri Avropanın Orta əsrlər çağıdır: mütləq qaranlıq. Bu əsrdə İslam dövləti qurulur, İslam sivilizasiyası yaranır, ibn sinalar, farabilər, xarəzmilər və digər böyük şəxsiyyətlər meydana çıxır, güclü dövlətlər, böyük siyasi güclər ərsəyə gəlir. Düzdür, təəssüf ki, onların çoxu fəsad və azğınlığa qərq oldular. Əgər onlar fəsada düçar olmasaydılar, Əli (ə) hökuməti qursaydılar, bu inkişaf əsrlər sonraya qədər davam edərdi. Lakin Peyğəmbərin qoyduğu bünövrə zaman boyu həmişə inkişaf edib, fundament möhkəmdir və üzərində çox böyük bina tikmək olar. Siz baxın, 4-cü əsrdə Asiyanın sonlarından Avropanın ürəyinə - Andalusa, bugünkü İspaniyaya, qara Afrikanın yaxınlığına qədər bir neçə böyük İslam dövləti vardı. Maraqlıdır ki, bu dövlətlərin əksəriyyəti şiə olmuşdur: İranda şiə Ali-Buyə dövləti, Şamda şiə Həmdani dövləti və Misirdə şiə Fatimilər dövləti.

**İslam Peyğəmbərinin gözəllikləri**

Peyğəmbərin bu böyük uğurunda əsas amillər hansılardır? Tövhidin, yəni Peyğəmbərin ibadətinin, duasının, gecə münacatlarının yanında belə gözəllikləri də var: elm, cəsarət, döyüşkənlik və siyasət. Əgər siz

Peyğəmbər dövrünün İslam tarixini oxusanız, bu qısa zaman kəsiyində bunların nümunələrini görə bilərsiniz. Peyğəmbərin bu onillik həyatı çox möhtəşəm bir dövrdür. Təəssüf ki, çoxlarının xəbərdar olmadığı yığcam bir topludur. Mən demək istəyirəm ki, sədaqət tövhid görüşünün əlamətidir. Söz və əməldə sədaqəti həmişə qoruyun və elə edin ki, İslam cəmiyyətinin üzvləri mərkəzdə paklıq və mənəviyyat nurunu daim görsünlər və hiss etsinlər. Çünki ən çox gözəllik bu sədaqətə məxsusdur. Heç bir şey, heç bir siyasi üsul, heç bir siyasi manevr sədaqətlilik qədər ürəklərdə özünə yer aça bilməz. Doğrudan da belə bir xüsusiyyət var.

**Amalçılıq və gənclər**

Üçüncü məqam budur, mənim əzizlərim: Gəncin ən mühüm xüsusiyyətlərindən biri amalçılıqdır. Çalışın bu amalçılığı əldən verməyin. Baxın, müxtəlif ölkələrdə tələbə hərəkətləri, tələbə təmayülləri, bəzən radikat tələbə etirazları olur. Onların şüarlarını öyrənin; qəzetlərdə və digər yerlərdə yazılır. Görün onlar nə istəyirlər. Bəzi yerlərdə rifah və məişət istəyirlər. Bu, başqa bir mövzudur, gəncin xüsusiyyətinə aid deyil. Bir fəhlə, əkinci və tacir də özünə rifah istəyə, bundan ötrü haradasa siyasi fəaliyyət göstərə bilər. Belə sinif, xidmət və rifah məsələlərindən keçsək, şüarlar ya azadlıqdır, ya müstəqillikdir, ya da bir düşüncə tələbi. İstər radikal, istər loyal olan belə tələbə hərəkətləri arasında bir nümunə belə tapa bilməzsiniz ki, başqa bir dövlətin öz ölkəsinə hökmranlıq etməsi üçün təşkil olunsun. Yaxud öz dövlətindən istəsin ki, hansısa xarici gücün istədiyi filan hərəkəti, filan müqaviləni, filan işi yerinə yetirsin. Siz belə bir şey müşahidə etməzsiniz. Düzdür, siyasi partiyalar, siyasi adamlar bunu edirlər. Hansısa ölkədə bir partiya hansısa dövlərin tərəfdarı ola bilər. Amma gənc təbəqəsi, xüsusən də ayıq şəkildə qərar verən tələbə gənc heç zaman bu işi görməz. O ümumiyyətlə, əcnəbilərin hökmranlığına nifrət edir. İnqilabdan öncə bizim ölkəmizdə İslam hərəkatının gənclər arasında geniş yayılmasının səbəbi bu idi ki, verdiyi şüarlar və danışdığı sözlər bütünlüklə düzgün, ideal və ağıllı amallar idi. O zaman kommunist gənclər də var idi. Bir dövrdə tələbə fəallar daha çox kommunistlərdən ibarət idi. Düzdür, əvvəlcə rejim onlardan qorxdu, amma onların başçılarını öz ətrafına toplaya bildikdən, burs, pul, müəlliflik haqqı, xarici səfərlər və bu kimi məsələlərlə başlarını qatdıqdan, onlara müxtəlif idarə və saraylarda vəzifə verdikdən sonra arxayın oldu və anladı ki, daha heç bir kommunist hərəkətindən təhlükə gözlənilmir. Hətta onlara şərait də

yaradırdı; kitabları nəşr olunurdu, amma heç bir əhəmiyyət vermirdi. İslam kitablarına isə həssas idi.

Kommunist təşkilatlarının çoxu keçmiş SSRİ-nin, bəzisi isə Çinin tərəfdarı idi. Burada onlara yollar bağlı idi. Əgər bir nəfər desəydi ki, sizin təklif etdiyiniz üsul, apardığınız mübarizə, istədiyiniz inqilab sabah bizim ya Şərqi Avropada, ya Asiyada və ya başqa yerdə olan bir ölkə kimi olmağımız deməkdir, buna cavab tapa bilmirdilər, çaşdırmaq istəyirdilər, danışıb çoxlarını aldadırdılar. Belə ölkələr zahiri baxımdan müstəqil olsaydılar da, Sovetlərin siyasətindən kənara çıxa bilmirdilər. Necə ki, Polşanın kommunist hakimiyyəti bir məsələdə Sovetlərin əmrindən çıxdı, SSRİ tankları Polşaya yeridi. Macarıstanda da həmçinin. Bu növ hərəkətin, inqilabın, kommunist mübarizəsinin təbii və zəruri nəticəsi bir marksist quruluşu idi. İslam təfəkkürü isə belə deyildi. O zamanlar biz deyirdik: "İstiqlaliyyət, Azadlıq, İslam inqilabı". O zaman İslam Respublikası qurulmamışdı, "İslam inqilabı" deyirdik. Deyirdilər İslam inqilabı nədir? Deyirdik İslam inqilabı, dinə əsaslanan bir hakimiyyətin iş başına gəldiyi inqilabdır. Dinə əsaslanan bir hakimiyyət qurulduqda dəyərlər bunlar olur: ədalət, istiqlaliyyət, azadlıq, dindarlıq, qardaşlıq, əməkdaşlıq, insani əxlaq. Bu o deməkdir ki, bunlar dəyər bilindikdən az sonra cəmiyyətdə də gerçəkləşəcək? Xeyr. Mənası budur ki, bunlar hərəkəti yönəldən nişanlardır. Məsələn, bu gün bir cavan qalxıb İranın ABŞ-ın təsiri altına düşməsini müdafiə etsə, daha bunun adını gənclik təfəkkürü, gənclik hərəkəti, yaxud tələbə hərəkatı və tələbə istəyi qoymaq olmaz. Bu, ümumiyyətlə, mənasız və imkansızdır; bəllidir ki, gəncliyə yaddır.

**Boyun əyməyin xarlığı**

Bu, bir siyasi partiyanın hərəkətidir. Həmin partiyanın kimliyi də başqa bir mövzudur. Fikirləri budur ki, amerikalılarla razılaşmaq lazımdır. Amerikalılarla razılaşmaq da Türkiyə, Misir, Səudiyyə Ərəbistanı, keçmiş şah rejimi kimi olmaqdır. Özləri bunu deyirlər. Siz baxın, Türkiyədə amerikalılar ağalıq edirlər, ölkə onların əlindədir. Qondarma İsrail kiçik bir ölkədir, mühitləri kiçikdir, orada öz təyyarələri ilə təlim keçə bilmirlər, açıq zonası olan bir ölkəyə ehtiyacları var. Və Türkiyə hərbi hava təlimləri üçün öz ölkəsindən istifadə etməyə icazə verib. Bundan artıq rəzillik?! Zahirdə də belədir ki, Türkiyədə bir amerikalı hakimiyyətdə deyil, yəni seçkilər keçirilir. Son bir neçə ildə seçkilərin necə keçirildiyini də görürsünüz. Seçki keçirilir, bir hökumət qurulur. O qədər təzyiq göstərirlər ki, hökumət dağılır. Nə üçün? Çünki hökumətin başçısı İslam şüarları verir. Ərbəkanın

islamçılığı ilə bizim hansısa hizbullahçı gəncimizin islamçılığı arasında böyük fərq var, amma ona da dözümləri yoxdur. ABŞ-la əlaqə, ABŞ-la birləşmək bu deməkdir. Bu gün bundan başqası ümumiyyətlə, təsəvvür olunmur. Amerikalılar bundan azına qane olmurlar.

**Geri çəkilməyin son həddi**

Bir neçə il bundan əvvəl, keçmiş iqtidar dövründə bəziləri gəlib dedilər ki, biz filan sözü, filan şüarı verməsək, amerikalılar təzyiqlərini azaldarlar. Mən dedim ki, siz deyin görək biz haraya qədər geri çəkilsək, amerikalılar deyəcəklər daha bəsdir, geri çəkilməyin. Axı bunun həddi yoxdur! Siz bir addım geri çəkiləndə o da yerində dayanmayacaq, irəliyə gələcək və sizin bütün siyasi mövqelərinizi işğal edəcək. Dünən cürət etmirdilər desinlər ki, nə üçün siz, özləri demiş, Orta Şərq sülh müqavilələrini qəbul etmirsiniz. Amma bu gün həyasızlıqla deyirlər. Bəzilərinin daxildə bu qədər yaramaz və səviyyəsiz sözlərindən onlar da cəsarətləndilər. O zaman deməyə cürət etmirdilər. Onda deyirdilər siz nə üçün terroristlərə kömək edirsiniz. Terrorist nədir? Yəni Seyid Həsən Nəsrullah. Bunlar terroristdirlər, nə üçün bunlara kömək edirsiniz? İradları bu idi. Sizcə, indi misal üçün, Seyid Həsən Nəsrullaha kömək olunmasa, amerikalılar qane olacaqlar və gəlib bütün qapılarını bu ölkənin üzünə açacaqlar?! Xeyr, onlar özləri bunu açıq şəkildə deyirlər. İranın nefti günbəgün artır. Nefti çıxaranda azalmalıdır, amma İran daim yeni neft yataqları tapır. İranın qazı dünyada ikinci qaz mənbəyidir. Onlar bütün İrandan azına qane olmazlar. Bura elə bir yer deyil ki, Amerika enerjiyə bu qədər ehtiyacına rəğmən, asanlıqla imtina etsin. O, ələ keçirməyə çalışır. Burada bir hökumət qazını istədiyi yerə sərf edirsə, bu gün bizim digər ölkələrlə müstəqil rəftar etdiyimiz kimi ABŞ-la rəftar edirsə, bu, ABŞ-ın xoşuna gəlmir. ABŞ şah rejimi kimi bir şey istəyir: "Bir konsorsium düzəlt! Baş üstə!"; "Bu qiymətə sat! Baş üstə!"; "OPEK-də belə qərar ver! Baş üstə!" Necə ki, digərləri belə deyirlər. ABŞ-la əlaqənin mənası budur: ABŞ-ın hökmranlığını qəbul etmək.

**Tələbələr arasında yayındırıcı şüarlar**

İndi bu vəziyyətlə bir gəncin rəzil, qınanmış və rədd edilmiş bir şüar verdiyini fərz edin. Bu şüar bu gəncə məxsus ola bilməz. Bir əziz qardaşımız dedi ki, universitet quruluşundur. Mən bu sözlə tam razıyam. İndi bir nəfərin tələbə adı ilə hətta tələbələrin arasında bir söz dediyinə görə səhvən gəncləri və tələbələri tanımaqda səhvə yol verməyərəm. Çünki

bütün vücudu ilə quruluşla düşmən olan bir inqilab əleyhdarının da tələbə olan bir oğlu, yaxud qızı ola bilər. Bir, yaxud üç-dörd tələbənin bir söz deməsinin mənası bu deyil ki, tələbə təbəqəsi belədir. Xeyr, tələbə təbəqəsi əvvəla, bu məmləkətin, bu mömin xalqın uşaqlarıdır; İslam tərbiyəsi görmüşlər, İslam mühitində böyümüşlər. İkincisi isə gəncdirlər və gənc amalçıdır. Gənc azadlıq və istiqlaliyyətdən uzaq bir şey haqda fikirləşmir. Onlar sonra xalqın diqqətini yayındırmaq üçün başqa şüarlar verməyə başlayırlar: "İranda mövcud diktaturadan azadlıq!"

Bu gün ölkədə problemlərimiz çoxdur. İrad bildirmək olar. Əkinçilik, yaxud digər bir məsələ barədə doğrudan da hansısa şüarlar ola bilər. Həqiqətən, bəzilərinin nöqsanları olmuşdur. Lakin bütün bunların arasında heç bir yolla isbat edilməsi mümkün olmayan bir söz deyirlər, 21 ildə 21 seçki keçirmiş, xalq və məmurları arasında bu qədər möhkəm əlaqə olan belə bir quruluşu diktatorluqda ittiham edirlər.

**Mütləq istiqlaliyyət**

Bu mənim sizə son tövsiyəmdir. Heç zaman amalları unutmayın, heç kimə görə amallardan kənara çəkilməyin. Siz gənclər bu amalların ardınca getsəniz, biz onların bir hissəsinə çatmağa ümidvar ola bilərik. Əgər gənclər də zirvədən ensələr, daha ümid çox azalar. Buna əsasən, amalların ardınca gedin. Amal bu ölkənin mütləq istiqlaliyyətidir. Allaha şükür olsun ki, bu gün siyasi struktur baxımından tam müstəqilik. İqtisadi müstəqilliyimiz isə hələ tamamlanmayıb. Mədəni müstəqilliyimiz də tam deyil. Bunları siz təmin etməlisiniz. Gələcəkdə sizin qəti niyyətlərinizdən biri bu ölkəni həqiqi iqtisadi istiqlaliyyətə qovuşdurmaq olmalıdır. Elə bir istiqlaliyyət ki, hələ indiyə qədər həyata keçməyib. Düzdür, məsafə çox azalıb, iqtisadi asılılıq tellərinin bir çoxu qırılıb, amma onların çoxu hələ də yerindədir. Sizlər yaxşı dərs oxumaqla, təcrübə toplamaqla, amalları qorumaqla öz həyatınızı elə tənzimləməlisiniz ki, gələcəkdə doğrudan da güclü və yaxşı rol ifa edə biləsiniz. Amal - sözün həqiqi mənasında bir İslam cəmiyyəti qurmaqdır. Elə bir cəmiyyət ki, orada zülm, ayrıseçkilik, ədalətsizlik olmasın. Bunlar sizin amallarınızdan olmalıdır. Bunlar yalnız din, İslam təfəkkürü, əsl İslam düşüncələri sayəsində əldə edilə bilər. Siz heç bir yerdə bu amalların mənəviyyata arxalanmadan həyata keçdiyini göstərə bilməzsiniz. Harada və nə qədəri həyata keçibsə, mənəviyyata arxalanmaqla olub. O mənəviyyat bəzən dindir, bəzən başqa şeylərdir; bəzən ənənələr, bəzən fəlsəfi yadigarlar və bu tip məsələlərdir. Bunların hamısı İslam təfəkküründə mövcuddur.

**İdmana diqqət**

Hər halda, mənim əzizlərim! İslam adı ilə tələbə gənclər arasında çalışdığınıza fəxr edin. Bunu dəyərləndirin, gəncliyinizin qədrini bilin. Bu nemətdən, ömrün çox dəyərli olan bu çağından - bu dövr də tez ötəcək - öz elmi, əxlaqi, siyasi, həmçinin fiziki islahınız üçün maksimum istifadə edin. İdman cəhətindən də mən bütün gənclərə tövsiyə edirəm ki, idman etsinlər. Əlbəttə, qadınların idman etməsi ilə də müvafiqəm, amma bəzilərinin təbliğ etdiyi formada və belə bəzənməklə yox. Mən bunları qəbul etmirəm. Amma qadınların idman etməsi, dağa çıxması, qadınlara aid klublarda idmanla məşğul olması ilə razıyam. Mən bütün gənclərin idman etməli olduğunu düşünürəm. İnşallah, bu idman fiziki, düşüncə və ruhi, yəni hərtərəfli idman olsun və siz çiyinlərinizi bu quruluşun altına verə biləsiniz. Bu pak və nurani qəlblərinizi, bu şəffaflığı və paklığı belə qoruya biləsiniz və bu sərvəti ağır məsuliyyətlər qəbul edəcəyiniz günlərdə ölkənin gələcəyinə sərf edəsiniz. Allah sizi qorusun! Allahın amanında olasınız! Allahın lütfü ilə müvəffəq olasınız!

## Təqva və siyasət[38]

Bismillahir-Rəhmanir-Rəhim.

Bu məclisin təşkil edilməsinə və siz əziz gənclərin, mənim öz övladlarımın burada iştirakına çox sevinirəm. Fəzanı gənclik ətri ilə ətirləmisiniz. Bunun böyük dəyəri var. Düzdür, bizim bu iftar süfrəmizdə çıxış nəzərdə tutulmamışdır. Proqram sizinlə bir yerdə iftar etmək, sonra sağollaşıb ayrılmaq idi. Lakin sizin kimi belə gülərüzlü, iti və məsum baxışlı əziz gənclərin bizim imtinamızla qarşı-qarşıya dayandığını gördükdə, sizin iradənizi tərcih etməyə məcbur oluruq. Normalda isə proqramın yalnız iftarla bitməsini istəyərdim. Hər halda, mən siz əzizlərlə bu görüşü çox faydalı hesab edirəm.

**Gənc nəslin qədrini bilmək**

Bizim ölkəmizdə kim gənc tələbə təbəqəsinə qarşı məsuliyyət hissindən doğan həssaslıq göstərməsə, heç şübhəsiz, səhvdədir. Bu gün hamı gənc nəslin, xüsusən də elm öyrənməyə başlamış gənclərin qədrini bilməli, onun taleyinə qarşı diqqətli olmalı, bu mühüm və həlledici amil qarşısında məsuliyyət hissi keçirməlidir. Ölkənin bütün məmurlarında bu hiss olmalıdır.

**Təqvaya tövsiyə**

Çox səmimi olan bu gözəl məclisdə mən sizə bir ata kimi baxıb, hər bir şeyi bir cümlədə xülasələşdirib onu tövsiyə etmək istəsəm, bu, təqvaya dəvətdən başqa bir şey olmaz. Bəlkə də fikirləşəcəksiniz ki, bu, təkrar sözdür, yeni söz deyil. Əvvəla, təkrar olunmuş və min dəfə təkrar edilmiş çoxlu sözlər var ki, indiyə qədər deyilməmiş sözlərdən daha dərin və daha gözəldir. Belə deyil ki, dəfələrlə deyilmiş bir söz deyiləsi olmasın və indiyə qədər deyilməmiş bir sözü demək lazım olsun. Quranda onlarla yerdə təqvaya əmr olunub. Bunu yalnız bir dəfə də deyə bilərdi, lakin belə etməmişdir.

Bu gün siması həqiqət axtarışında olan pak və uca insanların amallarını təsvir edən Əmirəlmöminin şərafətli Nəhcül-bəlağə kitabında hər şeydən çox öz dinləyicilərini təqvaya əmr etmişdir. O, təqva barədə bir xütbədə geniş söhbət aça və bir daha təkrarlamaya bilərdi. Bizə də vacibdir

[38] Tələbələrlə görüşdə çıxışı: 8 dekabr 2000.

ki, hər cümə namazında xalqı təqvaya dəvət edək. Bunun özü önəmli bir məsələdir. Nə üçün təqvaya qarşı bu qədər diqqət var? Mən bu gecə sizi təqvaya tövsiyə edirəm və deyirəm: Mənim əzizlərim! Mənim övladlarım! Təqvalı olun. Özünüz üçün təqva toplayın.

**Təqvanın nümunəsi**

Təqva bütün insanlar, bütün təbəqələr və bütün fəaliyyətlər üçün vacib bir şeydir. Əgər onu özləri üçün toplayıb saxlaya bilsələr, ondan faydalanacaq birinci şəxs elə özləri olarlar. Buna görə təqvaya əmr etməyin hər bir dövrdə nümunə baxımından müəyyən mənası var. Təqvanın ümumi mənası həmişə birdir, lakin nümunələr, yəni insanın təqvaya riayət etməli olduğu yerlər baxımından, onlarla məna tapır. Buna görə də, təqvaya tövsiyə həmişə lazım və zəruridir.

Təqva nədir? Təqva ehtiyatlı olmaq və diqqətsizlik etməməkdir. Buna pəhrizkarlıq da deyirlər. Bu pəhriz yeməmək, içməmək və bir iş görməmək mənasında deyil. Təqva odur ki, insan həmişə pəhriz - qorxu və ehtiyat halında olsun, sürüşməkdən, başıaşağı yıxılmaqdan ehtiyatlansın. Siz dağlıq bir ərazidə gəzəndə, dağa çıxanda atdığınız hər bir addım taleyüklü olur. Əgər hər hansı bir addımda diqqətsiz olsanız, həyatınız təhlükəyə düşər. Buna görə də, atdığınız hər bir addımda diqqətli olmağa məcbursunuz; ayağınızın yerini yoxlayır, sonra qoyursunuz. Təqvanın mənası budur və bu, həyatın bütün işlərinə şamil olur.

**"Təqvalı olun" ayəsinin mənası**

"Təqvalı olun"[39] ayəsini belə tərcümə edirlər: "Allahdan qorxun". Lakin Quranda "Allahdan qorxun" anlayışı var, təqvalı olmaq isə başqa bir şeydir. Allahdan qorxmaq ədalətli və məlumatlı bir hakimdən qorxmaq kimidir. Hakim bizim etdiyimiz işin bütün xırdalıqlarından məlumatlı və öz mühakiməsində sərt ədalətli olduqda, yəni heç zaman səhvə yol vermədikdə, öz həyatında qüsuru olan insan belə bir varlıqdan təbii ki, qorxur. Quranda bu mənada olan qorxu mövcuddur: "İnsanlardan qorxmayın, Məndən qorxun!";[40] "Əgər möminsinizsə, Məndən qorxun!"[41] Təqvalı olmaq isə, ehtiyatlı olub qorunmaq deməkdir. Yəni ehtiyatlı olun, Allah-Taala sizi görür. Təqva belə bir ehtiyatlılıqdır. Təqva uçurumları və çevrilmələri, tarixdəki bədbəxtlikləri, müxtəlif tayfa və xalqların həlak

---

[39] Bəqərə/278.
[40] Maidə/44.
[41] Ali-İmran/175.

olmasını görmüş, gələcəyin də qarşısında hazır olduğu bir insanı etimadsız bir nöqtəyə addım atmağa qoymur.[42] Təqva - sürüşmə ehtimalı olan və xilası mümkün olmayan sıldırım qayaya addım atmaqdan çəkinmək, ehtiyatlı olmaqdır.

**Həyatda təqva**

Təqva həyatın bütün sahələrinə aiddir. Bu, təkcə möminə aid deyil, mömin olmayan da təqvalı olsa, təqva onu imana yönəldə bilər. Hidayətdən uzaq qalmaların çoxu təqvasızlıqdan qaynaqlanır; yəni taleyə biganə olmaq, hər bir insanı gözləyən aqibəti, ölüm və həyat sərhədini keçmək məsələsini ciddi saymamaq. Bunlar insanın uyğun ehtiyat mövqeyini itirməsinə səbəb olur. Buna görə də, hidayət yolunu axtarmır, ölümdən sonrakı taleyinin nə olacağı barədə düşünmür, bizim və bu dünyanın yaradanı olan Allahın bizdən nə istədiyi ilə maraqlanmır. Bu, sözügedən təqvasızlıq halıdır. Lakin insanda təqvanın əlamətləri sayılan bu nigaranlıqlar mövcud olsa, hərəkət edər, çalışar və həqiqət yolunu axtarar. Kim buna çalışsa, Allah da onu hidayət edər: "Bizim uğrumuzda cihad edənləri (çalışanları) öz yollarımıza hidayət edəcəyik"[43]. Allah-Taala Quranda buyurur: "Sən ancaq Qurana tabe olan kimsəni qorxuda bilərsən"[44]. Ey Peyğəmbər! Sən zikr ardınca olan insanları hidayət edə bilərsən. Zikr - xatırlamaq, unutmamaqdır. Təqva budur.

**Tələbə və təqva**

Bir tələbə öz dərsində, rəftarında, siyasi fəaliyyətində, mövqe seçimində, gələcəyinin seçimində təqvalı ola bilər. Təqva ilə hərəkət etmək olar. Meyarı da budur ki, özünüzə vəzifə bildiyiniz, sizi çağırdığını duyduğunuz iş zamanı başqa heç bir amil sizi ona doğru hərəkətdən saxlaya bilməsin. Tələbələr əsas xaraktercə, əvvəldən belə olmuşlar.

Mən gənclik dövründən tələbələrlə əlaqədə olmuşam. Qumdan Məşhədə qayıtdığım dövrdə hövzə tələbələri üçün təfsir dərsi deməyə başladım. Sonra gördüm ki, hövzə tələbələri arasında bəzi gənclər də peyda olurlar, onlar da gəlib iştirak edirlər. Öyrəndim ki, bunlar universitet tələbələridir. Bildim ki, universitet gəncləri arasında Quran təfsirinə maraq var. Bunlar o zaman güclü şəkildə yayılan marksist

---

[42] Nəhcül-bəlağə, xütbə 16.

[43] Ənkəbut/69.

[44] Yasin/11.

təfəkkürlər qaşısında möhkəm və güclü bir məntiq əldə etmək istəyirdilər. Bu, Quran məntiqi idi.

### İnqilabdan qabaq marksizmin təbliğatı

Sizə bunu da deyim, bəlkə də çoxları üçün təəccüblü görünər. Repressiya dövründə rejimin ABŞ tərəfdarı, kommunizmlə kəskin düşmən, onları darmadağın edən bir rejim olmasına baxmayaraq, eyni zamanda altmışıncı illərin sonu və yetmişinci illərin əvvəllərində marksist anlayışlarının və marksist kitablarının gənclər arasında və universitetlərdə yayılması inqilabçı İslam təfəkkürlərinin yayılmasından qat-qat kiçik cinayət sayılırdı. Mən görürdüm ki, bəzən bir broşür, yaxud kitab nəşr etdirmək istədikdə senzura mərkəzlərində necə maneələrlə rastlaşırdıq və çap edilmirdi. Əgər nə vaxtsa hansısa bir yolla bu broşür və kitablar onların əllərindən çıxıb çap olunsaydı, kitab mağazaları onları öz piştaxtalarına qoymağa cürət etmirdilər. Amma o zaman mağazaların piştaxtaları marksist broşürləri ilə dolu idi. Bu vəziyyət Tehranda digər yerlərdən daha pis idi. Məşhəddə də görünürdü. Mənim namaz qılıb söhbət etdiyim məscidin yanında bir kitab mağazası vardı. Bir gün keçəndə gördüm ki, təxminən 100, 150, 200 səhifəlik 7-8 marksist kitabını satışa qoyub. Onların hamısını yığıb aldım ki, vəziyyətin necə olduğunu dostlara göstərim.

### Rəhbərin təfisir dərsləri

Universitetdəki müsəlman və mübariz gənclər möhkəm bir səngər tapıb bu təfəkkürlərə qarşı mübarizə aparmaq istəyirdilər. Mən başqa bir məsciddə tələbələrə məxsus Quran təfsiri üçün dərs təyin etdim və dedim ki, cümə günləri yalnız universitet tələbələrinə Quran təfsir edəcəyəm. Oraya gələnlərin izdihamı gənc məclislərini görənlərin hamısının təəccübünə bais olmuşdu. Təyin etdiyimiz məscid gənclərlə doldu. Ora bəs etmədiyindən başqa bir yerə getdik. Düzdür, bir il çəkmədi ki, SAVAK tərəfindən dərsə qadağa qoyuldu. Bəhanə etdilər ki, siz burada siyasi təbliğat aparırsınız. Mən Bəqərə surəsinin ayələrini təfsir edirdim. Bu surənin əvvəlləri Bəni-İsrail övladları barədədir. Onlar deyirdilər ki, İsrail övladları dedikdə məqsədiniz İsrail dövlətidir və bu da cinayətdir. Bu əsasla dərsi bağladılar.

### İnqilabın əvvəllərində universitetin vəziyyəti

Gənclərin bu hazırlığı, təhlükələr qarşısında mübarizliyi, öz qərarı üzərində dayanması, onları çağıran vəzifəyə hazır olması mənim həmişə müşahidə etdiyim xüsusiyyətlərdəndir. İslamın, İranın və bu ölkənin başucalığının düşmənləri həmişə gənc nəslin elmi fəaliyyətdə imanla hərəkət etmələrinə və ölkələrinə töhfə vermələrinə mane olmaq istəmişlər. Onlar gənc nəslin qarşısında bataqlıq və uçurum yaratmaq istəyirlər. Əlbəttə, instinktiv təmayül də mövcuddur; nəinki gənclər, bəzən qocalar da bəzi vəsvəsələr qarşısında yuvarlanırlar. Həmişə belə şeylər olub. Buna görə inqilabdan öncə, sonra və inqilabın əvvəllərində İslama, inqilaba və İslam quruluşuna müxalif olan bütün qruplar universitet üzərində mərkəzləşdilər. Onlar universiteti tutmaq, gəncləri öz tərəflərinə çəkmək, İslam inqilabını, İslam quruluşunu, İslamın bu möhtəşəm və gözəl hərəkətini gənc, alim, elmi gələcəyə malik düşüncəli tərəfdarlarından məhrum etmək istəyirdilər. Bu məqsədlə universitetdə çoxlu işlər gördülər. Yəqin ki sizin çoxlarınızın yadında deyil, lakin mənim üçün dünən kimidir. O zaman da mömin, yaxşı, prinsipial və aktiv tələbələr aldanmışlar qarşısında ən mühüm rolu ifa etdilər. Müxtəlif qruplaşmalar Tehran Universitetinin qərbindəki xiyabanda hər addımbaşı bir tablo vurmuş, müxtəlif adlarla qərargahlar düzəltmişdilər. Universitet daxilində də kafedraların bəzi otaqlarını özlərinə ayırmışdılar. Əvvəlcə oranı öz siyasi mübahisələrinə və partiya işlərinə mərkəz etmiş, sonra isə silah anbarına çevirmişdilər.

**Rəhbərdən bir xatirə**

Mən həftədə bir gün Tehran universitetinin məscidində günorta namazlarını qılırdım. Namazdan sonra bir qədər söhbət edir və tələbələrin suallarına cavablandırırdım. Bu mənim hər həftəlik proqramım idi. Bir gün günortaya yaxın universitetə tərəf hərəkət etdim. Universitetə çatdıqda gördüm ki, çox sakitlikdir. Orada olan mömin uşaqların bir neçəsi gəlib mənim mühafizəçilərimə dedilər ki, onu universitetə qoymayın, təhlükəlidir. Mən dedim ki, yox, bizim proqramımız var, bazar günüdür və mən getməliyəm, universitetin məscidindəki görüşümüzü tətil etməyəcəyəm. Bir tərəfdən universitetin məscidinə gəldik və gördüm ki, orada çox az uşaq qalıb. Nəhayət, bizi qane etdilər ki, universitetdə qalmayaq. Mən universitetdən çıxdım, onlar da çıxdılar. Sonra həmin tələbə gənclərin özləri və xalq bunları universitetdən ixrac etdilər. O zaman hökumət elan etdi, imam da müdafiə elədi və xalq universitetə girib oranı o qədər insanla doldurdu ki, bu qruplar suda həll olan duz kimi məhv

oldular. Universitet qruplaşmaların əlindən çıxdı. Əsas qüvvə də tələbələrin özləri idi. Tələbə mühiti belədir: pak, sədaqətli, səmimi, düzgün hisslərə cavab verən bir mühitdir.

**Doğma və yadlar**

Mən sizin kimi müxtəlif siyasi təmayüllərə malik təşkilatların bir-birinin yanında oturduğunu, birgə olduğunu, bir yerə toplaşdığını görəndə sevinirəm. Mən bütün xalqa, o cümlədən tələbə mühitlərinə zorla sırınan ayrılıq və bölünmələrdən çox əziyyət çəkirəm. Mən bir neçə il öncə cümə namazında "doğma və yadlar" ifadəsini işlətdim, bəziləri çox hirsləndilər. Halbuki burada hirslənməyə əsas yoxdur. "Doğma və yadlar" bölgüsü tamamilə düzgündür. Əvvəla, bu, xalqa aid deyildi, siyasilərə, siyasi fəallara, müxtəlif siyasi sahələrdə çalışan şəxslərə müraciət idi. Xalq həyatda, müxtəlif mühit və fəaliyyətlərdə bir-birinin yanındadır: qonşu, dost, tanış, əməkdaş və sair. Söhbət onlardan getmir, "doğma və yadlar" məsələsi siyasi sahəyə aiddir.

Bu gün hegemon və istismarçı ölkələrin, xüsusən ABŞ-ın siyasi dairələri çoxlu təcrübələrə malikdirlər. Onlar bütün dünyada fəaliyyət göstərirlər, Latin Amerikasında, Afrikada, Asiyada, Avropanın özündə, müxtəlif ölkələrdə iqtisadi, siyasi və digər həlledici sahələrə yol tapmaq üçün mübarizə aparırlar. Nə qədər rejimlər yıxıblar, nə qədər hərbi çevrilişlər planlayıblar, nə qədər müstəmləkəçi qüvvələrə dayaq olublar. Bu gün də bu işlərlə məşğuldurlar. Mən indi ad çəkmək istəmirəm. Bizim regionmuzda sosial bazası olmayan çoxlu dövlət və rejim saya bilərsiniz. Dini legitimlik bir yana qalsın, zərrə qədər də əqli, siyasi və ictimai legitimlikləri belə yoxdur. Xalq bu rejimlərin qurulmasında zərrə qədər də rol oynamayıb, onlar hərbi və siyasi güc hesabına hakimiyyət başındadırlar. Onların arxasında kim durur? Hegemon dövlətlər və birinci növbədə ABŞ. Bizdə belə ölkələrdən az deyil, bircə nəzərlə 6-7 belə dövlət tapmaq olar.

Onlar bu işdə böyük təcrübəyə malikdirlər. Oturub müxtəlif layihələr hazırlayır, təbliğat şüarları düzəldir və ortaya atırlar. Burada da onların adamları var. Onların pas ötürdüklərini burada tutur və üzərlərinə düşən işi görürlər. Bu şəxslər yad və özgədirlər. Kim olursa-olsun, istər üzərində xüsusi bir partiya adı olsun, ya olmasın; istər açıq şəkildə İranda ABŞ-ın müdaxiləsinin tərəfdarı olduğunu desin, istər deməsin; istər ABŞ-ın İrandakı istəklərinin həyata keçməsini istədiyini bildirsin, ya da bunu açıq şəkildə deməsin, rəftarı və sözü bunu göstərsin. Belə bir adam özgə və

yaddır. Siyasi mühitdə belə ünsürlərdən çəkinmək lazımdır. Əlbəttə, çəkinmək lazımdır, onları darmadağın etmək yox. Biz heç zaman bunu nə hökumətə tövsiyə etmişik və edirik, nə də müxtəlif qurumlara. Bunlar cinayət törətsələr, cinayətkar kimi cəzalandırılmalıdırlar. Amma nə qədər ki, hüquqi cinayət törətməyiblər, biz demirik ki, kiminsə fikri belə olduğundan, məhv edilməlidir. Bunların vətəndaş hüquqları var, lakin yaddırlar, doğma, məhrəm və xeyirxah deyillər. Bu söz onda bəzilərini narahat etdi, dedilər ki, siz nə üçün deyirsiniz: "doğma və yad". Əlbəttə, mən o zaman güclü ehtimal verdim ki, bu söz qarşısında ajiotaj yaradanlar, təhrik edənlər, şüar verənlər elə doğma olmayanlardır. Bu bölgünü hamı qəbul edir. Tamamilə məntiqli və məqbul sözdür. Sizin maraqlarınızı qəbul etməyən şəxslə normal və məhrəm münasibətdə ola bilməzsiniz. Sizin maraqlarınızla düşmən olan, sizin sözünüz, yolunuz, işiniz və gələcəyiniz üçün heç bir əhəmiyyət tanımayan, onun əksini lazım və mühüm bilən şəxsə, bəllidir ki, etimad etməzsiniz. Bu baxımdan, "doğma və yad" məsələsi çox aydın bir məsələdir. Eyni zamanda bəziləri ona qarşı çıxdılar, bəzu mətbu orqanlarında, qəzetlərdə bəzi sözlər yazdılar.

**Doğmalara qarşı, yadlarla əlbir**

Yad və bədxah düşmənlə mübarizəyə dözə bilməyənlər mömin, doğma, ölkənin maraqlarını və gələcəyini istəyən, lakin siyasi baxımdan fərqli düşünən bir qüvvə qarşısında isə "doğma və yad" üsulunu icra edirlər. Bu, səhvdir. Buna görə cənab Qumi buradakı dostların - əziz qız və oğlanların müxtəlif tələbə təşkilatlarından olduqlarını deyəndə çox sevindim.

Təqva vəzifəni tanımaqda və lazımi mövqeyi seçməkdə təsirlidir. "Təqva" dedikdə məqsədimiz bu deyil ki, kimsə mütləq boynunu əyib təsbehlə zikr deməyə başlasın. Təqvanın mənası bu deyil. Təqvanın mənasında ayıqlıq, oyanış, müxtəlif məqsədləri nəzərə almaq və diqqətlilik yatmışdır. Sanki bir sürücü rol arxasında oturmuşdur, lakin maşının dörd tərəfi onun nəzarəti altındadır, tam ehtiyatlıdır.

**Siyasi mövqelərdə təqva**

Siyasi mövqe seçimində də təqva lazımdır. Harada siyasi mövqe seçmək istəyirsinizsə, diqqətli olmalısınız ki, bu mövqe inqilabi amallarla, İslam amalları ilə və ölkənin ali maraqları ilə uyğundur, yoxsa yox? Bura təqvanın təsir etdiyi bir yerdir.

Mənim əzizlərim! Bəzilərini bir mövqeyə çəkən səbəbi, iddia etdiklərinin əksinə olaraq, bəzən təyin etmək olmur. Məhəbbət və nifrət, xarakter, nöqsan, tamah, qorxu və bu tip məsələlər təsirli amillərdir. Özləri üçün bir gələcək təsvir edirlər və ondan uzaq düşməmək məqsədilə bəzi mövqelər seçirlər. Bu, düzgün deyil. Bu, təqvadan qaynaqlanan addım deyil. Bəzilərinin məqsədi yalnız hakimiyyətdir. Biz bunu da görmüşük. Bu 21-22 illik inqilab dövründə elə adamlar gördük ki, zahiri baxımdan yaxşı sözlər danışırdılar, lakin sözləri hakimiyyət həvəsli ürəkdən gəlirdi. İnqilabın əvvəllərində hakimiyyəti ələ alan və imamın da sonsuz dərəcədə müdafiə etdiyi cənablar inqilabın yolunu bütünlüklə dəyişmək istəyirdilər. Əgər imamın sayıqlığı, qətiyyəti, möhkəmliyi və bu məsələlərlə məşğul olan bəzi şəxslərin diqqəti olmasaydı, xalqın bu böyük inqilabının nəticəsinin nə olacağı bəlli deyildi. Mən bir hadisədə yox, bir neçə hadisədə bunu yoxlamışam. Onlar üçün birinci dərəcəli məsələ hakimiyyətə gəlmək idi; istər özləri, istərsə də qrupları. Qrup maraqları onlara icazə vermirdi ki, öz qruplarından başqa yerdə olan dostlarını belə hakimiyyətə yaxın buraxsınlar. Xoşbəxtlikdən, onların hakimiyyəti davam etmədi, imamın sayıqlığı mane oldu. Onların inqilabla, imamın xətti, tərəfdarları, inqilabın tərəfdarları və inqilabçı İslamı istəyənlərlə rəftarı heç zaman xeyirxah olmamışdır.

**Allah təqvası – bütün işlərin əsası**

Hər halda, mən siz əziz gənclərə deyirəm: İstər dərs oxumaqda, istər siyasi mövqe seçməkdə və istərsə də mədəni fəaliyyətlərdə Allah təqvasını, Allahın razılığını, Allah-Taalanı razı salacağını bildiyiniz işləri axtarmağı unutmayın, əldən verməyin. Əsas budur. Əgər ölkədə xalqın mühüm bir hissəsi bu niyyətdə olsa, hamı belə olmasa da, ölkə yaxşı günə çıxacaq. Əgər bir ölkədə mömin camaat və mömin təbəqə olsa, heç şübhəsiz, onlar sağlam hidayət, izzət və ucalıq yolları ilə gedəcəklər.

Siz ölkənizin ən həssas dövrlərindən birində yaşayan gənc nəsilsiniz. Mən güman edirəm ki, bu qədər həssas bir dövrlə keçmişdə az rastlaşmışıq. Yəni belə deyim: heç bir həssas dövr belə bir əlverişli şəraitlə birgə olmayıb. Bəlkə bu qədər həssas olan digər dövrlər də olub, lakin hazırlıq olmayıb. Amma bu gün bu ölkənin gənc nəslinin keçmişin geriliklərini düzəltmək üçün hazırlığı var, potensial mövcuddur. Allahın və dinin yolu aydın yoldur. Quruluşun və cəmiyyətin bünövrəsi yaxşılıq üzərində qurulub, fəsad üzərində yox. Dövlət məmurlarının məqsədi yaxşılıq və xidmətdir. Bu ölkənin pisliyini istəyən və imkan tapdıqda onun

maraqları əleyhinə fəaliyyət göstərən əcnəbilərin ölkənin daxili işlərində heç bir rolu yoxdur. Bunların hamısı imkanlardır.

**Ən vacib məsələ**

Bəziləri bu imkanları, bu əlverişli şəraiti məhv etmək istəyirlər. Mənim fikrimcə, bu gün bütün tələbə qruplarına ən vacib məsələ cəmiyyətimizdə inkişafa əlverişli olan bu mühiti məhv edib insanları ümidsizliyə uğratmaq, universitetdə dərs və elmin səviyyəsini endirmək, elmi, təhsili rövnəqdən salmaq, tələbələri digər işlərə, müxtəlif çəkişmələrə, mənasız siyasi oyunlara qatmaq istəyən şəxslərlə mübarizədir.

Mən görürəm ki, bəzən tələbələr arasında müəyyən fikirlər səslənir. Mən bu fikirlərə nə təəccüb edirəm, nə də bu gözlədiyimin əksinədir. Bunların əhəmiyyəti yoxdur. Mənim üçün əhəmiyyətli olan belə fikirlərdə tələbələrin məqsədləridir. Bu gün iyirmi ildir ölkənin universitetləri inkişafa doğru hərəkət edir. Bu ölkədə çoxlu tələbə mövcuddur. Say çox olduqda onların arasında keyfiyyətlilərin olmasına da əminlik yaranır. Müxalif insanların məqsədi hansısa yolla universiteti elm və təhsil prosesindən saxlamaqdır. Tələbələrə qarşı baş tutan bu fəaliyyətlərin bəzisində belə mənfur və xəbis niyyətlər mövcuddur. Onlar bizim gənc və mömin universitetimizi işindən saxlamaq istəyirlər. Allaha şükür olsun ki, siz əzizlərin nurani ürəkləriniz, pak ruhlarınız və xalis niyyətləriniz var, inşallah, Allahın nəzəri üstünüzdədir. Çalışın bütün fəaliyyətlərinizdə təqvaya diqqət yetirin, təqvanın əhəmiyyəti barədə bacardığınız qədər düşünün. Görün sizin fəaliyyətlərinizdə hansı əməl, hansı hərəkət, hansı mövqe təqva ilə uyğundur.

Mən də dua edirəm ki, Allah-Taala sizin hamınızı müvəffəq etsin. Ölkənin sizin vücudunuzdan, xidmətlərinizdən, elm, bilik və tədqiqatlarınızdan, müxtəlif mərkəzlərdə fəaliyyətlərinizdən faydalanacağı gün inşallah, gələcək.

Allahın salamı və rəhməti olsun sizə!

## Din, milli özünəinam və inkişaf[45]

Bismillahir-Rəhmanir-Rəhim.

Mən həmişə siz gəncliyin düşüncə və əməl baxımından belə çağlamasının müştaqı olmuşam. Namaz qıldıqdan sonra belə isti nəfəsli, duyğu və həyəcan dolu qəlblərə malik siz əziz gənclərin görüşü mübarək bir haldır. Xüsusən də bu əziz gəncin mühüm məqamları və diqqətəlayiq nigaranlıqları əks etdirən çıxışı məclisin ab-havasını doğrudan da ciddi, elmi və laqeydlikdən uzaq bir hala saldı. İnşallah, müvəffəq olasınız.

**İslam birliklərinin rolu**

İslam birliklərinin rolu çox əhəmiyyətlidir. Universitetlərdə yaradılan bu gənclər təşkilatları ilk gündən məqsəd, iman, düşüncə, duyğu və gələcəyə baxışla, dolu, böyük və tükənməz bir qüvvə ilə yaradıldı. Ümumiyyətlə, belə deyildi ki, kimsə bir qrup gəncin gənclik şövqündən irəli gələrək duyğusal bir şəkildə bir yerə toplaşdığını güman etsin. Xeyr, onda çox əhəmiyyətli üfüqlər vardı.

**Bir xatirə, bir dərs**

Mənim yadımdan çıxmır, 1979-cu ildə ABŞ səfirliyi hadisəsindən qabaq, sonralar İslam Birlikləri İttifaqını, yaxud Möhkəmləndirmə Komitəsini yaradan gənclərin bir neçəsi Əmir Kəbir universitetində bir toplantı keçirdilər. Məni və başqa bir neçə nəfəri, digər tərəfdən də Bəni-Sədri və digərlərini dəvət etdilər. Dedilər ki, oturub bir neçə əsaslı mövzu barədə söhbət edək və bir nəticəyə gələk. Orada müxakirə olunan mövzu imamın xətti idi. Bəni-Sədr və onunla gələn 2-3 nəfər iddi edirdilər ki, ümumiyyətlə, imamın xətti məsələsi sırf zehnə aid bir məsələdir, real deyil.

Üslüb və fikirlərin kəskin şəkildə bildirilməsində siyasət, söz, qərar və hədəflərdən ibarət bir dərya vardı. Bəlkə də bizlər tam diqqət yetirmirdik. Doğrudan da belə idi. Biz işdə yeni idik, öz imanımızı və hissimizi bildirirdik. Lakin hamı belə deyildi. Elə sözlər danışırdılar ki, sonralar təhlil edəndə və hadisələri kompleks şəkildə araşdıranda görürdük ki, bəzən adi formada deyilən bu sözlərin arxasında dünyanın böyük iqtisadi, siyasi və ictimai gücləri dayanır. Məsələn, qəfildən görürdünüz ki, bir sözün arxasında Sovet Sosialist Respublikaları İttifaqı

[45] Birliyi Möhkəmləndirmə Komitəsinin üzvləri ilə görüşdə çıxışı: 3 yanvar 2001.

və kommunist ölkələri dayanıb. Söz zahiri baxımdan inqilabi bir söz idi, hətta İslam rəngində ortaya qoyulurdu, amma arxasınca maraqlı məsələlər gəlirdi. Bütün mövzularda belə məsələlər qarşıya çıxırdı. Bir də görürdük ki, bir sözün arxasında Qərb dünyasının əsas iqtisadi, yaxud siyasi xətləri dayanır. O zaman quruluşun yüksək toplantıları, misal üçün, İnqilab Şurası və sonralar onun hökumətlə müştərək iclasları təxminən hər gün, yaxud həftədə 2-3 gün təşkil edilirdi. Müzakirə olunan mövzular bəzən çox adi idi. Lakin onların uzanması, şəxslərin mövzular üzərində dayanması və danışılan sözlərin nəticələri insanı şübhəyə salırdı ki, nə üçün bunlar bu qədər israr edirlər. İmamın xətti mövzusu da belə bir şəraitdə müzakirə olundu.

**İmamın xətti**

İmamın xətti məsələsini ortaya atanlar öz uşaqlarımız, yəni İslam birlikləri idilər. Onlar indi də mövcuddurlar. Düzdür, sizdən 10-20 il böyükdürlər və müxtəlif işlərdə, o cümlədən parlamentdə və digər yerlərdə fəaliyyət göstərirlər. Tələbə gənclər imama müraciət etmişdilər. O da mənim adımı çəkmişdi ki, onunla əlaqə saxlayın. Bizim tələbələrlə təxminən fasiləsiz bir neçə saat iclaslarımız olurdu, imamın xəttinin olub-olmamasını izah edirdik. Biz cəmiyyətdə mövcud əlamətlərlə və yolları bir-birindən tam ayıran nişanlarla isbat etdik ki, xeyr, imamın xətti adlı bir şey var, əlamətləri də bunlardır. Düzdür, bizim tərəf-müqabillərimiz - adını çəkdiyim bu cənab, indi də Tehranda olan və bəziləri bizim inqilabdan qabaqkı dostlarımız və əməkdaşlarımız olan, bir yerdə iclaslar keçirdiyimiz, müzakirələr apardığımız başqa 1-2 nəfər qəbul etmədilər, dedilər ki, imamın xətti adlı bir şey yoxdur.

İmamın xəttinin mənası bu deyildi ki, imam nə deyibsə, biz də onu deməliyik. İmamın nə özünün belə bir iddiası vardı, nə də biz onun hər bir sözünün Allah vəhyi olduğunu deyirdik. İmam dindən danışırdı. İmam doğrudan da möhkəm, güclü, elmli, çox məlumatlı və səbirli bir şəxsiyyət idi. Elə insanlardan idi ki, böyük ictimai dəyişikliklərdə belə gövhərlər mövcud olmasa, xüsusən beynəlxalq güclərə toxunacaq heç bir böyük hərəkət ərsəyə gəlməz. İmamın çoxlu elmi və məlumatı vardı, aydın və yenilikçi idi. Ömrünün son illərində bu yenilikçilik hətta onun fiqh əsərlərində də özünü göstərdi. Bəziləri buna dözmürdülər. O eyni zamanda, bu əziz qardaşımızın dediyi kimi, inqilabın atası və həqiqi memarı idi. Əgər qarşıda olmasaydı, mübarizə aparan bütün bu təşkilatlar və onların arxasınca xalq, heç şübhəsiz, çıxılmaz vəziyyətdə qalardılar.

### İmam və mübarizələrdə rəhbərliyin rolu

Mübariz qruplar potensial olaraq hər bir yerdə var. İndi siz digər ölkələrdəki müsəlman xalqlara - mən burada ad çəkmək istəmirəm - baxın. Hökumət və dövlətlərində heç bir islamçılıq əlaməti görünmür. Lakin onların İslam və din istedadı, sizin dilinizlə desək, potensialı çox yüksəkdir. Amma nə üçün özünü göstərmir? Mübarizə, hərəkət, inqilab və təhlükəli dolanbaclardan keçid rəhbərliyinin rolu burada görünür. Asfalt yolda rəhbərliyin rolu çox da mühüm deyil. İmam özünün elm və düşüncəsi ilə bir hərəkət başlamışdı, onu həm də izah edirdi. İmam həmişə söhbət edirdi. Son zamanlarda az söhbət edirdi, lakin inqilabın əvvəllərində çıxış etmədiyi gün az olurdu və çıxışları informasiya vasitələrində yayımlanırdı. O həmişə söhbət edir və öz əsaslarını açıqlayırdı. İmamın xətti bütün bu sözlərin nəticəsi idi. O cənablar bu meyarı ortadan götürmək və inqilabı istədikləri tərəfə çəkmək istəyirdilər. Onlar bu işlərini davam etdirdilər və 1980-1981-ci illərdə acı hadisələrə çatdırdılar. Nəhayət, 1981-ci ilin tir (21 iyun-20 iyul) ayında getdilər, bir qrup qaçdı və terrorlar baş verdi.

### Tələbələrin ayıq hərəkəti

Mən demək istəyirəm ki, gəncliyin və tələbəliyin bu ayıq hərəkəti əvvəldən belə üfüqləri nəzərə almışdı. O zaman tələbələrin beynində olan bütün bu fikirlərin əsl məğzi nə idi? Biri dini bilgi, dini əməl, o birisi də milli özünəinam. Əgər diqqət yetirsəniz, əsas olan bu iki məsələdir. İnqilabı, İslam Respublikası quruluşunu, dövləti, Ali Məhkəməni, hakimiyyət orqanlarının hər hansı birini, hər hansı bir şəxsi yanlış və kiçik yollarda itirib sərgərdan edəcək amil bu iki şərtdən birinə diqqətsizlikdən törəyə bilər.

### Dinin möhkəmləndirilməsi

Buna əsasən, birinci məsələ din, dinin möhkəmləndirilməsi və bərqərar edilməsidir. İslam quruluşu bu əsasla quruldu. Əgər onda dini məqsəd və istək olmasaydı, bu ölkədə heç bir hərəkət mümkün olmazdı. "Din" dedikdə məqsədimiz məscidə getmək və ya təsbeh çevirmək deyil. Dinin yalnız namaz qılmaqdan, səcdə və ruku etməkdən, uzun paltar geyinməkdən və digər bu kimi məsələlərdən ibarət olduğunu düşünmək çox məhdud və dar baxışdır. Din elə düzgün bilgi və dünyagörüşüdür ki,

ona əsaslanan geniş düşüncə müxanizmi həyatın bütün sahələrini əhatə edə bilər.

Bu gün dünyada ən yeni düşüncə hərəkətləri dinə doğrudur; özü də aşağı səviyyədə yox, görkəmli şəxsiyyətlər səviyyəsində. ABŞ qaralarının da dinə təmüyülü var, müxtəlif ölkələrdəki müxtəlif gənclərin də dinə, xüsusən də İslama təmayülü var. Lakin dinə sarı təmayül görkəmli şəxslərdə, yüksək təfəkkürə malik insanlarda müşahidə olunur.

**Molla Sədra və Şeyx Ənsarinin təşnəsi olan Avropa**

Mən bu sözü bəlkə də dəfələrlə demişəm: Universitetlərimizin çoxlu əsərləri olan, birinci dərəcəli akademik tədqiqatçılarından sayılan, əvvəllər hövzə tələbəsi olmuş və son 2-3 ildə vəfat etmiş çox güclü müəllimlərindən biri elmi araşdırmalar məqsədilə Avropa ölkələrindən birinə səfər etmişdi. Tanınmış universitet mənsublarından olan başqa bir dostumuz deyirdi ki, mən ondan orada nə gördüyünü soruşduqda belə cavab verdi: "Gördüm ki, Avropa Molla Sədra və Şeyx Ənsarinin təşnəsidir". Mənim dediyim bu müəllim həm fəlsəfə sahəsində işləmişdi, həm də ədəbiyyat və tarixdə dərin ixtisasa malik idi. Mən şəxslərin adlarını çəkmək istəmirəm, yoxsa deyərdim. Desəm, əksəriyyətiniz, yaxud hamınız tanıyarsınız. O, fəlsəfədə imamın şagirdi olmuşdu. Tələbəlik dövründə, məsələn, 40-50 il qabaq imamın dərsinə getmişdi. Buna görə həm Molla Sədranı, həm də Şeyx Ənsarini öyrənmişdi. Kim Avropada Molla Sədranın adını çəksə, deyirik filosofdur. Qərb düşüncə və fəlsəfə təlimlərinə fikir verir. Lakin Şeyx Ənsari bir fəqih və bugünkü terminlə desək, hüquqşünas idi. Həmin universitet müəllimi deyirdi ki, bu gün dünyanın yüksək akademik məclislərində onlara təmayül var. Bu, bir həqiqətdir.

**Bəşər ideologiyalarının gücsüzlüyü**

Din sübut etmişdir ki, insanı ən mühüm nigaranlıqlarından xilas və onu qane edə bilər. Mövcud ideologiyaların heç biri buna lazımi cavabı verə bilmirlər. Qərb demokratiyası bütün bu şöhrətinə, qalmaqalına və uğrunda tökülən qanlara rəğmən, 18-ci əsrin sonlarında meydana çıxmışdır. Son 100-150 ildə Avropanın müxtəlif cərəyanlarını və Böyük Fransa inqilabının tarixini bilən adam anlayır ki, bunun üçün nə qədər səy göstərilmişdir. Lakin bu gün Qərb demokratiyası müxtəlif məsələlərdə dalana dirənmişdir. Bunun bir nümunəsi ABŞ-ın son seçkilərində aşkar oldu, hamı anladı. Bəlli oldu ki, xalqın səsinin sayı birbaşa təsirli deyil. Bu hələ demokratiyadır. Bu gün dünyada mövcud olan ən başadüşülən, xalqa

ən çox arxalanan və ən çox görünən məsələlərdəndir. Markisistlər də demokratiya iddiası edirdilər. Onlar da öz adlarını demokratik dövlət qoyurdular. O da demokratiyanın başqa bir növü, bəzi dostlar demiş, başqa bir qiraəti idi. Lakin bunlar da qalıblar və heç bir düyünü aça bilmirlər. Hər halda, məsələnin hansı hissəsini düzəltsələr də, daxili duyğuları yönəldə bilmirlər. İnsanın qəzəbi, ehtirası, duyğusu, tamahı, şöhrətpərəstliyi, saxtakarlığa meyli və saxtakarlıq gücü var. Bunları kim idarə etməlidir? Qeyri-dini ideologiyalar buraya çatanda dayanırlar. Bundan əlavə, siyasi, iqtisadi və ictimai sahələrdə də dayanmışlar. Fərz edin hansısa iqtisadi nəzəriyyəçi hansısa qərbli, amerikalı, yaxud avstriyalı bir iqtisadçının nəzəriyyəsini Allah vəhyi kimi irəli sürür. Lakin 5-6 il ötdükdən sonra elan edirlər ki, bu nəzəriyyə qüvvədən düşmüşdür. Doğrudan da düşünmədən, mütaliə etmədən bunların arxasınca gedən xalqın vəzifəsi nədir?

**Milli özünəinam**

Özünəinam olan ikinci şərt burada qarşıya çıxır. Əlbəttə, söhbət milli özünəinamdan gedir, təkcə tələbənin özünəinamından yox. Tələbə özünəinamı bir qrup məsələsidir, milli özünəinam isə böyük milli hərəkətdir. İslam birliklərində işə başlayan tələbələr üçün ən əsas məsələlərdən ikisi bunlar idi. Onlar milli özünəinama mənfi təsir edən hər bir şeyi, İran xalqının, iranlı gəncin, məmurun, siyasətçinin, iqtisadçının, mühəndisin bacarmadığına dair fikir formalaşdıran hər bir şeyi rədd edirdilər, əməli surətdə onunla mübarizəyə qalxırdılar. Buna görə tələbə hərəkətində Universitet cihadı yarandı. Universitet cihadı bu hərəkətin və inqilabın əvvəllərindəki mömin tələbələrin baxışının səmərələrindən idi. O, İslam birlikləri ilə paralel yarandı. Birliklərin keçmişi belədir. Onlar müxtəlif dövrlərdə, insafla desək, böyük xidmətlər göstərmiş, müharibə zamanı böyük şəhidlər vermiş, müxtəlif məsələlərdə yaxşı mövqelər seçmişlər. Mən prezident olanda bir dəfə birliklərdəki qardaşların ikinci nəslindən bir qrupu yanıma gəldilər və dedilər ki, böyük bir beynəlxalq konfrans keçirirlər. Ona bir ad da qoymuşdular. Dünyanın müxtəlif ölkələrindən tələbələri Tehrana dəvət etmişdilər. Siz görün belə işlər nə qədər həvəs, iradə, nə qədər özünəinam tələb edir. Yəni iranlı tələbə hiss edir ki, bir beynəlxalq tələbə hərəkatının mərkəzi ola bilər. Dəyərli olan, bir milləti ayaq üstə saxlayan, həqiqi dəyişiklik yaradan bunlardır. Bu qardaşımızın dediyi məsələnin, yəni islahatın dayağı ola biləcək məsələlər də bunlardır.

**İslahat**

İslahat təkcə dildə deyilə bilər. Əli (ə) buyurur ki, “haqq” dildə ən geniş yayılmış sözlərdəndir. İnsan haqqı vəsf etmək istəsə, həyatın hər bir sahəsindən ona misallar vura bilər. Lakin insaf məqamı gəldikdə, hamının hesab verməli olduğu zaman keçidlərin ən dar olanı haqq keçididir[46]. Məgər bu, zarafatdır?! İslahat da belə bir şeydir. İslahat dillə olmur. Əgər kimsə islahat istədiyini, islahatı sevdiyini, yaxud islahatın filan məsələlərdən ibarət olduğunu iddia etsə, bunlar dildir. Siz əməl məqamında görəcəksiniz ki, hər addım başında maneə və əngəl vardır.

**Xarici düşmən və daxili təhdid**

Mən dəfələrlə xarici düşmən üzərində dayanmışam. Bəziləri deyirlər ki, filankəs həmişə xarici düşməndən danışır. Xeyr, mən həmişə bunu demirəm. Mən əsas amilin öz daxilimizdə olduğunu bilirəm. Burada quruluşun yüksək rütbəli məmurlarına da dedim və Peyğəmbərin bu hədisini oxudum: "Sənin ən böyük düşmənin öz nəfsindir". Sənin ən böyük düşmənin "öz"ün və "mən"indir. Mən bu düşməndən xəbərsiz deyiləm. Lakin qorxuram ki, kimsə bu məsələyə o qədər diqqət yetirər, xarici düşməndən xəbərsiz olar. Xarici düşmən bikar deyil. Bu “mən”ləri, “öz”ləri və mənlikləri təhrik edən odur. Onun rolu böyükdür. Siz elə bilirsiniz ki, BBC-nin, Azadlıq radiosunun və ya digər informasiya vasitəsinin fəaliyyəti ucuz başa gəlir?! Onların yüz milyonlarla dollar həcmində büdcələri var. Bəs nə üçün bu qədər pullar xərcləyirlər? Bunlar bəzi məqsədlər güdürlər.

**Ən böyük təhlükə**

Mən bunu cənab prezidentə və ölkənin bəzi məmurlarına demişəm, indi də sizə deyirəm: Mənim fikrimcə, uzun müddət inqilabçı cəmyyətimiz yolunda iki ən böyük təhlükə olacaq: biri ölkənin iqtisadiyyatına, digəri isə elminə diqqətsizlik. Mən din sarıdan əsla nigaran deyiləm. Bəziləri deyirlər ki, din təhlükədədir. Xeyr, dinin kökləri çox dərindir. Bəziləri xalqın dinsiz olduğunu düşünməsinlər. Hər bir dindar insanın nə zamansa səhv və xəta etməsi mümkündür. Bu, dinsiz olmağa dəlil deyil. Bizim cəmiyyətimiz gənc cəmiyyətdir. Bu gün dinə yönəlmə və dini əməl on il bundan qabaqkından dəfələrlə artıqdır. Mən ümumiyyətlə, xalqın dinsizləşməsi

---

[46] Nəhcül-bəlağə, xütbə 207.

sarıdan nigaran deyiləm. Din köklü və dərindir. Dinin yalnız məsciddə qalıb xalqın qəlbini islah etməsi barədə deyilən sözlərin dövrü keçdi. Daha bu sözlər qəbul olunmur. Xalqın gözü açıldı və anladı ki, dinlə dünyanın və bəşərin ən mühüm məsələləri barədə də mühakimə yürütmək, dünyanın ən yeni sözlərindən sayılacaq sözlər demək mümkündür. Bu xalqı daha məscidin bir küncünə qovub demək olmaz ki, gedin kilsə kimi dininizi orada axtarın.

**Ölkə iqtisadiyyatının təməllərini möhkəmləndirmək**

Mənim nigaranlıqlarımdan biri budur ki, ölkənin böyük iqtisadi potensialı bilərəkdən diqqətdən kənarda saxlanır. Bu bizim ədalət şüarlarımızı zədələyə bilər. Mən ədaləti çox sevirəm, ona vurğunam. Əgər cəmiyyətimizdə ədalətin olmaması və istibdadın mövcudluğu fərz olunsa, ümumiyyətlə, bu yolda qoyduğum ömrün hədər getdiyini düşünərəm. Mən və mənim kimilər təxminən sizin yaşlarınızdan - 20-22 yaşımızdan ömrümüzün sonu olan indiyə qədər həyatımızı bu yolda qoymuşuq. Əgər insan cəmiyyətdə ədalətin olmayacağını, həm də insani olan ilahi və islami dəyərlərin həyata keçməyəcəyini hiss etsə, təkcə indi üçün yox, bütün keçmişi üçün heyfsilənər. Biz o dəyərləri reallaşdırmaq istəyiriksə, bunun bir yolu ölkə iqtisadıyyatının təməllərini möhkəmləndirməkdir.

Bizim bü gün yüksək iqtisadi potensialmız var. Əgər düzgün bir iqtisadi ağıl bunlarla məşğul olsa və ciddi səy göstərilsə, ölkəmizi iqtisadi rifah baxımından elə bir səviyyəyə çatdıra bilərik ki, bütün ölkələr baxıb qibtə edərlər. Hegemon rejimlərin böyük dayaqları olan bütün nəhəng transmilli şirkətlərin İslam Respublikasına təzyiqləri ondan ötrüdür ki, bu ölkəni özünə arxalanan və xalqa bağlı olan bu qrupun əlindən çıxarsınlar. Bu qədər neft, bu qədər qaz, bu qədər müxtəlif sərvətlər, bu coğrafi mövqe və İranda olan digər xüsusiyyətlər böyük imkanlardır. Bu baxımdan, biz bacarırıq.

**Elmi özünütəmin**

Mənim ikinci nigaranlığım elmə aiddir. Əgər sizin nəsil ölkəni elmi baxımdan özünütəminə çatdıra bilməsə, biz yenə də digərlərinə yalvarıb onların yenilik yaratmasını gözləsək, heç bir kəsə yol tapmasaq, heç şübhəsiz, ölkənin taleyi yaxşı olmayacaq. Mən ciddi şəkildə bu problemdən nigaranam. Deyirlər ki, elmi şəxsiyyətlər gedirlər, davamlı olaraq dəlil də göstərirlər. Mən dəfələrlə universitet müəllimləri və rektorları ilə iclaslar keçirmişəm, bir yerdə oturub söhbətləşmişik. Deyirlər,

misal üçün, təhlükəsizlik olmadığından elmi şəxsiyyətlər qaçırlar. Bu dəlillərin heç biri düzgün deyil. Əgər bizim universitetlərimizin laboratoriyaları, tədqiqat mərkəzləri, tədqiqat imkanları olsa və belə şəxsiyyətlərə iş verə bilsələr, şübhəsiz, bu məsələlər qarşıya çıxmayacaq. Mənim fikrimcə, problem bu sarıdandır.

**Elmi inkişaf və iqtisadi idarəçilik**

Mən ölkənin elmi inkişafı və iqtisadi idarəçiliyi sarıdan nigaranam. Keçmişdə bu məsələlər barədə çox da nigaranlıq hissi keçirmirdim, lakin indi keçirirəm. Əlbəttə, nigaranlığın mənası bu deyil ki, kiminsə işləyə bilmədiyini hiss edim. Əsla belə deyil. Məmurlar yaxşı və qayğıkeşdirlər, xidmət etmək istəyirlər. Lakin diqqətlərini toplamalı və kəmərlərini möhkəm bağlamalıdırlar. Siz də kömək etməlisiniz. Ölkədə də sabitlik olmalıdır.

**Bəşər dərdlərinin dərmanı**

Bunu bilin, əgər bugünkü tələbə nəsil, xüsusən fəal tələbələr, İslam birlikləri və digər tələbə təşkilatları ölkənin gələcəyinə sahib olacaqlarını ciddi saysalar, bu ölkənin problemlərinin həllinin xalqın özünə inamsızlıqdan qurtulmasında olduğunu qəbul etsələr, bütün işlərini doğrudan da ciddi saysalar, bəşər dərdlərinin əlacının düzgün dinə yönəlməkdən və əməl etməkdən ibarət olduğunu bilsələr, fikrimcə, bu nigaranlıqların heç birinə yer qalmayacaq.

**Universitetdə dözümlülük**

Universitetdə tələbələr bir-birinə qarşı dözümlü olmalıdırlar. İndi tələbələrin öz aralarında çoxlu çəkişmələr var. Bunun heç bir səbəbi yoxdur. Siz dediyiniz bu prinsiplərin çoxunda ortaqsınız. Mən elə bilirəm ki, sizin hamınızın olmasa da, çoxlarınızın fikri budur. Düzdür, bəziləri hər şeyə qarşı laqeyddirlər. İstəyirlər üç-dörd kəlmə oxusunlar, sonra diplom alıb iş dalınca getsinlər. Mən onları nəzərə almıram. Universitetlərin fəalları, ayıq və aktiv tələbələr müxtəlif məsələlərdə bir-birləri ilə ortaq xətlər cıza bilərlər. Düzdür, yenə də üsullar müxtəlif qalacaq, qalsın, onlar fərqlidir. Hansısa şəxsə, cəmiyyətə, hökumətə və ya qrupa qarşı birinin nəzəri müsbətdir, birininki mənfi. Bu, küfr deyil ki. Ölkənin reallıqlarını dərk etmək lazımdır.

**Tələbələrin şübhələri**

Dedilər ki, gənclərin beynində bu şübhələr var. Doğrudur, mən də qəbul edirəm. Gərək aidiyyətli orqanlar - Ali Məhkəmə və digər qurumlar gəlib beyinlərə müraciətlə danışsınlar, boşluqda danışmasınlar. Sualı öyrənib cavab versinlər və bu şübhələri aradan qaldırsınlar. Əgər bacarırlarsa, cavab verib qarşı tərəfi qane etsinlər. Əgər qane edə bilmədiklərini görsələr, məcbur olub islahat aparsınlar. Allaha şükür olsun ki, mənim məmurlara xəbərdarlıq etmədiyim dövr olmayıb. Sizin qeyd etdiyiniz bu nöqsanların bəzisi doğrudan da nöqsandır, bəzisi isə nöqsan deyil. Hər halda, sizin fikriniz budur. Aidiyyətli şəxslər gəlib cavab verməli, məlumatlandırmalıdırlar. Mənim həmişəki tövsiyəm budur. Mən keçmiş iqtidar dövründə də məmurlara deyirdim, indiki hökumətə də demişəm ki, universitetlərə gedin, tələbələrlə söhbət edin, suallarını, sözlərini dinləyib cavab verin. Mən bunu tövsiyə etmişəm və lazım bilirəm.

**Tələbə vəzifəsində ciddilik**

Mən düşünürəm ki, sizin üzərinizə düşən iş başqadır. Siz öz vəzifənizi də ciddi sayın. Elə bilməyin ki, tələbənin vəzifəsi yoxdur. Xeyr, tələbənin də, sizin yaşda olan bir gəncin də vəzifəsi var. Çoxları sizin yaşınızda olanda döyüldülər, həbsxanalara düşdülər, inqilabdan qabaq, inqilabın əvvəllərində və müharibə zamanı öldürüldülər. Əgər bunlar baş tutmasaydı, bu məsuliyyətlər qəbul edilməsəydi, bu gün bizim ölkəmiz və xalqımız belə olmazdı. Bu bizim gənclərimizin tarixi vəzifəsidir. Mən təkcə tələbələri demirəm; tələbə də elədir, məzunlar da, müxtəlif gənclər də. Allaha şükür olsun ki, bizim gənc nəslimiz kəmiyyət baxımından çox böyükdür. Düzdür, tələbələr mövqelərinə görə bəlkə də daha artıq məsuliyyət daşıyırlar. Çünki tələbələr ölkənin alim, ayıq və seçilmiş gəncləridir. Onlar digərlərindən daha artıq məsuliyyət hiss etməlidirlər.

**İslam birlikləri və kimliyin dərki**

Hər halda, mənim əzizlərim! İslam birliklərinin üzərinə düşən budur ki, həqiqətən, öz şəxsiyyət və kimliklərini tapsınlar. Təxminən beş il öncə İslam birliklərindən olan bu qardaş və bacılar məndən bir müraciət istədilər. Fikirləşdim ki, tələbə təbəqəsi dünya gözəlliyinin əsiri olmamalıdır. Gəncliyin xüsusiyyətlərindən biri paklıq və gözütoxluqdur. Əsir olmaq, bataqlığa batmaq, yaxud müraciətdə işlətdiyim ifadə ilə desəm, həyatın yağlı və şirininin əsiri olmaq qocalara və yaşı bir qədər ötmüşlərə məxsusdur. Gənclik azadlıq, qurtuluş və bu məsələlərə əsir olmamaq dövrüdür. Gənc paklığın tərənnümüdür. Özünüzdə bu paklığı

qorumalısınız. Siz həm özünüzü, sonra da digərlərini mümkün olan və bizim kimi adi bir insandan gözlənilən həddə dünya ləzzətlərinin həvəsində qərq olmaqdan xilas etməlisiniz.

**Siyasətdən küsmək**

Mən bir neçə il bundan qabaq dedim ki, universitetlər siyasi olmalıdırlar. Bir qədər də əsəbiləşib dedim ki, Allah universitetləri siyasətdən uzaqlaşdırmaq istəyənlərə lənət eləsin. O zaman bir qrupun bu sözdən xoşu gəlmədi. İndi də fikrim budur və inanıram ki, tələbə mühitinin təhdidlərindən biri onların siyasi məsələlərdən və siyasətdən küsmələri, kənara çəkilmələridir. Tələbələr və qeyri-tələbələr arasında olan bu siyasi çəkişmə və problemlərə görə bəzilərinin doğrudan da siyasi işlərdən küsməsi təhlükəsi mövcuddur.

**Tələbənin siyasi olması**

Bəs tələbə gəncin siyasi olmasında məqsəd nədir? Məqsəd budur ki, onlar siyasi qrupların, partiyaların və qoca qurdların tələsinə düşsünlər, bunlar da gəlib universiteti poliqona çevirsinlər? Xeyr, bu, istənilənin tam əksinədir. Məqsəd budur ki, tələbədə siyasi dərk, baxış və təhlil qabiliyyəti olsun, qarşısına çıxan insanın kim olduğunu və nə məqsədlə danışdığını təyin edə bilsin. Bunları siyasi məlumatlarla əldə etmək olar. Mənim fikrimcə, bu iş baş tutmalıdır. Sizin ən mühüm vəzifələrinizdən biri də budur. Hər halda, siz bu məsuliyyəti qəbul edib İslam birliklərinə gəlmisiniz və birliklərin yüksək işlərində çalışırsınız. Buna əsasən, gəncləri aydın və ayıq etməlisiniz. Onlara siyasi təhlil gücü verməlisiniz ki, siyasi məsələləri təhlil edə bilsinlər. Fərz edin, uzun illərdir siyasi sahələrdə ixlas və fədakarlıqla yox, hakimiyyət məqsədilə işləyən, yıxılıb-qalxan, məğlub olan və indi qəfildən gəlib bir tələbəyə, tələbə təşkilatına qarmaq atan bir şəxs var. Siz və digər tələbə qurumları onun qarşısını almalısınız.

**İslam birliklərinin vəzifəsi**

Siz tələbə toplumunu yaxşı və ağıllı şəkildə qorumalısınız ki, öz daxilində çətin problemlərlə üz-üzə qalmasın. Düzdür, üsul fərqləri var. Sin indi bir təşkilatdansınız, lakin heç şübhəsiz, sizin aranızda da üsul fərqləri var. Bu, təbiidir, amma əsaslı baxışlarda və ümumi məqsədlərdə yekdil olmalısınız. Mən də sizə söz verirəm ki, Allahın lütfü ilə bu qardaşımızın toxunduğu təzyiq və sair məsələlər olmayacaq. Heç kəsin bundan xoşu gəlmir.

**Dini demokratiya**

Mənim dediyim dini demokratiya mövzusu İslam inqilabının və İslam Respublikası quruluşunun mahiyyətində mövcuddur. Dini demokratiya bizim konstitusiyada nəzərdə tutulub. Lakin dini demokratiya Qərb demokratiyası deyil, həqiqi demokratiyadır. Dini demokratiyada xalq təkcə səs vermək üçün deyil. Bəli, bu var, lakin bunun qarşısında yaranan məsuliyyət həqiqi məsuliyyətdir və cavabdehliyi var. Mən quruluşun yüksək rütbəli məmurlarına da dəfələrlə demişəm və bu yaxınlarda ramazan ayında yenidən təkrarladım. Qərb demokratiyası məğlub olub köhnəlmiş, nöqsanları üzə çıxmışdır. Bu demokratiya gücə əsaslanır. İki qrup, yaxud iki partiya qarşı-qarşıya dayanır. Əgər onlardan soruşsanız ki, siz nə istəyirsiniz, deyəcəklər ki, biz hakimiyyətə gəlmək istəyirik. Hakimiyyətə gəlib neyləmək istəyirsiniz? Xalqın əxlaqını yüksəltmək istəyirsiniz? Xalqa mənəvi və ruhi yüksəliş verəcəksiniz? Xalqın məişətini doğrudan da düzəldəcəksiniz? Xeyr, bunlar deyil. Bu partiya bir neçə il hakimiyyətdə olmaq istəyir. Bu, dəyərli bir şey deyil. Bu, insanlara hörmət deyil. Bu gün dünyada, hətta ABŞ kimi səsi hamıdan yüksək çıxan bir ölkədə əsl demokratiya yoxdur.

Dini demokratiyada xalqın bütün sahələrdə iştirakı hiss olunur. Yəni xalqın məqsədi var, səs verir, seçir, soruşur. Qarşı tərəfin özü xalqdan biri olduğundan, bütün bu məsələlərdə xalqa şərikdir. Əgər şərtlər sıradan çıxsa, özü vəzifəsindən kənarlaşır. İndi bizim konstitusiyamıza uyğun olaraq, rəhbər, prezident, Ali Məhkəmənin sədri və ölkənin digər mühüm postları üçün müəyyən şərtlər var. Əgər bu şərtlər lazımi həddən aşağıya ensə, kimsə onları işdən çıxarmasa belə, öz-özünə vəzifədən kənarlaşırlar. Bu, əhəmiyyətli məsələdir. Bəziləri elə bilirlər ki, biz dini Qərb demokratiyası ilə qarışdırmışıq və olub “dini demokratiya”. Xeyr, belə deyil. Mən quruluşun yüksək məmurlarına da dedim ki, dini demokratiya bəsit bir şeydir, demokratiya ilə dinin birləşməsindən əmələ gəlməyib. Belə deyil ki, demokratiyadan başqa bir şeydir və biz bunları bir-birinə birləşdirmişik. Bu, bir həqiqətdir. Kimsə dini rəftar etmək istəsə, demokratiyasız mümkün deyil və əgər həqiqi demokratiyanı istəsə, dinsiz mümkün deyil. Düzdür, bəzilərinin işlətdiyi ifadələr bu mənanı düzgün çatdırmaya bilər. Amma inqilabın mahiyyəti, əsası və həqiqəti budur.

Mən bu görüşə çox sevindim. Bu görüş əslində, birtərəfli görüş oldu. Baxmayaraq ki, siz də çıxış etdiniz, lakin mənim gənclərlə keçirmək istədiyim görüşdən olmadı. İnşallah, universitetə gələndə daha artıq sual-

cavaba və söhbətə şərait olar. Lakin eyni zamanda yaxşı bir görüş idi. Ümidvaram müvəffəq olasınız.

**Allahın razılığı**

Mənim əzizlərim! Mən sizə Allahın razılığını nəzərə almağı tövsiyə edirəm. Bunu yaddan çıxarmayın. Ömür keçir. Mən arxaya baxdıqda sizin yaşda olan dövrdən indiyə qədər ötən müddət bir həftə kimi görünür. İnsan uzun bir yol gedir, sonra dönüb arxasına baxanda başlanğıcın yaxında olduğunu görür. Doğrudan da ömür bir göz qırpımında ötür və insan bizim indiki yaşımıza çatır. Onda isə daha bu dünyadan köçməyə hazır olmalıdır. İlahi vəzifəyə və Allahın razılığına diqqətsizliklə öz gələcəyinizi hədər verməyin. İnsanın gələcəyi də ölümlə bitmir, əslində, ölümlə başlayır. Bu gün sizlər gəncsiniz, ürəkləriniz pak və nurani, haqqı qəbul edəndir. Bu, çox böyük keyfiyyətdir. Bunu dəyərləndirin. İnsan elə yaşlara çatır ki, bu gün sizdə olan bu paklıq, təmizlik və mənəvi nuranilik olmur, həqiqəti rahatlıqla anlaya bilmir. Siz bu gün özünüzü islah edə, hazırlaya bilsəniz, o yaşlarda da arxayın və rahat olacaqsınız.

Ümidvaram Allah-Taala sizin hamınızı müvəffəq etsin. Mən sizləri dua edirəm. Allah-Taala bizim sizin üçün etdiyimiz dualarımızı qəbul etsin! Siz də bizim üçün dua edin. Əgər bəzi sahələrdə konkret olaraq zehninizə nəsə gəlsə, bizə yazın. Mən mütləq oxuyacağam. Təksə siz yox, bütün qrup və təşkilatlar sözlərini mənə yazırlar. Mən onlara baxıram və onların içindən özümə aid olanlardan bəhrələnirəm. Allah sizə həm zehində, həm də əməldə kömək etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Bəsic üzvü olan tələbələrin üstünlükləri[47]

Bismillahir-Rəhmanir-Rəhim.

**Bəsic üzvü olan tələbənin iki üstünlüyü**

Bəsic üzvü olan tələbədə iki üstün cəhət var: tələbəlik və Bəsic üzvlüyü. Bu iki anlayışın hər biri öz daxilində çoxlu dəyərlərə malikdir. Həm tələbəlik, həm də Bəsic üzvlüyü müsbət cəhətdir. Lakin bunların bir yerdə cəm olması yalnız iki ədədin cəmi deyil, daha böyükdür. Bəzən yüz insan elə bir iş görə bilər ki, onun yüzdə birini bir nəfər görə bilməz. Toplaşmanın, birləşmənin xarakteri belədir. Bəzən bir şəxsdə iki xüsusiyyət cəm olub elə təsirlər buraxır ki, onların biri təklikdə həmin təsirlərin yarısını təmin edə bilmir.

**Tələbəlik dəyəri**

Tələbə olmaq qeyd etdiyim kimi, çoxlu dəyərlərə malikdir. Tələbədə gənclik, təhsil, azadfikirlilik, gələcəkdə ölkənin idarəçiliyi, uca məqsəd və amalçılıq var. Demirəm ki, bütün tələbələr belədirlər, əslində, tələbəliyin xarakteri belədir. Misal üçün, biz deyirik ki, ruhani hansısa xüsusiyyətlərə - elmə, dinə, təqvaya malik olan və İslam təbliğatı aparandır. Bu o demək deyil ki, kim ruhanidirsə, zəruri olaraq bu xüsusiyyətlərə də malikdir. Ola bilsin, kimdəsə bu xüsusiyyətlər olmasın, lakin sözün mənası budur. Tələbəliyin xüsusiyyətləri çox dəyərlidir: gənc, elm adamı, azad düşüncəli, amalçı, həvəskar, səhnədə... Bütün bunlar tələbə adı altında yatan xüsusiyyətlərdir.

**Bəsic üzvü olmağın dəyəri**

Bəsic üzvü də başqa bir anlayışdır. Onun da içində çoxlu dəyərlər mövcuddur. Bəsic üzvü olmaq - aktivlik, səhnədə olmaq, hadisələrdə iştirak etmək, ixlaslılıq, uca məqsədləri təkcə tərifləmək yox, onlar üçün çalışmaqdır və s. Bəziləri oturub bir çempiona əl çalırlar, bəziləri isə özləri çempion olurlar. Bunların fərqi vardır. Müharibə zamanı bir qrup gəncin düşmənin gözü qarşısında Ərvənd çayını keçib o tərəfdəki torpaqları tutduğunu eşidəndə çoxları sevindilər, həyəcandan gözləri yaşardı. Amma özləri sübh namazı üçün olsa belə, gedib soyuq su ilə dəstəmaz almağa hazır deyildilər. Bunlar fərqli şeylərdir. Bəsic üzvü əməl meydanına, hadisə

---

[47] Bəsic üzvü olan tələbələrlə görüşdə çıxışı: 13 fevral 2001.

və təhlükələrə atılan, isti-soyuğa dözən, təkcə gəncin yox, hər bir insanın xoşladığı şirin ləzzətlərə asanlıqla göz yuman şəxsdir. Uca və gözəl Bəsic adını bizim cəmiyyətimizin beynindən çıxarmağa çalışanlara lənət olsun! Hərçənd, bacarmadılar və bacarmayacaqlar da. İyirmi beş dərəcə şaxtada adi bir insana "dağın başında xəzinə var, get onu götür" - desəydilər, getməzdi. Bəsic üzvü isə işğalçı düşmənlə müharibənin ön xəttinə çatmaq üçün canını təhlükəyə atıb gedirdi. Müharibəni görməyən gənclər gəzmək üçün olsa da, bir dəfə xüsusən qış fəslində gedib ölkənin qərbindəki yüksəklikləri yaxından görsünlər. Sizin Bəsicinizin üzvləri bu yolları getdilər, canlarını təhlükəyə atdılar. Yayda da belə çalışırdılar. Düşmən təcavüzünün qarşısını almaq üçün ramazan əməliyyatlarında susuz dodaqlarla, yanan ciyərlərlə çətin sahələrdə, alov altında və düşmənin minası üzərində hərəkət etdilər.

**Amalçı və ixlaslı Bəsic**

Bəsic üzvü amalçı, ixlaslı, fədakar və hər bir yerdə işə atılandır. Bir gün müharibədir, bir gün siyasət, elm, tədqiqat və yenilik zamanı. Bəsic üzvü harada olsa, ağır işlərə qoşulur. Bu gün amerikalılara bağlı hansısa beynəlxalq hərbi jurnal nigaran halda "İran filan silahı əldə edib" - deyirsə, bu inkişafların çoxu həmin Bəsic üzvləri vasitəsilə əldə edilmişdir. Onlar təsəvvür etməzdilər ki, İran bu alətlərin adından uzağa gedə bilsin. Əgər nə vaxtsa hazır bir silahı baha qiymətə İrana satsaydılar, onları qoşmağın, yaxud hissələrini dəyişməyin yolunu öyrətmirdilər. Hal-hazırda həmin şəxslər görürlər ki, İran xarici kömək olmadan belə mütərəqqi silahlar əldə edir. Bunların çoxunu Bəsic üzvləri düzəltmişlər.

**İnqilab düşmənləri**

Ola bilsin, siz bu gün üç-dörd tələbənin universitetdə, yaxud ekskursiyada xalqın istəklərinə və inqilabın məqsədlərinə qarşı bir söz danışdığını görəsiniz. O zaman da belə hallar mövcud idi. Mən illər öncədən həmişə dostlara deyirdim ki, bir qrup inqilab düşməni, bir qrup kinli insan, bir qrup imamın şəxsi düşməni, bir qrup ümumiyyətlə, İslam düşməni, bir qrup ABŞ-la əlaqəni kəsməyin düşmənidir. Xalqın böyük coşqusu və bu təlatümlü dəryanın güclü dalğaları nəticəsində onlar daim küncə sıxışdılar. Bəs onların uşaqları haradadırlar? Uşaqları tüstü olub havaya uçdular?! Yoxsa dərs oxuyub tələbə oldular? Əgər tələbə olmuşlarsa, harada dərs oxuyurlar? Onlar bəzən haradasa peyda olurlar. Buna görə, siz nə gözləyirsiniz? Əlbəttə, onların uşaqlarının bir çoxu

inqilabın əzəməti qarşısında diz çökdülər, ata-analarının natəmiz ürəklərinin bəlasına çevrildilər. Mən elə təmiz tələbələr tanıyıram ki, ataları onlar kimi təmiz deyildilər. Lakin müxtəlif niyyətli bəzi şəxslər də var, onların uşaqları müxtəlif universitetlərdə üç-dörd nəfəri təsir altına sala bilərlər. Bunu iranlı tələbənin movqeyi kimi başa düşməyin.

**İnqilabın bəxti**

İnqilab tələbələrdən həmişə dəstək görmüşdür. Müharibədə, casus yuvası hadisəsində, imam hər dəfə dərdli bir ah çəkəndə və xalqın ürəyi təlatümə gələndə reaksia verib küçələrə axışan, yaxud universitetlərə toplaşan birinci şəxslər tələbələr idilər. Bu, böyük məsələdir. Siz baxın, asılı, mənfur və insani dəyərlərdən uzaq rejimlərin ən ciddi, ən sərt, ən səs-küylü müxalifləri tələbələrdir. O ölkələrdə tələbələr əcnəbi hegemon güclərin yerli hakimiyyətə nəzarət etmək üçün istifadə etdikləri vasitələrdir. Rejim başçılarının bir qədər əmrdən imtina etdiklərini gördükdə bir qrup tələbəni onların canlarına salırlar. Şərait də hazırdır. Lakin inqilabdan sonrakı bu şərait heç zaman olmamışdır. Nə üçün? Çünki tələbə həmişə onu həyəcana gətirən məsələlərlə - həmin amallarla, ictiami ədalətlə, ayrıseçkilikləri aradan qaldırmaqla, elmi yüksəlişlə, düşmənlər və dünyanı yeyən fironlar qarşısında dirənişlə yaşamışdır. Bunların hamısı İslam Respiblikası quruluşunun əməldə və dildə səsləndirdiyi şüarlardır. Düşmənlər bunu hədəf seçmişlər və bunun üzərində işləməkdədirlər.

**Asılı mətbuat**

Asılı mətbu orqanlarının çoxunun məqsədlərindən biri tələbə və universitetləri müqəddəs İslam quruluşu və onun amalları ilə birlikdən ayırmaq olmuşdur. Siz qəzetlərə baxsanız, görərsiniz ki, onların çoxunun müraciəti tələbələrədir. Onlar İslam quruluşu əleyhinə etiraz dalğası yaratmaq istəyirlər. Belə bir şəraitdə, düşmənin universitetlərə diqqət yetirdiyi və müxtəlif yollarla daxil olmaq istədiyi, müxtəlif yollarla buna çalışdığı bir şəraitdə Bəsic üzvü olan tələbə bəzi vəzifələr hiss eidr. Bizim qardaşımız burada universitet məsələləri, tələbələr və tələbə təşkilatları barədə düzgün fikirlər bəyan etdi. Mən də onları təsdiqləyirəm. Mühüm budur ki, Bəsic üzvü olan tələbə gənclər – qız və oğlanlar üzərlərinə böyük və tarixi bir məsuliyyətin düşdüyünü hiss etsinlər.

**Düşmənin əngəl törətməsi**

Bu gün inqilabın, İslamın və xalqımızın düşmənləri - düşməndən danışanda, onu yada salanda bəziləri çox həssaslıq göstərir və narahat olurlar - elə bilirlər ki, İslam inqilabının mühərrikinin gücünü zəiflədə, onu söndürə və ya işində qüsur yarada bilərlər. Çox pul xərcləyir, iş görürlər, texnoloqları daim proqram hazırlamaqla məşğuldurlar. Dediyim bu məsələlərin hamısı sübut olunmuşdur, güman deyil. Əlbəttə, insan güman da edir. Mən dəfələrlə güman etmiş və dilimə də gətirmişəm, lakin sonra bəzi ABŞ, Avropa və sionist rəsmilərin sözlərində doğruluğuna aid sənəd və dəlillər əks olunub. Onlar iqtisadi əngəllər, xaos yaratmağa, məmurların əzimini qırmağa çalışırlar. Onlar üçün ən mühüm işlərdən biri də tələbə təbəqəsinə təsir göstərməkdir. Bu işləri görürlər.

**Siyasi və mədəni sahədə həqiqi müharibə**

Bu gün hərbi sahədə müharibə yoxdur, mənim əzizlərim, lakin siyasi və mədəni sahədə əsl müharibə mövcuddur. Ağıllı və ayıq şəkildə işləmək lazımdır. Hərbi müharibədə olanlar bilirlər. Orada heç bir qoşun başını aşağı salıb tüfəngləri qaldırmaqla və dayanmadan atəş açıb irəliləməklə bir yerə çatmır. Hamısını qırarlar. Plan qurmaq, düşməni mühasirəyə almaq, onun çaşqınlığından istifadə etmək lazımdır. Uğur qazanmaq üçün uğurlu taktika vacib amildir. Siyasi və mədəni müharibədə də eynilə belədir. Əgər başımızı aşağı salıb eləcə irəliləsək, bir şey alınmayacaq. Ağıl, məlumat, sayıqlıq, peşəkarlıq və dəqiq plan lazımdır. Və bu işləri siz görməlisiniz.

**Bacarmaq və malik olmaq**

Qardaşımızın haqlı olaraq dediyi kimi, bu gün sizin sayınız çoxdur. Əmirəlmöminin xilafəti qəbul edəndə belə bir dəlil göstərdi. Dedi ki, gördüm sayımız çoxdur, biz bacararıq və xilafəti qəbul etdim.[48] Bu bacarmaq və malik olmaq çox böyük səbəbdir.

**İşə başlamaq**

Mən burada bir qədər haşiyəyə çıxıb bir məsələni deyim. Çünki əziz qızlarımdan biri bir cümlə dedi və müqayisə etdi. Mən xahiş edirəm ki, təkcə mənim kimi kiçik bir insanı yox, heç bir Əlini o Əli (ə) ilə müqayisə etməyin. O Əli (ə) başqa bir şeydir. Əsla müqayisə etməyin. Hər halda, o Böyük Əli (ə) deyir ki, mən gördüm yalqız deyiləm, buna görə işə başladım. Siz özünüzü bu məntiqlə qane edin. Siz yalqız deyilsiniz, buna

---

[48] Nəhcül-bəlağə, xütbə 3.

görə işə başlamalısınız. İşə başlamaq da dediyim kimi, ağılla, mədəni və düşüncə vasitələri ilə və planlı olmalıdır.

**İctimai ədalət**

İctimai ədalət kiçik məsələ deyil. Siz görün Allahdan İmam Mehdinin (ə) zühurunu diləyərkən nə istənilir? Biz istəyirik ki, o, ədalət gətirsin: "Allah onun vasitəsilə yer üzünü ədalətlə doldursun"[49]. Ədalət bu qədər əhəmiyyətlidir. Məgər ədalət kiçik bir şeydir?! Ümumiyyətlə, bizim varlığımızın fəlsəfəsi budur. Bəziləri nə deyirlər-desinlər. Mənim kimilərin cəmiyyətdə düzgün ədalətin - bunu Allahın dinindən başqa heç kəs xalqa bəxş edə bilməyib - yaranmasından başqa nə istəyi var?! Yoxsulluğu aradan qaldıran, fəsadın kökünü kəsən ədalətdir. Fəsadlar çox zaman ədalətsizlikdən qaynaqlanır. Ayrıseçkiliyin ziddi ədalətdir. Hər bir cəmiyyətdə əsas islahatlar yoxsulluğun, fəsadın və ayrıseçkiliyin aradan qaldırılmasına aiddir. Bəli, bəziləri mövzunu qarışdırırlar. Lakin belələrinin özləri çox zaman səhv etdiklərini, yaxud yanlış dediklərini bilmirlər. Bunun yanında bəzi dinləyicilər də sadəlövhlük edirlər. Amma əsas bunlardır. Cəmiyyətdə yoxsulluğun kökü kəsilməlidir. Bu isə birgecəlik iş deyil. Bunun üçün işlər görülməli, yaxşı iqtisadi proqramlar, planlar hazırlanmalı, iradə göstərilməlidir. Bu sahədə söz çoxdur.

**Ən böyük fəsad**

Fəsadla mübarizə nə deməkdir? Fəsad odur ki, bir gənc saçına jele vurub küçəyə çıxsın?! Ən böyük fəsad öz vəzifəsinə əməl etməyən, yerlibazlıqla, qohumbazlıqla, qrupbazlıqla, partiyabazlıqla, yersiz imtiyaz verməklə və digər bu kimi məsələlərlə məşğul olan bir məmurun fəsadıdır. Bunun nəticəsi nədir? Nəticəsi yoxsulluq dərələri yanında zəhmətsiz sərvət dağlarının əmələ gəlməsidir. Fəsad odur ki, bir nəfər xidmət adı ilə xəyanət etsin, müsbət əməl şüarı ilə gürz götürüb xalqın həyatının və asayişinin kökünə vursun. Bunlar araşdırılmalı və təhlil edilməlidir.

**Mətbuat məsələsi**

Mətbuat geniş söhbətin mövzusudur. Düzdür, indi bir qədər yatıb, lakin bir neçə ay öncə ölkənin birinci probleminə çevirmişdilər. Sanki xalqın gənclərinin çörəyi, həyatı, iş yeri, xarici problemlər, ölkələrinin şərq və qərbinin təhlükəsizliyi həll olunmuşdu, yeganə problem bağlanmış bir

---

[49] Tusi, əl-Qeybə, səh. 50.

neçə qəzetin problemi idi. Bu məsələnin özü əsaslı bir mövzudur. Doğrudan da mətbuatın məsuliyyəti nədir? Bəzi mətbu orqanlarının qaydasız, yanlış və xərçəngcəsinə inkişafı, xalqın istəklərinin tam əks istiqamətində olması haradan qaynaqlanır? Bunu araşdırmağa dəyər. Keçirdiyiniz toplantı, dəyirmi masa və seminarlar bu mövzu barədə olsun. Uşaqlar oturub fikirləşsinlər, məlumatlı insanlar sənəd və əsaslarla çıxış etsinlər. Bunları universitetdə yayın. Bunlar çox əsaslı məsələlərdir.

**Livan və Fələstin məsələsi**

İslam dünyasının bugünkü problemi, yəni Fələstin və Livan məsələsi əsaslı məsələlərdən biridir. İndi qondarma və işğalçı sionizm rejiminin başında fələstinlilərin cəlladı olan 70 yaşlı bir qoca oturmuşdur. O, 1982-ci ildə Livana hücümu hazırlamışdı. Onun qüvvələri Beyrutun darvazalarına qədər gəldilər. Fələstin düşərgələri olan Səbra və Şətila düşərgələrinə hücum etdilər, əhalini kəsib-doğradılar. Bu şəxsin adı dünya, hətta Avropa mətbuatında fələstinlilərin qəssabı kimi məşhurdur. O, hal-hazırda sionist hökumətin başçısıdır. Bu, kiçik məsələ deyil. İslam Respublikasında olan müsəlman gənc buna laqeyd qala bilməz. Araşdırın, görün bu işin mənası və gələcəyi nədir. Bunun qarşısında bizim mövqeyimiz nədir. Əlbəttə, mənası bu deyil ki, sabah döyüş paltarı geyinib Fələstinə gedək. Bütün fəaliyyətlər döyüşdən ibarət deyil. Çox mühüm olan ayrı işlər də görmək olar.

**Bizim mövqeyimiz**

Mənim dediyim bu məsələlər düşmənlərin gözünün tikanıdır. Onlar bir zaman bu torpaqlarda yerlərini rahatlamışdılar. Hər şey onlara məxsus idi. Ən yaxşı mənbələr, ən yaxşı yeraltı sərvətlər, hətta qədim yeraltı sərvətlər onların ixtiyarında idi. Onlar bundan istifadə etmək üçün hər şeylərini işə salır, onlara bu icazəni vermiş Pəhləvi rejimini saxlamağa çalışırdılar. Pəhləvi rejimi təkcə zalım bir diktatura deyildi. Düzdür, bu dövrlərin bizim tanıdığımız ən pis, ən diktator və zalım şahları bu ata-oğul idi. Lakin problemləri təkcə bu deyildi. Nadir şah da diktator idi, amma o, İranı başqalarına satmadı. Ağa Məhəmməd xan Qacar da kəllələrdən minarə düzəltdi, çox diktator, zalım və qaniçən idi, amma əcnəbiləri bütün İrana hakim etmədi. Mənfur və çirkin Pəhləvi rejimi isə ölkənin hər bir şeyini əcnəbilərə verdi, hərraca qoydu. Amerikalılar belə hökuməti saxlayırdılar. Amerikalılardan əlavə, birinci növbədə sionist kompaniyaları İrandan faydalanırdılar. Buna görə də, Pəhləvi rejimini saxlayırdılar.

İslam inqilabı inanılmaz şəkildə bütün bunlara son qoydu. Bu, kiçik bir işdir?! Bilirlər ki, bu əzəmətin və qətiyyətli hərəkətin dayağı İslamdan, inqilabın İslam prinsipləri təfəkküründən, imamın şəxsiyyətindən və bu böyük cəbhəni təmin edən ruhanilikdən ibarətdir.

**Fələstin İntifazə Hərəkatı**

Əvvəldən bu hərəkatın başqa yerlərə keçməsindən nigaran idilər. Buna görə onu məhv etməyə çalışırdılar. Onlar güman edirdilər ki, həmin hadisə başqa ölkələrdə təkrarlana bilər. Onun qarşısını aldılar, lakin İslam dünyasının düşüncəsi üzərinə dolayı təsirlərinin qarşısını ala bilmədilər. Onların biri bu intifazə məsələsi, ondan qabaq Livan məsələsi və İslam dünyasının digər məsələləridir. Təəssüf ki, siz gənclərin bunları mütaliə etməyə vaxtınız yoxdur. Mən də təkid edirəm ki, dərsinizi yaxşı oxuyun.

**İslam inqilabı ətrinin təsiri**

Sizin Şimali Afrika ölkələrində, Misirdə və digər müsəlman ölkələrində baş verən hadisələrin çoxu haqda məlumatınız yoxdur. İslam inqilabının ətrinin təsiri bahar yeli kimi hər yerə yayıldı və hər kəs ondan müəyyən qədər bəhrələndi. Hegemon güclər bunları görür, müxtəlif formalarda dayanmadan mübarizə aparır və bu əsas mərkəzi sıradan çıxarmağa yol axtarırlar. Həmişə bu fikirdədirlər. Elə bilirlər ki, buranı sıradan çıxarsalar, dünyanın başqa yerlərində problemləri olmayacaq. Onların qorxduğu qısamüddətli bir iş uzunmüddətli, mülayim və davamlı amilə çevrilmişdir. İndi də davam edir. Buna görə ölkə daxilində inqilabın, imamın və son 20 ilin əleyhinə danışan hər kəsi böyüdürlər. Məqsədləri də İslam ölkələrində inqilabdan təsirlənənlərin qulağına çatdırmaqdır ki, siz İslam inqilabına ürək bağlamısınız, amma filan tələbənin filan konfransda dediyi sözə əsasən, o, iflasa uğramışdır. Kiçik sözləri və kiçik adamları böyüdürlər. Bu sözü onların qulağına çatdırmaq və İslam inqilabının öz vətənində problemə düçar olduğunu bildirmək istəyirlər. Halbuki 22 Bəhmən (11 fevral) günündə, Qüds Günündə və digər böyük toplantılarda xalqın inqilaba, onun təməl və şəxsiyyətlərinə sevgilərini bildirən böyük izdihamını heç zaman işıqlandırmırlar və işıqlanmasına qoymurlar.

**Mövqeyi tanımaq**

Mənim əzizlərim! Bir döyüş yeri var, lakin oraya atılacaq ən yaxşı qüvvə tələbədir. Çünki tələbə ağıllı, sayıq, savadlı, həvəsli, gənc, yorulmaz, amalçı və qəlbitəmizdir. Döyüş zonasını və mövqeyi tanıyın. Bəziləri

mövqeyi tanımadıqlarına görə özlərinə çox zərbə vururlar. Belə şəxslər var, mən tanıyıram; yaxşı, mömin və məqsədli insanlardır, amma bir zaman bir mövqedə tamamilə düşmənin xeyrinə olan bir jest tutur və münasibət bildirirlər. Anlamırlar ki, bura düşmənin cəbhəsidir. Səhv edirlər, bəzən öz cəbhələrini düşməninki ilə, bəzən də düşmən cəbhəsini özlərinki ilə səhv salırlar. Siz diqqətli, ayıq, fəal və həvəsli olun. Bilin ki, Allahın lütfü ilə bu məmləkətin gələcəyi sizə aiddir. Siz uzun illər bu ölkəni, bu xalqı bu aydın xətt üzrə irəliyə aparmalısınız. Ümidvaram dövrün imamının nəzəri sizlərə yönəlsin və Allah-Taala Öz lütfünü sizə şamil etsin!

Allahın salamı və rəhməti olsun sizə!

## Elmi yaradıcılıq və ehkamçılıq[50]

Bismillahir-Rəhmanir-Rəhim.

Sizin kimi əziz gənclərin, mübaliğəsiz deyirəm ki, ölkənin gələcək səmasını işıqlandıran parlaq ulduzların toplantısında iştirak etmək çox şirin və gözəldir. Ümidvaram ki, sizin hər biriniz uğurla yaşayacağınız onillər boyunca bu yaxşı xalqa daha böyük kömək göstərəsiniz. İnsan gənc təbəqəsinə elm, bilgi, tədqiqat, aydınlıq, din, mənəvi duyğu, dini və inqilabi çoşqudan daha gözəl xüsusiyyət fərz edə bilmir.

**Sənaye universitetlərinin anası**

Mənim bu universitetə çox hörmətim var. Əvvəllər də buraya çox get-gəl edirdim. Bura əslində, ölkənin sənaye universitetlərinin anasıdır, ən qədim və müxtəlif dövrlərdə ən fəal sənaye universiteti olmuşdur. Bir qədər əvvəl əziz müəllimlərin iclasında möhtərəm rektor bu universitetin inqilabdan sonrakı illərdə kəmiyyət və keyfiyyət inkişafı barədə məlumat verdi. Doğrudan da sevindirici xəbərlərdir. Düzdür, mən özlüyümdə buna qane olmuram. Bu universitetin və ölkənin bütün universitetlərinin elmi, praktik və tədqiqat baxımından daha artıq inkişafını arzulayıram. Ümidvaram ki, bu arzuma çatacağam.

Başlanğıc üçün bu universitet barədə sizə iki xatirə danışmağım pis olmaz. Əlbəttə, mənim bugünkü söhbətim iki hissədən ibarətdir: Birinci hissədə danışacağam, ikinci hissədə isə suallara cavab verəcəyəm. Toxunacağım mövzular əsasən, universitet və tələbəni maraqlandıran mövzulardır.

**Əmir Kəbir universitetindən iki xatirə**

Bu iki xatirə inqilabdan qabaqkı illərə aiddir. Biri bu universitetdə tələbələrlə keçirdiyimiz müxtəlif toplantılar barədədir. O tələbələrin bəzisi indi dövlət məmurlarından və nisbətən məşhur simalardandır. Onlar iclas təşkil etmişdilər. Bir tərəfdən məni, digər tərəfdən də o zaman hələ prezident olmayan Bəni-Sədri dəvət etmişdilər ki, imamın xəttinin mahiyyəti barədə söhbət edək. Bəziləri elə o zamandan imamın xətti adlı bir şeyin olmasını inkar edirdilər, deyirdilər ki, imamın xətti yoxdur.

---

[50] Əmir Kəbir adına sənaye universitetinin müəllim və tələbələri ilə görüşdə çıxışı: 27 fevral 2001.

İmamın xəttinin mahiyyəti və hüdudlarının izahı üçün burada çoxlu iclaslar keçirildi. Onlar mənim üçün unudulmazdır.

Başqa bir xatirə də dəfələrlə söylədiyim hadisədir. Prezident olarkən bu universitetdə çıxış etdim və sualları cavablandırdım. Tələbələrin biri yazılı surətdə soruşdu ki, siz prezidentlik dövründən sonra hansı peşəni seçmək istəyirsiniz? Çünki bu barədə bəzi ehtimallar verilirdi. Mən dedim ki, özüm üçün bir peşə nəzərdə tutmamışam və nə qarşıya çıxacağını da bilmirəm. Amma bu qədər deyim ki, imam məni Zabul şəhərindəki hərbi hissə komandirinin siyasi-etiqadi işlər üzrə müavini təyin etsə və oraya getməyimi istəsə, arvad-uşağımın əlindən tutub Zabula gedəcəyəm. Yəni bu sahədə heç bir müəyyən iddia və istəyim yoxdur.

Xoşbəxtlikdən, mənim bu universitetin tələbəsinə və elmi mühitinə əvvəldən səmimi sevgim olub, bu gün də var. Çox yaxşı və faydalı universitetdir. İnşallah, öhdəsinə düşən vəzifələri həmişə icra edə bilsin.

**Elmi yaradıcılıq**

İndi isə demək istədiyim məsələ barədə. Mən müəllimlərin iclasında əziz qardaşlara da demək istəyirdim, amma macal olmadı. Ona görə əvvəldə deyirəm. O da budur ki, universitetlərin mühüm vəzifələrindən biri elmi düşüncə yeniliyindən ibarətdir. Ehkamçılıq təkcə dini mühitlərin və dini düşüncələrin problemi deyil. Bütün yerlərdə ehkamçılıq, doqmatizm, düzgün məntiqlə yanaşmadan insana yeridilənlərə tabe olmaq bir bəladır. Bir elm mərkəzinin və universitetin ideal vəzifəsi budur ki, elmi məsələlərdə yenilikçi olsun. Elm istehsalının həqiqi mənası da məhz budur. Elm istehsalı təkcə elmin köçürülməsi deyil. Elmi yeniliklər birinci dərəcəli əhəmiyyətə malikdir. Bunu ona görə deyirəm ki, bir ənənə olsun. Bu yenilik təkcə müəllimlərə deyil, həm də tələbələrə və bütün elmi çevrələrə aiddir.

İslam maarifində ictihad adlanan bu elmi yenilik üçün iki amil lazımdır: elmi güc və elmi cəsarət. Əlbəttə, elmi güc çox mühümdür. Güclü istedad, lazımi məlumat və öyrənmək üçün ciddi çalışmaq elmi gücün əldə edilməsi üçün çox vacibdir, amma bunlar kifayət deyil. Lazımi elmi gücü olan, amma məlumatlar yığınının heç bir praktik xeyri olmayan, elm karvanını irəli aparmayan, bir milləti elmi baxımdan inkişaf etdirməyən insanlar çoxdur. Bu baxımdan, elmi cəsarət də lazımdır.

**Elmi inkişaf prosesi**

Elmdən söhbət etdikdə, ola bilsin, birinci növbədə sənaye və texnologiya məsələlərinə aid elmlər yada düşsün. Amma mən bunu ümumi şəkildə deyirəm. Humanitar, ictimai, siyasi və iqtisadi elmlərin, cəmiyyəti və ölkəni idarə etmək üçün nəzəri cəhətdən lazım olan müxtəlif məsələlərin də elmi yeniliyə, yəni ictihada ehtiyacı var. Bizim elm mərkəzlərimizdə müşahidə olunan və məncə, böyük eyiblərdən sayılan məsələlərdən biri budur ki, on illərdir xarici mətnləri təkrarlayır, oxuyur, əzbərləyirik, amma sual və tənqid irəli sürmürük. Elmi mətnləri oxumaq və elmi hər hansı bir şəxsdən öyrənmək lazımdır. Amma elmi tərəqqi üçün güclü, uca, cəsarətli və işgüzar ruhlara ehtiyac var. Belə olsa, inkişaf edəcək. Dünyanın elmi inqilabları belə baş vermişdir.

**Ölkənin elmi bünövrəsini möhkəmləndirmək**

Mənim əzizlərim! Bu gün ölkəmizdə elmi inkişafa ehtiyac var. Bu gün elm üçün sərmayə qoymasaq, çalışmasaq, sabahımız qaranlıq olar. Bəziləri elmi inkişaf prosesini zəiflətmək, dayandırmaq və ya diqqətdən kənarlaşdırmaq istəyirlər. Amma xeyr, bu gün ölkədə bu nəslin vacib işlərindən biri ölkənin elmi təməllərini möhkəmlətməkdən ibarətdir. Elmimiz olmasa, iqtisadiyyatımız, sənayemiz, hətta idarəçiliymiz və ictimai məsələlərimiz də geri qalacaq. Bu gün dünyada tanrılıq edən şəxslər, dünyanın böyük insani və maddi resurslarını mənimsəyən sirli əllər, bütün okeanları və həssas boğazları nəzarətdə saxlayan, istədikləri yerə müdaxilə edən supergüclər elm vasitəsilə bəşəriyyəti belə bədbəxtliyə sürükləməyi bacardılar. Onlara qarşı mübarizə aparmaq üçün də məhz elm lazımdır. Əgər elmi baxımdan inkişaf etmək istəyirsinizsə, yenilik cəsarətiniz olmalıdır. Müəllim və tələbə mövcud elmi təriflərin mütləqçilik zəncirindən xilas olmalıdırlar.

**Elmi anarxizmin inkarı**

Bu, səhv anlaşılmasın, mən heç kimə elmi anarxizmi və mənasız danışmağı tövsiyə etmirəm. Hər hansı sahədə elmsiz şəxslər yenilik etmək istəsələr, cəfəngiyyata üz tutmalı olacaqlar. Biz bəzi humanitar və dini elmlərdə bunu görməkdəyik. Məlumatsız şəxslər yetərli savada malik olmadan işə girişir, danışır və yenilik etdiklərini xəyal edirlər. Bu isə əslində, yenilik deyil, cəfəngiyyatdır. Mən elm sahəsində bunu tövsiyə etmirəm. Xeyr, öyrənmək lazımdır. Lakin yalnız digərlərinin elmi nailiyyətlərinin istehlakçısı olmaq lazım deyil. Elmi sözün həqiqi mənasında istehsal etmək lazımdır. Bunun üçün isə metod və qaydalar

lazımdır. Mühüm odur ki, elmi yenilik ruhu universitetdə dirçəlsin və yaşasın. Mən xoşbəxtlikdən, tələbələrdə bu həvəsi hiss etmişdim, indi müəllimlərdə də görürəm. Bunlar əl-ələ verib ölkənin elmi səviyyəsini yüksəltməlidirlər.

Elm imanın hidayəti ilə, düzgün duyğularla, aydın və ayıq məlumatlarla birgə olsa, böyük möcüzələr edəcək. Ölkəmiz bu möcüzələri gözləyə bilər.

**Elmi mütləqçilik**

Mən müxtəlif elmlərdə tabelik və elmi mütləqçiliyə təslim olmaq məsələsinə toxundum. Düşünürəm ki, bütün elm mərkəzlərində Qərbdən amiranə şəkildə idxal edilən mədəniyyətə qarşı ümumi özünəinam yaratmalısınız. Biz mədəni-ideoloji hücum məsələsini ortaya atanda bəziləri çox incidilər, dedilər ki, nə üçün mədəni hücum deyirsiniz. Halbuki mədəni hücum cəbhənin ortasında meydan oxuyur. Bəziləri onu kənarda tapmağa çalışdılar. Bu hücum təkcə zahiri amillərə xas deyil. Dünyada bir mədəni toplum neftə, veto hüququna, kimyəvi və bioloji silahlara, atom bombasına və siyasi qüdrətinə arxalanaraq, istədiyi bütün inam və əqidələri başqa ölkə və xalqlara sırıyır. Odur ki, bir ölkə bəzən tərcümə təfəkkürünə məruz qalır, düşünəndə də tərcümə ilə düşünür və başqalarının düşüncəsinin məhsulunu alır; əlbəttə, orijinal məhsulları yox, qüvvədən düşmüş, təhrif olunmuş və sıradan çıxmış məhsulları. Onlar belə məhsulları başqa xalqlara lazım bilir, təbliğat yolu ilə onlara yeridir və yeni fikir adı ilə qarşılarına qoyurlar. Bu, bir xalq üçün hər bir dərddən ağırdır.

**Mütləqçiliyi sındırmaq**

Bizim müəllim və tələbələrimizin mütəfəkkir beyinləri Qərbdən gələn və bəzilərinin nəzərində Allah vəhyi hesab olunan, azacıq şübhə edilməsi mümkün olmayan hüquqi, ictimai və siyasi məfhumları müxtəlif elmlərin böyük tədqiqat mərkəzlərində çək-çevir etməli, onların qarşısında sual qoymalıdırlar. Bu mütləqçiliyi sındırmaq və yeni yollar tapmaq lazımdır; həm onlar istifadə etsinlər, həm də bəşəriyyətə təklif olunsun. Bu gün ölkəmizin buna ehtiyacı, ölkəmizin universitetdən belə bir gözləntisi var. Universitet gərək universal və dərin bir Proqramlaşdırma hərəkatını xalqın ixtiyarına buraxsın, iş və əmək sahibləri özümüzdən olan elmi yeniliklərlə İslam dəyərlərinə və din təfəkkürünə söykənən ədalətli və

inkişaf etmiş bir cəmiyyətin bünovrəsini möhkəmləndirsinlər. Bu gün ölkəmiz universitetdən məhz bunu gözləyir.

Universitetin başını necə qatsınlar ki, tələbə və müəllimi bu yoldan saxlasınlar? Əmin olun ki, bu gün kəşfiyyat orqanlarının diqqət mərkəzində olan məsələlərdən biri ayıq tələbəni və elmli universiteti ölkənin tərəqqisi ilə nəticələnəcək yoldan saxlamaq, ona mane olmaqdır.

**Qərbin idxal etdiyi mədəniyyət**

Mən Qərbin idxal etdiyi təfəkkür və mədəniyyət barədə dəfələrlə danışmışam. Bəziləri bunu təəssübkeşlik və inadkarlıq adlandıra bilərlər, lakin belə deyil. Qlobal güclərin bir xalqı zəncirləmək üçün onun inamlarını öz istəyinə uyğun formalaşdırmaqdan daha mümkün və asan bir yol yoxdur. Xalqı özünəinama, hərəkətə, istiqlaliyyət və azadlıq yolunda mübarizəyə vadar edən bir inam varsa, onun qan düşmənləri, var gücləri ilə bütün dünyanı ələ keçirmək, bütün bəşəriyyəti istismar etmək istəyən şəxslər o inamla mübarizə aparacaqlar. Digər tərəfdən, müxtəlif yol və üsullarla o xalqın arasında elə düşüncə, inam və məqsədləri yaymağa çalışacaqlar ki, onların istədiyi kimi düşünsün. Elə düşündükdə isə elə də əməl və hərəkət edəcək. Bu, geniş yayılmış bir üsuldur: Müstəmləkə nəzəriyyəsi. İnqilabın əvvəlindən İranda bu işi görmüşlər, indi də görməkdədirlər. Dünyanın digər yerlərində və müxtəlif dövrlərdə də bu işi görmüşlər.

**Müstəmləkə nəzəriyyəsi**

On doqquzuncu əsrdə ingilislər istismarçı müharibələrə başladılar, Afrikaya, Asiyaya, Hindistana və digər yerlərə getdilər, ölkələri tutdular, insanları kölə etdilər. Bu gün bəlli şəraitdə yaşayan on milyonlarla qara amerikalı o zaman bu "sivil" cənabların Afrikadan, ailələrinin arasından, ata-analarının ağuşundan ayırıb köləlik və muzdurluq üçün apardığı qulların övladlarıdır. Bu, aşkar cinayət idi. Onlar ağlın, şəriətin və bütün bəşər qanunlarının ziddinə olan bu işlərini izah etmək üçün, dırnaqarası ziyalıların bəyəndiyi nəzəriyyələr düzəltdilər. "İstemar" (leksik mənası: abadlaşdırma) sözünün özü bu nəzəriyyələrdən biridir. Dedilər ki, biz bu bölgələri abadlaşdırmaq üçün gedirik. Bu mətləb eynilə bu gün dünyada da mövcuddur. Xalqın həyatı və insan resursu üzərində işləmək, bəhrə götürmək istəyənlərin işlərindən biri xalqlar üçün nəzəriyyə irəli sürməkdir.

### Qərbin idxal etdiyi nəzəriyyələr

Mən öz universitetimizin və tələbə gəncimizin diqqətini Qərbin idxal etdiyi nəzəriyyələrə yönəltmək istəyirəm. Qərbin bizim kimi ölkələrlə amiranə münasibətlərini qorumaqdan başqa bir məqsəd güdməyən bu nəzəriyyələrdən ehtiyatlı olun. Düzdür, müxtəlif adlar altında çoxlu sözlər danışılır, məqsəd isə bir şeydir. Bu inqilab, bu quruluş, xalqın bu böyük hərəkəti Qərbin amiranə hökmranlığını və avtoritarlığını qırmışdır. Bu gün bizim ölkəmizdə Qərb dəyərləri qanuni deyil və geniş yayılmayıb. Bu gün ölkənin mənafeyini əcnəbilərə qurban vermək bizim ölkəmizdə qəbahətli iş sayılır. Bu gün bu ölkədə min tamahla açdıqları, xüsusən amerikalıların açdığı süfrə bağlanmışdır. Bu, dünyanın güc mərkəzləri üçün kiçik məsələ deyil. Onlar əvvəlki vəziyyəti qaytarmaq üçün nə etsinlər? İnqilabın əvvəllərində naşıcasına gəldilər və üzbəüz müharibə başlatdılar. Lakin burunları ovulanda anladılar ki, yolu bu deyil. Bundan sonra mədəni-ideoloji müharibəyə əl atdılar. Mədəni müharibə asan bir iş deyil, savadlı adamların işidir. Ona görə belə adamlar oturub düşünür, plan cızır və təəssüf ki, daxildə də bəziləri icra edirlər. Onlar bəzi sözlər deyirlər, burda da onun farscası və yerli forması səslənir. Bunlardan muğayat olmaq lazımdır.

### Ciddi sözlər

Mənim bu sahədə universitetə, tələbə və müəllimə çox sözüm var. Bunlar ciddi sözlərdir. Bunlara diqqət yetirmək lazımdır. Hər şeyi unudub bir tərəfdə arxayın oturmaq olmaz. Bəziləri bunu istəyirlər. Biz “düşmən” dedikdə deyirlər ki, düşmən kimdir. “Təxribat” dedikdə deyirlər ki, siz bədbinsiniz. Bununla məsələni bağlamaq olmaz. Bununla problem həll olunmur, düşünmək lazımdır. Mənim bunu universitet mənsubları ilə bir arada qoymağım universitet adamlarına hörmətimdən irəli gəlir. Mən universitetin bu ölkə üçün dəyərini bütün vücudumla hiss edirəm. Universitet bir ölkəyə xidmətlərin zirvə nöqtəsini təmin edir. Universitet ölkə üçün çox əhəmiyyətlidir.

### İnqilab və universitetin qarşılıqlı xidmətləri

İnqilab və universitetin çoxlu qarşılıqlı xidmətləri var. Bu xidmətləri yazmaq istəsək, uzun bir siyahı alınar. Universitet inqilaba böyük xidmətlər göstərmişdir. İslam hərəkatının başlandığı 1964-cü ildən universitet fəaliyyətə keçən ilk yerlərdən idi. O zaman universitet xoşagəlməz vəziyyətdə idi. Lakin məsuliyyətli universitet mənsubları,

müəllim və tələbələr mütləq azlıqda olsalar da, şəraitdən qorxmadılar və fərdi formada dəstək verdilər. Bütün mübarizə dövründə - 1964-cü ildən 1979-cu ilə qədər ön sıradakı qüvvələrdən biri universitet idi. Mən buna yaxından şahid olmuşam. Bu gün universitetə dair istədikləri şəkildə fikir bildirən bəzi şəxslər o zaman universitetdə deyildilər; bəziləri heç İranda da deyildilər, Avropadan və uzaqdan tamaşa edirdilər. Bəzən tamaşa etməyə də hövsələləri çatmırdı və hadisələrdən xəbərdar olmurdular. İndi gəlib universitetin xidmətləri haqda danışırlar. Bilmirdilər ki, o zaman tələbə kim idi, nə iş görürdü, universitetdə nə iş görülürdü, hansı fəaliyyət və hisslər mövcud idi.

O zaman biz universiteti yaxından gördük. Hərəkət inkişafa başlayanda universitet tədricən qızışdı, nəhayət, sonuncu ildə universitetin fəaliyyəti bir çox yerləri öz təsiri altına salıb kölgədə qoydu. İnqilab qələbə çalanda onun ilk addımlarında üzərinə çox təsirli rollar götürən birinci şəxslər universitet mənsubları idilər. Mən bu gün bu toplantıda iştirak edən möhtərəm müəllimlər arasında bu dostların bəzisini gördüm, imamın İrana daxil olduğu günlərə və bunların fəaliyyətinə dair bəzi xatirələr yadıma düşdü. O zaman nə ad-san, nə çörək, nə yalançı şöhrət məsələsi vardı, yalnız pak və ixlaslı mübarizə aparılırdı. Müharibə dövründə də inqilaba və İslama 3000 tələbə şəhid təqdim olundu. Onların 90 nəfəri sizin universitetinizə aiddir. Bu, kiçik məsələ deyil. Bunlar universitetin xidmətləridir.

**İnqilabın universitetə xidməti**

İnqilab da universitetə böyük xidmətlər göstərmişdir. Mənim fikrimcə, inqilabın universitetə iki ən böyük xidməti olmuşdur. Biri budur ki, ona müstəqil milli kimlik hissi verdi və onu əcnəbiyə üz tutmaqdan, ona vurulub mat qalmaqdan, əcnəbi qarşısında passiv və gücsüz olmaqdan xilas etdi. İnqilabdan qabaq vəziyyət belə idi. İkincisi budur ki, universiteti xalqla barışdırdı. İnqilabdan öncəki universitet xalqın təlatümlü okeanı arasında ucqar bir ada kimi idi. Mömin, dindar və yaxşı müəllim və tələbələri istisna etsək, o zaman universitetin əksər mühiti elə idi ki, siz oraya girsəydiniz, ümumi mədəniyyətə, dinə, inamlara və xalqın etiqadlarına arxa çevirməli idiniz. Universitet müəllim və tələbələrin böyük əksəriyyəti üçün məhz fərdi maraq yeri idi. Siyasi və mübariz olan bir qrupdan başqa digər şəxslərin fikri-zikri şəxsi məsələlər idi, ictimai məsələlər barədə düşünmür, cəmiyyətlərinin dərdini hiss etmirdilər. O zaman bir tələbə üçün ən mühüm arzu bu idi ki, hansısa bir yolla özünü

xaricə çatdıra bilsin. Universitet Qərbə vurulmuşdu, yenilik yaratmaq istəmirdi. Müəllim və tələbədə bu meyl var idi, amma universitetə hakim ənənə bu deyildi, şah rejiminin güclü təbliğ etdiyi asılılıq mədəniyyəti idi. Universitet daxilində ziyalılıq iddiasında olanlar da xalqçı ziyalılar deyildilər, xalqdan uzaq düşmüş kafe ziyalıları idilər. Onların çoxu inqilabdan sonra getdilər və indi də Avropa ölkələrində kafe adamıdırlar. Universitet belə bir vəziyyətdə idi. İnqilab universiteti bu iki böyük təhlükədən xilas etdi, onu düşünən, müstəqil, özünə inanan, düşüncə və elm istehsalına qadir, xalqın müxtəlif təbəqələri ilə əlaqədə, xalqın mədəniyyətinə və xalq arasında mövcud olan hiss və duyğulara bağlı bir mərkəzə çevirdi. Bunun çox böyük əhəmiyyəti var.

**Tərcümə olunmuş nəzəriyyələrin universitetə girməsi**

Bunlar əhəmiyyətli məqamlardır. Əgər düşmənlər tərəfindən universiteti bir təhlükə təhdid etsə, bu cəhətlərdən edəcək. Universitet mənsublarından özünəinamı almaq, tərcümə olunmuş fikir və nəzəriyyələri universitetə daxil edib tələbə və müəllimin beyninə yeritmək, onları xalqın iman və etiqadlarından ayırmaq istəyəcəklər. Əsas təhlükə budur. Bunun əlacı da xalqla fikir birliyini qorumaq və inqilabın köklü məsələlərindən möhkəm yapışmaqdır. Mənim əzizlərim! İnqilabla əlaqənizi bacardıqca möhkəmlətməlisiniz. Biz İran xalqı beynəlxalq miqyasda öz mövqeyimizi, yerimizi və kimliymizi itirmişdik. İnqilab bu kimliyi və mövqeyi bizə qaytardı.

**Qloballaşma nəzəriyyəsi**

Bu gün Qərb nəzəriyyəçiləri və təbliğatçıları Qərbə, onun hökmranlığına qayıdış xəttini yenidən bərpa etmək fikrindədirlər. Qeyd etdiyim kimi, psevdo-ziyalı bir nəzəriyyə və yeni söz adı altında qloballaşma və mövzuları dəyişdirmə nəzəriyyəsini ortalığa atırlar. Deyirlər ki, bu dövrün tələbəsi daha antimüstəmləkə dövrünün tələbəsi ola bilməz. Deyirlər ki, istismarçılığa və müstəmləkəyə qarşı çıxmaq, hegemonizmə ölüm oxumaq dövrü bitmişdir; ədaləti bərpa etmək, kapitalizmlə mübarizə aparmaq dövrü bitmişdir; amalçılıq, siyasi təvəlla və təbərra dövrü bitmişdir. Yeni tələbə mövzusu beynəlxalq mövzulardan - qloballaşmadan, realizmdən, yeni dünya düzəninə qoşulmaqdan, yəni ABŞ ordusunun piyadası olmaqdan ibarətdir. Bunun adı qloballaşma, əslində isə amerikalaşmadır. Mənası budur ki, İran xalqı çəkdiyi bütün zəhmətlərə, qələbə qüllələrinə sancdığı bayraqlara, müsəlman xalqlarda yaratdığı

böyük oyanışa rəğmən, yenidən inqilabdan əvvəlki dövrdə olduğu kimi amerikalıların əsgəri, onların maraqlarının təminatçısı olsun. Məqsəd bundan başqa bir şey deyil, lakin gözəl adlar altında, qloballaşma, yenilik və inkişaf adları altında bu məqsədi gizlətmək istəyirlər.

**Liberal-demokratiyanın məqsəd və şüarları**

20 ildir Qərbin ideoloqları bu sözü təkrarlayırlar. Bir neçə ildir ölkə daxilində bir qrup qafil və nadan, yaxud qərəzli və qərbpərəst insan müxtəlif sözlərlə eyni fikri bəyan edirlər. Nə liberal, nə demokartik, əslində hegemon və müstəmləkəçi quruluş olan liberal-demokratiya, sionist kompaniyaları, onların ortaq və müttəfiqləri üçün əsas məsələ bütün əsas mərkəzlərə nəzarəti ələ keçirməkdən başqa bir şey deyil. İnqilabı öz inhisarçı yollarından götürmək üçün onu inhisarçılıqda ittiham edirlər. Dünyanı beynəlxalq kənd kimi təqdim edirlər ki, bu kəndin kəndxudalığını ələ keçirsinlər.

Mədəni birlik və mədəni qloballaşma şüarı verirlər ki, öz mədəniyyətlərini dünyanın bütün mədəniyyətlərinə hakim etsinlər. Özlərinə aid məsələlərdə, Qərb mədəniyyəti sahəsində, istismara şərait yaradan ənənələrdə beynəlxalq miqyasda heç kəsə ən kiçik irad bildirmək imkanı belə vermirlər. Lakin sizdən istəyirlər ki, öz mədəniyyət, inam, duyğu və prinsiplərinizdə plüralizmə inanasınız, iman, düşüncə, mədəniyyət və möhkəm etiqadi məsələlərinizdə hər kəsin öz təsəvvürünə uyğun danışmasına, fikir bildirməsinə icazə verəsiniz. Özləri isə belə bir şeyə icazə vermirlər. Dünyada heç kəs ABŞ maraqlarına qarşı plüralist ola bilməz. Harada maraqları tələb etsə, qətiyyətlə müdaxilə edirlər. Əgər "hansı əsasla daxil oldunuz?" deyə soruşsalar, onun üçün bir elmi əsas da düzəldirlər. Bir neçə gün əvvəl deyildi ki, ABŞ konqresinə bir layihə çıxarılıb. Bu layihə təsdiq olunsa, ABŞ prezidenti dünyanın hər hansı nöqtəsində olan müxaliflərinə qarşı terror əmri verə biləcək. Bunun səbəbini soruşsalar, dəlil də göstərirlər: ABŞ maraqlarının təmin olunması. Lakin bizdən istəyirlər ki, biz də o əsaslandırmaya həmin gözlə baxaq, bütün vücudumuzla onu qəbul edək. Bundan böyük hegemonluq ola bilərmi?!

**Əlcəzair seçkiləri**

Bundan 4-5 il əvvəl Əlcəzairdə azad seçkilər keçirildi. Lakin onların bəyənmədiyi bir neçə nəfərin qələbəsi ilə bitəcəyini gördükdə plan qurub hərbi çevriliş etdilər, xalqı yatırdılar. Dünyada hamı etiraf edirdi ki, o

seçkilər azad olub, demokratik şəkildə keçirilib. Lakin eyni zamanda onu məhv etdilər. Əgər kimsə bunun səbəbini soruşsaydı, onun üçün dəlil göstərərdilər: çünki islamçılar iş başına gələcəkdilər, onlar beynəlxalq məsələlərdə və demokratiyada bizə müxalifdirlər. Yəni özləri üçün mədəniyyət və düşüncə prinsipləri tərif edirlər. Sonra da dünyada bunlara qarşı çıxmaq, irad bildirmək, müxalif söz demək üçün heç kimə icazə vermirlər. Lakin özləri sizin düşüncə əsaslarınıza, İslam prinsiplərinə, dəyərlərinə, möhkəm və isbat edilmiş əqidələrinə irad bildirirlər. Əgər bunun səbəbini soruşsanız, etiraz edib deyəcəklər ki, plüralizmdir, bu, bir qiraətdir, o da başqa bir qiraət. Sanki mədəni plüralizmə etiqad bəsləyirlər. Etiraz etsəniz, sizi doqmatik olmaqda, ehkamçılıqda ittiham edəcəklər. Deyəcəklər nə üçün mədəni plüralizmə qarşı çıxırsınız? Halbuki özləri bu maraqların söykəndiyi məfhumları tərif etməkdə heç zaman plüralizmə inanmırlar, onu qəbul etmirlər. Müsəlman gənc, tələbə bu məqsəd və maraqlar haqda ayıq şəkildə fikrləşməli, qərar verməli, danışmalı və fəaliyyət göstərməlidir.

**Yeni sözlər**

Bəziləri yeni söz adı altında həmin fikirləri farscaya çevirirlər. Onun barəsində danışır, məqalə yazır, inqilabın bütün dəyərlərini, xalqın möhkəm mental əsaslarını inkar edirlər. Halbuki bunlar yeni sözlər deyil, tanınmış sözlərdir. Bunların mənşəyi və deyənlərin məqsədi də məlumdur. Bu düşüncə və mədəniyyəti istehsal edənlərin məqsədi xalqlara, ölkələrə və digərlərinin mədəniyyətlərinə hakim olmaqdır. Bizim onların sözünü tərcümə və təkrar etməyimiz düzgün deyil.

**Universitetin mühüm rolu**

Universitet bu sahədə mühüm rol ifa edə bilər. Mən elə universitetin tərəfdarıyam ki, qayda-qanunlu, tərəqqi istəyən, xalqa üz tutan, aktiv, elm və düşüncə işinə həvəskar olsun. Mən heç zaman universitetə, universitet mənsublarına bu gün elm, düşüncə və mədəniyyət baxımından əlimizdə olanlarla kifayətlənib mühafizəkarlıq göstərməyi tövsiyə etmirəm. Xeyr, universitet inkişaf nərdivanı ilə daim qalxmalı və irəliləməlidir. Belə düşünürəm ki, mühafizəkarlıq, əlimizdə olanlarla kifayətlənmək, bütün elm və mədəniyyət sahələrində iradə və irəliləyiş istəyinin olmaması inqilabın qətlinə bərabərdir. İnqilab ümumiyyətlə, iri addım deməkdir. Onun ardınca da başqa iri addımlar atılmalıdır. Məfhumları düzgün anlamaq, bilmək və düzgün çərçivələrə salıb hərəkət etmək lazımdır.

**İslahatçılıq**

İslahatçılıq sözü bu gün geniş yayılmış sözlərdəndir. Məncə, islahatçılıq inqilabın təməl xüsusiyyətlərindəndir. Ümumiyyətlə, inqilab irəliyə doğru böyük bir hərəkət deməkdir. Bu hərəkət heç vaxt dayanmır, daim irəliləyir. Bu irəliləyiş elə islahatçılıqdır. Əlbəttə, amerikalılar bizə islahatçılıq dərsi keçmək istəsələr, təbii ki, qəbul etməyəcəyik. Çünki onun islahatçılıq bildiyi amillər eynilə keçmişə irticaçılıqdır. Əgər bu gün bu ölkədə xalqa arxalanan, müstəqil, qorxmaz və fəal İslam Respublisakı hökumətinin əvəzinə Qərbə itaət göstərən mürtəce bir padşah rejimi olsaydı, onlar bunu islahatçı biləcəkdilər. Belə islahatçılıq onlar üçün yaxşı sayılır. Əgər belə islahatçılıq yaxşıdırsa, gedib özləri üçün yaratsınlar.

Əsl islahatçılıq inqilabın ayrılmaz hissəsidir. Bir müsəlman tələbə islahatçı olmaya bilməz. İslahatçılıq siyasi jest deyil. Bundan siyasi jest kimi, onu-bunu cəlb etmək məqsədilə istifadə etmək olmaz. Ondan əsl simanı ört-basdır etmək üçün istifadə etmək olmaz. İslahatçılıq bir vəzifə və mübarizədir. Hökumət və xalq islahatçı olmağa borcludurlar. Əlbəttə, islahatçılığı başqalarının tərif etməsinə icazə verməsinlər. Özləri öz mənfəətlərini axtarmalı, tanımalı, təyin və tərif etməlidirlər. Bunun əksi ABŞ islahatçılığı və əcnəbilərin bəyəndiyi islahatçılıqdır.

**Düşmənin psixoloji müharibəsi**

Bu gün düşmənin psixoloji müharibəsinin əsası olan və deməyi vacib bildiyim sözlərdən biri budur ki, inqilabın üçüncü nəsli inqilab ideyalarından ayrılmışdır. Sonra onun ardınca bir fəlsəfə də düzəldirlər; yalnız bir yalan və yanlış sözü izah etmək üçün düzəldilən qondarma, saxta və yalançı fəlsəfələri kimi. Ona görə ki, kimsə cürət tapıb bunun yanlış söz olduğunu deməsin. Deyirlər ki, bu, bir fəlsəfəyə əsaslanır. O fəlsəfə nədir? O fəlsəfə budur ki, bütün inqilablarda üçüncü nəsil o inqilaba arxa çevirmişdir. Yalan, səhv söz və çərənləmək! Hansı inqilabları deyirsiniz?!

**Fransa inqilabı**

1789-cu ildə Fransada inqilab baş verdi. Amma üçüncü, ikinci nəsli yox, elə birinci nəsli inqilabdan döndü; dörd-beş ildən sonra ilk inqilabçılar əleyhinə işlər başlandı. 1802-ci ilə çatanda bu inqilabın mahiyyəti elə dəyişdi ki, Napoleon kimi bir şəxs gəlib padşah tacını başına qoya bildi. Yəni şahlıq əleyhinə mübarizə aparıb 16-cı Luini gilyotinlə edam etmiş bir

ölkə 10-12 ildən sonra elə vəziyyətə düşdü ki, Napoleon Bonapart şahlıq tacını başına qoydu, özünü imperator adlandırdı və illərlə hökmranlıq etdi. Ondan sonra Fransada 80-90 ilə yaxın şah rejimləri, müxtəlif sülalələr gəlib-getdilər. Onlar həmişə müharibə, əyyaşlıq və fəsad içində idilər. O inqilab üçüncü nəslə yox, heç ikinci nəslə də çatmadı. Çünki təməlləri zəif idi. Bu gün iki əsr ötdükdən sonra İslam Respublikasında bəziləri xəcalət çəkmədən öz dövründə bir inqilabı yerbəyer edə bilməyən ideyaları iri manşetlərdə İran inqilabçılarına təqdim edirlər. Halbuki bu inqilabçılar ən böyük inqilabı möhkəm təməllərlə ərsəyə gətirməyi və uzun illər tufanlar qarşısında qorumağı bacarmışlar.

**Sovet Oktyabr inqilabı**

Sovet Oktyabr inqilabı da üçüncü nəslə çatmadı. İnqilabın qələbəsindən hələ 6-7 il ötməmiş Stalinizm quruldu. Elə bir Stalin iş başına gəldi ki, bu gün dünyada kimi hegemonluqda, zülmdə, qəddarlıqda və vəhşilikdə ittiham etmək istəsələr, Stalinə bənzədirlər. Doğru da edirlər. Stalin doğrudan da bu pis sifətlərin tərənnümü idi. Zəif təbəqələr üçün qurulmuş fəhlə hakimiyyəti monarxın mütləq diktaturasına çevrildi. Stalin Sovet quruluşunda əsas sahibi olan Kommunist partiyasına belə bəzi sahələrdə qərar seçməyə icazə vermirdi. Elə kobud və dəhşətli vəziyyətlə Stalin öz monarxiyasını 30 ildən artıq davam etdirdi. Etiraz etməyə heç kimin cürəti çatmırdı. Siz bəlkə də dəhşətli sürgünlər haqqında eşitmiş olarsınız. Sovet hökuməti dağıldıqdan sonra Sovet Sosialist Respublikaları İttifaqı dövrünün qorxunc vəziyyəti barədə nəşr olunan ilk kitab bir romandır. İndi adı yadımdan çıxıb. Onun iki cildi fars dilinə tərcümə olunub, mən oxumuşam. Çox gözəl yazılmış və o zamanın vəziyyətini bəyan etmişdir. Bu hələ Stalindən sonrakı vəziyyətlər barədədir. O zaman vəziyyət tamamilə fərqli idi, lakin o diktaturanın metodu qalmışdı. Buna əsasən, ikinci-üçüncü nəsil söhbətləri düzgün deyil, elə əvvələrdə hər şey əldən çıxmışdı.

**İslam inqilabı və həmişəyaşar ideyalar**

Bu hansı fəlsəfədir?! Hansı inqilaba tətbiq edilib?! Harada təcrübə olunub ki, inqilabın üçüncü nəsli inqilabdan üz çevirsin?! Xeyr, bu, inqilabın ideyasından asılıdır. Əgər bir inqilabın ideyaları ikinci, üçüncü və onuncu nəsilləri öz təmizliyi və düzgünlüyü sarıdan qane edə bilsə, ömrü əbədi olar. İslam inqilabının ideyaları həmişəyaşar ideyalardır. Ədalət istəyi heç zaman köhnəlmir. Azadlıq və istiqlaliyyət istəyi heç zaman

köhnəlmir. Əcnəbilərin müdaxiləsinə qarşı mübarizə heç zaman köhnəlmir. Bunlar bütün nəsillər üçün gözəldir. Nəzəriyyəçiləri oturub özlərindən bir şey çıxardılar, buradakı sadəlövhlər də inandılar, dedilər ki, inqilabın üçüncü nəsli ideyaları geri itələyir, biz gedib ölkəni inqilabçıların əlindən ala bilərik. Bunu inqilabdan öncə uzun illər bu ölkəyə hökmranlıq edənlər deyirlər. Mən deyirəm ki, bu fikir çox sadəlövh və axmaq fikirdir. Əmin olsunlar ki, o zamanın gənc nəslində mövcud olan və o işi görməyi bacaran bu coşqu, həyəcan, iman və duyğular bu gənc nəsildə də mövcuddur. Bilsinlər ki, inqilaba sarı atdıqları hər bir daş sıçrayıb onların özlərinə qayıdır. İnqilab köhnəlmir. İnqilab alovu onların çürük pambıq tayaları ilə rastlaşdıqda yenə də yandırıb məhv edəcək.

Universitetə gəlincə isə, mən inanıram ki, universitet inqilabın əsas bazası olmuş və yenə də olacaqdır. Gənc tələbə nəsil icazə verməyəcək ki, universitet bu xalqın düşmənlərinin və əcnəbilərə aldanmışların təhlükəsiz evi olsun. Bir gün səhv hesablamalar apardılar və tələbələrin özü tərəfindən zərbə gördülər. Bu gün də deyəsən, yenidən səhv hesablama aparmaq istəyirlər, ancaq bilsinlər ki, yenə də tələbələrin özləri tərəfindən zərbə görəcəklər.

Mən inanıram ki, universitet özünü təmin edə bilir və xaricdən heç kimin təlqininə ehtiyacı yoxdur. 2001-ci ildəki universitetin 1991-ci ildəki universitetdən üstünlüyü budur ki, bu gün müəllim nəsli də mömin və dindar nəsildir. 1991-ci ildə bizdə belələri çox az idi. Var idi, amma çox az idi. Bu gün Allaha şükür olsun ki, bizim universitetlərimiz mömin müəllim, tələbə və müdirlərlə doludur. Buna görə mənim universitetlər sarıdan nigaranlığım yoxdur və siz tələbələrə deyirəm ki, bu səngərin sahibləri sizlərsiniz. Ehtiyatlı olun ki, səngər boşalmasın, onu həmişə təmir edin.

**Verilməli, alınmalı, öyrədilməli Azadlıq**

Bu gün universitetdə azadlıq məsələsi çox müzakirə olunur. Bəzən deyirlər ki, azadlıq verilmir, alınır. Mən deyirəm azadlıq həm verilir, həm alınır, həm də öyrənilir. "Azadlıq verilir" nə deməkdir? Bu o deməkdir ki, dövlət məmurlarının təbii azadlıq haqqını, yəni qanuni azadlıqları heç kimdən almağa ixtiyarları yoxdur. Bu, dövlət tərəfindən lütfkarlıq da deyil. Dövlət azadlığı verməyə borcludur.

"Azadlıq alınır" nə deməkdir? Yəni cəmiyyətdə hər bir ayıq və şüurlu insan öz azadlıq haqqı və hüdudları ilə tanış olmalı, onları tələb etməli və istəməlidir. "Azadlıq öyrənilir" nə deməkdir? Yəni azadlığın

mədəniyyəti və qayda-qanunları var. Onları öyrənmək lazımdır. Azadlıq mədəniyyəti və qaydaları olmadan bu böyük nemət heç kəs və heç bir cəmiyyət üçün lazımi həddə mövcud olmaz. Əgər cəmiyyətdə insanlar azadlıqdan istifadə qaydasını bilməsələr, heç şübhəsiz, fəal, çalışqan və öncül bir cəmiyyət üçün zəruri olan azadlığı əldən verəcəklər. İslam nöqteyi-nəzərindən bu, bir cəmiyyət üçün faciə deməkdir. Azadlığın əldən çıxması faciədir.

İslama görə, hər növ avtoritorizm və diktatura – fərdi, yaxud ictimai diktatura, yəni bir nəfərin öz nəfsi istəklərindən irəli gələn nəzəri ilə xalqın taleyini həll etməsi yolverilməzdir. Bu, harada görünsə, faciədir. Əgər azadlıqla davranmaq qaydalarını və mədəniyyətini bilməsək, belə olacaq. Bəziləri də məhz belə olmasını istəyirlər. Bəziləri istəyirlər ki, biz azadlıq mədəniyyəti ilə tanış olmayaq, onlar da iğtişaş törətməklə xalqda qüdrətli bir diktatora meyl yaratsınlar.

**Azadlığın düşmənləri**

Bəzi cəmiyyətlərdə hərc-mərclik, nizam-intizamsızlıq və iğtişaşlar elə bir həddə çatır ki, xalq güclü bir despotun meydana çıxıb nizam-intizam yaratmasını arzulayır. Bəziləri cəmiyyəti bu vəziyyətə sövq edirlər: azadlıqdan o qədər pis və yanlış istifadə etsinlər, xalqın imanı, duyğuları, düşüncələri və cəmiyyətin ehtiyacları ilə oynayıb, onu təlatümə salsınlar. Bunlar azadlığın düşmənləridir. Azadlığı bədnam etmək olmaz. "Azadlıq"dan süngü düzəldib, azadlıq mühafizəçilərinin sinəsini hədəf seçmək olmaz. Azadlıqla oynamaq olmaz. Azadlığın adını hallandırıb, onun mədəniyyətinə əsla tabe olmayan şəxslər azadlığa zərbə vururlar. Onlar azadlıq tərəfdarı deyillər, azadlığa xəyanət edirlər. Azadlıq qanunu pozmağa və İslam Respublikası dövlətinin kökünə balta çalmağa vasitə edilməməlidir! Dünyanın şərq və qərbində heç bir dövlət onun kökünü kəsmək istəyənlərə hörmət etmir, amma İslam Respublikası hörmət etdi. Uzun müddət bəzi şəxslər azadlıq adı altında xalqın imanına və sevdiklərinə istədiklərini etdilər. İslam Respublikası isə hər hansı səbəbə görə susdu, dövlət dözdü və hörmət göstərdi.

**Düşmənlərə güzəştə getməmək**

Mən sizin xidmətçiniz, buraya toplaşanların qardaşı, sizin heysiyyətinizi və tələbə təbəqəsini sevən bir insan kimi deyirəm: İslam Respublikasının və onun başçılarının bundan sonra azadlıq şüarı verib xalqın maraqları, taleyi və azadlığın özü əleyhinə hərəkət etmək və iş

görmək istəyən şəxslər qarşısında güzəştə getməyə nə haqqı var, nə də qərarı. Öz yerlərində oturub deyirlər ki, biz qanuni çevriliş etmək istəyirik. Maraqlı məsələdir! Biz "qanuni çevriliş" adlı bir şey tanımırıq. Çevriliş məqsədilə hər hansı bir hərəkət baş tutsa, bu, müharibənin başlanmasıdır. İslamda müharibə edənin hökmü də məlumdur. Bu təkcə bizə aid deyil. Bizim isə bu qədər düşmənimiz var, iqtisadi və informasiya mühasirəsindəyik. Biz daha çox düşünməliyik, amma digərləri də belə düşünürlər.

**Müsbət və mənfi inqilabçılar**

Bizdə əvvəldən iki növ inqilabçı vardı; yəni iki növ rol ifa etmişdilər. Bəzi inqilabçılar müsbət inqilabçılar idilər, bəziləri isə mənfi inqilabçılar. İnqilabın əvvəlində mənfi inqilabçı o inqilabçıya deyilirdi ki, başağrısı olan iş, zəhmət və hərəkət meydanından geri çəkilirdi. İnqilabçı idi, amma rahatlığını istəyən inqilabçı idi. Deyirdi ki, mən mübarizəmi inqilabdan qabaq etmişəm, indi daha hörmət görmək istəyirəm. Belə şəxslər təhlükəli və əziyyətli işlərə, üç-dörd nəfərin narazı qalacağı məsələlərə qoşulmurdular.

Bir qrup da müsbət inqilabçı idi. Öz hörmətlərini xərcləməyə hazır idilər, kömək göstərə biləcəklərini düşündükləri yerlərdə bütün vücudları ilə hazır olurdular. Cəbhədə bir şəkildə, universitetdə bir şəkildə, mədəni, yaxud siyasi işlərdə başqa bir şəkildə önə keçirdilər. Mənfi inqilabçı özünü işdən kənara çəkirdi. Nə vaxtsa əlinə bir iş keçsəydi, heç bir iş görməyən insanlar kimi boşboğazlıq və müxalifət edirdilər. Elə bil ki, heç bir məsuliyyətləri yoxdur. Müsbət inqilabçı isə hətta heç bir vəzifəsi olmasa da, özünü ən məsuliyyətli insan bilib işə girişirdi.

**Müsbət inqilabçı**

Mən sizə demək istəyirəm ki, mənim əzizlərim, gənclər, müsbət inqilabçı olun. Universitet müsbət inqilabçı yetişdirməlidir. Bu xalqın və bu tarixin sizə ehtiyacı var. Özünüzü hazırlamalısınız. Əgər siz səhnədə olsanız, bu ölkəni çox parlaq gələcək gözləyər. Biz bu gün bəzi üstünlüklər baxımından dünyada misilsizik, bəzi cəhətlərdən isə mislimiz azdır. Biz strateji mövqe, dünyanın iki hissəsinin bir-birinə qovuşması və əlaqələri, iqlim rəngarəngliyi və müxtəlif işlər üçün hazırlıq baxımından misli az olan ölkələrdənik. Bəzi mənbələr sarıdan dünyada misilsizik. Ən azı, müxtəlif yeraltı sərvətlərin toplanması baxımından dünyada bənzərimiz

yoxdur; bir tərəfdən neft, qaz və digər yataqlar, digər tərəfdən isə insani resurs. Bizdə bu qədər istedadlı və ayıq-sayıq gənc var.

**Hökumət və xalqın əməkdaşlığı**

Bizim itedadımız, tariximiz var. Hicri dördüncü, yəni miladi tarixi ilə onuncu əsr bizim çiçəkli dövrümüzdür. Bu əsr bizim ölkəmizdə və İslam dünyasında elm və fəlsəfənin çiçəklənmə dövrü, ibn sinalar, farabilər, razilər, böyük ilahi filosoflar əsridir. Elə şəxsiyyətlərin əsridir ki, onların bəzi elmi əsərləri müasir dövrə qədər dünyanı fəth etmişdir.

Bu gün ölkəmizin şəraiti böyük şəxsiyyətlər yetişdirmək baxımından, heç şübhəsiz, ibn sinaları, farabiləri, xarəzmiləri, raziləri, tusiləri və digər alimləri yetişdirən dövrlərdən dəfələrlə əlverişlidir. Nə üçün qoymurlar? Onlar qoymurlarsa, biz nə üçün təslim olmalıyıq?! Nə üçün onların istəyinə uyğun hərəkət etməliyik?! Nə üçün iranlı gənc, siyasətçi, yaxud mədəniyyət xadimi ABŞ-ın, sionizmin və digərlərinin siyasi ideoloqlarının İrana yenidən hökmranlıq etmək üçün ehtiyacları olan işi görməlidir?! Bu, ayıbdır. Heç kəs anlamasa da, öz aramızda ayıbdır. Bizim universitetlərin səmərəsi müsbət, fəal, məsuliyyətli, dindar və ümidli inqilabçılar olmalıdır. Mən buna ümidvaram. Mən universitetlərə, o cümlədən bu əziz universitetə baxdıqda, bunu müşahidə edirəm.

**Olumpiada tələbələri**

Axırıncı məqam bu universitetdə və digər universitetlərdə olan olimpiada tələbələri və elmi cəhətdən seçilmiş tələbələr barədədir. Mən onların barəsində iki söz demək istəyirəm: Birinci söz budur ki, hökumət və məmurlar onları dəyərləndirsinlər, onlar üçün imkan yaratsınlar. Zehni və elmi baxımdan üstün olanlar da təkcə onlar deyillər. Gənc və qeyri-gənc tələbə və müəllimlər arasında beləlləri çoxdur. İmtahanlarda, təcrübələrdə və müxtəlif müsabiqələrdə onların üstünlükləri aydın görünür. Dövlət onları uca tutmalı, elmi inkişaflarına şərait yaratmalıdır. Onlar hansısa ehtiyac üzündən öz çevrələrindən uzaqlaşmamalıdırlar.

İkinci söz budur ki, onların özləri bu istedad əmsalını və yaddaşı milli sərvət bilsinlər. Bunlar milli sərvətlərdir, şəxsi deyil. Bunlardan ölkə, xalq və ailələri üçün istifadə etsinlər. Bunlar Allahın verdiyi əmanət və sərmayələrdir, xüsusi mülk deyil. Deməsinlər ki, dövlət bizə qayğı göstərmədi. Əgər qayğı göstərməsə də, bu, üzr sayılmır. Bunu dedim ki, inşallah, 15-20 il sonra görkəmli elmi şəxsiyyətlər olacaq bu yaxşı gənclər yadda saxlasınlar.

## Sual və cavab

### Mətbuat

**Sual**: Nəşriyyat və mətbu orqanları barədə fikriniz nədir? Siz məhkəmənin onlarla rəftarını dəstəkləyirsinizmi?

**Cavab**: Bu sualı məndən çox soruşurlar. Mənim cavabım budur: Mən öz cəmiyyətimiz və yaxşı yaşamaq istəyən hər bir cəmiyyət üçün mətbuatı zəruri, vacib və qaçılmaz bir amil bilirəm. Məncə, mətbuatın üç əsas vəzifəsi var: tənqid və nəzarət, düzgün və şəffaf informasiya çatdırmaq, cəmiyyətdə fikir mübadiləsinə şərait yaratmaq. Məncə, söz azadlığı xalqın və mətbuatın danılmaz haqqıdır. Buna heç bir şübhəm yoxdur. Bu, konstitusiyanın açıq-aşkar göstərdiyi prinsiplərdəndir. Məncə, bir cəmiyyət azad və mütərəqqi mətbuatı, azad və düşüncəli qələmləri əldən verərsə, çoxlu başqa şeyləri də itirməli olar. Azad mətbuatın olması bir xalqın inkişaf əlamətlərindəndir. Yəni bir tərəfdən xalqın inkişafı və azadlığı onu yaradır və digər tərəfdən, o da öz növbəsində xalqın inkişafını artırmağa qadirdir. Əlbəttə, məncə, bu dəyərin yanında başqa dəyər və həqiqətlər də var. Mətbuat və söz azadlığı adıyla onları tapdamaq olmaz. Böyük hünər odur ki, insan həm azadlığı qorusun, həm həqiqəti dərk etsin; həm azad mətbuatı olsun, həm bu ziyanlara uğramasın. Bu yolla getmək lazımdır.

### Mətbuata nəzarət

Məhkəmənin rəftarı barədə deməliyəm ki, məhkəmənin işinə və hökmünə qarışmağa mən daxil heç kəsin nə haqqı var, nə də buna müdaxilə edir. Hakim azad qərar seçə bilməlidir. Hakimin xeyrinə və əleyhinə heç bir təzyiq olmamalıdır. Bu və ya digər hökmə qarşı təzyiq göstərilməməli, hakimin əleyhinə süni ajiotaj yaradılmamalıdır. Hakim şəraitin təzyiqindən uzaq və arxayın halda qanuna uyğun hökm çıxara bilməlidir. Buna əsasən, müdaxilə olmamalıdır və mənim bildiyim qədər məhkəmələrin nəşriyyat barədə işlərinə müdaxilə edilməyib. Məncə, mətbuata nəzarət bir vəzifədir. Bu, konstitusiyada və mətbuat haqqında qanunda da müəyyənləşdirilib. Heç şübhəsiz, nəzarət olmadan milli maraqlar mətbuat tərəfindən təmin edilməz. Bəziləri elə düşünürlər ki, ictimai rəy azad və qeyd-şərtsiz bir zonadır, bununla istədiklərini edə bilərlər. İctimai rəy laboratoriya siçanı deyil ki, hər kəs onunla istədiyi işi

görə bilsin. Yanlış təhlillərlə, şayiə, böhtan və yalanlarla xalqın iman, duyğu, inam və müqəddəslərinə zərbə vururlar. Axı bu, düzgün deyil! Bu işlərin qarşısını almaq üçün nəzarət lazımdır. Bu, bir vəzifədir və əgər yerinə yetirilməsə, səbəbi soruşulmalıdır. Bu, kimin vəzifəsidir? İlk növbədə hökumətin və sonra hüquq-mühafizə orqanlarının. Əgər dövlət qurumları öz vəzifələrini yerinə yetirsələr, məhkəməyə növbə çatmaz. Əgər dövlət qurumları hər hansı səbəbdən öhdələrinə düşən işi yerinə yetirə bilməsələr, hakim işə girişər. Hakimdən gözləmək olmaz ki, hökm çıxarmasın. Futbol meydançasında da bir hakim qaydanı pozan oyunçuya xəbərdarlıq edir. Əgər xəbərdarlıq faydasız olsa, ona sarı vərəqə, bu da faydasız olsa, qırmızı vərəqə göstərir. Xəbərdarlıq edilən adam qane olmur, əməl etmir, yenidən xəbərdarlıq edirlər, nəticəsi olmur, sarı vərəqə göstərirlər, faydasız olur. Təbii ki, bu zaman qanun ona qırmızı vərəqə göstərir. Daha çarə yoxdur. Hakimdən əsla şikayət etmək olmaz. Məsuliyyətsiz şəkildə xalqın fikrini yönəltmək istəyən şəxsdə bu səlahiyyət yoxdur. İctimai rəy mətbuatla formalaşır. Əgər kimsə məsuliyyətsiz və ya Allah eləməmiş, qərəzli şəkildə buna girişsə, şübhəsiz ki, səhv edəcək. Heç kəs yuxulu adama sürücülük icazəsi verməz; versələr də, siz onun maşınına minməzsiniz.

Əlinə qələm götürən şəxs təqvalı, sədaqətli, iffətli, digərlərinə qarşı insaflı olmalıdır. Mən bu ilin əvvəlində bir söhbətdə dedim ki, bəzi qəzetlər düşmənin bazalarıdır. Bəziləri təəccüb etdilər. Mən bu yaxınlarda eşitdim ki, CİA-nın 28 mordad (19 avqust) çevrilişindən əvvəlki media rolu barədə sənədlər nəşr olunmuşdur. Düzdür, mən özüm görmədim, amma deyilənlərə əsasən, çox maraqlı idi. Göstərir ki, hansı qəzetlər CİA-nın pulu və rəhbərliyi ilə Tehranda 28 mordad çevrilişinə hazırlıq işləri görmüşlər. Bəli, bunun nümunələrini başqa yerlərdə də görmüşük: Salvador Allendenin dövründəki Çilidə mühüm rollardan birini qəzetlər ifa edirdilər. Allendenin ikiillik hakimiyyətini uğursuz göstərmək və bütün fikirləri onun əleyhinə səfərbər etmək üçün bu işi görürdülər və nəhayət, başına bəlli bəlanı açdılar. Düzdür, o zaman heç kəs etiraf etmədi, lakin sonra hamı anladı ki, kimlər olmuşlar, iş başına gələnlərin məqsədi nə imiş, haradan əmr alırmışlar, buna şərait yaradanlar kimlər imiş. Faciənin baş verməsinə qədər səbir edib gözləmək və onu sonradan kəşf etmək olmaz. Bu gün görmək və açıq gözlə hərəkət etmək lazımdır.

**Rəhbərin əmri altında olan qurumlara nəzarət**

**Sual**: Rəhbərə aid idarə və qurumlar nəzarət altındadırlar, yoxsa yox? Sizin orqan və vilayətlərdəki nümayəndələrinizə nəzarət olunurmu?

**Cavab**: Mən deyim ki, heç kəs nəzarətdən kənar deyil. Rəhbərin özü də nəzarətin fövqündə dayanmır, nəinki rəhbərə aid qurumlar. Hamı nəzarət altındadır. Hakimiyyətdə olanlara nəzarət əmanəti qorumaq, sui-istifadə etməmək və nəfslərin tüğyan etməməsi baxımından lazım və vacib bir işdir, mütləq olmalıdır. Əlbəttə, bu bölgü - rəhbərin nəzarəti altında olan və olmayan qurumlar bölgüsü yanlış bölgüdür. Bizdə belə bir şey yoxdur. Konstitusiyaya əsasən, qanunverici, icra və məhkəmə hakimiyyətləri rəhbərin nəzarəti altındadır; digər qurumlar da həmçinin. Rəhbərin nəzarəti altında olmağın mənası bu deyil ki, rəhbər qurumları idarə edir, amma hər halda, fərqi yoxdur, nəzarət olunmaları lazımdır. Təəssüf ki, bizim ölkəmizdə nəzarətlər ixtisaslı, elmi və işlək formada deyil. Bəzi yerlərdə bitərəf olmur. Bunu etiraf etmək lazımdır. Əlbəttə, heç bir dövlət və qeyri-dövlət qurumu hesabatdan qorxmamalıdır. Necə deyərlər, hesabı pak olan nədən qorxsun ki. Bu baxımdan, rəhbərə aid qurumlar nəzarətdən kənar deyillər. Ancaq bunun mənası o deyil ki, heç bir səhvə yol verilmir. Lakin yumşaq yanaşıb səhvlərə icazə vermək fikrimiz yoxdur.

**Rəhbərin informasiya kanalları**

**Sual**: Siz cəmiyyətdə baş verən hadisələrdən necə və hansı kanallarla xəbərdar olursunuz? Hər şeyi sizə deyirlərmi?

**Cavab**: Mən çalışıram rəsmi və qeyri-rəsmi yollardan həqiqətləri əldə edim. Mənə verilən məlumatlar çoxçeşidlidir. Həm müxtəlif informasiya qurumalarından məlumatlar verilir, - Təhlükəsizlik nazirliyindən, silahli qüvvələrin xüsusi idarələrindən və dövlət qurumlarının bəzi informasiya şöbələrindən - həm də bizim dəftərxananın bir şöbəsinin işi informasiyadır. Onlar məktub və telefon vasitəsi ilə daim xalqla təmasdadırlar. Fərdlərlə və müxtəlif ictimai briqadalarla çoxlu görüşlərim olur. Məktub da çox alıram. Hər halda, qulağım çalışır. Eyni zamanda hər şeyi bildiyimi iddia etmirəm. Bu, mümkün də deyil. Ola bilsin, bəzi şeyləri bilirəm, bəzilərini yox. Düşünürəm ki, hakimiyyət qurumlarında olan bir məmur, istər mənim vəzifəmdə, istər digər vəzifələrdə olan şəxslər üçün həqiqətlərdən və xalqdan uzaqlaşmaq tənəzzül səbəbidir. Düşünürəm ki, bir məmur cəmiyyətdə baş verənlərdən xəbərsiz qalmamalıdır. Xalqdan uzaqlaşmaq Əmirəlmömininin ifadəsində xalqdan pərdələnməkdir; yəni pərdə çəkmək və xalqla üz-üzə gəlməmək. Bu, çox təhlükəlidir. O həzrət Malik Əjdərə

buyurur ki, xalqdan pərdələnəndə insanın hər şey haqda məlumatı azalır. Əlbəttə, mən bəzilərinin evlərinə də gedirəm. Allaha şükür olsun ki, prezidentlik dövrünün əvvəllərindən indiyə qədər gördüyüm işlərdən biri budur ki, adi insanların evlərinə gedirəm. Döşənəcəkləri üzərində otururam, onlarla danışıram, həyatlarını yaxından müşahidə edirəm. Bu bəzən çox olur, bəzən az. Bunu da sizə deyim ki, xalqdan xəbərdar olmaq, xəbərlərin bir hissəsidir, digər hissəsi isə düşməndən xəbərdar olmaqdır. Heç kim məndən soruşmur ki, sizin düşməndən xəbəriniz var, yoxsa yox. Mən özüm deyirəm ki, bəli, mən düşmənlərdən də xəbərsiz deyiləm. Bəziləri elə bilirlər ki, biz bəzən düşmən haqqında ağlımıza gələni danışırıq. Xeyr, belə deyil. Bilirik, düşmənin olduğunu duyuruq. Təsadüfən, bir neçə gün öncə ABŞ-ın bəzi mətbu orqanları CİA rəsinin bəzi sözlərini yaydı. Bu bizim bəzi qəzetlərimizdə də əks olundu. O, İranın da adını çəkərək demişdi ki, biz filan qədər ölkədə öz işçilərimizi aktivləşdirmişik. Sonra xüsusi olaraq İranın adını çəkib demişdi ki, bizim ana dili fars olan adamlarımız var. Onların orta yaş həddi otuzdur. Bəziləri üçün bu sual yarana bilər ki, bu sözləri nə üçün deyirlər. İnformasiya çoxalıb başdan aşanda sahibi üçün əhəmiyyəti azalır. Bu zaman sözlərindən çox şeylər anlamaq olur. Bəli, düşməni görməmək hünər deyil.

**Hafizin dövründən bir hekayə**

Hafizin dövründə Şirazda bir-birinin ardınca dörd əmir hakim olmuşdu. Onların biri Şah Şeyx Əbu İshaqdır. Onun adı Şeyxdir, özü şeyx olmayıb. Hafiz bir neçə yerdə onun adını çəkir. Onu çox sevirmiş. Şah Şeyx Əbu İshaq həm gənc, həm gözəl və həm də çox əyyaş olmuşdur. Bölgənin padşahlarından olan Əmir Mübarizüddin Kermandan hərəkət edib Şiraza sarı gəldi; şəhəri tutmaq istəyirdi. Şiraza hücum etmək üçün sakitcə gəlirdi ki, şirazlılar anlamasınlar. O, Şirazı qəfildən mühasirəyə almaq və onlara müdafiə imkanı verməmək istəyirdi. Əhalinin bəzisi və şahın məmurları bundan xəbərdar oldular. Lakin bunu Şah Şeyx Əbu İshaqa deməyə heç kim cürət etmirdi. Düşmən Şiraza yaxınlaşdı və şəhərin bütün divarları qarşısında düşərgə saldı. Şah Şeyx Əbu İshaqın vəziri gördü ki, daha belə olmaz, sabah düşmən şəhərə hücum edəcək, amma padşahın heç nədən xəbəri yoxdur. Düşmənin harada olduğunu bilməmək bir məmur üçün hünərdirmi?! Vəzir Şah Şeyx Əbu İshaqın yanına gəldi, amma gördü ki, məsələni birbaşa deməyə cəsarət tapmır. Ona görə başqa yoldan istifadə etdi. Dedi ki, hava çox gözəldir, bahardır, səhra yamyaşıldır, qalanın üstünə çıxıb bayıra tamaşa etmək istəmirsiniz? Bu bəhanə ilə padşahı

qalanın içindən çıxardı və üstünə apardı. Padşah dama çıxıb baxdıqda gördü ki, kimlərsə biyabanlıqda düşərgə salmışlar. Dedi ki, bu düşərgə kimindir? Dedi Əmir Mübarizüddinindir. Dedi ki, nə vaxt gəlmişlər? Dedi, misal üçün, on gündür. Bu qeyrətsiz və cəsarətsiz padşah dərhal döyüş paltarı geyinmək əvəzinə - düzdür, sonra vuruşdu, əvvəl əsir düşdü, axırda öldürüldü - dedi ki, bunların heyfi gəlmirmi belə gözəl bahar havasında döyüşə gəliblər. Belə insan cəmiyyətin mühüm məsuliyyətlərini üzərinə götürə bilməz.

**Psixoloji müharibə**

**Sual**: Kobudluq haqqında fikiriniz nədir? Siz mərhəmətdən, məntiqdən və dialoqdan danışırsınız. Amma hələ də müxtəlif cinahlarda olan bəzi şəxslər kobudluq təbli çalırlar. Bunu necə həll etmək olar?

**Cavab**: Kobudluq məsələsinə iki baxımdan yanaşmaq olar: əxlaqi və hüquqi, bir də psixoloji müharibə və təbliğat sahəsində. Bunları bir-birinə qarışdırmaq lazım deyil. Hüquqi və əxlaqi baxımdan kobudluq məsələsi aydındır və dəfələrlə demişik ki, kim qanunsuz olaraq başqalarının hüququna təcavüz etsə, kobudluq göstərsə, mühakimə olunmalıdır. İslamın baxışı da belədir. İslamda hədd, qisas və bu kimi cəzalar məhz kobudluğun və zorakılığın qarşısını almaqdan ötrüdür. Xislətində qətl törətmək və oğurluq etmək olan insanın qarşısını almaq üçün cəzalar müəyyənləşdirilmişdir. Bu barədə söhbətə ehtiyac yoxdur. Mən dəfələrlə demişəm, cümə namazında da demişəm ki, zorakılıqla dini cəzaların mənasını eyniləşdirməyin əleyhinəyəm. Hansı cinahdan olursa-olsun, pis bir iş baş verdikdə demək olmaz ki, filan yaxşı cavan, yaxud filan cinahın filan cavanı, yaxud filan yerə bağlı olan filan cavan bu işi görüb, ona görə də bu işin pisliyi bir qədər azalmalıdır. Xeyr, pis pisdir. Bunda müzakirəyə ehtiyac yoxdur.

Amma bir də təbliğat sahəsi var. Burada inqilab əleyhinə psixoloji muharibə başlayıblar. İlk dəfə zorakılığı bizim ölkənin mənfi cəhəti kimi göstərənlər kimlər idilər? Qolları dirsəyə qədər günahsız insanların qanına batmış adamlar, yəni amerikalılar, dünyada istədikləri şəxsi terror edənlər. Zorakılıqdan dəm vuran və onu pisləyənlər bunlardır. Sionistlər və onların radioları zorakılıqdan danışırlar. Bu, siyasət və təbliğat məsələləri kimidir, real baxılası və barəsində fikir yürüdüləsi məsələ deyil. Bunu da unutmaq olmaz. Hakimiyyət acı olan xəstə və ya səfeh bir qrup insan eyni sözləri yenidən təkrarlayırlar. Rəhmət və mərhəmət tərənnümü olan böyük imamı zorakılıqda, kobudluqda ittiham edirlər. İmam arif bir insan və həqiqətən,

mərhəmət tərənnümü idi. İnqilabı belə qətiyyətlə idarə edən bu insan duyğusal məsələlər qarşısında çox dəqiq idi. Mən bir neçə dəfə bunu əyani şəkildə görmüşəm.

Mən ölkənin vilayətlərindən birinə səfər edərkən sonralar övladı şəhid olan bir əsir anası mənim yanıma gəlib imama xoş bir cümlə dedi və onu imama çatdırmağımı təkidlə xahiş etdi. Mən gəlib imama dedim. Gördüm ki, həddən artıq əzab çəkən bir insan kimi oldu, gözləri yaşardı. Müharibə dövründə də uşaqlar cəbhəyə kömək üçün öz daxıllarını cümə namazına gətirib hədiyyə edəndə, ertəsi gün imamın yanına getdim. O bu mənzərəni televiziyada görmüşdü. O qədər həyəcanlanmışdı və təsirli görünürdü ki, mən doğrudan da təəccüb etdim.

İmam hissiyyat tərənnümü idi, olduqca duyğusal və mehriban idi. Belə bir insanı daşürəklilikdə ittiham edirlər. Niyə? Çünki onun vaxtında Mirsad əməliyyatında bir qrup cinayətkar qatilə qarşı qanuni hökm icra edilmişdi. Bir qrup insan xalqla vuruşmuşdu, imam da qanunu icra etmişdi. Əlbəttə, bu işi imam etməmişdi, o zamanın aidiyyətli orqanları etmişdilər. Amma imamı daşürəklilikdə suçlayırlar. İndi də bir qrup qafil, səfeh, yaxud düşmənin planından xəbərsiz insan bunları ölkə daxilində təkrarlayır. Bu, həqiqətən, zülmdür. Bu, inqilab, imam və İslam dəyərləri əleyhinə bir təbliğat davası və psixoloji müharibədir. İndi kimsə kobudluqla mübarizə adı altında bunu irəli sürür. Bunun kobudluq məsələsinə nə aidiyyəti var?! Kobudluq barədə hamının fikri məlumdur. O zaman imam zahirdə bəzi məsələlərə riayət etməyən adamlarla rəftarlarında bəzən sərt davranan şəxslərə qarşı kəskin bir bəyanat verdi. Onlar inqilabçı qüvvələr idilər, amma imam hətta onların da əleyhinə bəyanat verdi. Çünki onlar kobudluq edirdilər, işləri qanunsuz və məntiqsiz idi.

**Tələbə nikahı**

**Sual**: Tələbələrin işə düzəlməsi və nikahı üçün hansı proqramlar nəzərdə tutulmuşdur?

**Cavab**: Bir qədər öncə Mədəni İnqilab Ali Şurası ilə görüşümüz oldu. Mən, çox mühüm məsələ olan məzunların işi ilə bağlı onlarla danışdım. Bu məsələ ilə maraqlanıram. Bu yaxınlarda ölkənin bəzi yüksək rütbəli məmurlarına, xüsusən də Ali Əmək Şurasına tövsiyə etdim. Allaha şükür olsun ki, nəticəsi olub. Bəzi işlər görürlər. Ümidvarıq ki, mütəxəssis qüvvələrin çox əhəmiyyətli olan işsizlik probleminin bir hissəsi parlamentin, hökumətin, Mədəni İnqilab Ali Şurasının və digər aiddiyyətli

məmurların iradəsi ilə həll olunsun. Əlbəttə, bunun bir qədəri də ölkənin ümumi iqtisadi vəziyyətinə aiddir. Qısa müddət ərzində bütün problemlərin aradan qaldırılacağına ümid bəsləmək olmaz. Amma şübhəsiz ki, mühüm işləri yerinə yetirmək olar.

İş məsələsi nikah məsələsi ilə də əlaqədardır. Nikahın maneələrindən biri işsizlikdir. Lakin nikah barədə deyim: Mənim əzizlərim! Nikahın mədəni maneələrini əhəmiyyətsiz saymayın. Nikah gənclər üçün lazımdır. Gənclər də onu istəyirlər, amma bəzi maneələr mövcuddur. Bütün maneələr iqtisadi deyil. İqtisadi maneələr problemin bir hissəsidir. Əsas olan mədəni maneələrdir: adətlər, öyünmələr, bəhslər, dəbdəbələr. Lazım olan işin yerinə yetirilməsinə əngəl törədən bunlardır. Sizin özünüz və ailələriniz bu düyünü açmalısınız. Mən hər il keçirlən tələbə nikahlarına çox sevinirəm. Əgər nikahların sadə, bəzəksiz və təmtəraqsız keçirilməsi adət olsa, düşünürəm ki, problemlərin çoxu həll olunar. İslamda nikahın əsası sadəlik üzərindədir. İnqilabın əvvəllərində də belə idi, lakin təəssüf ki, öyünmə, özünügöstərmə və istehlak mədəniyyəti işi bir qədər çətinləşdirdi. Təəssüf ki, bəzi məmurlar da ailələrindəki nikahlarla bəzi problemlər yaratdılar.

Allahın salamı və rəhməti olsun sizə!

## Tələbənin sualı, rəhbərin cavabı[51]

Bismillahir-Rəhmanir-Rəhim.

Mənim əzizlərim! Çox xoş gəlmisiniz. Əvvəla, siz tələbələrlə və bəzi müəllimlərlə yenidən görüşə bildiyimə, ikincisi isə bu vaxtı ötən həftənin çərşənbə axşamı gününün suallarına cavab vermək üçün ayıra bildiyimə görə çox şadam. O gün ciddi qərara gəlmişdim ki, namazdan sonra gəlim və dediyim kimi, suallara cavab verim. Lakin dostlar qayğıkeşlik və məhəbbət səbəbindən buna mane oldular. Lakin o gün əsla yorğunluq hiss etmirdim. Hər halda, orada sizə verdiyim sözə əməl edə bilmədim. Allaha şükür edirəm ki, sözümə əməl etmək üçün indi fürsət yarandı. Əzizlərin o məclisdə verdiyi suallara bizim dostlarımız burada baxdılar. Yazıların bəzisi sevgi və hörmət ifadəsidir. Çox az bir qismində də bəzi şəxsi və xüsusi istəklər deyilib. Mən bunları ayırdım. 300-ə yaxın vərəqdə isə suallardır. Biz onların hərəsinə 1 dəqiqə vaxt ayırsaq, 5 saat çəkəcək. Yəni bütün suallara cavab verməyim həqiqətən, mümkün deyil. Eyni zamanda dedim ki, sualları əsla seçməsinlər. Ona görə də onları beləcə buraya qoymuşlar. Mən bir-bir onları götürüb cavab verəcəyəm. Ümidvaram ki, günorta azanına qədər onların böyük bir hissəsinə cavab verə bilim. Mənim fikrimcə, bütün suallar övladların atalarına verdikləri suallardır. Bu suallar çox əhatəlidir. Ölkə problemləri, universitet məsələləri, siyasi və iqtisadi məsələlər – bu suallarda hər şey var.

**Sual**: Siz bizə söz vermişdiniz ki, saat 9-da gələcəksiniz, nə üçün 10:30-da gəldiniz?

**Cavab**: Mən ümumiyyətlə, tələbələrlə saat 9-a vaxt qoymamışdım. Mən saat 9-da universitetə gəlmək istəyirdim. Həmin saatda da biz universitetdə idik. Lakin tələbələrlə görüşdən qabaq müəllimlərlə görüşümüz var idi. Ondan qabaq da bu universitetin əziz şəhidlərinin xatirə guşəsində dayandıq, onlara hörmət və sevgi bildirdik. Sonra universitetin tədqiqat layihələri zalına getdik, işləri yaxından gördük, müəllifləri ilə tanış olduq. Orada mən çox yaxşı məlumatlar əldə etdim. Sonra möhtərəm müəllimlərlə iclas keçirdik. Bütün bu görüşlər sizin yanınıza gələnə qədər baş tutdu. Buna əsasən, razılaşdığımız zamanda tələbələrin iclasında hazır olduq. Mən belə yerlərdə çalışıram ki, bir dəqiqə vaxtı da hədər verməyim.

[51] Əmir Kəbir adına Sənaye Universitetinin tələbələri ilə sual-cavablar: 13 mart 2001.

**Sual**: O iclasda iştirak edən tələbələrin bəzisi başqa universitetlərdən gəlmişdilər. Nə üçün?

**Cavab**: Hər halda, o toplantı tələbə toplantısı idi, bu da təbiidir. Əvvəlcədən elan olunmuşdu ki, mən bu universitetə gələcəyəm. Ona görə bəzi tələbələr başqa universitetdən oraya gəlmişdilər. Mən baxanda görürdüm ki, mühit tamamilə pak və nurani tələbə mühitidir.

**Ölkə məsələlərini sadə hesab etmək**

**Sual**: Siz məmləkətin vəziyyətindən xəbərdar ola-ola və xalqın vəziyyətini yaxşı dərk edə-edə nə üçün bir iş görmürsünüz? Əgər məmurlar qulaq asmırlarsa, nə üçün onlara qarşı tədbir görmürsünüz, onların yerinə ləyaqətli, etimadlı və xalqa ürək yandıran kadrlar gətirmirsiniz? Nə üçün bəzilərinin dəmir mühafizəsi olmalıdır, bəzilərinin isə yox?

**Cavab**: Mənim fikrimcə, heç kəsin dəmir mühafizəsi yoxdur. Hamı qanun və öz vəzifəsi qarşısında cavabdehdir. Lakin nə üçün mənim bəzi şəxsləri təyin etməməyimə gəlincə isə, cavab budur ki, qanuna uyğun əməl edirəm. Kadrları təyin etmək rəhbərin işi deyil. Ölkənin ən mühüm və çoxlu sahələrinin təyinatı rəhbərə aid deyil, qanuna uyğun proseduru var. Ona əməl olunmalıdır. Onlara etirazın da öz qanuni proseduru var. Əgər hansısa məmur yaxşı işləməsə və bu, sübuta yetsə, onunla necə rəftar etmək lazımdır? Parlament bir növ rəftar edir, məhkəmə bir növ. Buna əsasən, işlər qanunla həyata keçməlidir. Ölkənin məsələləri də belə sadə, yeknəsəq və bir baxışla ölçüləsi məsələlər deyil. Biz deyə bilmərik ki, filan məmur bacardı, filan məmur bacarmadı. Ölkə məsələləri - istər iqtisadi, istər siyasi, yaxud mədəni işlər mürəkkəbdir. Siz haradasa mənim kiməsə etiraz etdiyimi görürsünüzsə, bu o zamandır ki, bu iş barədə hərtərəfli nəticə əldə olunmuşdur. Belə deyil ki, insan uzaqdan bir məmurun işinə baxıb dəyərləndirə, onu məhkum, yaxud təsdiq edə bilsin. Düzdür, işlərin nəticələri əməldə görünməlidir. Mənim istər Ali Məhkəmənin, istər icraçı hakimiyyətin məmurlarına həmişəki tövsiyəm budur ki, qanun pozuntularına tədbir görərkən heç kəsdən çəkinməsinlər. Bu yaxınlarda seçilən bir neçə yeni nazirə də yenidən bunu xatırlatdım. Məhkəmə işçiləri də öz işləri çərçivəsində əsla çəkiməməli və heç nəyi nəzərə almamalıdırlar. Əgər məmurlarda bu hiss yüksəlsə, normal görünməyən məsələlərin çoxunun həll olunmasına ümid yaranar.

**Rəhbərin seçilməsi**

**Sual**: Əgər siz mənim kimi adi bir vətəndaş olsaydınız, özünüzə itaəti vacib olan rəhbər olaraq kimi və hansı xüsusiyyətləri seçərdiniz?

**Cavab**: Mən konstitusiyaya uyğun olaraq axtarıb fikrimcə fəqih, yəni din və dini bilgilərlə tanış olanı, ədalətli, təqvalı və cəsarətli olanı, müxtəlif işlərdən qorxmayanı və ölkə məsələlərilə də tanış olanı rəhbər seçərdim. Əlbəttə, o da konstitusiyaya uyğun olaraq seçilməlidir. Çünki rəhbər də qanun əsasında seçilir. Belə deyil ki, biz hər hansı bir şəxsi rəhbər kimi gətirib deyək ki, bizim rəhbərimiz budur. Başqa bir nəfər də desin ki, xeyr, bizim rəhbərimiz odur. Bunun üçün də qanun mövcuddur; konstitusiyaya və qanunlara uyğun olaraq seçilir.

**Rəhbərin vəzifələri**

**Sual**: Sizin fikrinizcə, rəhbərin hansı vəzifələri var?

**Cavab**: Bu da qabaqkı sualın davamıdır. Rəhbərin vəzifələri konstitusiyada göstərilənlərdir. Rəhbər quruluşun ümumi siyasətini təyin edir. Yəni hər üç hakimiyyət rəhbərin siyasətləri çərçivəsində proqram hazırlamalı və öz icra siyasətlərini tənzimləməlidirlər. Quruluşun ümumi hərəkəti rəhbərin müəyyən etdiyi siyasətlər çərçivəsində olmalıdır. Bu, rəhbərin ən mühüm vəzifəsidir. Konstitusiyada digər vəzifələr də nəzərdə tutulub. Mən tövsiyə edirəm ki, ona müraciət edəsiniz.

**Sülalə postu**

**Sual**: Nə üçün cəmiyyətdə mövcud olan, xalqın əziyyət çəkməsinə, inciməsinə və ümidsizliyinə, dövlətin idarəsinə layiq olan insanların və istedadlı alimlərin də ölkədən getməsinə səbəb olan müxtəlif problemlər, o cümlədən idarələrdə, sülalə postlarında çox görünən hərc-mərclik qarşısında sükut etmisiniz?

**Cavab**: Əgər mən bu əziz qardaşımızın, yaxud bacımızın kağız üzərində yazdığı məsələlərlə rastlaşsam, heç şübhəsiz, sükut etmərəm. Mən heç bir yerdə sülalə postu görməmişəm. Bəli, kimsə bir şəxsiyyətə bağlılığı səbəbindən çalışıb bəzi iqtisadi işlər görə bilər, – belələrinə qarşı da qanuni tədbir görmək lazımdır - lakin cəmiyyətdə sülalə postunun olmasından, atadan sonra oğlunun onun vəzifəsini irs aparmasından doğrudan da xəbərim yoxdur. Əgər olsa, əmin olun ki, susmaram.

**Tələbələrin rifahı**

**Sual**: Əmir Kəbir universitetində təhsil və rifah məsələlərinin keyfiyyətinin aşağı olması və tələbələrin rifah işlərinin idarəçiliyinin zəifliyi bu universitetin tələbələrində narazılıq doğurur.

**Cavab**: Mən deməliyəm ki, bizim dostlarımızın, universitetin rektorunun və orada iştirak edən müəllimlərin tələbələrlə görüşdən qabaqkı iclasda sözləri ən çox bu idi. Onlar da bəzi məhdudiyyətlər çərçivəsindədirlər. O iclasda universitetin sahəsinin genişləndirilməsi və xidmət məsələlərindən söhbət açıldı. Onlar bu problemlərini mənə dedilər. Halbuki bunlar Təhsil nazirliyinə, yaxud İdarəçilik və Planlaşdırma Komitəsinə deyilməlidir. Əlbəttə, mən bu məsələlərlə maraqlanacağam. Dəftərxanaya da demişəm ki, maraqlansınlar. Məmurlara da tapşırmışam, yenə də tapşıracağam. Lakin məqsədim budur ki, sizin universitetinizdə olan bu rifah problemləri, tələbə problemləri, təhsil, internet, kompüter və digər problemlər təsadüfən, o cənabların da problemi idi. Onlar da bunu dedilər. Onlar da bu barədə düşünürlər. Ümidvarıq inşallah, aradan qaldırılsın.

**Pəhləvi rejiminin tarixini bilməyin zəruriliyi**

**Sual**: Hal-hazırda bəzi məmurlar şübhə yayır, riyakarlıq edir və nəticədə İslam quruluşunun simasını ləkələyirlər. Bu baxımdan, diqqətsizlikdən və yersiz sərtlikdən uzaq durmaq, Allahın bəyəndiyi və İslama uyğun qərarlar vermək üçün hansı çıxış yollarını təklif edirsiniz?

**Cavab**: Mən bütün gənclərə və xüsusən də tələbələrə tövsiyə edirəm ki, öz məlumatlarını artırsınlar. Sizin gördüyünüz bu əyintilərin çoxu məlumatın azlığından qaynaqlanır. Bugünkü nəsil, xüsusən də bizim gənc nəslimiz ölkələrinin tarixini, xüsusən Məşrutə dövründən sonranı bilməlidir. Siz hansı fənn üzrə təhsil almanızdan asılı olmayaraq, cəmiyyətin aparıcı insanları olduğunuzdan - bundan sonra isə inşallah, daha aparıcı insanlardan olacaqsınız - ölkənizin keçmişdə və indi hansı mövqedə olduğunu bilməlisiniz. Siz xüsusən keçmiş rejimin tarixini bilməlisiniz. Bizim bugünkü nəslimiz yaxşı bilmir ki, İslam inqilabı bu ölkəni necə bir rejimin caynağından xilas etmişdir. Bunu həmin rejimi əti, qanı və bütün varlığı ilə hiss edən bizlər yaxşı bilirik. Bunlar deyilməlidir. Düzdür, bu sahədə bəzi sözlər yazılmışdır. Keçmiş rejim fəsad dolu, tam asılı, ədalətdən tamamilə uzaq bir rejim idi, xalqın vəziyyəti onları əsla maraqlandırmırdı. Onlar üçün bir amerikalı müstəşarın, yaxud bir sionist səyyahın dəyəri İran xalqının böyük bir hissəsindən qat-qat artıq idi. O rejimin ünsürləri müftəxorluğa, tamahkarlığa, milli sərvətləri talamağa,

ölkənin bütün imkanlarından qanunsuz istifadə etməyə alışmışdılar. O rejim qanunsuz əsas üzərində qurulmuşdu. O zaman hakimiyyət başında olan və təxminən 35 il hökmranlıq edən şəxs yalnız qabaqkı şahın oğlu olduğuna görə şah olmuşdu. Siz görün hakimiyyətə gəlmək üçün necə yanlış məntiq mövcud idi. Bütün hakimiyyət və sərvətlər onun ixtiyarında idi. Əgər soruşsaydılar ki, siz hansı səbəbdən hakimiyyətə gəlmisiniz, cavab bu olacaqdı: "Çünki məndən qabaq atam şah olmuşdur". O, ingilislərin birbaşa istəyi və dəstəyi ilə iş başına gəldi, 35 il hakimiyyətdə qaldı. Bəllidir ki, məmləkət onu hakimiyyətə gətirən və himayə edən şəxslərin olacaq. Biz belə bir rejimi arxada qoyduq. Onun atası nə üçün hakimiyyətə gəlmişdi? Çünki İngiltərə dövləti burada çevriliş etmiş və belə istəmişdi. Siz bunları bilməlisiniz. Siz 1921-ci ilin martındakı Rza xan çevrilişinin, 1924-cü ildə onun şah elan edilməsinin və sonra Məhəmmədrzanın canişin olmasının tarixini bilməlisiniz. Bu barədə yaxşı televiziya proqramları hazırlayıb, kitablar da yazıblar.

Sizin dünya məsələləri barədə məlumatlarınız yüksəlməlidir. Düşünürəm ki, bu inqilabın ölkəni hansı qaniçən canavarların əlindən aldığını, bu 22 ildə hansı zəhmətlərə qatlaşdığını və buraya çatdığını, onunla hansı düşmənçiliklər edildiyini və indi necə pusqular qurulduğunu bilən hər bir şəxs, hər bir gənc və tələbə bu quruluşda nə etməli olduğunu yaxşı anlayar, öz vəzifəsinin nə olduğunu təyin edər. İranlı gənc aydın, istedadlı, həm də siyasidir, qaranlıq məqam qalmayacaq. Buna əsasən, mənim təklif etdiyim çarə kitab oxumaq, mütaliəni artırmaq, tələbə cəmiyyətlərini düzgün və həqiqi müzakirələrə cəlb etməkdir. Bəli, özünüislah, mənəviyyat, qəlbi işıqlandırma və bu kimi məsələlər də geniş mövzulardır. Öz yerində bunların üzərində təkid göstərilməlidir.

**Allah dərgahında ağır məsuliyyət**

**Sual**: Siz özünüzü Allah dərgahında necə dəyərləndirirsiniz?

**Cavab**: Mən özümü Allah dərgahında zəif bir bəndə kimi görürəm. Bu sözüm nə komplimentdir, nə də lütfkarlıq. Həqiqət budur. Mən üzərinə ağır məsuliyyət qoyulan zəif bir bəndəyəm. Çalışıram ki, öhdəmə düşəni yerinə yetirim.

**Uca amallı inqilab**

**Sual**: İslam inqilabının əvvəllərində bu inqilabın iddiaları vardı. Hal-hazırda təxminən 20 il ötdükdən sonra o iddialar nə qədər gerçəkləşib?

**Cavab**: Əhəmiyyətli sualdır. Bu inqilabın iddiadan çox amalları vardı. İnqilab gəlməmişdi ki, İran xalqı üçün cavabdehlik daşısın. İnqilab xalqın özünün inqilabı idi. Xalq bəzi amalları həyata keçirmək üçün inqilab etdi. Bu amallar gözəl və azad bir ölkə qurmaq, ayıq və ictimai ədalətə sahib bir xalqa malik olmaq, elmi asılılıq, gerilikdən, diktaturadan və o zaman bu məmləkətdə geniş yayılmış şiddətdən xilas olmaqdan ibarət idi. Soruşursunuz ki, biz nə qədər bu məqsədlərə çatmışıq. Mən deyirəm ki, bu məqsədlər tədricən həyata keçir. Onlar üçün çalışmaq, işləmək və addım-addım irəliləmək lazımdır. İslam quruluşu hazır evlər kimi bir şey deyil. Elə bir quruluşdur ki, onu kərpic-kərpic, daş-daş düzmək və qaldırmaq lazımdır. Bu iş əsnasında, təbii ki, bəzi problemlər qarşıya çıxacaq. Mənim dediyim bu anlayışlar, dövlətin əsaslarından olan ictimai ədalət, azadlıq, ayıqlıq və mənəviyyat ehkamçı anlayışlar deyillər. Bunlar zamanın inkişafına və tələblərinə uyğun olaraq, real nümunələrinin dəyişilməsi mümkün olan anlayışlardır. Olduqca zəhmətli və çətin olan bu işin əsnasında bəzi problemlərin qarşıya çıxması təbiidir. Çünki daimi olaraq mühəndislik və memarlıq işləri görmək, ehtiyatlı olmaq lazımdır ki, bu binanın heç bir nöqtəsi düzgün istiqamətə əks olmasın. Bəzən fikir müxtəlifliyi, materialların, işçi qüvvəsinin azlığı mümkündür. Mümkündür düşmən bu binanı mancanaqla hədəfə alsın və onun bir tərəfini dağıtsın. Bəzən mümkündür bənna, yaxud fəhlə bu binanın bir tərəfində işini düzgün yerinə yetirməsin. Gedib onu təmir etmək lazımdır. Bəzən binanı quranların və memarların özlərində zəiflik və tənbəllik yarana bilər. Nöqsanların həmişə xaricdən və digərləri tərəfindən yönəldiyini deyə bilmərik. Bu baxımdan, bu yolda çoxlu problemlər mövcuddur. Materialların azlığı, yarımçıq yoldaşlar, tamahkar və hakimiyyət axtarışında olan insanlar bu problemlərin bir hissəsidir. Biz bu quruluşu düzəltməli və az-az, addım-addım irəliləməliyik.

**Çoxlu inkişaflar**

Əgər məndən soruşsanız ki, nə qədər irəliləmişik, deyəcəyəm ki, biz çox irəliləmişik. Qeyd etdiyim kimi, bu ölkənin keçmişi ilə tanış olan hər kəs bunu təsdiqləyər. Bu ölkədə xalqı saymırdılar, amma bu gün xalq qərarların sahibidir. Bu ölkədə mənəviyyat kəskin hücuma məruz qalırdı, onu məhv etməyə çalışırdılar, amma bu gün mənəviyyat işığı xalqın arasında aydın şəkildə parlayır. O günlər gənclər bilərəkdən fəsada sürüklənirdilər. Bəlkə də eşitmisiniz ki, ölkə başçıları və onların ailələri narkotika mafiyalarının ən mühüm şərikləri idilər. Ölkəyə heroini ilk dəfə

onlar gətirdilər. Fəsadı, aludəliyi və bədbəxtliyi öz əlləri ilə yayırdılar. Bu gün görürsünüz ki, quruluş bütün vücudu və bütün gücü ilə bu problemlərin qarşısında dayanmışdır. Bütün dünya da onun işini təsdiqləyir. Lakin o zaman məmurlar üçün nümayişkaranə işlər birinci dərəcədə əhəmiyyət kəsb edirdi. Kəndlərə, kənd yollarına, kəndlərin elektrik enerjisinə və uzaq şəhərlərdə olan digər məsələlərə əsla diqqət göstərilmirdi. Ad çəkirdilər ki, biz ölkədə görkəmli insanlar yetişdirmək istəyirik, lakin 50 il ərzində təxminən 150 min tələbə toplaya bilmişdilər. Mən Sistan və Bəlucistan vilayətində sürgündə idim. O zaman dəqiq statistikanı bilirdim, amma indi yaxşı yadımda deyil. Deyəsən, o zaman 600-700 min əhalisi olan bu vilayətdə yalnız 3 nəfər bakalavr təhsilli insan vardı, attestat almış sakinləri də çox az idi; misal üçün, 20 nəfər. Bu gün isə ölkənin bütün şəhərlərində universitet var. Hətta şəhərlərin çoxunda müxtəlif universitetlər, çoxlu tələbələr, fənlər və elmi nailiyyətlər mövcuddur.

**Amerikalıların hökmranlığından bir nümunə**

Mən dəfələrlə demişəm ki, amerikalılar öz döyüş təyyarələrini və digər aparatlarını bizə satırdılar, amma onları təmir etməyə icazə vermirdilər. Onların satılmasının macərası da maraqlıdır. O zaman İranla ABŞ arasında müştərək fond vardı. Mən inqilabın əvvəllərində müdafiə nazirliyinə gedib orada işləyəndə bunu kəşf etdim. Sonra parlamentə getdim və onunla maraqlandım. Təəssüf ki, amerikalılar bu günə qədər də cavab verməyiblər. FMB adlı bir fond vardı. İran hökuməti pulu o fonda köçürürdü, malın qiyməti, növü və pulu götürmək isə amerikalıların işi idi. İnqilab qələbə çalanda bu fondda milyardlarla dollar pul vardı. Amerikalılar hələ də cavab verməyib və o pulları İran xalqına qaytarmayıblar. Təyyarə İrana gələndə bir müddətdən sonra təmirə ehtiyacı olurdu. Siz elə bilirsiniz ki, burada təmir yerləri vardı? Əsla yox. Özü onlarla kiçik detaldan təşkil olunmuş xarab hissənin burada təmir olunmasına icazə vermirdilər, təyyarə ilə ABŞ-a göndərirdilər, orada yenisi ilə əvəzləyib yenidən İrana qaytarırdılar. Bu xalqla belə rəftar edirdilər. Bu gün İran xalqı o təyyarə kimisini düzəldir. Bizim istehsal etdiyimiz Tondər təyyarəsi uçdu. Bu vəziyyət ümumiyyətlə, o dövrlə müqayisəolunmazdır.

**İdeyaların gerçəkləşməsində uzun yol**

Biz çox inkişaf etmişik, lakin məndən “bu hədd səni qane edirmi?” – deyə soruşsanız, cavabım budur ki, əsla. Bizim hələ çox yolumuz var. Həm

İslamın bizdən istədiyi ictimai ədalətə, - İslam bu sahədə çox sərtdir - həm İran xalqının haqlı və layiqli olduğu azadlıq səviyyəsinə hələ çatmamışıq. Bizim hələ işimiz var. Bu yol uzun yoldur. Mən buna görə dəfələrlə gənclərə deyirəm ki, özünüzü hazırlayın. Siz bu yolu keçməlisiniz. Bu yolun hər bir kilometrində "dayanmaq qadağandır" nişanı vurulmuşdur. Bu yolda dayanmaq olmaz. İctimai ədalətin əsgərləri yorulmamalıdırlar. Bu uzun yollarda və ideallarda hərəkət edən şəxslər yorğunluq hiss etməməlidirlər. Bir xalq öz amallarına belə nail olur. Heç bir xalq tənbəlliklə xoşbəxt olmur. Bir xalq üçün ən böyük bəla bütün məqsədlərinə çata bilməyəcəyini düşünüb işdən soyumasıdır. Xeyr! Məqsədləri izləmək lazımdır.

**İslam inqilabı adlı bir kapital**

Mən sizə deyim ki, xalqımızın malik olduğu maddi və humanitar sərvətlər misilsizdir. Mən inqilabın əvvəllərində xarici ölkələrdə təhsil almış etimadlı dostlardan eşitdim ki, dünyanın birinci dərəcəli elm mərkəzlərində tələbələr arasında iranlılar istedad baxımından həmişə üstün olmuşlar. Düzdür, təəssüf ki, onların çoxu o zaman mövcud olan bəzi səbəblərdən yollarını sona qədər davam etdirmirdilər. Çox əhəmiyyərli olan bu böyük humanitar və maddi sərvətlərdən əlavə, İslam inqilabı adlı çox böyük kapitalımız var. O bizi oyatmış, özümüzə gətirmiş, insani dəyərlərlə tanış etmiş, ölkəmizin dünyadakı əhəmiyyətli siyasi və coğrafi mövqeyi ilə tanış etmişdir. Bilirik ki, bizim ölkəmiz böyük ölkədir və dünyada istər elmi, istər siyasi və iqtisadi inkişaf baxımından öz yerini tutmalıdır.

**Dünyanın ən doğru xalq quruluşu**

Bu gün bizim quruluşumuz mübaliğəsiz olaraq dünyanın ən doğru xalq quruluşudur. Xalqla məmurlar arasındakı əlaqə dünyanın heç bir yerində belə deyil. İndi mənimlə sizin aranızda və digər məmurlarla keçirilən belə səmimi iclas dünyanın heç bir yerində keçirilmir. Dünyanın məşhur demokratiyaları əslində, böyük kartellərin, trestlərin və kompaniyaların hakimiyyətidir. Bu, ABŞ-ın son seçkilərində də özünü göstərdi. İşi görənlər əslində, onlardır. Xalq özünü səhnədə hiss etsə də, təsirli deyil. Bizim belə böyük sərvətlərimiz var.

**Sərvətləri aşağılamaq**

Çoxları bu sərvətləri əhəmiyyətsiz göstərməyə çalışırlar. Onlar bu sərvətləri bizim əlimizdən almaq istəyənlərdir. Bir insanın əlindəki dəyərli malı almaq üçün dünyanın bütün dəllalsifətlərinin və yaramaz adamlarının istifadə etdiyi yollardan biri malı gözdən salmaqdır. Təkrar-təkrar deyirlər ki, bu malın dəyəri yoxdur, get ondan qurtul. Bu ona görə deyilir ki, bizim əlimizdə böyük bir sərvət var və bunu onlara vermirik. Bu baxımdan, mənim siz gənclərə tövsiyəm budur: işləməli və çalışmalısınız.

Mən özüm sizin yaşlarda olanda, yəni mübarizə və inqilab dövründə gecə-gündüz bilmirdim. Allaha şükür edirəm ki, bizim gənclik dövrümüz daim işdə keçib. Amma indi yaşım altmışı ötüb, qoca sayılıram. Allaha şükür edirəm ki, hələ də rahatlığım yoxdur. Mən həmişə məşğulam, nə qədər ki, sağam və bacarıram, belə işləyəcəyəm. Mənim hamıya tövsiyəm budur ki, fəaliyyət göstərsinlər, işləsinlər.

**Aydın gələcək**

**Sual**: Siz bu inqilabın və quruluşun gələcəyini necə görürsünüz?

**Cavab**: Dediyim sözlərdən bu sualın cavabı da bəlli oldu. Mən gələcəyi çox aydın görürəm. Ölkəmizdəki bu qədər böyük gənc nəsli çox səmərəli bilirəm. Bu, çox dəyərlidir. Məmurlarımız da yaxşı məmurlardır. Düzdür, hər halda, nöqsanları da var. Lakin xoşbəxtlikdən, ümumi olaraq, bu gün yaxşı insanlar iş başındadırlar. Buna görə gələcək yaxşıdır.

**Məmurlara nəsihət**

**Sual**: Sizin fikrinizcə, yüksək rütbəli dünyagir məmurlarla necə rəftar etmək lazımdır?

**Cavab**: Siz bir cür rəftar etməlisiniz, mən başqa cür, məhkəmə orqanları da başqa cür. Mənim fikrimcə, siz bacardığınız qədər nəsihət edin. Kimin dünyagir olduğunu duysanız, bacardığınız hər hansı yolla nəsihət edin və bilin ki, nəsihət hər zaman təsirlidir.

**Universitet və sənaye orqanlarının birləşdirilməsi**

**Sual**: Bu günlər çox danışılan, lakin əsl dinləyicilərin az diqqət yetirdiyi bir məsələ beyinlərin qaçışıdır. Mən bilmirəm bu qədər zəhmətlə təhsil almış istedadlı gənclərin mühacirətinin qarşısını necə almaq olar. Nümunə üçün, mənim özüm öncül universitetlərdən biri olan Əmir Kəbir universitetində ağır fənlərdən birinin magistratura pilləsində təhsil almışam, lakin özümə münasib bir iş tapa bilmirəm. Problem təkcə tanış-bilişin olmamasında deyil, ümumiyyətlə, münasib iş yoxdur. Şirkət və

zavodların çoxu bəzi köhnə texnologiyalarla kifayətlənirlər. İdarə etməli olan məmurlar tərəfbazlıqla və daha çox imkan əldə etməyə çalışmaqla məşğuldurlar. Xalqın seçdiyi prezident belə təzyiq altındadır və xalq bunu görür. Heç kim söhbət etməyə cürət etmir, çünki həbsxanaya düşə bilər. Biz kimlər üçün çalışaq?! Müqəddəs ruhani geyimində olub dünyəvi maraqlar güdən şəxslər üçün?! Belə nəzərə çarpır ki, Quranda hicrət haqqında çoxlu ayələrə əsaslanaraq, sağlam qalmaq üçün vəzifəmiz getməkdir.

**Cavab**: Əvvəla, fəsadın ruhani və qeyri-ruhanisi olmur. Əgər ruhanilər fəsada uğrasalar, fəsadları daha artıq olar. Mən bu möhtərəm dostumuzun sözünü təsdiqləyirəm ki, əgər ruhanilər Allah eləməmiş, fəsada yönəlsələr, zərəri digərlərindən daha çox olacaq.

Deyildi ki, şirkət və zavodlar köhnə texnologiyalarla kifayətlənirlər. Doğrudan da belədir. Çox yerlərdə bu formadadır. Bunun çarəsi də mənim həm sizə, həm də dövlət məmurlarına həmişə dediyim yoldur. Bu iş görülməlidir və görüləcək. Ölkənin elmi qurumları ölkənin sənaye korpusuna birləşdirilməlidir. Bu zaman həm elmi qurumlar aktivləşər, yəni elm əməllə birləşər, həm də sənaye qurumları inkişaf edər. Amma bu iş hələ baş verməmişdir. Lakin mən həm qabaqkı, həm də indiki möhtərəm prezidentə təkidlə tövsiyə etmişəm ki, bu iş nazirliyin işi deyil. Biz bir nazirliyin, misal üçün, Sənaye, yaxud Təhsil nazirliyinin bu işi görməsini deyə bilmərik. Bu yalnız prezidentin işidir. Yəni prezident aparatında bir şöbə açmaq lazımdır və o şöbənin işi yalnız universitetləri komitə formasında sənaye qurumlarına birləşdirmək olmalıdır. Bunun rəhbəri də təyin olundu, amma deyəsən, hələ icra olunmayıb. Bu iş heç şübhəsiz, icra olunacaq və olunmalıdır. Çarə budur.

Bu gün ölkədə sənaye potensialları odluqca böyükdür. Mən əminəm ki, bu sözü yazan dostumuzun ölkənin çoxlu sənaye mərkəzləri haqda məlumatı yoxdur. İndi çox yaxşı və mütərəqqi işlər görülməkdədir. Əgər siz ildə bir dəfə keçirilən sənaye sərgisinə getsəniz, bu həqiqəti görərsiniz. Doğrudan da sevindirici və bəzən heyrətləndiricidir. Mən İranı 200 ildir sənaye işində öncül olan hansısa Avropa ölkəsi ilə müqayisə etmək istəmirəm. Biz hələ 20 ildir ki, işə başlamışıq. Çünki inqilabdan qabaq bu sözlər mənasız idi. İnqilabdan qabaq ölkənin ən mühüm zavodu - yalnız montaj xarakteri daşıyan "İran Xodro" zavodundan ibarət idir. Əsla belə istehsal, quruculuq və yenilik yox idi. Biz hələ 20 ildir başlamışıq. Bu 20 ilin 8 ili müharibədə keçmişdir. Əgər dəqiq hesablasaq, 10-12 ildir ki, biz bu işlərə başlamışıq. Bu baxımdan, çox şey gözləmək olmaz. Özümüzü o

ölkələrlə müqayisə etmək istəmirəm, amma bu sahədə sürətlə inkişaf etmişik və inşallah, inkişaf edəcəyik. Əgər mənim möhtərəm prezidentlərə dediyim bu məsələ tez icra olunsa, şübhəsiz, yaxşı təsirləri olacaq. İndi özüm də bununla məşğulam. Dünən bir qrupla müştərək bir işimiz vardı. Mən yenə də bu məsələni tapşırdım.

**Nizam-intizam və diqqət**

**Sual**: İmam Nəcəfdə bir yerdən keçəndə insanlar öz saatlarını onun keçməsilə tənzim edirdilər. Amma düzgün deyil ki, biz öz rəhbərimizi görmək üçün 1 saat gözlədik.

**Cavab**: Mən sizin burada yazdığınız nizam-intizam və saat dəqiqliyini iddia etmirəm. Amma xüsusən təşkilatlara verdiyim vədlərə çox əhəmiyyət verirəm, yəni dəqiqəni hesablayıram. O gün mən vaxtında gəldim, bəlkə də iclasa 2-3 dəqiqə tez girdim. Bizim razılaşdığımız vaxt 10:30 idi. Əgər siz 1 saat gözləmisinizsə, hər halda, bu mənim günahım deyil.

**Mədəni qurumlar**

**Sual**: Sizin fikrinizcə, ötən 20 ildə mədəni qurumların uğursuz fəaliyyətinin səbəbi nə olmuşdur?

**Cavab**: Demək olmaz ki, mədəni qurumların fəaliyyəti bütünlüklə uğursuz olmuşdur. Xeyr, çoxlu uğurları da olmuşdur. İnsanlar adətən stəkanın boş yarısını görürlər, dolu olan yarısına çox da fikir vermirlər. Ölkənin mədəni qurumlarının uğurlu işləri də olmuşdur. Amma uğursuzluqlar bir neçə amildən irəli gəlir: az çalışmaq, az yenilik etmək və sair. Bunlar idarəçiliyə aiddir. Zəif rəhbərliyin adətən, işləri, yenilikləri, bacarıqlı insanlara aid seçimləri ya azdır, ya da Qərbin mədəni hücumu qarşısında təslim olurlar. Bunu əhəmiyyətsiz saymayın. Mən 7-8 il bundan əvvəl mədəni hücum məsələsini irəli sürdüm, amma çoxları buna qarşı sərt mövqe bildirib dedilər ki, mədəni hücum nədir? Halbuki bu çox əhəmiyyətli, həssas və təhlükəli bir məsələdir. Qərblilər çalışırlar ki, öz mədəni adətlərini müxtəlif ölkələrə yeritsinlər. Əgər bir müdir bunların qarşısında geri çəkilsə, baş verənlər qarşıya çıxar. Müdirlərin geri çəkilməsi mədəni qurumları məqsəddən yayındıran ən mühüm, təsirli və zərərli amillərdən biridir. Mədəni qurum yolundan yayınsa, nəticəsi bayırda bəlli olur. İnsanların elmi, mədəni və praktik inkişafı istiqamətində film çəkməli, kitab nəşr etdirməli və bütün mədəni vasitələri bu yolda işlətməli

olan bir qurumun bu sahələrdə az işlədiyini görəndə təbii ki, onları məzəmmət edirəm.

**Müdiriyyətlərdə dəyişiklik**

**Sual**: Yaradıcılıq və yeni çıxış yolları tapmaq üçün qurumların və informasiya vasitələrinin başçılarını əvəzləmək zəruri görünmür?

**Cavab**: Görünür. Daha bacarıqlı və yaxşı kadrlar tapıb zəif məmurlarla əvəzləsək, şübhəsiz, çoxlu təsirləri olar. Mənim vəzifəli şəxslərə, nazirlərə və onlardan da yüksək məmurlara tövsiyəm həmişə bu olmuşdur.

**Cümə namazı**

**Sual**: Sizin fikrinizcə, cümə namazı bəzi qüvvələrin öz əməllərini müdafiə etmələri üçün tribunaya çevrilməmişdirmi?

**Cavab**: Xeyr. Mən belə düşünmürəm. Məgər kimlər cümə namazında gəlib öz işlərini müdafiə edirlər? Tehranın cümə imamlarından bir-ikisi hansısa vəzifədə çalışa bilər, amma qalanları məmur deyillər. Düzdür, bəzi şəxslərin gəlib özlərinin bəzi xidmətlərini demələri mümkündür; istər cümə imamları, istərsə xütbələrdən qabaq çıxış edən natiqlər. Amma bir məmurun öz işlərini xalqla bölüşməsində də eyib yoxdur. Çünki hər halda, cümə namazı tribunasının vəzifələrindən biri budur ki, dinləyiciləri ölkənin vəziyyəti ilə tanış etsinlər.

**Sual**: Sizin fikrinizcə, bizim cümə namazında iştirak etmək marağımız necə güclənə bilər?

**Cavab**: Mənim ürəyim istəyir ki, gənclər iştirak etsinlər. Çünki cümə namazının faydalı olduğunu düşünürəm. Həftə boyunca 1 saatı bu işə ayırmaq çox deyil. Həm ibadətdir, Allah zikridir, həm də yaxşı sözləri dinləməkdir. Lakin siz təkcə cümə söhbətlərini yox, məndən, yaxud digərlərindən eşitdiyiniz bütün söhbətləri öz beyninizdə təhlil edin. Deyin ki, onun bu hissəsi düz idi, bu hissəsi səhv idi. Eybi yoxdur. Əgər siz və cümə namazının digər dinləyiciləri bu tövsiyəyə əməl etsələr, danışanın sözünün faydalı hissəsindən istifadə edərlər, zərərli hissəsi də onlara zərər toxundurmaz. Mənim fikrimcə, bu, cümə namazında iştirak etməmək üçün səbəb deyil.

**Fəqih rəhbərin işinə nəzarət**

**Sual**: Fəqih rəhbərin işinə nəzarət necədir? Dini Eksperlət Məclisi ildə iki dəfə toplantı keçirir, çox zaman da bəyanatla kifayətlənir. Bu gedişlə Dini Eksperlət Məclisi fəqih rəhbərə nəzarət edə bilərmi?

**Cavab**: Dini Eksperlət Məclisinin bir Təhqiqat qrupu var. Rəhbərin işlərinə nəzarəti bu qrup həyata keçirir. Onun işi ildə bir dəfə deyil, öz işlərini görürlər. Rəhbərin işi də onların gözü qarşısındadır. Xoşbəxtlikdən, rəhbərlik qurumu və rəhbərin işləri gizli işlər deyil. Çünki rəhbərin vəzifə və funksiyaları müəyyəndir. O qrup gəlib təhqiqat aparır, araşdırır. Təhqiqat qrupunun arxasında da Dini Eksperlət Məclisinin özü dayanır. Bu heyət gedib onlara məlumat verir. Dini Eksperlət Məclisinin üzvləri toplantı keçirdikləri 1-2 gündə çoxlu müzakirələr aparırlar, təkcə bəyanat vermirlər. Bəli, mediada bəyanatları yayımlanır, lakin orada çoxlu söhbətlər olur, müxtəlif nəzərlər irəli sürülür. Onlar öz işlərini yerinə yetirirlər. Elə ağır bir təşkilat üçün ildə iki dəfə toplantı da az deyil. Dini Eksperlət Məclisinin toplantıları əvvəllər ildə bir dəfə keçirilirdi. Bir neçə ildir ki, artıq ildə iki dəfə təşkil olunur. Dini Eksperlət Məclisinin arxasında da xalq dayanır.

Nəzarət ciddi və çəkinmədən aparılmalıdır. Bu mənim öz fikrimdir. Dəfələrlə Dini Eksperlət Məclisinin üzvlərinə və digərlərinə bunu demişəm. Mən nəzarəti sevirəm. Nəzarətdən qaçışdan çox narazıyam. Mənim özümə də nə qədər çox nəzarət etsələr, daha çox sevinərəm. Yəni heç zaman nəzarətdən narahatlıq keçirmirəm, sevinirəm ki, nəzarət baş tutur. Əlbəttə, əgər kimsə bir şey bilsə, gərək Dini Eksperlət Məclisinə məlumat versin. Onlar şübhəsiz, araşdıracaqlar.

**Nihilizm**

**Sual**: İstərdim xülasə olaraq müasir dünyadakı nihilizm məsələsi və bu daxili təmayülün vətəni barədə fikrinizi bilim.

**Cavab**: Nihilizm puçluğa meyldir. Puçluğa meyl isə yanlış bir şeydir. Əlbəttə, bu məktəb Qərbin maddi həyatının məhsullarındandır. Yəni mənəvi boşluq və yoxsulluq əsasən, gəncləri puçluğa çəkir. Bu, günümüzə aid deyil, gənclik dövründən bu cərəyan mənim yadımdadır. O zaman “The Beatles” adlı bir qrup vardı. Saçlarını xüsusi tərzdə bəzəyir və müsiqi ifa edirdilər. Bir müddət əvvəl xarici jurnalların birində şəkillərini gördüm, qocalmışdılar. Qərb qarşısında özünü itirmiş və Qərbə vurulmuş ölkələrdə bəziləri bunların yolunu tutdular. Mən əvvəlki toplantıda dedim ki, bəzilərinin tərcümə zövqləri və tərcümə təfəkkürləri var. Belə bir xalq ancaq başqalarını yamsılayır. Bizim gənclik dövrümüzdə bu qrup bir

Avropa ölkəsində meydana çıxan kimi burada bəzi gənclərin tez saçlarını onlar kimi bəzədiyini gördük. Bu, pis bir şeydir, vətəni də maddi və mənəviyyatsız Qərb dünyasıdır. Əgər cəmiyyətimizdə nihilizmin olmasını istəmiriksə, mənəviyyatı gücləndirməliyik. Xoşbəxtlikdən, bu gün bu var və mən təkidlə tövsiyə edirəm ki, bunun zəifləməsinə imkan verməyin.

**İslahat, yoxsulluq, fəsad və ayrıseçkilik**

**Sual**: Haçandır çıxışlarınızda yoxsulluqdan, fəsaddan və ayrıseçkillikdən danışırsınız, onların aradan qaldırılmasını istəyirsiniz. Mənim sualım budur ki, bu amillər yalnız son üç il yarımda əmələ gəlmişdir və xalq ondan qabaq rifah içində olmuşdur? Əgər cavab mənfidirsə, bəs nə üçün quruculuq dövründə bu barədə bir söz deməmisiniz?

**Cavab**: Bu dostumuz yəqin ki, çox gəncdir. Çünki bizim söhətlərimiz haqda məlumatlı olsaydı, görərdi ki, biz həmişə bunun üzərində təkidlə dayanmışıq. Mən indi oturduğum bu yerdə qabaqkı möhtərəm prezidentin ikinci prezidentliyinin təsdiq edilməsi günündə yeni bir təbəqənin inkişafına dair xəbərdarlıq edib, bu sahələrdə çox mühüm məqamları xatırlatmışam. Bu xatırlatmalar və xəbərdarlıqlar həmişə olub, təkcə son illərə aid deyil. Bu günlərdə yoxsulluq, fəsad və ayrıseçkiliyin aradan qaldırılması şüarını irəli sürməklə nəzərimdə olan əsaslı məqamı bəyan etmək istədim. O da budur ki, ölkədə islahat şüarı nə quruluşu, nə İslamı, nə konstitusiyanı, nə hökuməti, nə prezidenti, nə rəhbəri, nə nazirləri qəbul edən, heç kəsi qəbul etməyən, yəni ümumi olaraq quruluşu qəbul etməyən bir qrup şəxsin əlində siyasi bir vasitə oldu. Onlar islahat sözünü tərif etmədən bundan siyasi məqsədləri üçün istifadə etməyə başladılar. Mən dedim ki, ölkədə islahat çox vacib bir işdir, hamı islahata diqqət yetirməlidir. Hər üç hakimiyyət orqanı islahat üçün çalışmalıdır. Mən demək istədim ki, islahat birinci növbədə bu üç məsələdir. Mən əslində, islahat üçün aydın bir məfhum irəli sürdüm və onlar da inkar edə bilmədilər. Kim yoxsulluğun, ayrıseçkiliyin, fəsadın sona çatmasını lazım bilmir, yaxud bunu islahat hesab etmir?! Amma hər halda, belə islahat üçün səy göstərmirlər. Qaranlıq və naməlum bir istək üçün həmişə siyasi tufan yaradıb xalqı oyan-buyana çəkirlər, universiteti hədəf seçirlər. Bu, düzgündürmü?! Mən istədim ki, bu işə istiqamət verilsin. Xoşbəxtlikdən, elə də oldu. Mən bu məsələni irəli sürməzdən qabaq və irəli sürəndən sonra üç hakimiyyət başçılarını buraya çağırdım və onlarla söhbət etdim. Onlar söz verdilər ki, proqram hazırlasınlar. Proqram da hazıladılar və indi

işləri görməkdədirlər. Bu baxımdan, mən çoxdan və keçmiş hökumət dövründən xüsusən fəsad, ayrıseçkilik və yoxsulluq sahəsində məmurların işləməsini istəmişəm. Onlar da bizim istəyimizə uyğun olaraq yoxsulluğa qarşı layihə hazırlayıblar. Lakin keçmiş iqtidarın ömrü buna çatmadı, həmin layihəni indiki iqtidar tənzimlədi, bəzi mərhələlərini icra etdi. Sizin bu bir neçə gündə eşitdiyiniz iş məsələsi də onun davamıdır. Çünki işsizlik problemi çox mühüm problemdir.

**Ruhani məmurlar və yoxsulluq məsələsi**

**Sual**: Düşünmürsünüzmü, dövlətin ruhani məmurlarının işi yoxsulluğun yaranmasına səbəb olmuşdur?

**Cavab**: Əgər məqsəd ruhanilərin iş başında olduqları üçün yoxsulluğun yaranmasıdırsa, xeyr, bu, səhvdir. İndi bu işlə məşğul olan sahələrin heç birinə ruhanilər başçılıq etmirlər. Son bir neçə ildə İqtisadiyyat və maliyyə, Ticarət, Əkinçilik, Sənaye, Əmək və kooperasiya nazirlərinin hansı ruhani olmuşdur?! İstər indiki, istər qabaqkı hökumətlərdə prezident olan ruhanilər də xalqın seçdiyi şəxslər olmuşlar. Buna görə, iqtisadi iş və planlaşdırmalarda ümumiyyətlə, ruhanilərin müdaxiləsi olmayıb ki, yoxsulluğu onlarla bağlayaq. Xeyr, bu başqa məsələlərə aiddir. Cəmiyyətdə yoxsulluğu törədən amillər çoxdur. Faydalı və planlı iş, həmçinin lazımi qayğı digər cərəyanların təsiri altında olmuşdur. Quruculuq dövründə ölkənin quruculuq məsələsi əhəmiyyət kəsb etdi və əsas oldu. Əlbəttə, quruculuq yoxsulluğun aradan qaldırılması demək deyil. Quruculuq yeni imkanların yaradılması və iqtisadiyyatın rövnəqləndirilməsi deməkdir. Yoxsulluğun da cəmiyyətin müəyyən bir hissəsində qalması mümkündür. Düzdür, əgər quruculuq davam etdirilsə, tədricən yoxsulluğu da aradan qaldıracaq. Amma quruculuq dərhal yoxsulluğu aradan qaldırmaq demək deyil. Quruculuq davam etdirilməlidir. Əgər davam etdirilsə, yoxsulluq da tədricən aradan qalxacaq.

**"Proqram hazırlamaq hökumətlərin işidir!"**

**Sual**:Yoxsulluq və fəsadla mübarizə üçün proqramınız varmı?

**Cavab**: Rəhbərin vəzifəsi belə məsələlərə dair proqram hazırlamaq deyil. Lakin bəli, proqramım var. Mən özüm icra etmək istəsəydim, bunun üçün etimadlı və məqbul proqramlarım var. Onları məmurlara da demişəm. Lazım və mümkün olan həddə və düşündüyüm istiqamətlərdə onlara yol da göstərmişəm; həm qabaqkı, həm də indiki iqtidara. Görülən

işlərin çoxu xoşbəxtlikdən, həmin düşüncə köməklərinin nəticəsidir. Bu elə bir şey deyil ki, hökumətlər onu qəbul etməsinlər; özləri də qəbul edirlər, dəfələrlə də demişlər. Bəli, mənim proqramım var, lakin proqramı nizamlamaq hökumətlərin işidir. Hər bir hökumət öz icra siyasətləri çərçivəsində proqram hazırlayır və icra edir. Biz də kömək etməliyik və edirik.

**Sual**: Parlamentin universitetdə polisin olmasına dair son qərarı barədə fikriniz nədir?

**Cavab**: Mən parlamentin belə qərarları barədə fikir bildirmirəm. Çünki fikir bildirmək hansısa tərəf üçün məhdudiyyət yaradır. Hansı qanun qəbul olunsa, mən onu müdafiə edəcəyəm.

**Sual**: Bir vaxtlar Politexnik universiteti sənayə və elm baxımından ölkənin ən yaxşı universitetləri sırasında idi. Lakin haçandır universitetin acınacaqlı vəziyyəti – tədqiqat imkanları, internet və digər məsələlər tələbələrin elmi hərəkəti üçün şəraiti çətinləşdirmişdir.

**Cavab**: Mən söhbətimin əvvəlində bunu xatırlatdım. Universitetin məsul şəxsləri bu məsələni mənə bildirdilər. Onların nigaranlıqları da bunlardır. Mən ümidvaram ki, bu problemləri tədricən həll etsinlər. Amma mən bu məktubu yazan dostumuzdan gileylənirəm. Bilirsiniz ki, "Politexnik" sözü Avropa mənşəli sözdür. Nə üçün onu "Əmir Kəbir adına sənaye universiteti" sözünə tərcih etməliyik?! Xahiş edirəm ki, bundan sonra Əmir Kəbir universiteti desinlər.

Sualların çoxu qaldı. Onların həcmi çox idi. Bəzilərini də sonradan gətirdilər. Günorta azanı verildi. Qalan suallara cavab vermək üçün macal olmadığına görə sizdən üzr istəyirəm. Allah hamınıza müvəffəqiyyət versin! Pak və işıqlı qəlbləriniz doğru yolda günbəgün inkişaf etsin, öz ölkəniz, əziz eviniz və sonrakı nəsillər üçün çox yaxşı və aydın gələcək qura, İslamı ucaldasınız. Çünki siz İslamın övladlarısınız.

Allahın salamı və rəhməti olsun sizə!

## İslam hakimiyyətinin problemləri[52]

Bismillahir-Rəhmanir-Rəhim.

**Peyğəmbər və gənclər**

Mömin, aktiv və ölkənin ümidləri olan gənclərlə görüşə bildiyimə görə çox şadam. Bizim məclisimiz çox şirin və səfalı məclisdir. Siz gənclərin işıqlı ürəkləri Allahın mərhəmət, uğur və lütfkarlığının əks olunduğu mərkəzdir. Həmişə belə olmuşdur. Tarix boyu harada uca haqq bayrağı görürsünüzsə, orada imanlı bir gənc təbəqə görəcəksiniz. Bundan başqa cür ola bilməz. Buyurdu: "Gənclərə əhəmiyyətli yanaşın"[53]. Əziz Peyğəmbərimizin özü də Mədinədə və peyğəmbərliyinin əvvəllərində Məkkədə bu ağır yükü bəzi gənclərin çiyninə qoydu. Yoxsa bu yük mənzil başına çatmazdı. Peyğəmbər həm gənclərin mənəvi qüvvəsini, məqsədini, həvəsini, haqqı qəbul edən ruhiyyəsini və dünyəvi bağlılıqlarının azlığını, həm də fiziki güc və bacarıqlarını böyük işlərə hazırlayırdı. Peyğəmbərlər tərəfindən aydın, möhkəm və əsaslı iman bilgisi bu işıqlı ürəklərə və bu ruhlara təlqin olunduqda elə bir şey əmələ gəlir ki, ona "zübər əl-hədid"[54], yəni polad parçaları deyilir. Bu gün də İslam dünyasının böyük hərəkəti şübhəsiz, İslamın məntiqli və əsaslı təfəkkürü və düzgün dini bilgilərlə yanaşı olan həmin aktiv ruhiyyəyə, həvəskar duyğulara, pak və nurlu qəlblərə ehtiyaclıdır. Bizdə bu var. Siz görürsünüz ki, dünyada milyardlarla dollar pul xərclənir ki, növbənöv siyasi təbliğat və hiylələrlə, təhlükəsizlik və kəşfiyyat üsulları, çirkin mafiya yolları ilə bizim cəmiyyətimizin və həmçinin ayağa qalxmış, oyanmış müsəlman cəmiyyətlərinin gənclərinə təsir göstərsinlər. Bu həmin rola dair ayıq olduqlarına görədir. Bizim inqilabımızı gənclər qalib etdilər. Müharibəni də gənclər idarə etdilər. Ölkəni də gənclər inkişaf etdirməli, bu inqilabı səmərəyə çatdırmalıdırlar.

**Dəyərli bir iş**

Sizin keçdiyiniz İslam və dini təlim kursu Allahın lütfü ilə ölkəmizdə mövcud olan çox dəyərli işlərdəndir. Sizin hər biriniz ayrı-ayrılıqda bir kapitalsınız. Mənim əzizlərim! Bu kapitalı qoruyun.

---

[52] Vilayət layihəsində iştirak edən tələbələrlə görüşdə çıxışı: 28 avqust 2001.

[53] "Qürb əl-əsnad", səh. 128.

[54] "Sifat əş-şiə", səh. 108.

**İslam hakimiyyətinin problemləri**

İslam dövləti qurmaq bir analitikin, nəzəriyyəçinin və ideoloqun gözünə uzaqdan sadə iş kimi görünə bilər. Lakin əməldə və beynəlxalq təsirlərinə görə, çox çətin və böyük işdir. Necə ki, bu, ideal formaya çatdıqda hegemon güclərin bir əsr din və İslam əleyhinə təbliğatından təsirli olur. Maddi və fiziki güc sahiblərinin mürəkkəb tilsimini qırıb dünyada çoxlu insanları nicat sahilinə çıxara bilər. Belə bir dövləti və cəmiyyəti davam etdirmək, düzgün yönəltmək olduqca çətindir. Bu çətinliklərin, problemlərin, düşmənçiliklərin və əngəllərin qarşısında kim dayanıb sinəsini sipər etmək və mübarizə paltarı geyinmək istəyir? Bu, uyğun hərəkətin motoru olaraq, yalnız mömin, gənc və həvəskar bir təbəqənin əlindən gələ bilər.

**İslamla düşmənlik**

İslam yalnız kitablarda və bir qrup insanın beynində bir nəzəriyyə kimi mövcud olduqca onunla düşmənlik etmək çox ciddi deyil, yalnız kitab və müzakirə həddində olur. Lakin İslam təfəkkürü əməl sahəsinə nə qədər müdaxilə etsə, onunla düşmənliklər də bir o qədər sərtləşir və davam edir. Gərək əməl meydanına girmiş və həyata keçmiş İslam özünü o qədər möhkəm və güclü etsin ki, daha onunla bacara bilmədiklərini görsünlər, reallığı qəbul edib təslim olsunlar. Siz tarix boyu peyğəmbərlərə qarşı düşmənlikləri təsəvvür edin. Əvvəla, bu düşmənliklər hansı amilə qarşı olmuşdur? İkincisi isə bu düşmənlikləri kimlər edirdilər?

**Peyğəmbərlərin tağut və mütriflərlə mübarizəsi**

Mübarizə aparılan amil tövhid və ədalət nidası və peyğəmbərlərin əlində olan həqiqət bayrağı idi. Peyğəmbərlər dəvətlərinə başlayan gündən insanları, onlara qarşı bütün vücudları ilə mübarizə aparan şəxslərin əlindən xilas etmək istəyirdilər. Quran onları tanıtdırmışdır: tağutlar və mütriflər. Tağutlar hər hansı bir yolla insanların boynuna minməyi bacaran, onlara hökmranlıq edən, öz iradələrini zorla yeridən şəxslərdir. Mütriflər isə zalım, tağut və şeytan hakimiyyəti sayəsində ciblərini doldurub özləri üçün yaxşı yaşayış düzəldən, xalqın mallarını qarət edən zadəganlar və zalım sərvətlilərdir. Peyğəmbər işə tək başladı; yalnız öz dili, məntiqi və iradəsilə. Eyni zamanda bu qədər düşmənlik etdilər. İndi siz təsəvvür edin, peyğəmbər, yaxud onun sözünün təbliğatçıları əməli işə girişib bir dövlət qura və Allaha məxsus olan hakimiyyəti onun iradəsi istiqamətində idarə etsələr, dünyanın hər bir nöqtəsindən düşmənlik və

ədavətlər onlara sarı axışar. Bu gün dünyada bu, baş tutur. Peyğəmbərlərə qarşı çıxan bu mütriflər, yəni sərvət toplayanlar, bu gün beynəlxalq soyğunçuluqla məşğul olan böyük ticarət kompaniyaları özlərini İslam Respublikası qarşısında hiss edirlər. Buna haqları var. Onlar hiss edirlər ki, İslam Respublikasının əlində olan peyğəmbərlər bayrağı ilə çıxılmaz bir böhrana düşüblər.

**Peyğəmbərlərin yolunun davamı**

İslam Respublikası peyğəmbərlərin sözünü deyir, peyğəmbərlərin niyyətindədir. Məhz buna görə bu gün həmin düşmənlər onun qarşısında dayanmışlar. Bu, zəruri və təbii bir şeydir. İslam Respublikasının qüdrətlə bu yolla hərəkət etdiyi qədər o da davam edəcək. Bəli, bu quruluş öz bacarığını göstərməklə və vəd etdiyi amalları həyata keçirməklə bədxahların dilini qısaldana, dünya xalqlarının ictimai rəyini bu həqiqətə razı edənə qədər bu problem bu formada davam edəcək. O zaman isə düşmənlərin təslim olmaqdan başqa çarəsi qalmayacaq. Yəni bir iş görə bilməyəcəklər. Düzdür, öz düşmənliklərini davam etdirəcəklər, lakin haqqın qüdrəti, ilahi quruluşun möhkəmliyi və ilahi dəlilin ictimai rəyə aydınlığı düşmənin imkanlarının kəskin şəkildə azalmasına səbəb olacaq. Biz İslam Respublikasını bu zirvəyə çatdırmalıyıq.

**İslam Respublikasının fəaliyyətinin iki cəhəti**

Bu gün İslam Respublikasının bir-birinə bağlı olan iki cəhətdə böyük işlərə ehtiyacı var. Biri budur ki, ölkənin idarəsində öz bacarığını göstərsin. Bu bizim həmişə dövlət məmurlarından istədiymizdir; yəni fəsadla mübarizə aparsınlar, Allahın qanunlarını qüvvə və qüdrətlə icra etsinlər, cəmiyyətin İslama uyğun idarəsi üçün düzgün üsullar seçsinlər, qanun pozuntularına göz yummasınlar, günahkarla, təcavüzkarla, qanunu pozanla, şəxsi marağını güdənlə və soyğunçu ilə razılaşmasınlar, öhdələrinə düşən böyük icra məsuliyyətini yerinə yetirməkdə səhlənkarlıq etməsinlər, işlərini yaxşı, möhkəm və ixlasla yerinə yetirsinlər, qanun pozuntularına qarşı tədbir görsünlər. Buna əsasən, birinci problemə qarşı tədbir quruluşun məmurlarının işidir.

İslam Respiblikasının qarşısında duran və birinci problemlə sıx bağlı olan ikinci problem İslam quruluşunun ümumi təfəkkür və istiqaməti barədədir. Bu gün dünya təbliğatının böyük bir hissəsi İslamın hakimiyyət barədə bilgilərini şübhə altına salmağa sərf olunur. Dəfələrlə yetərsizliyi görünmüş və işlək olmadığı göstərilmiş öz zehni nailiyyətlərini müsəlman

cəmiyyətlərinin, o cümlədən bizim xalqımızın və məmurlarımızın beyninə yeritmək istəyirlər.

**Təsir altına düşməmək**

Mən dünən burada olan yüksək rütbəli dövlət məmurlarına dedim ki, dualarda Allahdan istənilən Kərimə dövlətin xüsusiyyətlərindən biri təsir altına düşməməkdir. Təsir altına düşməməyin mənası bu deyil ki, insan bir sözü düşüncə ilə araşdırıb fikirləşməsin. Mənası budur ki, düşmən tərəfindən bir səhvin qəti qəbul olunmasına və uyğun ajiotajına təslim olmasın. Bu gün dünyanın ən inkişaf etmiş elmi sahələrindən biri ictimai əlaqələrdir: təbliğat, səhv bir fikrin düzgün göstərilməsi və yeridilməsi, onu qəbul etməyən hər kəsin təhqir edilməsi. Düşmən bu işdə uğur qazansa, quruluşun ümumi istiqamətini dəyişdirə bilər. Bunun təhlükəsi daha çoxdur. Burada daha xırdalıqlardan söhbət getmir. Bu gün düşmənlər öz təbliğatlarında heç bir məntiq və dəlil olmadan İslamın aydın düşüncə əsasları üzərinə sual işarəsi qoyurlar.

**İslam hakimiyyəti haqda tarixi təcrübə**

Müsəlmanlar İslamdan xəbəri olmayan siyasi hökumət və rejimlərə şahid olmuşdur. Onlar müsəlman adı ilə yaşayırdılar, amma İslam təkcə ibadət ocaqlarında, ürəklərinin, evlərinin və ibadətgahlarının bir küncündə idi, cəmiyyətdə deyildi. Nə hakim İslam hakimi idi, nə siyasət İslama əsaslanırdı, nə müharibə və sülh İslam qaydasında idi. Hər bir şey cahiliyyət üslubunda idi. Siz Abbasilər, yaxud Mərvanilər dövlətinə baxın, adları müsəlmandır, lakin əməlləri qeyri-İslam dövlətlərinin əməlidir. Digər rejimlərdə mövcud olan hegemonluq, zülm, soyğunçuluq, haramlara, günah və fəsadlara düçar olmaq onlarda da vardı. Bunun harası İslamdır? Müsəlmanlar əsrlər boyu bunu sınaqdan keçirdilər, hətta bizim dövrümüzdə dünyanın bəzi yerlərində İslam adı ilə dövlətlər qurulmuşdur. İndi dünyada İran İslam Respublikasından başqa adlarında rəsmi olaraq “İslam Respublikası” sözü olan iki dövlət mövcuddur. Mən adlarını çəkmək istəmirəm. İnqilabdan qabaq deyirdilər ki, bir Afrika ölkəsi İslam Respublikasıdır. Mənsə deyirdim deyin ki, filan yerin Amerika İslamı Respublikası. Həqiqətən də belə idi. ABŞ-ın oturtduğu bir qrup İslam adından istifadə edirdi. Hal-hazırda ilk dəfə olaraq meyarları İslama əsaslanan bir dövlət qurulmuşdur. Quruluşun yüksək postlarının şərti ədalət, günahdan və dünyagirlikdən uzaq olmaqdır. Bu dövlətdə şəriət

qanunları tətbiq olunur. İlk dəfədir ki, bu formada bir İslam dövləti qurulmuşdur. Bəllidir ki, ona qarşı düşmənlik edəcəklər.

**Düşmənlərin ilk işi**

Düşmənlərin ilk mühüm işi bu təməlləri sarsıtmaqdır. Deyirlər ki, ümumiyyətlə, din cəmiyyəti idarə edə bilər, yoxsa yox? Bu, "ümumiyyətlə, din düzgündür, yoxsa yox?" ifadəsinin başqa bir formasıdır. Gizli və münafiqcəsinə bir ifadədir. Əslində isə belədir: Ümumiyyətlə, dinin missiyası var, yoxsa yox? Dinin özü deyir ki, mən xalqın dünya və axirətini idarə etməyə hazıram. Əgər kimsə dinin cəmiyyətlərin siyasi, ictimai və iqtisadi işlərini idarə edə bilməsində şəkk etsə, dinin həqiqətini inkar etmişdir. Hansı dinin belə bir iddiası yoxdur?: "Biz hər bir peyğəmbəri, ancaq ona Allahın iznilə itaət olunsun deyə, göndərdik"[55]. Həmçinin buyurur: "Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (möcüzələrlə) göndərdik ki, insanlar ədalətlə rəftar etsinlər"[56]. Din ümumiyyətlə, bunun üçündür ki, cəmiyyəti nizam-intizama salsın, insanları ictimai formada idarə etsin. Bunu inkar edən şəxs əslində, bütün dini inkar etmişdir. Bu ümumi istiqamətin dəyişdirilməsidir. Bu, İslam Respublikasının düşmənlərinin çox planlı və dəqiq proqramlarındandır. Həm bu sahədə işləyirlər, həm praktik sahədə. Bu məsələlər eynilə erkən İslam dövründə də olmuşdur. Siz mübarək Əhzab surəsinə baxın. Allah-Taala bu surənin ilk üç ayəsində Peyğəmbərə müraciətlə belə deyir: "Ey Peyğəmbər! Allahdan qorx, kafirlərə və münafiqlərə itaət etmə!"[57] Ey Peyğəmbər, məbada öhdəndə olan ehtiyatı bir anlıq əldən verəsən, kafir və münafiqlərin gözlədiyi istiqamətə yönələsən. Peyğəmbərin təqvası adi insanların təqvası ilə müqayisəyə gəlməz. Bəşər dünyasının rəhbəri olan Peyğəmbərin təqvası qiyamətə qədər adi insanların təqvası ilə müqayisəedilməsi deyil. Lakin Allah-Taala ona bu vəzifəni tapşırır: "Təqvalı ol!" Allah peyğəmbərindən çəkinmir. Ey Peyğəmbər, sənin getməli olduğun xətt və vəzifə budur: "Rəbbindən sənə vəhy olunana (Qurana) tabe ol. Allah, şübhəsiz ki, nə etdiklərinizdən xəbərdardır!"[58] Allahın məktəbini, xəttini və təlimlərini, insanların idarəsi üçün sənin ixtiyarına qoyulanları diqqətlə və ehtiyatla qoru, onlara əməl et. Sonrakı ayədə sözügedən düşmənlikləri proqnoz verərək mənəvi kömək kimi

---

[55] Nisa/64.
[56] Hədid/25.
[57] Əhzab/1.
[58] Əhzab/2.

peyğəmbərinə bir iş tapşırır: "Allaha təvəkkül et! Allahın (sənə) vəkil olması kifayət edər!"[59] Bəllidir ki, bu iş düşmənlikləri təhrik edir, sənin əleyhinə çıxırlar. Buna görə də, Allaha təvəkkül et, Ona arxalan. Bil ki, Allah işin vasitələrini sənin ixtiyarında qoymuşdur.

Təvəkkülün mənası bəllidir. Təvəkkülün düzgün mənası bəzi insanların beynində olanla çox fərqlənir. Təvəkkül bu deyil ki, işi Allaha tapşır və özün get yat. Xeyr, işin vasitələri sənin ixtiyarındadır. Bu yolda qüvvən, fikrin, səyin, ağlın, düşüncən və böyük insani qüvvələrin vardır. Düşmənlə mübarizədə mövcud olan üsulları tap, onlardan istifadə et və bil ki, Allah-Taala sənə kömək edəcək.

**Gənclərin sayıqlığı**

Bu gün bizim əziz gənclərimiz hər iki sahədə sayıq olmalıdırlar. Allaha şükür olsun ki, siz bu toplantı, sinif və kursları təşkil etməklə bu sahədə addım atmısınız. Mən siz əziz gənclər üçün bu yay proqramlarını təşkil edən bütün şəxslərə, xüsusən, doğrudan da səmərəli bir şəxsiyyət olan cənab Misbaha, eləcə də bu sahədə əməkdaşlıq edən, dərs, təlim və nəsihətlərdə iştirak edən digər qardaşlara səmimi təşəkkürümü bildirirəm.

Mənim əzizlərim! Ruh və düşüncə baxımından özünüzü sonu çox gözəl olan bir hərəkət üçün hazırlayın. Düşüncənizi öyrənməklə, fikirləşməklə, nəzər sahiblərinə müraciət etməklə, təcrübəli və ixtisaslı müəllimlərin fikirlərindən bəhrələnməklə gücləndirin. Öz ruhunuzu və canınızı Allahla əlaqə ilə, zikrlə, Quranda təfəkkürlə və Allahın nəzərinə təvəssüllə paklandırın.

Allaha şükür olsun ki, sizin ürəkləriniz nurlu, pakdır. Bu, Allahın rəhmətini cəlb edən səbəblərdən biridir. Bu gün günorta namazından sonra gözəl səslə oxunan duada belə deyildi: "İlahi, Səndən Sənin rəhmətini cəlb edən amilləri istəyirəm”. Şübhəsiz, Allahın rəhmətini cəlb edən amillərdən biri sizin bu toplantılarınızdır. Ümidvarıq Allah-Taala əməllərinizi ən yaxşı şəkildə qəbul etsin! Sizin hər birinizi parlaq bir ulduz kimi parlayıb dərs, iş və ailə mühitinizə yol göstərən etsin!

Allahın salamı və rəhməti olsun sizə!

---

[59] Nisa/81.

## Nümayəndəlik orqanı[60]

Bismillahir-Rəhmanir-Rəhim.

**İslamın strateji qaydası: təbliğat**

Allah-Taala Öz hidayət, nəzər, uğur və yardımını ölkənin mühüm işlərindən biri ilə məşğul olan siz əziz qardaş və bacılara şamil etsin! Bu iş iki cəhətə görə mühüm işlərdəndir. Biri budur ki, xüsusən gənclər arasında dini təbliğat ən mühüm işlərdən, Quranın əsas təlimlərindəndir. Dinin bütün insanlar və bütün bəşəriyyət üçün olmasının şərti onu təbliğ etməkdir. Təbliğ, çatdırmaq, bəyan etmək, açıqlamaq İslamın strateji qaydasıdır. İnsanın deməkdən və izah etməkdən başqa üsullara əl atmalı olduğunu düşündüyü yerlər zərurət hallarına aiddir, birinci iş deməkdir. Bəzən insan araşdırdıqda görür ki, mövcud nöqsanlar adətən, deməməkdən qaynaqlanan düyünlərdən irəli gəlir. İnsan üçün nə isə qaranlıq qalır, olur bir düyün. Sonra başqa düyünlər ona əlavə olunur və bir problemə çevrilir. Dünyadakı bütün mənfi hallar ya cahillikdəndir, ya şeytani həvəslərin qələbəsindən. Bunların hər ikisi təbliğ və izah etmənin zəifliyinə görədir. Deməli, xüsusən də gənclər, özü də elm və təhsillə məşğul olan gənclər arasında təbliğat aparmaq çox mühümdür. Və siz bu işlə məşğulsunuz.

**Universitetin əhəmiyyəti**

İkinci cəhət universitetlərin əhəmiyyətidir. Universitet ölkə üçün həmişə əhəmiyyətə malikdir. Bu gün onun əhəmiyyəti müxtəlif səbəblərə görə daha böyükdür. Çünki bizim işgüzar, peşəkar, alim, zəhmətkeş, məqsədli və mömin insan resursuna ehtiyacımız var və bunlar əsasən, universitetdə yetişirlər. Deməli, ölkə universitetlərində işləmək, İslam maarifini izah etmək, yaxşı əxlaq aşılamaq ən mühüm işlərdəndir. Bu işi siz görürsünüz. Buna əsasən, universitetlərdə nümayəndəlik orqanı adlanan bu təşkilat səmərəli, ehtiyac duyulan, çox faydalı və vacib təşkilatlardan biridir. Həm sizin özünüz bu təşkilatı qorumağa və təkmilləşdirməyə borclusunuz, həm də universitetlərin məsul şəxsləri, Təhsil nazirliyində, Səhiyyə nazirliyində və digər yerlərdə çalışan aidiyyətli şəxslər sizə kömək etməyə borcludurlar.

---

[60] Fəqih rəhbərin universitetlərdəki nümayəndələri ilə görüşdə çıxışı: 17 sentyabr 2001.

**Əməl və rəftarla hidayət**

Burada vacib məsələ əməl və rəftarla hidayətdən ibarətdir. Bizdə məşhur söz var: "İnsanları dilinizdən qeyrisi ilə dəvət edin". Əməl və davranışla dəvət etməyə çox əhəmiyyət vermək lazımdır. Əməllə dəvət həm gözəl davranışla dəvət deməkdir, yəni gözəl əxlaqla, mömin və təqvalı davranışla, ağıllı rəftarla, həm də elmdən qaynaqlanan söz və rəftardır. Buna görə elmi şəkildə danışmaq və əməl etmək lazımdır. Pəhləvi rejimində uzun illər ruhanilik əleyhinə çalışanlar ruhaniliyi həm elmi, həm də əməl, əxlaq və rəftar baxımından vururdular. Onların təbliğat yönümləri belə idi. Mübarizə, İslam və inqilab hərəkatı qarşıya çıxanda ruhanilik hər iki sahədə bacarığını göstərdi və insanları cəlb etdi. Əgər bu bacarıq sual altına düşsə, yenidən təbliğat başlanmasa da, keçmiş təsirlərin dirçəlməsinə səbəb olacaq.

**Din dərsləri**

Mühüm məsələ din dərsləridir. Nə dini kitablara, nə də din dərsinin müəllimlərinə əhəmiyyətsiz yanaşmaq olar. Bu kitablar tez-tez gözdən keçirilməli, dövrün ehtiyacı olan və cəmiyyətdə günbəgün qarşıya çıxan fikir və məsələlər onda əks olunmalıdır. Bu kitablar yaxşı tənzim olunsa, ən yaxşı təbliğatdır. Elə bir iş görmək lazımdır ki, din sinfi elm, məlumat, fəallıq, zövq və məhəbbət sinfi olsun. Bu da həm kitabların öhdəsinə düşür, həm də din müəllimlərinin.

**Tələbələrlə əlaqə**

Tələbələr sizin övladlarınız kimidirlər. Onlarla övladınız kimi rəftar etməlisiniz. Üsul fərqləri ola bilər, lakin düşüncə və əqidə baxımından İslamın və quruluşun təməllərinə etidaqlıdırlarsa, yaxşıdır. Ata kimi məhəbbətli, yönəldici, yumşaq və həmçinin səmimi münasibət qurulmalıdır. Əgər işlərində nöqsan olsa, aradan qaldırılsın və xatırladılsın. Əgər işlərində gözəl və yaxşı cəhətlər olsa, həvəsləndirilsinlər və onlara kömək olunsun. Çalışılsın ki, tələbə təşkilatları özlərinin təşkilat formalarını qorusalar da, ürəkləri bir-birinə yaxınlaşsın. Xüsusən də quruluşun əsas təməl və prinsiplərində bir-birinə yaxın olsunlar və qarşı-qarşıya dayanmasınlar. Düzdür, bu təşkilatlarda daha dərin və daha artıq həvəslə, maraqla çalışanlar də var. Şübhəsiz ki, bu, təqdirəlayiqdir.

Mən tələbələr arasında fəaliyyət göstərən dostlara dəfələrlə demişəm ki, tələbələrin dərdinə şərik olmalısınız. Dəfələrlə demişəm ki, ruhaninin

əsas yeri olan məsciddə gözəl qayda yaratmaq olar. Gəlib problemlərini sizinlə bir araya qoysunlar, ürək sözlərini desinlər.

**11 sentyabr hadisəsi**

Son zamanlar ABŞ-ın bəzi şəhərlərində baş verən hadisələr barədə də bir neçə cümlə deyim. İslamın baxışına uyğun olaraq, - bu bizim qəti fikrimizdir - biz insanların öldürülməsini qınayırıq. Fərqi yoxdur ki, bu ümumi qətl Hiroşima və Naqasakida baş versin, Qana, Səbra və Şətilada, yoxsa Deyr Yasində, Bosniyada, Kosovada, İraqda və yaxud Nyu-Yorkda və Vaşinqtonda. Bunun da fərqi yoxdur ki, qətl üçün istifadə edilən alət atom bombası olsun, raket olsun, mikrob cihazları, kimyəvi silahlar, atom tullantılarından düzəldilmiş silahlar olsun, sərnişin, yoxsa hərbi təyyarə ilə atılsın. Fərqi yoxdur ki, bu qətliamları planlayan şəxslər dövlətlər, təşkilatlar olsunlar, yaxud nüfuzlu insanlar. Fərqi yoxdur ki, öldürülənlər müsəlman, məsihi olsunlar, yaxud digər dindən. Harada və kimin vasitəsi ilə görülsə də, iş faciəli işdir. Bu işlər hər yerdə rədd edilməlidir, ayrıseçkilik salınmamalıdır. Biz həm bu işi qınayırıq, həm də amerikalıların Hiroşimada etdiyini. Əgər Allah eləməmiş, oxşar hadisəni Əfqanıstanda etsələr, onu da qınayarıq. İnsanlar belə hücumlardan qorunmalıdırlar. Bu gün sionizm rejimi ötən 50 ildə olduğu kimi, Fələstin daxilində belə faciələr törətməklə məşğuldur. Biz bunların hamısını qınayırıq.

**ABŞ-ın zəifliyi**

İkinci məsələ budur ki, özünü beynəlmiləl dünya kəndinin xəndxudalığına namizəd etmiş ABŞ kimi bir supergücün və dövlətin daxili təhlükəsizliyi bu qədər zəifdir. Bu güclər dünyada göstərdikləri geniş fəaliyyətlərlə yanaşı, belə zəif nöqtələrə də malikdirlər. ABŞ kimi bir ölkə ən təhlükəli terroristlərin sığınacaq yeridir. O ölkənin səması bir saat, bəlkə daha çox terrorçuların ixtiyarında olub. Səbəb nədir? Bu gün amerikalıların dünyada işlətdiyi və böyük güclərin həmişə malik olduğu ekspansionist üsullar kənara qoyulsaydı, öz işləri və xalqlarının zəruri məsələləri ilə məşğul olsaydılar, öz hüdudları ilə qane olsaydılar, bu hadisələr qarşıya çıxmazdı. Bu gün də Amerika Birləşmiş Ştatları dövləti Pakistana girməklə və Əfqanıstana ordu yeritməklə bu bölgədə, Qafqazda və Orta Asiyada öz gücünü genişləndirmək fikrində olsa, onun üçün daha artıq problemlər yaranacaq. Dövlətlərin artıqtamahlığı təkcə zəif xalq və ölkələr üçün yox, onların özləri üçün də belə böyük tələfatlar gətirəcək.

**Müsəlmanlara hücum**

Bu sahədə başqa bir məqam budur: Təəssüf ki, ABŞ-ın informasiya şəbəkələri ictimai rəyi müsəlmanlar əleyhinə sərt təhrik etmişlər. Bu, çox çirkin və bəzən faciə ilə sonuclanan işlərdən biridir. Nə üçün müsəlmanları ittiham edirlər?! Müsəlmanlar bütün dünyada və hətta ABŞ-ın özündə də çox zaman zülmə məruz qalırlar. Avropada Bosniya-Herseqovina və Kosova müsəlmanları, Orta Şərqdə Fələstin və Livan müsəlmanları, həmçinin dünyanın digər yerlərində olan müsəlmanlar həmişə zülmə məruz qalmışlar. Nə üçün ittiham barmağını müsəlmanlara sarı uzadırlar?! Müsəlman ümmətin bu hadisədə heç bir günahı yoxdur. Müsəlman olan bir nəfəri ittiham edirlər ki, bu işi o törətmişdir. Biz bilmirik ki, onun işidir, yoxsa yox. Onun işi ola da bilər, olmaya da bilər. Amma olsa belə, bir fərdin işi necə hamıya aid edilə bilər?! Oxşar hadisələrdə belə bir faciəni yaradan şəxs hansısa bir məzhəbin ardıcılı olsa, o məzhəbin bütün ardıcıllarını ittiham edirlər?! Bu gün sionistlər ən çirkin faciələri və ən qəddar cinayətləri açıq-aşkar törədirlər. Bunun üçün dünya yəhudilərini ittiham etmək olar?! Xeyr, bizim öz ölkəmizdə də çoxlu yəhudilər var, digər vətəndaşlar kimi yaşayırlar. Nə üçün bir fərdin işini - o da hələ düzgün olsa - digər müsəlmanlara şamil edirlər?! Bizim fikrimizcə, ABŞ-da və bəzi ölkələrdə İslam və müsəlmanlar əleyhinə başlanan kampaniya sionistlərin işidir. İnformasiya resursları onların əlindədir, İslamdan zərbə görən, İslamın barışmaz düşməni olan da onlardır.

**Əfqanıstan məsələsi**

Başqa bir məsələ Əfqanıstan məsələsidir. Bu məzlum xalq yenidən tapdanmalıdır?! 25 ildir əfqanlar ağır problemlər içindədirlər. Bir gün Sovet, bir gün daxili müharibələr, bu gün də yeni bir amil Əfqanıstan xalqının həyatına daxil olur və bu məzlum xalqı müharibənin ağır zərbələri altında qoyur. Yalnız buna görə ki, bu işi bir neçə nəfərin törətməsi ehtimal olunur. Bu da məlum deyil. Çoxlu dəlillər göstərir ki, ABŞ-da baş verən hadisənin əsas rejissor və müəllifləri başqaları olmuşlar. İşin növü sionistlərin xislət və xarakterləri ilə uyğundur. İndi tutaq ki, bilərəkdən, yaxud bilməyərəkdən bir neçə müsəlmanı da öz cəhənnəm şəbəkələrinə qoşmuşlar. Bu ittiham düzgün olsa da, bu, Əfqanıstan xalqını təzyiq və zülm altına salmağa dəlil ola bilməz.

**11 Sentyabrdan bəhrələnən sionistlər**

Başqa bir məsələ budur ki, bu gün bu hadisədən ən çox sui-istifadəni sionistlər edirlər. Bu hadisə baş verən kimi sionistlər məzlum və yaralı Fələstin torpaqlarında öz işlərini sərtləşdirdilər. Dünya da sakitcə tamaşa edir. Nə üçün dünya bu qədər zülmə dözür?! Məgər bu və ya digər yerlərdə insanların öldürülməsi fərqli olur?! Məgər Fələstində öldürülənlərin ailələri Nyu-Yorkda tələf olanların ailələrindən fərqlənirlər?! Hər ikisi ailədir, həyat yoldaşı və uşaqdır, hamısı müsibət görmüşlər. Matəmdə olan insanların dərdinə şərik olmaq dünyanın hər yerində vacib məsələdir. Nə üçün dünya törədilən bu faciələr qarşısında sakitdir? Sionistlər dünyanın ictimai rəyinin bir məsələ ilə məşğul olduğunu görüb fürsətdən sui-istifadə edir. İşğal olunmuş torpaqlarda Fələstin xalqına qarşı apardığı əməliyyatlara öz etiraz səsini açıq-aşkar elan etmək müsəlmanların borcudur.

**Ədalətsizlik**

Bu gün dünyada baş verən bu problemlər ədalətsizlik və ayrıseçkilikdən qaynaqlanır. Ədalətsizliyin və ayrıseçkiliyin mənşəyi də şeytani həvəslərin, Allahdan uzaq olan maddi və fiziki güc sahiblərinin hakim olmasıdır. Şeytani məqsədlər insanı o vaxt ələ ala bilər ki, insan Allahdan uzaqlaşsın. Bu gün dünyanın köhnə dərdlərinin və bəşəriyyətin yaralarının dərmanı Allaha qayıdışdır. Allaha tərəf qayıtmalıdırlar. Bəşəriyyət Allahla, imanla və mənəviyyatla barışmalıdır. Bu, insanları bilərəkdən mənəviyyatdan, imandan və Allaha diqqətdən uzaqlaşdıranların işinin nəticəsidir; bir gün dünyanın bu tərəfində baş verir, bir gün o tərəfində. Allaha və mənəviyyata qayıtmalıdırlar. Bəşəriyyətin dərdlərinin əlacı Allaha yönəlmə, imana qayıdışdır. Bu gün pak vicdanlı şəxslər bu boşluğu dünyanın hər yerində hiss edirlər. Dünyanın maddi düzənində yalqız qalmış insanlar təzyiq altındadırlar. Bu gün dünyanın hər yerində insanlar Allaha ehtiyaclı olduqlarını hiss edirlər. Allaha dəvət harada olsa, insanları özünə cəlb edəcək. Allaha imanlı olan və Allaha imanın qədrini bilən şəxslər bu işə günbəgün daha artıq diqqət yetirməlidirlər.

İlahi! Məhəmməd və Ali-Məhəmməd (s) haqqına, dünyanın bütün xalqlarının qəlbində həqiqi və parlaq imanı günbəgün gücləndir!

İlahi! İnsanları bu problemlərdən xilas et!

İlahi! Bədxahların şərini onların özlərinə qaytar!

İlahi! Dünyanın bütün məzlumlarını Öz himayən altında saxla!

Allahın salamı və rəhməti olsun sizə!

## Sənaye və elmin birləşdirilməsi[61]

Bismillahir-Rəhmanir-Rəhim.

Mənim üçün çox gözəl bir məclisdir. Əvvəla, universitetdə olmaq mənim üçün həmişə sevindiricidir. Hətta həyəcanın az olduğu qocalıq yaşlarında da universitet məni vəcdə gətirir; xüsusən də alimlər, bəşərin və elm axtarışında olan nəsillərin müəllimləri, peyğəmbərlərin yükünü çiyninə götürmüş şəxslər arasında olanda. Mən sizi bu xüsusiyyətlərə sahib bilirəm.

**İsfahan universitetləri barədə**

İsfahan universiteti, İsfahan sənaye universiteti və İsfahan tibb universiteti barədə çoxlu sözlər eşitmiş və oxumuşam. Bu üç universitetin bəzi məsul şəxsləri mənim yanıma gəlib universitet barədə bəzi mətləblər söyləyiblər. Deməyə söz çoxdur. Əlbəttə, siz mənim sözlərimin çoxunu eşitmisiniz. Əgər sizə hər gün yeni bir sözümüzün olduğunu iddia etsək, yalan deməmişik.

Biz bu toplantını adətdən fərqli keçirmək istəyirik. Dedik ki, biz sevgimizi və hörmətimizi bildirək; indi siz bacı və qardaşlara dediyim həddə. Sonra isə siz danışın, biz dinləyək. Məclisin nizam-intizamlı olması üçün gərək saat müəyyənləşdirək. Bir nəfər də aparıcı olsun. Əgər Doktor Ahunmənişin özü zəhməti qəbul etsə, yaxşı olar. Mikrofonu içərilərə aparın ki, danışmaq istəyən dostlar danışsınlar, lakin qısa olsun.

Dürr kiçik və azdır, lakin mənalı və qiymətlidir. Bacardığınız qədər girişi azaldın; adətən belə məclislərdə deyilən bəzi girişləri, sevgi, hörmət, xoşgəldin və sair... Mən bunları artıqlaması qəbul etdim, sizin lütfünüzü aldım. Siz məsələnin məğzini deyin. Buna bənzər məclislər qabaq da olub. İndi ən azı, iki ramazan ayıdır ki, bir gün iftardan qabaqkı vaxtı belə bir məclis üçün ayırıram. Tehran universitetlərinin müəllim və alimlərindən 700-800 nəfər bizim hüseyniyyəmizə gəlirlər. Mən oturub onların buyruqlarını dinləyirəm. Bəzən axırda qısa izah verməm mümkündür. Lakin deyilənlər yazılır və onun bəzi hissələri icra üçün idarəyə verilir. Bəzi başqa universitetlərlə də belə toplantımız olub. Biz Əmir Kəbir universitetinə gedəndə orada da müəllimlər sözlərini dedilər və biz eşitdik. İndi siz əzizlərin sözlərini dinləməyə hazırıq.

---

[61] İsfahan universitetlərinin Elmi Şura üzvləri və müəllimləri ilə görüşdə çıxışı: 31 oktyabr 2001.

## İsfahan vilayətinin müxtəlif universitetlərinin müəllim və alimlərinin çıxışlarını dinlədikdən sonra rəhbərin son sözü

Bismillahir-Rəhmanir-Rəhim.

**Rəhbərlə universitet mənsublarının dərdləşməsi**

Əvvəla, demək istəyirəm ki, siz dostların sözlərindən doğrudan da bəhrələndim. Baxmayaraq ki, deyilənlərin çoxu mənim ürəyimdə olan gileylərdir. Onları dəfələrlə məmurlara, burada iştirak edən cənab Doktor Müinə, cənab prezidentə və Mədəni İnqilab Ali Şurasına demişəm. Ya giley və nigaranlıq kimi deyilib və ya fikir mübadiləsi kimi. Lakin mən iki başqa faydanı götürdüm. Bəzi məsələlər mənim üçün o qədər də aydın deyildi. Onlar aydınlaşdı və mən bəzi qeydlər götürdüm. İkinci fayda mənim üçün hər şeydən ucadır. O da budur ki, İsfahan müəllimlərinin əksəriyyətində işə ciddilik və qayğıkeşlik hissi gördüm.

**Böyük və mühüm işlərə diqqət**

Məni nigaran edən odur ki, müəllimin və ya müdirin borclu olduğu iş olsun, amma onun əsas qüvvəsi həmin işə sərf olunmasın. Mən nazirlərin partiyalarda iştirakı barədə bir cümlə deyim. Bəzi nazirlər doğrudan da dindar, fəal və şəriət hökmlərində bizim nəzərimizə uyğun əməl etməkdə israrlıdırlar. Nazirlər dedilər ki, biz həm də partiya üzvüyük, bu haqda fikriniz nədir? Mən dedim ki, burada iki meyar var: Biri budur ki, sizin səmərəli vaxtınız əsla partiyaya sərf olunmamalıdır. Əgər partiya sizi belə qəbul etmirsə, etməsin, lakin səmərəli vaxtınız nazirliyə aiddir. Nazirin iş saatı səhər 7-dən gunorta 1-ə qədər, yaxud hətta ikinövbəli vaxt da deyil. Nazir həddində bir məmurun vaxtı 24 saatdır. İnqilabın əvvəlindən bəlkə də 1986-87-ci illərə qədər mənim cümə günümlə şənbə günüm arasında fərq olmayıb. Cümə günü də cümə axşamı, şənbə, çərşənbə günləri kimi bir gün olub; özü də günəş çıxmazdan gecənin yarısına qədər. Bizim cümə günümüzlə qeyri günlərin fərqi yalnız bunda idi ki, mən cümə namazından qayıtdıqdan sonra evdə nahar edir və bir saat yarım yatırdım. Həftədə bir dəfə olan bu yuxu çox şirin idi. Bu səviyyədə olan məmurlar belə işləməlidirlər. Əlbəttə, mən bütün məmurlara tövsiyə edirəm ki, öz istirahətləri, ailə işləri ilə məşğul olmaq,

xanımları və uşaqlarının qayğısına qalmaq üçün vaxt ayırsınlar. Bu da zəruri vəzifələrdəndir. Amma icazə vermirik ki, onların fəaliyyəti, düşüncə, yaradıcılıq və fiziki qüvvələri və vaxtları bu böyük işdən başqa bir şeyə sərf olunsun. İkincisi də budur ki, dedik kadr siyasətində partiyanın sifarişinə əməl etməyə haqqınız yoxdur. Əgər bu iki şərtə əməl etsəniz, gedin partiya üzvü olun, bizim nəzərimizcə, heç bir problemi yoxdur. Bunu ona görə dedim ki, Elmi Şura üzvü, universitet rektoru, kafedra müdiri olan sizlərin fəaliyyətinizin bu işlər üzərində mərkəzləşdiyini görmək məni ürəkdən sevindirir. Mən doğrudan da Allaha və sizə minnətdaram ki, bu gecə məndə bu fikir yarandı.

**Ümidsizlik**

Mənim əzizlərim! Biz çox geri qalmışıq. Dediyiniz bu məsələlərin səbəbi indiyədək geri qalmağımızdır. Düzdür, onların bəzisi üçün qaneedici dəlil göstərmək olar, bəzisi üçün isə yox. Dostların biri məyusluq sözü işlətdi. Mənim bu sözdən çox acığım gəlir, ona nifrət edirəm. Əsla məyusluq ərtafında dolaşmayın. Nə üçün məyus olmalıyıq?! Nədən məyus olmalıyıq?! Pəhləvi dövründə heç bir amil elm və düşüncənin inkişafına kömək, sizin istədiyiniz və dediyiniz düşüncə sahələrində iştirak və düşüncə yaratmaq istiqamətində deyildi. Sizlərdən o illərdə universitetdə dərs oxuyanlar, yaxud haradasa dərs deyənlər mənim nə dediyimi yaxşı anlayırlar. O zaman mənim universitetlə əlaqəm vardı; həm müəllimlərlə, həm də tələbələrlə. Nə etdiklərini anlayır və görürdüm: məhz tərcümə, təlqin; düşüncə tərcümə düşüncəsi, adət tərcümə adəti, üslub tərcümə üslubu idi. O dövrdə bəziləri bütün əlverişsiz şəraitə rəğmən, peyda oldular, bir tərəfdən işə başladılar və yaxşı nəticələr əldə etdilər. İndi belə bir şəraitdə necə məyus olmaq olar?! Ağır məsuliyyətə malik və xidmətçiniz olan mən sizi doğrudan da böyük bilirəm. Bu sahədə sizinlə həmfikirəm, prezident də həmfikirdir, qərar seçməli olan məmurlar da. Cənab Doktor Müin tədqiqat məsələsi, tədqiqat büdcəsi və bu kimi məsələlər barədə mənimlə dəfələrlə söhbət edib. Mən də onunla söhbət və təkid etmişəm. Lakin o məndən istəyirdi ki, büdcəni təyin edən qurumlara bu barədə tövsiyə verim. Əlbəttə, o bilir ki, budcə işinə mənim heç bir müdaxiləm yoxdur. Adətim deyil ki, hökumətin işinə qarışıb hansısa büdcənin üstündən xətt çəkim, yaxud ona əlavə edim. Mən bunu kökündən yanlış və zərərli bilirəm. Əgər düzgün gedişin əksinə olduğunu görsəm, ola bilsin, hansısa bir işin qarşısını alım, amma müdaxilə etmirəm.

Yalnız çox müstəsna və zəruri hallarda bu, mümkündür. Eyni zamanda tədqiqat büdcəsi barədə tövsiyə vermişəm.

**Sənaye və elmin birləşdirilməsi**

Dostların iki-üçü burada texnologiya və sənayenin elmə birləşdirilməsindən danışdı. Mən cənab Haşimi Rəfsəncaninin prezidentlik dövründə ona demişdim. Təəssüf ki, o zaman həyata keçmədi. Sonra cənab Xatəmiyə dedim. O, yaxşı qarşıladı, amma bir müddətdən sonra maraqlanıb gördüm ki, lazımi iş görülməmişdir. Deyəsən, anlaşılmazlıq olmuşdu. Cənab Xatəmi mənimlə məsləhətləşdi və dedi ki, sənaye ilə universitetin birləşdirilməsini Doktor İbtikara – o, dünyadan köçdü, Allah rəhmət eləsin! - tapşırsam, necə olar. Mən dedim ki, yaxşıdır. O mənim yanıma gəldi. Ondan soruşdum ki, cənab Xatəminin sizinlə danışacağı mövzu nə yerdədir və sonra öz fikirləşdiyimi dedim. O çox sevindi və dedi ki, əgər sizin dediyiniz iş baş tutsa, elm və sənayedə dönüş yaranacaq. Doğrudan da elədir. Əgər yumşaq və münasib bir rəzə ölkədə elmin bu iki tayını təmtəraqsız olaraq bir-birinə birləşdirə bilsə, həm elmdə sıçrayış yaranacaq, həm də sənaye yetimlikdən çıxacaq. Yəni onlar bir-birini tamamlayacaqlar.

**Tələblərdə ciddilik**

Siz bu işlərə qarşı ciddiliyinizi əldən verməyin. Məndən də tələb edin. Düzdür, bu mənim işim deyil. Sizin mənimlə bir arada qoyduğunuz bu məsələlərin 90 faizi hökumətə adi məsələlərdir. Bəziləri Təhsil nazirliyinə, bəziləri isə İdarəçilik və Planlaşdırma Komitəsinə aiddir, rəhbərlik vəzifələri üçün tərif olunan işlərdən deyil. Lakin mənə də deyin, yaxşıdır, çünki biz sizin istəklərinizi bir tövsiyə kimi aidiyyətli məmura çatdıracağıq və bunlarla məşğul olacaqlar.

**Qayğıkeş iş**

Mənim əzizlərim! Çalışın. Məmləkətin qayğıkeş, bir-birinə tam bağlı, məqsədli, davamlı işə ehtiyacı var. Əgər ortada buraxılsa, faydası olmaz. İndi sizin probleminiz universitetlərdir. Çox yaxşı, düz də deyirsiniz. Universitetin elmi, əxlaqı, İslama uyğunlaşması, lazım olan büdcələr, universitetin səviyyəsini qaldırmaq üçün layihələr və deyilən digər məsələlərin hamısı əhəmiyyətlidir. Bunları məndən də istəyin, nazirdən də, prezidentdən də. Təkrar-təkrar istəyin ki, biz də maraqlanaq.

**İnkişaf şəraiti**

Ölkənin bütün sahələrində inkişafa şərait var. İndi biz bir yerdə oturmuşuq. Yaxşı fikir versəniz, bu, inkişafın şəraitlərindəndir. Biz indi burada xərcsiz-filansız ikisaatlıq bir seminar keçirdik. Digər seminarlara isə çoxlu xərc çəkilir. Siz alim və mütəxəssislər öz fikirlərinizi dəlillə bəyan edirsiniz, mən də nəticə çıxarıram. Əlbəttə, bu işlər görüləcək. Mən indi də burada iştirak edən dəftərxana işçilərinə təkidlə deyirəm ki, danışan dostların sözlərini eynilə qeyd edib bir broşür hazırlayın. Bu broşürü həm mənə verin, həm cənab prezidentə, həm burada olan cənab Doktor Müinə. Sonra biz bu işlərlə bağlı hansı iş görüldüyü barədə məlumat istəyəcəyik. Əlbəttə, onların bəzisinin araşdırmaya ehtiyacı var.

**Siyasi yönəlmə - böyük bəla**

Başqa bir kiçik sözüm də var. Bu sevindirici və gözəl vəziyyəti pozan ən zərərli amillərdən biri təəssüf ki, sizin bəzilərinizdə olan siyasi yönəlmələrdir. Düzdür, bu məclisdə anlaşılmadı, amma mənim xəbərim var. Mənim həm Şərif universitetindən xəbərim var, həm İsfahan sənaye universitetindən, həm İsfahan dövlət universitetindən, həm İsfahan tibb universitetindən. Təəssüf ki, siyasi maraqlar sizin bəzilərinizin canına düşüb işləməyə, düzgün düşünməyə və düzgün anlamağa qoymayan ən böyük bəlalardan biridir. Burada qardaşların biri dedi ki, universtet belə olur, elə olur, beyinlər filan olurlar. Ona görə ki, Xürrəmabad universitetinə hücum olunmuşdur, futbol hadisələrində universitetin məsul şəxslərindən bir neçəsinin oğlu, yaxud başqa bir qrup həbs ediliblər və s. Bunun sizin universitetdəki dərsinizlə nə əlaqəsi var?! Nə üçün sizin işinizə aidiyyəti olmayan siyasi məsələləri işinizə daxil edirsiniz?! Bəli, siyasi adamın belə işlərdən xoşu gəlir. Mən siyasiyəm və sizin çoxlarınızın ömrü qədər səhnədə olmuşam. Bilirəm ki, siyasətin hansı maraq və hərəkətləri var. Lakin bu sizin işinizə zərərlidir. İslam Respublikasına lazım olan iş müəyyən məsələlər üzərində diqqəti artırmaq və ona çarə qılmaqdır. Problemlərin çarəsi yalnız bu ola bilər, lakin sinifdə cinah təmayüllərini yaymaq əsl məqsədddən uzaqlaşmaqdır.

**Ən əziz təbəqə**

Bunu bilin, komplimentsiz deyirəm ki, siz bu kiçik xidmətçinin gözündə ən əziz təbəqələrdənsiniz. Biz sizi uca tuturuq. İnşallah, həmişə və günbəgün daha uca olub işlərinizi yerinə yetirə biləsiniz. Və biz növbəti dəfə sizi görəndə bu problemlərin bəziləri aradan qalxmış olsun.

Mən də bir qədər uzun söhbət etdim. Ürəyim istəyirdi ki, sizi az narahat edim. İnşallah, hamınız şad və müvəffəq olasınız. Əgər sizin çevrənizdən hansısa dostlar bu məclisdə iştirak etməyiblərsə, bizim salamımızı və hörmətimizi onlara da çatdırın.

Allahın salamı və rəhməti olsun sizə!

## Ölkənin elmi gələcəyinin əsasları[62]

Bismillahir-Rəhmanir-Rəhim.

Əziz gənclər! Çox xoş gəlmisiniz. Sizin iştirak etdiyiniz məclisin mənəvi gözəlliyi və xüsusi səfası olur. Dostların, cənab Quminin, həmçinin buraya toplaşanların nümayəndə və sözçüsü kimi çıxış edən tələbələrin çıxışlarından bəhrələndim.

Demək olar ki, bu məclis də müstəsna məclislərdən biridir. Çünki siz həm gəncsiniz, həm tələbəsiniz, həm də bir çoxlarınız universitet nümunələrisiniz; yəni ya ölkənin və dünyanın elmi olimpiadalarının qaliblərisiniz, ya tələbə təşkilatlarının fəalları, ya Quran hafizləri və ya universitetə yüksək balla qəbul olanlar.

**Elmi ehkamçılıqdan çəkinmək**

Mən həm də buna görə sevinirəm ki, neçə ildir bizim təkrar etdiyimiz, istər universitetlərdə müəllim və tələbələrlə, istər dövlət iclaslarında məmurlar və aidiyyətli nazirlərlə görüşlərdə elm və universitetlərlə bağlı dediyimiz əsas sözlər indi bizim gənclərimizin dilindən deyilir. Bu tələblər ümumi istək halına düşəndə həyata keçməsi asanlaşır. Siz elə bilməyin ki, bunların çoxu bir sərəncam və fərmanla bitir. Xeyr, fərmanın, sərəncamın, hətta qanunun da nəticələri məhduddur. Geniş və tükənməz nəticəsi olan amil insanların inam və etiqadlarıdır. Məhz buna görədir ki, tarixin əvvəlindən indiyədək ən uzunömürlü qanun, təşkilat və qurumlar dini qanun, təşkilat və cəmiyyətlər olmuşdur. Çox gözəl. Bizim bugünkü gənclərimiz də dinə etiqadlıdırlar. Bu etiqad öz təsirini buraxacaq və onları məqsədə yaxınlaşdıracaq. Bəli, mənim də fikrim budur. Həm cənab Quminin dediyi elmi ehkamçılıqdan çəkinmək, elm və düşüncə yeniliyinə diqqət, bilik səviyyəsinin və elm istehsalının yüksəldilməsi, həm də gənclərimizin dediyi elm mərkəzləri üçün elmli və səlahiyyətli idarəçilər, elmi öncüllər, fəal, görkəmli və seçilmiş beyinlərə diqqətlə bağlı məsələlər mühüm məsələlərdir.

**Rəhbərin duası**

Mən bu sözlərin yanında birbaşa sizinlə əlaqədar olan, universitet və tələbə təşkilatları ilə söhbətlərimdə dediyim məsələyə toxunacağam. Siz

[62] İftar mərasimindən sonra tələbələrlə görüşdə çıxışı: 29 noyabr 2001.

mənim övladlarımsınız. Bu az və məhdud vaxt ərzində mənim ən çox sözüm sizin xoşbəxtliyiniz üçün ata arzusu ola bilər. İnşallah, Allah-Taala Öz uğur və səadət lütfünü sizə nəsib etsin! Bundan sonrakı uzun həyatınız boyu bu ölkədə və bütün dünyada çox şey görəcəksiniz, biz isə görməyəcəyik. Allah sizə uzun ömür, səadət, hərtərəfli xoşbəxtlik, uğur və Onu razı salacaq yolda hərəkət neməti versin! Bu mənim sizin barənizdə ən mühüm arzu və duamdır. Mən bütün gəncləri hər gün və hər gecə dua edirəm.

**İstedadların tələf olması**

Sizinlə əlaqədar olan bir-iki məsələ var. Bizim elmi gələcək və bununla bağlı dediklərimiz iki-üç təmələ əsaslanır. Əsas şərtlərdən biri sizin dərs oxumanızdır. Siz gərək dərs oxuyasınız. İstedadlı və əlaçı olmaq bir imtiyazdır, amma çoxlu istedadlar tələf olur. Bu istedadların tələf olması həmişə imkan yaratmayanların təqsiri deyil. Çox zaman istedad sahibinin özünün pis idarəçiliyinə və pis seçiminə görə belə olur. Bunu yaddan çıxarmayın. Yaxşı istedadı olan şəxs nəfsini və həvəsini elmdən üstün tutsa, istedadı öləcək. Əgər dünyagirlik, pulsevərlik, həyatın ötəri ləzzətini qazanmaq istəyi məqsədə çevrilsə, istedad nəinki faydalı olmayacaq, zərərli də olacaq.

**Parlaq istedadlar**

Bu gün dünyada bəşər həyatı və səadəti üçün bu qədər həlakedici və ziyanlı amilləri kim yaratmışdır? Məgər parlaq istedadı olmayan birisi atom bombası, təhlükəli kimyəvi maddələr istehsal edə, yaxud çox həlakedici postmodern təbliğat vasitələri, filmlər ərsəyə gətirə bilərmi?! İstedada malik olmaq zəruri olaraq onun faydalı olması demək deyil. İstedadı yönəldən amil həmişə insandan xaricdə deyil, bəzən və çox zaman özünün pis seçimidir; ya nəfs, həvəs, ehtiras, pulsevərlik, vəzifəpərəstlik və bu kimi məsələlərin təsiri altına düşür və uyğun olmayan bir insanın əlində vasitəyə çevirilir, ya da əvvəldən dərs oxumur. Çoxlarının istedadı yaxşıdır, amma dərsə həvəs göstərmir, dərs oxumurlar. Görürsünüz ki, qəbul imtahanında çox yüksək nəticə göstərmişdir, amma sonra etimadı doğrultmur, yəni istedadını işlətmir.

**Ölkənin elmi səviyyəsini yüksəltmək üçün fədakarlıq**

Mənim birinci sözüm budur. Mənim əzizlərim! İstedadlı və yaxşı gənclər! Siz öz üzərinizdə bu vəzifəni hiss edin ki, yaxşı dərs oxumalı,

bunu özünüzə vacib bir iş bilməli, dərs oxumaq və ölkənin elmi səviyyəsini yüksəltmək yolunda bəzi şeylərdən keçməlisiniz. Həmişə belədir; insan zirvəyə çatmaq istəsə, gərək bəzi şeylərdən keçsin, çətinliklərə dözsün. Hər halda, insan alpinistlik etmək, hansısa dağın zirvəsinə qalxmaq üçün gərək çətinliklərə dözsün. Bu çətinliklərə evlərində oturanlar, yaxud səhər namazdan sonra yatanlar, yaxud ümumiyyətlə, halı olmayanlar, bədənlərini piy basanlar dözmürlər. Lakin o nöqtəyə də çatmırlar. Buna əsasən, bunlar bir-birinə bağlıdır: uğur zirvəsinə çatmaq və bir qədər xoşagələn işlərdən keçmək. Deməli, birinci iş budur ki, siz həqiqətən, ciddi, həvəslə və axırda dediyimə, yəni bir növ fədakarlığa diqqətlə dərs oxuyun, ölkənin elmi səviyyəsini yüksəltməyə çalışın. Elmi təbəqə olan sizlər yaxşı alim ola bilsəniz, şübhəsiz, gələcəkdə ölkənin elmi üçün möhkəm bir bünövrə əmələ gələcək. Biz gərək öz tarixi geriliyimizi düzəldək. Bu ölkədə elm sahəsində 100 il səhlənkarlıq edilmişdir. Siz bunu düzəldə bilərsiniz.

**Beyinlərin qaçışı**

İkinci məqam beyinlərin qaçışına aiddir. Burada bu haqda danışdılar. Mən bir dəfə bir tələbə toplantısında dedim ki, bununla bağlı digərləri qədər narahatlıq keçirmirəm. Bir qrup gənc görür ki, burada onların təhsil imkanları mövcud deyil, bir imkandan istifadə edib gedir və özlərini elmi cəhətdən yetişdirir, təkmilləşdirirlər. Mən bu məsələni hamının fəryad qopardığı qədər böyük hesab etmirəm. Mühüm olan qaçışdır. Cənab Qumi gözəl ifadə işlətdi; dedi ki, insanların mühacirətini onların qaçışı ilə qarışdırmaq olmaz. Bəli, mənim sözüm də budur. Bir zaman siz elm öyrənmək üçün mühacirət edirsiniz. Məgər İslam deməyib ki, elm Çində olsa belə, gedib öyrənin?![63] Siz görün ozamankı Ərəbistan xalqının günün elm mərkəzlərindən olan Çinə səfəri nə qədər məşəqqətli idi. Bu gün heç bir ölkəyə mühacirət etmək onun onda biri qədər çətin deyil. Bununla belə, demişlər ki, gedin təhsil alın, öyrənin. Əlbəttə, siz də gedib təhsil almalı, öyrənməlisiniz. Heç kim mane olmur ki, kimsə gedib ölkəmizdə olmayan və digər yerlərdə olan laboratoriyalarda bir şey oyrənsin, amma bu, qaçış və qayıtmamaq niyyəti ilə olmamalıdır. Buradakı hər hansı çatışmazlığa görə geri dönməmək düzgün deyil. Məgər özünüz demirsinizmi "öz evimiz, öz vətənimiz"?! Bunun özü bir haqq yaradır. Siz bu bölgənin, bu torpağın, bu vətənin məhsulusunuz, buranınsınız və buraya borclusunuz. Sizin istedadınız, təhsiliniz və hər bir uğurunuz buraya aiddir. Siz bu hisslə

[63] "Vəsail əş-şiə" c. 27, səh: 27.

gedib dərs oxusanız, işləsəniz, elmi uğur qazansanız da, öz ölkənizə aid olduğunuzu, onun tarixi, mədəni və coğrafi baxımdan bəzi çətinliklərə dözməyə layiq bir yer olduğunu bilməlisiniz. Sizin vətəniniz böyük bir yer və əhəmiyyətli ölkədir, böyük tarixi, zəngin mədəniyyəti var. Ölkəniz bu gün də keçmiş əsrlər kimi əlində məşəl tuta və dünya ondan bəhrələnə bilər. Bu gün buna əlverişli imkan yaranmışdır və siz bu məşəli yandıranlardan ola bilərsiniz. Hər bir dönəmdə belə imkan yaranmır, hər bir elmi-mədəni irsdə belə çıxar olmur. Sizdə bu potensial var və bununla fəxr etməlisiniz. Bunu dəyərləndirmək, qorumaq, artırmaq, bunun uğrunda çalışmaq lazımdır. Siz də çalışmalısınız. Sizdən qabaqkı nəsillər çalışdılar, sizdən sonrakı nəsillər də inşallah, çalışacaqlar.

Allah sizi müvəffəq etsin! Allaha şükür olsun ki, sizin hamınız orucsunuz. Gənclərin iştirak etdiyi belə bir məclisdə paklıq və mənəviyyat dalğalanır. Mən də çox sevinirəm. Əlbəttə, nisbətən gərgin bir iş günündən sonra iftara yaxın bu saat söhbət etmək üçün çox da münasib vaxt deyil. Mənim də belə fikrim yox idi və yoxumdur. Bu məclis təkcə sizinlə görüş məclisidir. İstədik sizi görək və bir saat sizinlə oturaq. Dostların sözlərindən bəhrələndim. Hamınıza müvəffəqiyyət arzulayıram.

Allahın salamı və rəhməti olsun sizə!

## Universitetlərin və elmin İslama uyğunlaşması[64]

Bismillahir-Rəhmanir-Rəhim.

**Proqramlaşdırmanın yoxsulluğu**

Bir cümlə cənab Doktor Müinin haqlı olaraq dayandığı məqam barədə, bir cümlə də siz möhtərəm rektorların həssas vəzifəsinə aid deyəcəyəm. Onun dediyi və mənim də təsdiq etdiyim məsələ budur ki, bu gün elm, tədqiqat və sənaye məsələsi ilə məşğul olmaq İslam Respublikası quruluşunun ən vacib və ən təcili işlərindən biridir. Biz bu sahədə geri qalmışıq. Bu geriliyin müxtəlif cəhətlərini də dəfələrlə demişəm. Bu barədə yeni söz danışmaq istəmirəm. Bir neçə ay bundan əvvəl Əmir Kəbir universitetində, ondan qabaq da digər universitetlərdə elm və tədqiqat sahəsində proqramlaşdırmanın yoxsulluğuna dair, həmçinin elm və sənayenin birləşdirilməsi barədə öz fikirlərimi geniş surətdə dedim və demək olar ki, bu işdə sizdən kömək istədim. Yəni bu işi görməli olan mən deyiləm, sizsiniz. Biz bu sahədə quruluşun və dövlətin diqqətini əks etdiririk. Əlbəttə, təkcə sizə, yaxud Doktor Müinə deməklə kifayətlənmirik. Mən hər biri bir münasibətlə gələn parlamentə, cənab prezidentə və dövlət məmurlarına da bunu təkidlə demişəm. Lakin belə işlərin ciddi iradəyə ehtiyacı var, kəmər bağlayan lazımdır. Kəmər bağlayan isə Təhsil nazirliyi və universitetlərin idarəsinə cavabdehlik daşıyan sizlərsiniz. Bu məsələni ciddi saymaq və bununla məşğul olmaq lazımdır. Bu elə məsələlərdən deyil ki, təkrar etməklə və danışmaqla həll olunsun. Siz universitet rektorlarının toplantısını təşkil etdiniz və xüsusən bu barədə öz fikirlərinizi bölüşdünüz. Bu, yaxşı bir işdir, lakin bu fikirlərdən müəyyən təkliflər çıxarmaq, hökumətə və xüsusən də İdarəçilk və Proqramlaşdırma Komitəsinə və parlamentə vermək və bununla maraqlanmaq lazımdır ki, iş başlansın. Uzun müddətdir universitet toplumunda tədricən bu qənaət yaranıb, lakin o fikrləri icra etmək lazımdır. Məsələnin dərk, tövsiyə və bu kimi səviyyələrdə çatışmazlığı yoxdur, problemimiz bəllidir. Bu da yalnız universitetdə mümkündür. Universitetlərdə bunun yollarını tapmaq lazımdır.

**Əməlsiz şüar - mənasız söz**

---

[64] Universitet rektorları ilə görüşdə çıxışı: 29 dekabr 2001.

Bizim verdiyimiz şüarlar əməl mərhələsinə çatmasa, mənasız və məzmunsuz sözlərə çevirləcək. Dayanmadan eləcə deyək: "Elm istehsalında proqramlaşdırma dirçəlişi", yaxud "tərcümə elmindən uzaqlaşmaq". Bu sözləri desək, amma əməl etməsək, ürəkbulandırıcı və yorucu sözlərə çevriləcək və geri qayıdacaq. Bu baxımdan, işə girişmək lazımdır. Mənim fikrim budur ki, siz bacararsınız. Mənim zehnimdə bu sahədə heç bir şübhə yoxdur ki, bizim bugünkü nəslimiz - məqsədim təkcə gənc nəsil deyil, sizlər, elm və tədqiqat işlərində çalışanlar - bu bacarığa malikdir. Həm bunun üçün proqram hazırlamaq gücündədir, həm də onu son addımına qədər idarə etmək bacarığında. Allaha şükür olsun ki, sizdə bu işləri bacaran çoxlu insanlar var. Buna görə də, işə başlamaq lazımdır.

**Universitetin quruluşdakı əsas rolu**

Möhtərəm rektorlara aid məqam budur ki, universitet İslam Rerspublikası quruluşunda və onun bütün məqsədləri sistemində əsaslı bir rola malikdir. Biz universiteti bu quruluşun kənarından keçən, onunla heç bir işi olmayan bir çay kimi təsvir etmirik. Əvvəldən belə nəzərdə tutulmuşdur ki, bütün fəaliyyət sahələrində hər bir iş açıq baxışla, aydın və ayıq görüşlə baş tutsun. Bu baxımdan, universitetin rolu vardır.

**Məmurların universitetdə tədrisinin əhəmiyyəti**

Mən prezidentlik dövrümdən indiyə qədər universitet adamı olan müxtəlif nazir və məmurlara həmişə tövsiyə etmişəm ki, icra işinin yanında mütləq universitetdəki işlərini davam etdirsinlər. Yəni israrlı olmuşam ki, qərar mərkəzləri ilə ölkənin elmi çevrəsi arasında real əlaqə davam etsin. Mən hətta o zaman Baş nazirimiz cənab Mühəndis Musəviyə - əlbəttə, o zaman o, vaxt tapmadı - və digər nazirlərə təkidlə tövsiyə edirdim ki, universitetə getsinlər, dərs götürsünlər, həftədə 1-2 saat elmi mühitdə olsunlar.

**Universitetlərin və elmin İslama uyğunlaşdırılması**

Biz universitetlərin İslama uyğunlaşdırılması məsələsini irəli sürəndə buna qarşı çıxan bir qrupdan əlavə, müvafiq olan başqa bir qrup da elə bildi ki, fikrimiz universitetləri mollalaşdırmaqdır. Məqsəd bu deyil. Məqsəd odur ki, universitet sözün həqiqi mənasında özünə aid olan bütün sahələrdə İslam vəziyyətində və istiqamətində olsun. Elmin İslama uyğunlaşmasının mənası odur ki, təcrübi və digər elmlərdə İslamın nəzəri var? Xeyr, elm sahəsində İslama uyğunlaşmaq odur ki, elmi yaxşı öyrənin,

öz yerindən öyrənin və yenilik yaradın. Dediyimiz elm istehsalı, hər bir yerdən elm öyrənmək İslamın fikirləridir. Universitetin İslama uyğunlaşmasında məqsəd budur. İslama uyğunlaşma üç-dörd tələbəyə, özü də paltar geyinməkdə və bu kimi məsələlərdə aid olan bir şey deyil. Bunlar da İslama uyğunlaşmanın bir parçasıdır, amma mənası budur ki, ümumi olaraq universitetin yanaşması islamçı-inqilabçı məqsədlər istiqamətində olsun.

Sizin kimi hörmətli rektorlar ehtiyatlı olmalısınız ki, universitet bu yoldan yayınmasın. Bəziləri universiteti bu yoldan yayındırmaq istəyirlər. Onlar üçün fərqi yoxdur ki, universitetdə üç-dörd qız, yaxud oğlan İslama riayət edir, yaxud etmir. Onlar universiteti İslam məqsədlərindən və İslam quruluşunun həssas olduğu bütün məsələlərdən daşındırmaq, yayındırmaq istəyirlər. Universitetdə bunun əksinə işlər görülməlidir. Siz bu məsələni diqqətdə saxlayın. Mən bunu universitet müəlliminə deyə bilmərəm. Universitet müəlliminin öz rolu və işi var. Bu işin məsuliyyəti sizin, Təhsil nazirliyinin və aidiyyətli məmurların üzərinə düşür.

**Universitetin istiqaməti: məzlumu müdafiə**

Onlar deyirlər ki, ölkənin universitet mənsubları İslam məqsədlərinə, məzlum xalqları və Fələstin xalqını müdafiəyə etiqadlıdırlar. Çox gözəl, universitetin getdiyi istiqamət bunlar olsun. Bütün cəhətlərində, bütün keyfiyyətlərində, iş və fəaliyyətlərində universitet başçılarının çox mühüm və əsaslı, eyni zamanda zərif məsələlərindən biri budur. Ehtiyatlı olun ki, quruluşun müxalifləri universiteti sizdən oğurlamasınlar.

**Universitetlərin vəziyyətindən xəbərdar olmaq**

Mən universitetlərin daxilindən çox da xəbərsiz deyiləm. Mənim tələbələrlə əlaqəm var. İl ərzində buraya müxtəlif tələbə qrupları gəlib-gedir, danışır və məktub yazırlar. Bizim dostlarmız burada iclas keçirir, universitetlər barədə danışırlar. Buna əsasən, mən universitetlərlə əlaqədəyəm və orada nə baş verdiyini bilirəm. Bəziləri gəlib müəllimlərdən və dərslərdən gileylənirlər. Mən indi iclasda olan bəzi dostlara xüsusi məsələləri hətta bəzən dilimlə demişəm ki, misal üçün, hansısa universitetdə, kafedrada, yaxud fakültədə bir müəllim nə demişdir. Mən universitetlərdə nə baş verdiyindən xəbərdaram və hiss edirəm ki, onları sizin əlinizdən çıxarmaq üçün böyük siyasət yürüdülür. Universitetlərdə sizin ürək yandırdığınız, əhəmiyyət verdiyiniz, əsas bildiyiniz, insanların

yetişib müxtəlif adlarla ümumi hərəkət yaratmasını istədiyiniz məqsədlərin tam əksinə işlər görülür.

**Universitet mənsublarının işinin əhəmiyyətli**

Hər halda, biz dua edirik, çünki sizin işiniz doğrudan da çətindir. Baxmayaraq ki, mən indiyə qədər universitet rektoru olmamışam və sizin peşənizi sınaqdan keçirməmişəm. Amma beləcə baxanda işin çox çətin, çox əhəmiyyətli və həssas olduğunu anlayıram. Allah sizə uğur bəxş etsin, yardım etsin ki, bu işi bacardıqca yaxşı yerinə yetirəsiniz!

Bu toplantını təşkil edən dostlara da təşəkkür edirəm; cənab Doktor Müinə, cənab Əlizadəyə və digər dostlara. Elə edin ki, bu toplantı yalnız oturmaq, danışmaq və qalxmaq olmasın. Söz və fikirləri doğrudan da həyata keçirin, icra edin, Allah da kömək edəcək.

Allahın salamı və rəhməti olsun sizə!